Nemət maqnitofonu söndürüb öz otağına qayıtdı. Soyunub yerinə girdi. Yuxuladı.

Yuxu gördü.

Gördü ki, böyük bir dənizin sahilindədir. Sahil bomboşdur. Dəniz uzandıqca uzanır.

Sahil sapsarıdır. Sarı qumlar.

Dəniz gömgöydür. Ləpəsiz.

Ancaq birdən gördü ki, dənizin, göy dənizin lap, lap uzağında nə isə ağ bir şey görünür: ağ liman.

Ağ... Ağ...

Ağappaq. Və bu ağ limanda qırmızı gəmilər dayanıb. Qırmızı... Qırmızı...

Qıpqırmızı...

1965
Bakı – Kislovodsk



Birinci fəsil

Bu vüsala yuxu əhvali demək mümkün idi,
Əgər olsaydı yuxu dideyi-giryanimizə.*

...amma qəfilcən sükut çökdü. Yuxunun seyrək toranlığı içində Zaur, hətta bir qədər təəccübləndi də. Axı necə oldu ki, böyük otelin bütün hay-küyü, yad, özgədilli danışıqların həmirtisi, haradansa, çox uzaqlardan eşidilən musiqi sədaları (saksafon, royal, zərb alətləri çalırdılar), liftin hərəkəti-bütün başqa səslər – qəfilcən qeyb oldu və bütün bu tanış səslərlə birlikdə okeanın da uğultusu kəsildi...

Gecəyarıdan keçmişdi. Vaxt cədvəli, adamların yatıb-durma məqamları bütün dünyada təqribən eyni cürdür və bu cədvəlin hökmü insanların icad etdikləri maşınların, mexanizmlərin, alətlərin səsləriylə bərabər təbiətin möhtəşəm xilqəti – okeanın da səsini qısmışdı elə bil.

Yuxunun yapışqantək çiriş horrasında (buraların havası kimiydi bu horra) çapalayıb ayıqlığa çıxmağa cəhd edərkən Zaur düşünürdü: yəqin, Firəngiz otağın pəncərəsini örtüb, vəssalam: səskeçirməz pəncərələr dişarıdakı bütün səsləri, küyləri, danışıq-həmirtiləri eşidilməzləşdirib, Zaurun yarıyuxulu-yarıoyaq şüurundan kənar edib.

Elədir ki, var, qu desən qulaq tutulan cingiltili sükutdan sonra otaq həm də qaranlığa qərq oldu; Firəngiz pəncərəni bağlayıb işığı da keçirtdi. Zaur örtülü göz qapaqları arasından qaranlığın müxtəlif mərhələlərini duyurdu – əvvəlcə otaq alaqaranlıq oldu – vannanın açıq qapısından kvadrat şəklində işıq şüləyi düşürdü döşəməyə. Qapı bağlanandan sonra otağa güclə sezilən ətir kimi – gecə çırağının zoif şöləsi yayıldı. Firəngiz bu çırağı da söndürdü və o zaman ətraf qaranlıq içində həll oldu.

Zaur ağır-ağır göz qapaqlarını qaldırdı, otağın qatran kimi qatı qaranlığında bir an gerçəklik hissini itirdi – bilmədi haradır bura, hardadır özü? Ancaq bir an. Bir an sonra gözləri zil qaranlıqda heç nəyi seçib ayırmasa da artıq harda olduğunu dəqiq dərk edirdi – bilirdi ki, bu otaq otelin nömrəsidir, indi gecədir və uzun məsafələrdən, uçuşdan, hərəkətdən, müxtəlif yad lövhələrdən calaq olunmuş gecə-gündüz bitib, ömrünü yeni bir gecə-gündüzə təhvil verib. Bu təhvil-təslim də-

[1] Epiqraflar Füzulinin "Leyli və Məcnun"undan və "Divan"ından alınmışdır.

qiqələri Zaurun gözünün çimirini almaq üçün qısaca mürgü döydüyü anlara düşüb. İndi isə gecəyarını ötüb – təqvimin başqa tarixidir. Amma nə tarix, nə təqvim? Moskvadan Afrikaya on bir saatlıq uçuş ərzində-onlar Avropanın, Aralıq dənizinin, Saxaranın üstündən keçmişdilər – bütün vaxt-zaman anlayışları qarışıq düşmüş və Zaurgilin ömrünə üç saat əlavə olunmuşdu. Bakıyla Moskva arasındakı bir saatlıq fərqi də bunun üstünə gəlsən – ömürlərindən dörd saatlıq hədiyyə almışdılar. Doğrudur, bu hədiyyəni qaytarmaq lazım gələcəkdi – üç saatını buradan Moskvaya uçanda, bir saatını da Moskvadan Bakıya qayıdanda...

Yer kürəmiz zaman zolaqlarına bölünüb, Qərbdən Şərqə getdikcə *hər zolaqda bir saat irəli düşürsən. Moskvada saat on bir olanda.* Bakıda on ikidir... Daima üzü Qərbə doğru gedəsən, elə bir sürətlə ki, bir saat içində bir vaxt zolağından o birinə keçəsən – hamısında da, məsələn, saat on bir olsun? Vaxtı bu sayaq aldatmaq mümkündürmü?

Adamın ağlına nə qəribə fikirlər gəlir. Fantastika! Halbuki ən böyük fantastika elə real gerçəklikdir, bax, elə məsələn, onların bugünkü günü: zarafat gəlməsin sənə, dünyanın o biri başına gəlib çıxıblar. Afrikada, Dakar şəhərindədirlər. 17 mərtəbəli "Enqor" otelindədirlər və bu otel Atlantik okeanının əlli metrliyindədir...

Bu son üç günün təəssüratı, məsafə ölçüləri, məkan dəyişkənliyi də ağlasığmaz bir gerçəklik idi... Əlbəttə, hər bir şey şüurla dəqiq izah olunurdu, amma, hər halda beyinə sığışdırmaq zor idi ki, cəmisi on beş saat bundan qabaq Moskvadaydılar. Moskvada qar yağırdı, onları Sverdlov meydanından Şeremetyevo aeroportuna aparan avtobusun pəncərələri buz bağlamışdı. On bir saatlıq uçuşdan sonra isə təyyarə Dakarda yerə endi və onlar trapa çıxanda sifətlərini sanki odlu bir nəfəs qarsıdı – Afrikanın nəfəsi. Bu qəribə bir nəfəs idi, Afrika torpağında hər şeyə çökmüşdü; elə bil, havada da, yemək-içməkdə də duyulurdu... Bu həm ətir, qoxu, iy idi, həm dad-tam... Müəyyən bitkilərləmanioka, araxis – onlardan alınan yağlarlamı bağlıydı – bu qoxu, tam, ya okeanın törəmələrinə – balıqlarla, *yosunlarlamı? Kim bilir...* Amma bu ağlasığmaz dəhşətli isti – adamın sanki bədənini əridib paltarına yapışdıran bu isti də Afrika idi, şirintəhər iy-dad da Afrika idi, aeroportda ilkin gördükləri adamlar da – göyümtülə çalan zil qara bənizli zəncilər də...

Adamı çaşdıran təbiət mənzərələriydi. Bəzən, illah da axşamçağı, ala-toranlıqda adamsız sahələr – ağaclar, otlar, yol Abşeron peyzaclarını andırırdı. Uzaqdan ləpələrin uğultusu və cırcıramaların səsi gəlirdi,

fikirlərə dalıb yolla gedirdin və birdən diksinirdin: belə tanış "Abşeron yoluyla" uzun Afrika paltarı geymiş qıvrımsaç zənci qadınları addımlayırdılar. Qıvrıcıq saçları qısa-qısa hörüklərə hörülüb, başlarında iri əmmaməyə bənzər bir sarıq. Bu qədər tanış mənzərənin, belə tanış səslərin fonunda tamam başqa bir xalqın, başqa irqin, başqa dünyanın adamlarını görmək zehni sarsıdırdı...

Otelin qabağında okean sahili də qəribə təsir bağışlayırdı: bütün çimərlik boyu bir-birindən müəyyən məsafələrdə direklər basdırılmışdı. Uzaqdan qəbiristanlığa oxşayırdı bura. Eyni boylu-biçimli əsgər məzarlarına... Kimləri basdırıblar bu çimərlikdə – dənizdə batanlarımı? Yox, bu direklər sərhəd direkləriydi – çimərliyin ayrı-ayrı sahələri "Enqor" otelinin ayrı-ayrı nömrələrinə mənsub idi: bu nömrələrin sakinlərinə... Sahil qarış-qarış parçalanmış, bölünmüş, paylanmışdı, okean isə sərhədsiz, azad idi...

Üç gün qaldılar Dakarda, Atlantik okeanında çimdilər, şəhəri dolaşdılar, – uca, ağappaq binaları, qamışla samandan quraşdırılmış komaları gördülər, Kermel bazarını və əsrlərdən bəri qolu bağlı qulların zindanı olan Qore adasını gəzdilər...

Sabah isə geri, vətənə qayıtmalıydılar.

Zaur: "Vallah, sağ olsun anam, – deyə düşünürdü, – axı, bu səyahətə çıxmağımızı o təkid elədi. "Sonra oğul-uşaq basacaq sizi, macalınız olmayacaq belə-belə səyahətlərə, nə qədər cavansız, əliz-qoluz bağlı deyil, gedin gəzin də"... Anası düz deyirdi, – belə səyahət insana ömründə olsa-olsa bircə kərəm düşür... Anası onu çox dilə tutdu.

Zaur etiraz eləmirdi, amma doğrusu, çox elə meyili də yox idi. Axır vaxtlar hər şeyə necə yanaşırdısa, bu səyahətə də eyni cür münasibət bəsləyirdi – tam bir biganəlik, laqeydlik... "Nə olar, gedərik-gedərik, getmərik-getmərik"... Bir yana baxanda, səyahətlər, xoş günlər, həyatın bütün başqa naz-nemətləri – məgər Zaur bütün bunların xətrinə dəyişməmişdimi ömrünü? Amma indi bu barədə düşünmək istəmirdi, *ümumən heç bir şey düşünmək istəmirdi.*

Qaranlıqda pıçıltıyla arvadını çağırdı:

– Yatmısan? – Cavab çıxmadı. Bilirdi ki, cavab çıxmayacaq. Firəngizin nə zaman yatdığını sakit, dinc nəfəs almasından bilirdi. "Firəngiz heç zaman xoruldamır". Bu, nikahlarının ilk ayında Zaurun elədiyi ən böyük və xoş kəşflərdən idi. Doğrudan da, Firəngizin xoruldaya biləcəyini təsəvvür eləmək də mümkün deyildi. Zaur fikrində həmişə Firəngizi çox bahalı şüşədən cilalanmış şəffaf güldana bənzə-

dirdi. Ağla sığışdırmaq olmurdu ki, belə bir güldan xoruldaya bilər, qışqıra bilər və bir də Zaurda belə bir təsəvvür vardı ki, qəfilcən bu güldana naqolay toxunmaq, onu salıb sındırmaq olar... Özündən altı yaş kiçik olan bu qıza, onun arvadı olmuş Firəngizə münasibətində dolaşıq bir duyğu kələfi vardı – həm nəvaziş, həm qayğı, həm də qalın bir pərdə... Firəngiz çox utancaq idi, kimsə onun haqqında danışanda qıpqırmızı qızarar, yanaqlarını puçur-puçur həya təri basardı. Bu, bəzən Zauru əsəbiləşdirərdi, nədənsə dərhal Firəngizin ailəsi – atası Murtuz, anası Alya, qardaşı Spartak gəlib dururdu gözlərinin qarşısında: o zaman Zaura elə gəlirdi ki, Murtuzun kobudluğu, "mənəm-mənəmliyi", Alyanın özündən müştəbehliyi, Spartakın cüvəllağılığı kimi Firəngizin isməti, məsumluğu da yapma bir naxışdır, aləmə nümayiş etdiriləsi zahiri bir dəyərdir. Amma Firəngizi təklikdə, ailəsindən ayrı-ayrılıqda qavrayanda, Zaur qıza daha mehriban münasibət bəsləyirdi, onun, doğrudan da, çox təvazökar, utancaq olduğuna inanırdı, saflığına və uşaq təmizliyinə, sadəliyinə həsəd aparırdı: düşünürdü, nə yazıq ki, mən özüm daha heç bir vaxt belə saf və sadədil, dinc və arxayın ola bilməyəcəyəm...

Bəlkə də Zaurun nicatı məhz bundaydı – özüyçün deyil, başqalarıyçün, Firəngiz üçün, gələcək övladları üçün yaşamaqda... Və elə bir həyat qurmaqda ki, zahirən belə həyat hamıya o cümlədən Firəngizə və gələcək övladlarına bəxtiyar bir yaşayış kimi görünsün... Və bəlkə o zaman – Firəngizin, gələcək övladlarının gözlərində bu xoşbəxtliyi, arxayınlığı, qayğısızlığı *görərkən Zaur özü də səadətin yoluxucu təsi*rini duyacaq, öz içində ailə sevincinin əks-sədasını eşidəcəkdi.

Zaur gələcək güzəranlarını, mənzillərinin quruluşunu, avadanlığını xəyalında canlandırmağa çalışdı, amma hiss elədi ki darıxır, ürəyi qısılır. Ayrı bir şey haqqında düşünmək istədi, fikri bir məsələdən başqasına qaçdı, bilmədi nə barədə düşünsün və ümumiyyətlə bir şey haqqında düşünmək vacibdirmi... Bəlkə də yox, amma onda da bilmirdi ki, qəfil ayıldığı bu gecə saatlarını – yata və dura bilmədiyi bu qeyri-müəyyən vaxt boşluğunu nəylə doldursun... Görəsən aşağıda, otelin qarşısındakı eyvanda neçə dənə gün çətiri var? Azı iyirmi – otuz dənə... Nə rəngdədirlər onlar? Qırmızı, sarı, yaşıl, göy, mavi, çəhrayı, sarı... yuxu doğrudan da onu çəkib apardı...

Bu iyi yuxuda duydu və yuxuda da dərk elədi ki, yuxudadır, ayılmayıb. Amma yuxuda da tanıdı bu iyi. Bu iy tək bircə idi, təkrarsız idi. Afrikanın iyi kimi. Amma bu Afrikanın iyi deyildi.

Zaur hələ də yuxu içində idi, yuxu içində fikir eləyirdi: hardan gəlib çıxdı bu qoxu bura, Dakara, otelin 17-ci mərtəbəsinə? Yuxuda fikirləri elə bil qıc olub tutulmuşdu, silkinib yuxudan çıxa, ayıla bilmirdi və buna görə də daha da eyməmirdi. Bu iyin nə iy olduğunu, bu qoxunun kimin qoxusu olduğunu bilirdi axı... hələ də yuxudaydı, amma bu qoxudan başqa – Təhminənin qoxusundan başqa – müxtəlif fransız ətirlərinin qarışığından yaranan bu təkrarsız qoxudan başqa – heç bir şey duymurdu. Bu ətir qarışığının sirrini bircə Təhminə bilirdi və həmin sirri hamıdan gizli saxlayırdı. "Hər hansı bir ətiri, ən nadir tapılan ətirləri belə almaq olar, – deyərdi Təhminə. – Deməli, bu ətirləri hər hansı bir qadın vura bilər. Amma hər qadının öz təkrarsız qoxusu olmalıdır. Odur ki, həmin ətirləri bir-biriylə qarışdırmaq lazımdır, hərəsindən bir azacıq qarışdırmaq lazımdır. Nə qədər? Bu, sirdir və bu sirri bircə mən bilməliyəm".

Röyasız yuxu içində – sönmüş ekran qarşısındaymış kimi – Zaur intizarla gözləyirdi. Budur bax, bu saat ekran işıqlanacaq, yuxu rənglərə boyanacaq, səslərlə dolacaq və Təhminə canlanacaqdır – onunçün nə var ki, məsafələri qət etsin, qitələri, okeanları aşsın, sərhədləri keçsin. Əgər dünyanın o başında güclə duyulan, zərif və zəif qoxusu Zauru haqlamışdısa, sifətinin, səsinin, nəfəsinin, gülüşünün bura gəlib çıxması çətinmi iş idi? Yuxunun dolaşıq, qarmaqarışıq məntiqinə dayanaraq düşünürdü: hansı reyslə uçub gəlib bura, axı Moskvadan bura təyyarə həftədə bir uçur? Yuxuda belə bunu unutmamışdı və yuxuda düşünürdü *ki, axı bu yuxudur, gərək oyanam, gərək cəhd eləyəm* oyanmaqçün, gərək əlimi uzadıb gecə çırağını yandıram. Əlini uzadırdı, gecə çırağını yandırırdı, amma çıraq yanmırdı və Zaur başa düşürdü ki, hələ də yuxudadır, yuxuda uzadıb əlini çırağa, əslində isə heç uzatmayıb da, yuxuda yandırıb çırağı, əslində heç yandırmayıb da, yuxuda ayılıb yuxudan, əslində heç ayılmayıb da...

Ayılmayıbsa, deməli, indicə görəcək onu... Və o gündən bəri birinci dəfə görəcək Təhminəni. Neçə ay keçmişdi o gündən? Yox, arada bir dəfə görmüşdü Təhminəni. Yuxuda yox, real həyatda da yox, – televizorda görmüşdü... Bircə dəfə, vəssalam. İndi isə... buyur, Qərbi Afrikada, müstəqil Sencqal respublikasının paytaxtı Dakar şəhərində gəlib duracaqdı gözləri qarşısında:.. Nə tez də sənədlərini toplayıb təhvil verib: tibbi arayış, anket, üç imzalı xasiyyətnamə, viza... hamısı da belə təcili, tez... Bütün bunları toplayıb düzəldib, bütün bunlardan keçib. Hər şeyin çəmini, yolunu tapıb ki, tez-tələsik uçub bura gəlsin.

Burada, dünyanın o başında Zauru yaxalasın və hər şeyi geriyə döndərsin. Bütün olub keçənlər, ötüb-itənlər yenidən qayıtsın, dirçəlsin, yenidən başlansın. Amma axı başlamamalıydı hər şey təzədən. Olan olmuş, keçən keçmişdi, biryolluq, həmişəlik, dönüb-qayıtmaz bir mütləqlikdir. Bəs onda... Axı, bu, yuxudur, – deyə düşünürdü... – Yuxunun nəyindən qorxursan, yuxunun nə təhlükəsi var? – deyə düşünürdü. Ayılıb oyanacam, hər şey keçib gedəcək, – deyə düşünürdü və onu da düşünürdü ki, yuxudamı, oyaqlıqdamı, bu dünyada Təhminənin nəvazişlərindən qorxulu heç nə yoxdur onunçün. Təhminənin nəvazişləri, sığalları, beyni dumanlandıran oxşamaları, çılğın pıçıltıları, deyilməmiş gileyləri... Bir də qapqara, uzun, sıx kirpikləri – o kirpikləri elə qaldırırdı, elə bil qədim bir kitabın ağır səhifəsini açır və o kirpiklər Təhminənin sifətinin tən yarısına kölgə salırdı. Bir dəfə Zaur içmişdi, dedi ki, sən kirpiklərini qaldıranda elə bil bəşəriyyət tarixində yeni bir səhifə açılır...

...Yuxuda, iradəsi zəifləyib möhkəm şüur, məntiq buxovları boşalanda Zaur onun, Təhminənin alaqaranlıq istəklərinə tabe olacaqdı. Axı bu istəklər həm də onun özünün, Zaurun istəkləri idi. Bir gün Zaur iradəsini toplayıb bütün hiss-həyəcanlarını üroyindən birdəfəlik qoparıb ata bilmişdi. Ancaq yuxunun öz qanunları var, daha doğrusu, yuxu bütün qanunlardan azaddır. Zaur isə indi heç bir azadlığa hazır deyildi, istəmirdi heç bir azadlıq-filan. Yalnız bircə şey istəyirdi – yuxudan ayılmaq. Ən çətini göz qapaqlarını qaldırmaq, gözünü açmaq idi... Bir cəhd elədi, güc-bəlaynan göz qapaqlarını açdı, amma bu da yuxu idi – yuxuda cəhd eləmişdi, yuxuda açmışdı gözlərini. Bunu anlayıb bir də cəhd elədi və bu səfər, doğrudan da, oyandı... Bir an, ayılandan sonra düz bircə an ona elə gəldi ki, bu otaqda – Afrikanın iyi hopmuş bu otel nömrəsində başqa bir qoxu, Təhminənin rayihəsi də qalır hələ. İndicə canını qurtardığı yuxu girdabının cazibəsi qəlbini limhəlim doldurmuşdu, amma Zaur bilirdi ki, xilas olmalıdır bu hisslərdən; rahat, dinc yaşamaqçün bütün bunları biryolluq özündən iraq eləməlidir və bu gecəni də sakit başa vurmaq istəyirsə, indicə durub geyinməlidir, nömrədən çıxıb aşağı düşməlidir, fikirlərini yayındırıb, düşüncələrin yönünü dəyişib, sonra qayıtmalıdır otağına. Yalnız bundan sonra sakit uzanıb yata bilərdi.

Qaranlıqda ayaqqabılarını axtararkən Firəngiz səsə oyandı. Bir şey demədi, amma nəfəsinin dəyişməsindən Zaur arvadının ayıldığını bildi.

Zaur:

– Nədənsə yata bilmirəm, – dedi, – çıxıb bir az okeanın qırağında gəzmək istəyirəm.

Firəngizdən səs çıxmadı. Nə hə, nə yox. Zaur düşünürdü ki, eyni tərzdə "istəyirəm gedib özümü dənizə atam" deyə də bilərdim və yenə də Firəngiz etirazını bildirməzdi... Bəzən Zaura elə gəlirdi ki, Firəngiz laldır. Bəzən tanış-bilişlər deyəndə ki, hələ heç bir vaxt Firəngizin səsini eşitməyiblər, Zaur fikrə gedirdi: o özü haçan eşidib arvadının səsini? Nə isə yadına sala bilmir. Ancaq ayrı-ayrı sözlər... – hə, yox. – Gedək – hə, qalaq – yox. Yataq – hə, duraq – yox... ya da əksinə... hə, yox, vəssalam...

Zaur cəkmələrini, şalvar-köynəyini geyinib nömrədən çıxdı... Düyməni basdı, lift gəldi. Lifti idarə edən oğlan – otelin xidmət paltarını geymiş balaca zənci Zauru görüb gülümsündü, fransızca nə isə dedi. Zaur da başını yelləyə-yelləyə gülümsündü, amma oğlanın nə istədiyini başa düşmədi: bəlkə pul istəyirdi ondan, yaxud xoş gecələr arzulayırdı, ya saatı soruşurdu, ya liftin yavaş getməsindən şikayətlənirdi? Kim bilir?

Gecənin bu vaxtında okeanın sahili bomboş idi... Əslində okeana da, dənizə də baxanda onların ucu-bucağı görünmür, amma birbaşa təəssürata beynin məlumatı əlavə olunanda, okeanın hüdudsuzluğu adama daha müdhiş, daha əfsanəvi görünürdü.

Sahilə yaxın yerlərdə, ləpədöyəndə otelin çimərlik çıraqlarının şölələriylə işıqlanmış okeanın uzaqları get-gedə qatı və qorxunc bir qaranlığa qarışırdı, haradasa zülmətin qovuşduğu üfüqlərdə itib gedirdi, amma o intəhasız ucqarlarda, getdikcə uzaqlaşan üfüqün o tayında okeanın başqa sahili də var idi – Amerika sahili...

Zaur:

"İnşallah, bir vaxt Amerikaya da səyahət eləmək lazımdır. Firəngiznən bir yerdə – deyə duşündü və birdən-birə bütün bunların puçluğunu, heçliyini dərk elədi. Nə qədər mənasız idi bütün bu şeylər. Amerikaya səyahət etmək istəyi, bura, Afrikaya gəlmələri, burada, bu yad okeanın yabançı sahilində dinclik, aram axtarması, hər şeyi unutmaq niyyəti... Axı heç bir təyyarə, heç bir gəmi, heç bir nəqliyyat vasitəsi insanın özünü özündən uzaqlaşdıra bilmir, keçmişindən ayıra bilmir və "səadət axtarmaq ifadəsi" o demək deyil ki, səadəti axtarıb tapmaq üçün düzə-dünyaya düşməlisən... Xoşbəxtlik, ya bədbəxtlik insanın öz içindədir, onları yük kimi özünlə daşıyırsan belədən-belə,

hara gedirsən get, lap dünyanın o başına; bu etibarlı yükdür – hara gedirsən get – nə itəcək, nə batacaq, nə azalacaq, nə artacaq...

Zaur əyildi, barmaqlarıyla soyumuş, narın sahil qumlarına, dalğaların yaladığı irili-xırdalı, hamar daşlara toxundu və qəsdən, bilərəkdən bu duyğunu yenidən oyatmağa çalışdı – bu duyğu xatirəsi barmaqlarının ucundan əllərinə keçdi, əllərindən qollarına, çiyinlərinə, köksünə, bədəninin bütün hüceyrələrinə. Bir gizilti kimi gəzdi bütün varlığında bu duyğunun xatirəsi... xoşbəxtlik xatirəsi... Sonralar yalanı üzə çıxsa da, yaşadığı an əsil bəxtiyarlıq kimi duyulan o uzaq anların xatirəsi. O xoşbəxt anların ki, Zaur onları da sahildə, narın qumlarla, balıqqulaqlarıyla, yosunlarla, dalğaların uğultusu, mehin nəvazişləriylə sərt, sal qayalarla, ulduzlu göylə birgə yaşamışdı... Qumuyla, mehiylə, səsləriylə, göyünün ulduzlarıyla bura oxşayan başqa bir sahildə... Okeanın yox, dənizin sahilində... Buralardan çox-çox uzaq bir dənizin...

İkinci fəsil

Ey xoş ol günlər ki, mən həmraz idim canan ilə,
Neməti-vəslin görüb, nazın çəkirdim can ilə.

Bu ensiz sahil uzandıqca uzanırdı... Sahil xəttinin əyri-köndələn köbəri gah ləpələri yumruqlar kimi əzən qayalar boyu, gah dümdüz hamar çimərliklər boyu çəkilmişdi. Dəniz balaca, xudmani körfəzciklərdə sahilin bətninə girir, sivri, nazik, qumlu burunları öz altına çəkir, gah qabarıb sahili, qayaları qamarlayır, kiçicik qum adalarını basıb içinə alır, gah da çəkilir – yenidən üzə çıxmış qumlu sahələri – burunları, adacıqları mülayim ləpələriylə tumarlayırdı. Sahilin dənəvər qızılı qumlarını yavaş-yavaş sığallayır, oxşayır, pişik balasını yalayan kimi yalayırdı. Xırda daşları, qumları, balıqqulaqlarını təsbeh kimi bir-bir çevirirdi, sonra qəfilcən rəftarını dəyişir, dalğaları dəli rüzgarlarla qamçılanmış kimi şahə qalxırdı, bayaqkı nəvazişdən, sığaldan əsər-əlamət qalmırdı, külək qumları havaya sovurur, dəniz elə bil yüyürüb qan-tər içində qayalara çatmaq, daşların yalçın sərtliyinə çırpılıb çilik-çilik olmaq istəyirdi.

Bu sahil – Pirşağı tərəflərdəki Mayakdan Mərdəkandan o yana ucalan QRES borusuna qədər uzanmış bu sahil, sahil qəsəbələriylə – Buzovna, Zuğulba, Bilgəhlə Xəzər arasında qalmış bu sahil, qərbə doğru getdikçə Nardaranın, Sarayın, Coratın yanından keçib Sumqayıta çatır və Sumqayıtdan da yuxarı – şimala doğru uzanırdı. Dənizin uzaq üfüqündə tülu edən günəş bütün sahilin üstüylə kos kimi dığırlanıb keçir və axşamtərəfi Zuğulba təpələrinin ardında qürub edirdi. Amma günəş təpələrin dalında gözdən itəndən sonra belə onun maili şüaları – projektor işığı kimi – səmaya sancılırdı və bu şüaların əksi dənizin səthinə qızılı-paslı talalar salırdı. Şüalar get-gedə qısalır, hava get-gedə qaralır və dənizin üzündə qəribə kölgələr dolaşırdı – təpələrin, buludların, qayaların əcaib kölgələri. Sahil evlərinin qızılı rəngə çalan pəncərələri ətrafa həzin bir qəriblik hissi çiləyirdi elə bil. Axşamın bu çağında sahilə kədərli bir dinclik hakim idi – dənizin gecə həyatı başlanmazdan qabaq qısa bir müddət belə olurdu – təkəmseyrək adamlar hələ də çimirdilər, dənizdən çıxmışdılar, onların siluetləri bir qara ləkə kimi görünürdü. Sahildə bir-iki maşın yubanıb qalmışdı... Ala-toranlığın gecə qaranlığına keçdiyi bu son dəqiqələrdə çılpaq bir kişi oğrun-oğrun ətrafa boylanaraq – görən olmasın – qurulanır, geyinir, başını darayırdı... Yubanmış maşınlar səssizcə-səmirsizcə çimərliklə hərəkət edirdi. Çimməkdən qayıdan axırıncı dəstələrin həyirtisi, gülüşü artıq tam qaranlıqlaşmış havada eşidilib itirdi... Çimərlikdən çıxıb uzaqlaşan maşının arxa işıqları iki qan-qırmızı lent kimi maşının ardınca sürünüb gedirdi.

Bu sahil Zaurçün dünyanın ən cazibədar bir guşəsi idi və heç bir tərifli təbiət mənzərəsi-sıldırım dağlar, sıx kölgəli meşələr, gur şəlalələr, köpüklü çaylar, yaşıl vadilər, dərin dərələr, sərin təpələr – heç nə, heç yer qızmar günəşin yandırıb-yaxdığı bu quru, ağacsız-bitkisiz sahilin gözəlliyinə tay ola bilməzdi...

Təhminə: – Havalar soyuyub ha, – dedi.

Zaur uzun tiftikli iri sarı qətfəni maşından ona uzatmışdı. Təhminə qurulanırdı. Dənizdən indicə çıxmışdı və sulardan maşına qədər gəldiyi yolboyu damcı-damcı zəncirvarı iz salmışdı, maşının içinə isə ayağından səpələnən qumları gətirmişdi.

Day çimmək olmaz... Axırıncı dəfədir bu.

Zaur:

– Hə, – dedi və siqaretini sümürdü, – payızdır...

– Üç ay nə tez keçdi Zaur, hə? Yadında birinci dəfə bura gəlməyimiz. Onda iyun idi, hə?

Zaur:

– İyunun beşi idi, – dedi, – mənim dəqiq yadımdadır...

– 5 iyun 1965-ci il. Gərək bu tarixi qayalarda bir yerə həkk eləyəydin. Gələcək nəsillərə yadigar qalsın.

Zaur:

– Altında da yazaydım: Zaur Təhminə və oxla dəlinmiş ürək şəkli çəkəydim, hə?

Təhminə:

– Bəli, – dedi, – bu yay da belə keçdi... Bizim yay...

Zaur çevrilib arxaya baxdı: Təhminə saçlarını darayırdı.

Gedək?

– Gedək.

Zaur motoru işə saldı və maşını qumlu sahil yollarıyla şoseyə tərəf sürməyə başladı.

Susmuşdular. Təhminə birdən-birə:

– Zaur, – dedi, – bilirsən ki, mən işdən çıxıram?

– Nə?

– Dəyişirəm iş yerimi.

Zaur maşının sürətini azaltdı, elə bil lap saxlamaq istəyirdi, çevrilib Təhminəyə baxdı:

– Necə yəni? Hara belə?

– Televiziyaya. Təsəvvür eləyirsən, məni diktor götürürlər. Bir dostum var, o düzəltdi... Neçə ildi elə hey məni dilə tuturdu ki, gəl televizorda bizimlə işlə, amma onda nədisə fikir vermirdim. İndi birdən yadıma düşdü onun təklifi, o gün götürdüm zəng elədim... Orda işləyir, amma vallah, belə tapşırıqsız-zadsız özüm öz gücümlə getdim, məni sınaqdan keçirtdilər, mətn verdilər, oxudum – azərbaycanca da, rusca da – bəyəndilər... Görünür, məqamına düşmüşəm, elə diktor axtarırlarmış, Moskvadan deyir, verilişimiz olacaq, elə lap yerinə düşdü. Böyüklərdən biri məni tərifləndə: hər iki dildə, deyir, mükəmməl danışırsınız, zahiri görünüşünüz də münasibdir.

Zaur Təhminənin indicə ona verdiyi bu təzə xəbər haqqında düşünür və özü də təyin edə bilmirdi ki, sevinir, yoxsa heyifsilənir. Təhminənin belə bir qərara gəlməsinin səbəblərini bilmirdi, amma hər halda başa düşürdü ki, bu qərar müəyyən dərəcədə onun özüylə – Zaurla, onların münasibətləriylə bağlıdır...

– Niyə birdən-birə bu qərara gəldin axı?

Bilirdi ki, Təhminənin cavabı dəqiq və dürüst olacaq, nə varsa, onu deyəcək.

Təhminə:

– Sənə görə, – dedi.

– Mənə görə?

– Əlbəttə. – Sonra əlavə etdi: – Gündə səni görmək mənə çətin olardı.

– Məni görmək yəni belə məşəqqətdir sənincün?

– Eşitməmisən, aşıq deyib: nə gözlərim səni görsün, nə könlüm qubar eyləsin. Hər gün səni görəcəydim, fikirləşəcəydim ki, daha mənimki deyilsən.

Zaur az qala dilindən qaçırtmışdı: "Məgər mən haçansa sənin-kiydim ki, indi daha sənin-ki deyiləm", amma demədi bunu, həmin fikri başqa cür ifadə elədi:

– Nə dəyişib bizim münasibətlərimizdə?

Təhminə səssiz gülümsündü. Zaur görməsə də, elə bil bu təbəssümü küreyiylə hiss elədi, maşının güzgüsündə Təhminənin sifotinə baxdı. Təhminə təbəssümünü hələ silib atmamışdı üzündən.

– Zaurik, yəni doğrudan sən heç nə başa düşmürsən? – dedi: Doğrudan, başa düşmürsən ki, bizim axırıncı görüşümüzdür?.. Yaxşı, tutalım, axırıncı görüşümüz deyil, bir şəhərdə yaşayırıq, yəqin bir-birimizə rast gələcəyik təsadüfdən-təsadüfə... amma bu son görüşümüzdür. O mənada ki, – yenə gülümsündü, – bir daha bu cür görüşməyəcəyik.

"Niyəsini" soruşmaq istədi Zaur, amma dinmədi, səbəbini özü tapmaq istədi. Axı, Təhminə onu hey məzəmmət edirdi ki, həssas deyilsən, zərif deyilsən, qadınla kişi münasibətlərinin bütün incəliklərini duya bilmirsən. Hiss edə bilmirsan ki, bu əlaqələr nəylə düyünlənir və nədən qırıla bilər... Amma hər halda Təhminənin bu qərarı Zauru çox da sarsıtmırdı. Hətta, müəyyən biganəliklə qarşıladı bu sözləri. Bəlkə də bu, sırf fizioloci bir halla əlaqədar idi. Bir az qabaqkı ehtiraslı, çılğın məhəbbət görüşündən sonra Zaur özündə bir laqeydlik, boşluq, toxluq hiss edirdi. Axır vaxtlar çox tez-tez görüşürdülər, bir də bundan idi bəlkə bu doyğunluq. Bəlkə Təhminə bu xəbəri bir neçə saat bundan qabaq, onlar çimərliyə gələrkən, öpüşlərdən, ağuşlardan, pıçıltılardan və nəvazişlərdən qabaq desəydi, Zaur daha çox narahatlıq keçirərdi. Bir neçə gün, Təhminəni yenidən ağuşuna almaq istəyi çılğın, dözülməz bir ehtirasa çevrilincəyə qədər bu fikrə – "ayrılmaqları", "bir daha görüşməyəcəkləri" fikrinə nisbətən sakit və biganəliklə baxa bilərdi. "Nə yaxşı ki, o axmaq məktubu cırıb atdım. Təhminəyə göndərmədim – deyə düşünürdü. – İlk yaxınlığın təsiri altında, həm də dəm vaxtımda yazdığım o kağızda nələr qırıldatmamışdım, ilahi... İndi bütün o fikirlər necə də gülməli gəlir mənə, məhəbbət-filan, sənsiz

yaşaya bilmirəm, getmə gözümdən, gedərəm özümdən. Nə sevgi, nə filan, oşşi?.. İstək var, ehtiras var, arzu-kamına çatmaq intizarı var, bir də istədiyinə nail olandan sonra doyğunluq, bezginlik, biganəlik var, vəssalam. Qalan hamısı sözdür, havayı söhbətlərdir..."

– Bilirsən bu kimin bağıdır?

Təhminənin səsi Zauru fikirlərindən ayırdı.. Yolun sol tərəfində nahamvar boz daşlardan hörülmüş uca barının arxasında ikimərtəbəli, əyri-köndələn eyvanlı bir ev vardı. Eyvan bulanıq yaşıl rəngə boyanmışdı.

– Yox.

– Murtuzovgilin. Sizin qonşularınızın.

Zaur təəccüblə:

– Murtuz Balayeviçin? – deyə xəbər aldı. – Sən hardan onu tanıyırsan?

– Oğlunu tanıyıram.

– Spartakı? – dedi və elə bil içində nə isə titrədi. Spartakı yaxşı tanıyırdı. Bilirdi nə yuvanın quşudur, qadınlara, illah da gözəl qadınlara nə gözlə baxır. Ümumiyyətlə, bilirdi nə oyunlardan çıxır Spartak. Ağzını Allah yoluna qoyub, qadınlar haqqında nələr danışdığından da xəbərdar idi, Təhminənin Spartakla tanışlığı Zauru heç açmırdı. Amma qəsdən biganəliklə:

– Bəs Spartakı hardan tanıyırsan? – deyə soruşdu.

Mənim bir rəfiqəm var, onun tanışıdır.

"Tanışıdır" sözü Zaurun bütün içini qaynatdı, axı bilirdi Spartakla tanışlıq qadınçün nə deməkdir.

Təhminə birdən:

– Saxla, – dedi. Zaur əyləci basdı və maşın iri dəmir darvazanın düz qabağında dayandı.

– Nədir?

– Gəl düşək. Bilirsən bu eyvandan nə gözəl mənzərə görünür. Adamın ürəyi açılır.

– Bircə elə bu çatmırdı. Özgənin bağında nə işimiz var?

– Tərsliyinə salma, bircə dəqiqəliyə düşək.

Zaur könülsüz-könülsüz maşından çıxdı.

– Deyəsən, sən bu eyvandan çox seyr eləmisən mənzərəni, – dedi. – Heç ağlıma da gəlməzdi ki, sən Murtuzovgilə gedib-gəlirsən? Bakıda da gəliş-gedişiniz var? Bəs nə əcəb heç rastlaşmamışıq bizim həyətdə?

– Əşi, yox, canım. Bakıda heç evlərini tanımıram. Bu bağda da bircə dəfə olmuşam... Qonaqlıq idi, çoxlu adam vardı, mən də haradansa gəlib düşmüşdüm onların kompaniyasına...

– Kim verirdi qonaqlığı, Spartak, ya Murtuz Balayeviç?

– Murtuz Balayeviç kimdir. Spartakın atası? Heç onun sifətini də görməmişəm. Qonaqlığı Spartak düzəltmişdi... O vaxt mənim rəfiqəmlə gəzirdi. Deyəsən, Spartakın ad günü idi, yadımda deyil, bir söz, məni də dartıb gətirdilər.

– Sən əlbəttə, tək idin, ərsiz...

– Allahu-əkbər. Nə belə məni sorğu-suala tutmusan? hə, Manaf, deyəsən, doğrudan da, Bakıda yox idi.

Zaur:

– Tiflisdəydi, – dedi və dərhal da dediyinə peşman oldu... Elə bil Təhminə birdən-birə söndü, içinə çəkilib büzüşdü. Axı hər ikisinin yadında idi: Təhminə Zaura özü demişdi ki, Manafın Tiflisdə aşnası var, ara-sıra bəhanə tapıb onun yanına cumur. İndi Zaur ona məhrəmliklə açılmış bu sirri şapalaq kimi çırpmışdı Təhminənin üzünə.

Təhminə qəmli-qəmli başını buladı.

– Özün bil, – dedi. – Mən istəyirdim ki, eyvandan baxasan, dəniz, kənd çox qəşəng görünür. İstəmirsən baxma, daha məni sancmaq nəyə lazımdır?

Zaur günahını yumaq üçün yumşaqlıqla:

– Axı qapı bağlıdır, – dedi və nəvazişlə Təhminənin gözlərinin içinə baxdı.

Təhminə, doğrudan da, elə bil yumşaldı.

– Bəs, uşaqlıqda heç üzüm oğurluğuna getməmisən? – dedi.– Bir yandan da idmançısan hələ, aş görüm bu barını.

Zaur da bu yarızarafat danışıq və davranış tərzini saxlamağa çalışdı, odur ki, qıvraq bir hərəkətlə tullanıb barının üstündən yapışdı, dartınıb hasarın üstünə çıxdı və o tərəfə aşdı... Darvazanı taybatay açdı və Təhminəni içəri dəvət elədi.

– Buyuracaqsınız, xanım, – dedi.

Axar-baxarlı eyvandan dənizin, sahilin, qəsəbənin geniş mənzərəsini seyr edirdilər. Eyvanın döşəməsində azı bir on cüt köhnə, yırtıq çəkmə, məst vardı. Onların arasında nimdaş dikdaban qadın ayaqqabıları da vardı,

Təhminə:

– Vaxtilə bu ayaqqabılar dəb idi, – dedi və qəfilcən xəbər aldı. – Bacısını necə, tanıyırsan? Spartakın bacısını.

– Firanı? Əlbəttə, tanıyıram. Dedim axı – bizim qonşularımızdır. Nədir ki?

– Heç. Deyirlər, çox gözəl qızdır, mən görməmişəm...

– Bilmirəm, – dedi, – fikir verməmişəm: gözəldir, ya yox.

Zaur bunu müəyyən əsəbiliklə dedi, çünki xoşu gəlmirdi Murtuzovlardan. Doğrudur, Fira haqqında bunu deyə bilməzdi, bu cavan qızcığazdan nə xoşu, nə acığı gəlirdi. Elə bil o heç yoxmuş, amma ata-anasından, illah da qardaşından zənd-zəhləsi gedirdi.

– Hər halda, – dedi, – Fira ailələrinin başqa üzvlərindən bir cəhətcə üstündür ki, dinib danışmır, heç olmasa həmişə susur...

– Deyəsən, onlarla aran yoxdur, hə? Doğrudan a, heç ağlıma gəlmir, – harda görünüb ki, qonşu-qonşuyla yola getsin... Mətbəxdə yəqin, gündə dava-mərəkədir, xəlvətə salıb bir-birinizin qazanına çəngəllə duz atırsız, elədi?

Zaur quru tərzdə dedi:

– Çox üzr istəyirəm, amma bizim mətbəxlərimiz ayrı-ayrıdır, mənzillərimiz də başqa-başqa mərtəbələrdədir.

– Belə de. Onda deməli qonşuyla ədavət daha yüksək zəmindədir? Murtuzovgil təzə fin mebeli alıblar, amma bizimki, Zeynalovlarınkı köhnə ərəb mebelidir, dad-bidad!

Zaur:

– Adamı sancıb-dalamaqdan ləzzət alırsan? – dedi,

– Yaxşı, yaxşı, mısmırığını sallama, canım-ciyərim, – dərindən nəfəs aldı, – ciyər demişkən, dərindən nəfəs al, Zaur, – dedi, – çok bu havanı ciyərlərinə, məcundur bu... Oxqay...

Zaur siqaret çıxartdı. Təhminə:

– Çəkmə, – dedi, – özünü zəhərləmə. Bir bu təmiz dəniz havasını doyunca ud.

Zaur siqareti qutusuna qoydu.

– Ay səni Zaurik, qiyamət oğlansan.

– Yaxşı, söhbətimiz yarımçıq qaldı axı... Başa salmadın məni ki, niyə bu axırıncı görüşümüzdür və nə səbəbdən ayrılmalıyıq.

– Nə səbəbdən? – Təhminə çiyinlərini çəkdi. – Bunu izah eləmək uzun çəkərdi. O qədər səbəb var ki... Məsələn, belə bir səbəb: birdən bir səhər yuxudan durarıq, görərik ki, bir qəlbdən min qəlbə aşiq olmuşuq bir-birimizə. Hər halda ikimizdən birimiz, tutalım elə mən, aşiq oldum sənə, vuruldum. Onda necə olsun?.. Kimə lazımdır bu – sənə, mənə?.. Bir də ki... ümumiyyətlə, axı, həyatı qəlizləşdirmək neçin, hə? Onsuz da cəncəldir bu həyat...

Zaur düşündü ki, onu düz deyir, həyatı qəlizləşdirmək nəyə gərək?

– Axı belə məlum oldu ki, bu cəhətdən arxayınçılıqdır, – dedi. – Sən aşiq olub eləyən deyilsən, olsaydın olardın da, üç aydır görüşürük – vurulub eləməmisən ki? – "Aşiq olmaq", "vurulmaq" sözlərini hər ikisi yüngül bir istehzayla tələffüz edirdi. – Hə, vurulmamısan ki, mənə? Düz demirəm?

Təhminə:

– Bəs, sən? – dedi.

– Mən!

– Bəli, sən. Sən necə, vurulmusan?..

– Əlbəttə. Bu nə sözdür. Mən elə birinci görüşümüzdən dəli-divanəyəm... Axı sənə də ilk görüşdən dedim ki sevirəm səni... Məcnun kimi, mən nə bilim, Kərəm kimi, Fərhad kimi...

– Dayan, dayan, küyə basma... Demək – bir şeydir, duymaq, dediklərini doğrudan-doğruya hiss etmək – başqa şey... Bir də ki, sən bütün bu yağlı dilləri o vaxt, üç ay bundan qabaq tökürdün, onda aramızda heç bir şey yox idi. Bəs indi, indi də bu sözləri təkrar eləyə bilərsənmi. Belə yarızarafatnan, lağ-lağıya sala-sala, masqaraya qoya-qoya yox, ciddi-ciddi, tam ciddiliklə... dilinə gətirə bilərsən bu sözləri?..

– Dəli olmusan, Təhminə?.. Əlbəttə, mən zarafat eləmirəm, ciddi sözümdür, doğrudan da sevirəm səni... vurulmuşam sənə...

Zaur bu sözləri deyirdi, amma özü də hiss edirdi ki, tamamilə tutumsuz, içi boş sözləri tələffüz edir, bu sözlərin dalında duran duyğuların heç birini həqiqətdə yaşamadan deyir. Hətta bu yarızarafat tərziylə də gizlədə bilmirdi yalanını və Təhminə də bunu dərhal duydu: tükü-tükdən seçərdi Təhminə...

– Yaxşı, di boşla, Zaur, – dedi. – Adamın lap ürəyi qalxır sənin bu sözlərindən... havayı-havayı danışdıq, bəsdir.

Zaur əlini Təhminənin üzünə çəkdi. Bilirdi ki, sözlər kara gəlməyəndə, gücsüzləşəndə köməyə hərəkətlər, əllərin nəvazişi, sığal, təbəssüm yetir. Təhminə onun əlindən yapışdı, bir qədər öz sifətində saxladı Zaurun əlini, sonra üzündən araladı, çevrilib ovcunun içinə baxdı. Elə baxdı, elə bil Zaurun əlinin içini birinci dəfəydi görürdü.

– Əllərin nə iridir, Zaurik! – dedi.

Haradansa, çox uzaqlardan elektrik qatarının səsi gəldi və bu səs uzun müddət havada qaldı, sonra yavaş-yavaş əriyib itdi...

Təhminə şəhadət barmağını Zaurun ovcunun içinə dirədi, yumşaq, pişik cırnağı kimi iti bir hərəkətlə dırnağını Zaurun ovcundakı cızıqlara çəkdi və dedi:

– İstəyirsən falına baxım?

– Baxa bilərsən?

– Əlbəttə. O biri əlini də aç görüm.

Zaurun hər iki əlini əlləri arasına aldı, uzun-uzadı ovuclarının içinə tamaşa elədi.

– Sağ əl keçmiş və indiki vaxtdır. Ona görə ki, sağ əl fəaldır, işdədir, olmuş və indi bu saat olacaq işləri göstərir. Sol əl isə gələcəkdir, hələ olacaq hadisələri xəbər verir, odur ki, hələ hərəkəti azdır, passivdir... Bax, bu xətlər xoşbəxtlik, yalqızlıq, kədər xətləridir... Bu gözləmədir, bu xətt isə qəribə, gözlənilməz işlərə qadir olub-olmamağını göstərir. Görək indi səndə necədir? Bax bu, şöhrət xəttidir, səndə var bu xətt. Bu xətt Ay xəttindən başlanır, yəni real həyatdan daha çox fantaziyalara qapılırsan... Amma bu xətt də real həyat xəttinə qovuşur. Bunu görürsən, bax, bu xətt... Aha... İşə bax, iki, ya üç uşağın olacaq – hər halda ikisi mütləq oğlan uşağıdır...

– Yəni bunu da təyin eləmək olur?

– Bəs necə? Elə bilirsən halvaymış sənինçün... Bax, bu xətti görürsən – sənin bir bacarığın varmış – bütün hisslərini, düşüncələrini işə, zəhmətə yönəldə bilirsənmiş... Şüurun dəqiqdir, müstəqimdir, bir balaca, lap belə cüzi dərəcədə xəyala, fantaziyaya meyil edirsən... Lap qoca yaşlarınacan ömür sürəcəksən və axıra qədər də həyatı sevəcəksən... Dövlətin çox olmayacaq. Başqa şəhərə köçüb eləməyəcəksən... Aha,.. bu xətt mübarizə xəttidir, amma o heç bir başqa xəttə qovuşub eləmir. Bax, bu da Venera kəməridir – sevmək və aldanmaq bacarığı... Bu xətt də yarıda qırılır... Bütün xətlər elə bil yarımçıqdır e, Zaurik!

– Dad yarımçıq əlindən...

– Dalına qulaq as... Ən çətin sınaqdan orta yaşlarında keçəcəksən... Ömrün haçalanacaq – bax, görürsən, bu haçalanmış xətt – tale xəttidir – haçansa iki od arasında qalacaqsan... Sinnə dolduqca xasiyyətin daha mülayim olacaq, amma zəhmin, zabitən artacaq... Kaş sənin sinli çağını, zəhmli-zabitəli vaxtını görəydim. Zaurik, heç səni bu sifətdə təsəvvür edə bilmirəm...

Yaxşı, mənim məsələmi bildik. İndi öz falına bax.

– Yox, nə danışırsan, qorxuram, heç vaxt öz falıma baxmaram, qoymaram da ki, başqası baxsın. Bir dəfə baxdırmışam, bəs eləyib.

– Baxdırmısan, nə çıxıb ki?

– Demərəm.

Yaxşı, de görək, ürəyimizi çəkmə...

– Yox, yox...

– Özün bil...

Zaur təkid eləmədi və həmişə olduğu kimi indi də inadından vaz keçən kimi Təhminə özü razılaşdı:

– Yaxşı, deyərəm, ancaq bircə şərtlə, – dedi, – bu sirri heç kəsə verməyəsən. Bir sən bil bunu, bir də mən. Ovcumun içinə bax, bu xətti görürsən, burada qırılır, görürsən?

– Hə...

– Bilirsən niyə qırılır burda?

– Yox.

– Bu mənim ömrümdür. Qırılması da ölüm. Erkən ölüm... Bir qoca falçı vardı, o baxıb falıma, o dedi...

– Utanmırsan, ali təhsilli qızsan, başını belə cəfəngiyatla doldurursan.

Elə bil eşitmədi Zaurun sözlərini:

– Bəzən düşünürəm, Zaur, dedi. Birdən, doğrudan da, bütün bu sən demiş cəfəngiyat düz oldu, necə deyərlər, çin çıxdı. Günü sabah azarladım öldüm, təyyarədə, ya maşında qəzaya düşdüm, nə bilim, min cür səbəbdən insan ölə bilər... Bəzən belə fikirlər dolur başıma, öz-özümə yaman yazığım gəlir, az qalıram ağlayım... Düşünürəm ki, sabah yıxılıb ölsəm, kim mənimçün yanacaq? Ərim? Tutalım bir ay, üç ay heyifsiləndi, sonra hər şeyi unudacaq gedəcək... Başqa kim – qonşumuz Mədinə, o da tutalım bir ay, yox, bir ay da yox, iki həftə yas saxladı mənimçün... Başqa kim? Sən? Yaxşı, sən də iki həftə, ya bağışla, iki həftə çox uzun müddətdir, bir həftə üç gün mənimçün matəm saxladın, dərdə-qəmə batdın, lap saldın ürəyinə... Sonra? Sonra axı sən də unudacaqsan, elə deyil?.. Hər şeyi unudacaqsan... Bu görüşlərimizi də, o sahili də, bax həmin bu eyvanı da... Düz demirəm?

– Səfeh-səfeh danışmaqdan yorulmadın? Nədi elə başına qara-qura fikirlər salırsan, gah ayrılmağımızdan dəm vurursan, gah ölümdən. Gəl yanıma...

Otağa keçdilər. Otaqda içində neçə vaxtdan bəri insan yaşamayan mənzilin səliqəsizliyi vardı – küncdə sement qutuları qoyulmuşdu, bir qırağa mismarlar, çəkiclər, mişar və rəndə atılmışdı, qab-qacaq pəncərə ağzına yığılmışdı, qarğıdan hörülmüş həsir səbətlər üst-üstə qalanmışdı, sınıq-salxaq şkafın rəflərində sirkə, abqora şüşələri düzülmüşdü, zivənin dalına döşəklər, üzsüz balışlar və yorğanlar yığılmışdı...

Zaur Təhminəni öpdükcə, oxşadıqca Təhminə:

– Qəsdən, qəsdən səni bura gətirdim, – deyirdi, – axırıncı dəfə, son dəfə, son dəfə sənlə olmaq istəyirdim...

Zaur etiraz eləmirdi, amma çox yaxşı bilirdi ki, sözdür bütün bunlar hamısı, axırıncı görüşləri-filan deyil, yenə görüşəcəklər, yenə sevəcəklər bir-birlərini, çünki Təhminə onsuz – Zaursuz yaşaya bilmir. Buna lap qəti əmin olmuşdu Zaur, odur ki, sakit idi... Deyir, axırıncı görüşümüzdür, çox gözəl, mən daha görüşmək üçün heç bir təşəbbüs göstərməyəcəyəm, desə, deyəcəyəm ki, "balam, özün qərar vermədin, axır görüşümüzdür?". Özü məni axtaracaq, özü tapacaq, mən ancaq gözləməliyəm, vəssalam...

Maşına minəndə Təhminə:

– Amma səni o bağa aparmağımın bir səbəbi də var idi, – dedi. – Bu səbəbi heç vaxt bilməyəcəksən.

– Nə səbəbdir ki?

– Demərəm.

Zaur inad eləmədi. Bilirdi ki, təkid eləməsə Təhminə özü deyəcək. Amma bu səfər belə olmadı. Təhminə heç bir şey demədi. Nə onda, nə sonra.

...Və Zaur bağa gəlmələrinin bu ikinci səbəbini heç bir vaxt bilmədi.

Bəlkə də heç yox imiş belə bir səbəb, Təhminə elə-belə, onun marağını cəlb eləmək üçün demişdi bunu. Kim bilir?..

Evlərinin tininə burulmamış maşını saxladı. Təhminə elə maşının içindəcə Zaurun boynundan öpdü:

– Əlvida, – dedi və tələsik maşından çıxıb iti addımlarla evlərinə tərəf addımladı.

"Əlvida. Sağ ol. Hələlik". Vida sözlərinin heç bir fərqi yoxdur. "Hələlik" deyib ömürlük ayrılmaq olar. "Əlvida" deyib üç gündən, üç saatdan, on beş dəqiqədən sonra yenidən görüşmək olar... Bu belədir, əlbəttə, amma hər halda evdə, çimmək otağına keçib, soyuq çiləyin altında yuyunanda Zaura birdən elə gəldi ki, suyun güclü iynələri onun bədənindən sahilin qumu, dənizin duzu, isti günün təriylə birlikdə Təhminənin öpüşlərini, sığallarını, əllərinin təmasını da həmişəlik yuyub aparır. Sözlərini, pıçıltılarını, saçlarının iyini... Bir də heç bir zaman Təhminəylə görüşməyəcəklər, saçlarını əliylə alnından atdığını, dodaqlarında tükənmiş təbəssümün, gözlərinin dibində sönən son qığılcımlarını Zaur heç vaxt görməyəcək. "Əlbəttə, belə deyil, – deyə düşündü. – Əlbəttə, yenə görüşəcəyik. Gözləmək lazımdır. Gözləmək, vəssalam".

Üçüncü fəsil

Yaxşı görünür surəti məhvəşlərin, əmma
Yaxşı nəzər etdikcə, sərəncamı yamandır!

Zaur valideynlərini çox istəyirdi. Həm də yaşa dolduqca daha artıq istəyirdi onları. Daha doğrusu, yetkinlik yaşında o, öz valideynlərini lap körpə vaxtında sevdiyi kimi sevirdi – təbii və təmənnasız bir məhəbbətlə... Körpəliklə yetkinlik yaşı arasında qalan qısa bir dövrdə – beş-altı il çəkmişdi bu müddət – Zaurun təqribən 14-15 yaşından 19-20 yaşına qədər – valideynlərinə münasibəti başqa cür idi. Əlbəttə, sevirdi onları, amma bu sevgidə bir bəyənməzlik, üstüörtülü, bəzən də açıqdan-açığa rişxənd, istehza da var idi – valideynlərinin yaşayış tərzinə, köhnəlmiş anlayışlarına və zövqlərinə bir növ ağız büzərdi. Amma, eyni zamanda, bu bəyənmədiyi həyat tərzinin bütün niyaz-imtiyazlarından da bolluca istifadə edirdi, bahalı hədiyyələrdən – ali məktəbə daxil olduğu il atası ona, "Moskviç" bağışlamışdı – imtina eləmirdi. O illər Zaurun bütün marağı idmanla, caz musiqisiylə, rəqslərlə və qızlarla, xarici geyim-gecimlərlə və xarici filmlərlə bağlı idi.

Valideynləri ev-eşiklərini ağır, zəhmli, tünd mixəyi rəngli köhnə mebellə doldurmuşdular. (Belə mebel sonralar yenə dəbə mindi, amma o illər geriliyin, pis zövqün rəmzi kimi görünürdü Zaura). Valideynləri bufetlərinin üstünü, servantlarının içini bahalı qab-qacaqla doldurmuşdular, masanın, hətta röyalın üstünə də iri büllur güldanlar, mürəbbə vazaları, gülqabılar düzülmüşdü. Valideynləri hind filmlərindən zövq alırdılar, atası saatlarla radiocihazı qurdalayıb ərəb və İran musiqisinə qulaq asardı – ləzzətlə gözlərini də yumardı, qulağını dirəyərdi cihazın dinamikinə, necə deyərlər, "çorta gedərdi" və yalnız hərdən-birdən ağzını marçıldadıb "bəh-bəh" deyərdi. Valideynləri böyük cah-cəlallı məclislər düzəldərdilər, bu məclislərdə uzun-uzadı, adamın ürəyini çəkən duzsuz sağlıqlar deyilərdi. Və valideynləri elə bil iynə üstündə oturardılar: amandır, birdən qonaqların yeri səhv düşər, başda oturmalı qonaq aşağı düşər, aşağıda oturmalı adam başa keçər, amandır, birdən bir adam yaddan çıxıb qalar, sağlığına badə qaldırmazlar, amandır, birdən siyahının sırası, ardıcıllığı pozular: kiminsə ünvanına əvvəlcə sağlıq deyilər (halbuki onun sağlığı sonra deyilməliydi), kiminsə sağlığı sonra deyilər (halbuki əvvəl deyilməliydi) və belə məclislərdə tamadalığa məhkum olmuş bədbəxt, yu-

mordan məhrum biçarə, dəridən-qabıqdan çıxardı ki, məzəli bir söz desin və dediyinə də bircə özü gülərdi, amma qonaqlar da başa düşəndə ki, bu yerdə gülmək lazımdır, birtəhər, zornan irişərdilər... Valideynlərinin bütün bu həyat sistemini Zaur öz-özlüyündə "müsəlmançılıq" adlandırardı və heç fikirləşməzdi ki, bədbəxt müsəlmanlar haçandan sağlıq deyiblər görəsən, haçandan bəri tamada seçiblər?

Bir də ki, saysız-hesabsız qohum-əqrəbaları vardı və tez-tez onlara təşrif gətirən bu yad adamlarla kəlmə kəsmək, xoş-beş eləyib, hal-əhval tutmaq məcburiyyəti vardı... Bir də evlərinə gələnlərlə anasının daimi söhbətləri, qeybətləri vardı: kim necə yaşayır, kimi hara qabağa çəkiblər və məlumdur ki, nə yolla çəkiblər, kim kimin adamıdır, kim kimin arxası, dayağıdır, kim kimin yerlisidir, filankəs filankəslə gəzir, filankəs də filankəslə, filankəs filan qədər qazanır, filankəs filan şeyi alıb, filankəs arvadını döyür, ya filankəs ərinin başına min fırıldaq açır...

Bütün bunlar Zaurçün yad və yabançı idi, onun sevmədiyi, bəyənmədiyi, bəzən, hətta nifrət bəslədiyi başqa bir aləmin bəlirləri idi. Və bu aləmin təzahürləri Zaurun canını lap boğazına yığan vaxtlarda o, hətta öz valideynlərinə də xor baxırdı. Amma qəribədir, bu cür münasibətin nəticəsi tamam başqa olurdu. Zaur bu anlarda valideynlərinə az qala ikrah hissi ilə yanaşsa da, onların sədəqələrindən imtina etmirdi, əksinə, elə bil daxilində valideynlərinə qarşı bir növ ifrat, təmənnaçılıq hissi oyanırdı: müxtəlif şəkillərdə, müxtəlif bəhanələrlə valideynlərindən elə hey bir şey çəkib qoparmaq istəyirdi. Valideynlərindən deyəndə – anası evdar qadındı, atası idi qazanan, amma atasına birbaşa müraciət etməyə cəsarəti çatmırdı, atasıyla aralarında müəyyən pərdə saxlanırdı, odur ki, tələblərini, istəklərini anasının vasitəçiliyi ilə edirdi: "palto, kostyum, almaq istəyirəm", "səfərim var" və sairə səbəblər gətirirdi. Bəzən ürəyinin sözünü zarafata salıb deyirdi: "kimçün saxlayırsız bu pulları, bilmirəm, tək bircə balanıza da xərcləməyəndə kimə xərcləyəcəksiniz professorun var-dövlətini?"

Hər istəyinə, hər arzusuna əməl olunurdu Zaurun və qəribədir – valideynlərinin oğullarına qarşı bu səxavəti, bu əliaçıqlığı oğullarında minnətdarlıq hissi oyatmırdı, olsa-olsa içi istehza qarışıq məmnun bir təbəssüm qonurdu dodaqlarına...

O illərdə Zaur su pərisinə oxşayan sarışın saçlı Tanya adlı bir qızla gəzirdi. Tanya idmançı idi, yelkənli qayıqları sürmək üzrə çempion idi. Məlum deyil ki, hansı yollarla Zaurun anası oğlunun kiminlə gəz-

diyini iyləyib-çüyləyib bilirdi. Bu əlaqə heç ürəyindən deyildi Zivər xanımın və nədənsə həmişə o qız haqqında cəm halında danışardı:

– Yenə sənin Tanka-mankaların zəng eləmişdi...

Tanka-manka həmin o Tanya adlı qız idi, həmin o su pərisinə oxşayan qayıq çempionu. Və həmin o su pərisinə oxşayan sarışın qayıqçı qız günlərin bir günündə ata-anasıyla Lvova köçdü və Zaurun həyatından həmişəlik qeyb oldu... Zaur az-az xatırlardı onu, hər dəfə xatırlayanda elə bil yaddaşına ilıq bir bahar mehi əsirdi – uzun sarı saçları islanmış Tanyanı gözləri qarşısına gətirən kimi dərhal xəyalında dənizin sonsuz maviliyi – qızın gözləri rəngdəydi bu mavilik – bir də dalğaları yarıb aşan iri ağ yelkənli qayıqlar canlanırdı.

Zaurun atası, geoloji-mineraloji elmlər doktoru, professor Məcid Zeynallı nə qazanmışdısa öz əlinin zəhmətilə, uzun və çətin həyat mübarizələrində qazanmışdı. 30-cu illərdə ucqar bir dağ kəndindən Bakıya gələndə Məcid Zeynallının yamaqlı çəkməsi, bircə dəst boz şalvar-köynəyi və şalvarının cibində cəmi-cümlətanı üçcə manat pulu vardı... Məcid mədənlərdə qara fəhlə işlədi, vağzalda hambal işlədi, hətta bir müddət yeməkxanada aşpaz köməkçisi işlədi. Rabfakın axşam şöbəsində təhsil aldı. Xüsusi bir qabiliyyətə malik olmasa da zəhmətsevərlik, yuxusuz gecələr, inad gücünə universitetə daxil oldu, oranı əla qiymətlə bitirib Leninqrada aspiranturaya getdi... 1936-cı ildə Leninqradda dissertasiya müdafiə elədi, elmlər namizədi oldu. Bakıya qayıtdı və elə həmin il işə düzəldiyi institutun makinaçısı Zivərlə evləndi... Zivərgilin Dağlı məhəlləsində dədə-baba evləri vardı. İkimərtəbəli evin ikinci mərtəbəsini kirayə verərdilər, birinci mərtəbəsindəki iki otaqda isə Zivərin anası və bacılarıyla bir yerdə Məcidlə Zivər düz bir il yaşadılar. Bir il sonra Məcidgil şəhərin mərkəzində azad olunmuş mənzillərdən birinə köçdülər, sonralar qonşularındakı iki otağı da öz mənzillərinə qatdılar və indiyəcən də burada yaşayırdılar...

Qırxıncı ilin sentyabrında Zaur dünyaya gəldi...

Dava düşdü və topçu-zabit Məcid Zeynallı Sevastopolda yaralandı, qospitaldan sonra təcili Bakıya çağrıldı və bir dəstə geoloqla bir yerdə İrana göndərildi. Davanın axırınacan İranda qaldı. İrandan gətirdiyi şeylər içində Zaurun ən çox yadında qalan laklı çəkmələr və əlvan şokolad qutuları idi... Davadan sonra Məcid Zeynallı doktorluq müdafiə elədi, kafedra müdiri təyin olundu və Qırmızı Əmək Bayrağı ordeni aldı.

Təhminənin falında bir şey həqiqət idi: yaşa dolduqca Zaur, doğrudan da, yumşalırdı, mülayimləşirdi. Əvvəla, valideynlərinə qarşı

mehribanlaşmışdı. Elə bil münasibəti daha təmənnasız olmuşdu. Doğrudur, yenə də hərdən-birdən anasına: "yaxşı, bir əlivizi cibivizə atın görək, – deyirdi, – professorun pulları kif atıb", amma indi ata-anasından pulu da elə bil bir növ utana-utana, çəkinə-çəkinə alırdı... İşə girəndən sonra özü də qazanırdı. Doğrudur, donluğu xərcinin onda birini də ödəməzdi, amma, buna baxmayaraq, hər dəfə anasından pul alanda deyirdi ki, borc götürürəm, maaşda qaytaracağam: hər ikisi bilirdi ki, bu günü-gündən artan borc heç bir vaxt ödənilməyəcək...

Bir dəfə isə lap pərt oldu. Əslində bu pərtlik də deyildi, nə isə bir başqa hiss idi. Zaur biləndə ki, atası onun adına üçotaqlı kooperativ mənzil yazdırıb və pulunu da verib, həm bir qədər əsəbiləşdi – "kim bilir haçan hazır olacaq bu mənzil, ondansa bu pulları verəydi, indi xərcləyəydim" – deyə düşündü, həm bir az şəstinə dəydi – deməli, mənim gələcək mənzilim də atamın hesabınadır, amma bir tərəfdən də sevindi – hər halda özünün ayrıca evi olacaq... Belə ayrıca otaq həsrətində olurdu çox vaxt, tez-tez lazım olurdu ona belə bir məxsusi mənzil... Amma hər halda... Bir dəfə atası özü bu barədə söhbət saldı. Bu söhbəti açmaq üçün atası qəsdən elə vaxt seçmişdi ki, Zivər xanım evdə olmasın.

– Əlbəttə, – dedi atası, – biz istərdik ki, həmişə sənlə bir yerdə yaşayaq, amma bilirsən özün də, – bunu gizlətməyin nə mənası var – ananın xasiyyəti tünddür. Sənin gələcək arvadın lap mələikə olsa da, ikisi bir yerdə yola getməyəcəklər. Ailədə narazılıq, dedi-qodu nəyə lazımdır, ondansa bu başdan işimizi elə tutaq ki, arada hörmət-izzət qalsın... Vaxtdır, sən də gərək evlənmək barədə fikirləşəsən. Bizim də daha baba, nənə olmaq yaşımızdır. Əməlli-başlı fikirləş, hər cəhətcə götür-qoy elə. O vaxta ev də hazır olar... İnşaallah, o vaxta gərək müdafiə də eləyəsən...

Atası heç bir vaxt onunla belə danışmamışdı. Ümumiyyətlə, az-az danışırdılar, atası elminə kitablar aləminə qapılmış qaradinməz bir adam idi, arvadıyla nadir hallarda danışar, oğluyla isə demək olar ki, heç danışmazdı. Bu cür açıq sözləri isə Zaur, ümumiyyətlə, birinci dəfə eşidirdi ondan. Elə buna da mat qalmışdı. Amma bundan daha artıq başqa bir şeyə mat qalmışdı Zaur. Mat qalmışdı ki, atası neçə illər bundan qabaq öz həyatını dəqiq qrafik üzrə qurduğu kimi, indi onun, Zaurun da həyatını bu cür dəqiq planlaşdırmışdı: ali təhsil, dissertasiya, mənzil, evlənmə, övlad... Doğrudur, bəzən görürsən gözlənilməz hadisələr də olur, məsələn: İkinci Dünya müharibəsi. Qrafik müəyyən

dərəcədə pozulur. Amma hər halda İkinci Dünya müharibəsi də, ağır yaralanması da Məcid Zeynallının çox gənc yaşlarında müəyyənləşdirdiyi həyat cədvəlini – qarşıya qoyulmuş bir məqsəddən yeni bir məqsədə gedən dümdüz yolu dəyişə bilməzdi. Və bu dümdüz yol üzrə gedən hərəkəti Məciddən sonra onun oğlu Zaur davam etdirməli idi. Sonra isə, inşalllah, Zaurun oğlu qədəm qoymalı idi bu yola...

***

Şam yeməyindən sonra atası öz iş otağına çəkildi, Zaur jurnalları vərəqləyirdi ki, birdən Zivər xanım:

– Bura bax, – dedi, – qulağıma cürbəcür sözlər çatır ha...

Zaur "Oqanyok"dakı krossvordu gözdən keçirərək laqeydcəsinə:

– Nə sözlər?

– Səni tez-tez bir xanımla görürlər.

"Oqonyok"u bir qıraға qoydu:

– Nə xanımla?

– Nə bilim, nədir onun adı – Nərminədi, Təhminədi nədi...

Zaur hiss elədi ki, qızarıb pörtür və qulaqları od tutub yanır. Özünü ələ alıb:

– Nədir ki? – dedi.

Yaxşıdır yenə sifətində bir az həya qalıb, – dedi anası, – bir gözümün içinə düz bax görüm.

Zaur güclə gülümsündü və anasının gözlərinin içinə baxdı.

– Düzdür ki, onu maşınına mindirib bütün Abşeronu gəzdirirsən?

"Aman Allah, hər şeyi yerli-yataqlı çatdırıblar".

– Bilmirsən ki, yerin qulağı var?.. Heç ağlın var, heç bir beynivə vurursan? Ərli arvaddır axı... Sənin Tanka-mankalarından deyil...

– Kimdir bu xəbərləri sənə çatdıran?.. Camaatın işi-gücü qurtarıb...

– Yox, görünür sənin işin-gücün qurtarıb... Heç əməllərindən utanıb eləmirsən... Bura bax, gör nə deyirəm, sən day balaca uşaq deyilsən. Bığlı, saqqallı yekə kişisən... Mən heç vədə sənin işlərinə qarışmamışam ki, hə, de də, qarışmamışam, yox? Amma bu səfər, bax, deyirəm, aç qulaqlarını yaxşı-yaxşı eşit, gör nə deyirəm. Nə qədər ki, atovun qulağına çatmayıb, biryolluq bu işdən əl çək. Bildin?

Məsələnin bu cür qoyuluşu özündən çıxarırdı Zauru: nə ultimatumdur bu belə, o südəmər körpə-zaddır bəyəm? Amma dinmədi... Bəlkə elə Zivər xanım da gərək söhbətini burada xətm eləyəydi. Sözünü bununla qurtarsaydı Zivər xanım, hər şey bəlkə ayrı cür olar-

dı. Amma Zivər xanım harın arvad idi, içində hikkəsindən qaynayırdı və dilini dişləyib demək istədiklərini ürəyində saxlaya bilməzdi. Və dediyi sözlər də bütün sonrakı hadisələr üçün təkan oldu... Zivər xanım üz-gözünü elə turşutdu ki, elə bil çimçəşirdi, iyrəndiyi murdar bir şey haqqında danışırdı:

– İndi də sənə ilişib, – dedi, – idarəvizin bütün kişiləriylə fırıldaq çıxarıb doyub, indi növbə sənə çatıb?!

Zaur yerindən sıçradı:

– Bəsdir, – dedi, – ayıbdır sənin̈çün, bu cür sözlər danışmaq... onun-bunun ara söhbətlərini təkrar eləmək yaraşmaz sənə...

Yəqin bunu çox sərt dedi, çox əsəbi dedi, anası elə bil barmağını dişlədi, sövq-təbii bir hisslə elə bir şeyi duydu ki, o hələ Zaurun özünə də tam aydın deyildi. O vaxt, Zaurla Təhminənin əlaqələri, Zaurun fikrincə, qeyri-ciddi, yüngül bir şey olduğu vaxtda Zivər xanım qadınlıq və analıq intuisiyası ilə bu əlaqələrin ciddiliyini dərk eləmişdi.

Kinayəylə:

– Ara söhbətləri?! – deyə təkrar elədi. – Əcəb ara söhbətləridir! Bütün şəhər danışır da bu söhbətləri... Bircə sənin kimi uşağı ələ salıb aldada bilərlər ki, bütün bunlar ara söhbətləridir, boş qeybətlərdir... Bütün şəhər bilir ki...

– Bütün şəhər... Anket paylamısan bütün şəhərə?

– Anket-zad lazım deyil... Hamı bilir də... Özü də onunçün təfavütü yoxdur kim olsun... nə idi o kişi, o yaşlı kişi var e, dədəsi yerindədir, əşi sizin idarədə işləyir, nədir o köpəkoğlunun adı, balaca dazbaş kişidir e, burnunda da ziyil var...

Bilirdi ki, anası kimi nəzərdə tutur, amma boğazına ip də salsaydılar Zaur Dadaşın adını çəkməzdi...

Zivər xanımın özünün yadına düşdü:

– Hə, Dadaş, deyirəm axı, adı Dadaşdır. Utanıb yerə girmir, həyasızın qızı... Denən, cavan gəlinsən... Sir-sifətdən də babatsan – bu, Zivər xanımın Təhminə haqqında dediyi birinci və axırıncı yaxşı söz oldu: "babatsan" – cavan ərin var... Amma di gəl, gör kimnən eşqbazlıq eləyir – qoca idbar kişiynən...

Zaur dəqiqləşdirməyə çalışdı:

– Deməli, belə çıxır ki, eşqbazlıq eləməyi günah deyil, günahı ondaymış ki, qoca idbar kişiylə eşqbazlıq eləyir?

– Sən mənimlə burada söz güləşdirmə... Kimnən eşqbazlıq eləyir – öz işidir. Bir də o əri qurumsağın işidir. Kül onun başına ki, bu cür

arvadı evində saxlayır. Amma, bax, səndən əl çəksin. Yoxsa, Allaha and olsun, onun başına bir oyun açaram ki, öz adını da yadından çıxarar. – Zivər xanım Təhminəyə nə edəcəyini daha da dəqiqləşdirərək əlavə elədi. – Gözlərini çıxararam o it qızının...

Zaur anasının xasiyyətinə bələd idi, bilirdi ki, anası dediyini eləyəndir, bütün bu əhvalat da, görünür, Zivər xanıma möhkəm toxunmuşdur. Zaur məsələni daha da gərginləşdirmək istəmirdi, odur ki:

– Sən allah boşla görək, ay ana, – dedi. – Aramızda heç nə yoxdur. Bir idarədə işləyirik, tay-tuşuq, bəlkəm indi işdən çıxanda bir-iki dəfə onu maşınla aparmışam, vəssalam... Nə böyük bir məsələ imiş ki bu? Əgər belə ürəyinə salırsansa, yaxşı, söz verirəm ki, bir də onu maşınıma mindirməyim, qoy trolleybusla getsin. – Həmişəki kimi yarızarafat tərzində danışırdı, amma elə bil daxili bir nigaranlıq hissi keçirirdi, nədənsə ona elə gəlirdi ki, Təhminəni bir növ satır və məhz elə buna görə, özünə vicdanı qarşısında bəraət qazandırmaqçün Təhminəni müdafiə eləmək istədi:

– O ki qaldı, Dadaş, – dedi, – səni yüz faiz əmin edə bilərəm ki, bu, yalan sözdür, böhtandır, vəssalam. Mən lap yəqin bilirəm, Dadaşla onun arasında heç bir şey olmayıb, ola da bilməz.

– Sən hardan bilirsən? Özü sənə deyib?

Yox, özü deməyib. İntəhası mən də həmin o idarədə işləyirəm və çörəyi burnuma yemirəm axı... Bu söhbət ağ yalandır.

Amma Zivər xanım heç cür razılaşmaq istəmirdi:

– Tək Dadaşdır bəyəm? Odey bizim qonşu da neçə vaxt onunla "dostluq" eləyib.

Zaur:

– Hansı qonşu? – deyə xəbər aldı və hiss elədi ki, bütün içi donub buz bağlayır.

– Alyanın oğlu da... Spartak... Alya danışırdı, deyir, yazıq gədəyə aman vermirdi. Telefonumuzu, deyir, day yerindən çıxardırdı. Gecə bilməz, gündüz bilməz, zəngi zəngə calayır... Ciyəriyanmış hardan zəng vurурmuş görəsən, öz evindən? Bəs, əri balqabaq harada itib qalıbmış?.. Əh...

İçi elə bil don bağlamışdı Zaurun, elə bil beyni ağırlaşmış, qıc olub qalmışdı, yavaş-yavaş özünə gəldikcə bircə istək hakim kəsilirdi qəlbinə: bu saatca Təhminəylə görüşsün, lapdan, aman, macal vermədən soruşsun Spartak barəsində və cavabından asılı olaraq ya münasibətləri birdəfəlik qırılsın, ya da... Sanki anasının səsini də artıq eşitmirdi.

Anası elə hey üyüdüb tökürdü, deyirdi ki, axır Alya dözməyib, özü işə qarışıb, amma Alya mənim kimi oğluynan danışmayıb, axı oğlu da elə avaranın, yelbeyinin biridir, yox, Alya o çərhəyanın özüylə danışıb, zəng eləyib hədələyib ki, bax, əl-ayağını yığışdır, yoxsa, gəlib saçlarını keçirdərəm əlimə, bircə-bircə yolub tökərəm tüklərivi. – Zivər xanım güldü. – Saçları da deyir, heç özününkü deyil o lotunun, qoymadır, parik taxır başına.

Zaur elə bil bu hədələri artıq icra olubmuş kimi görürdü, elə bil gözləri qarşısında canlanırdı. Təhminənin gözlərinin Zivər xanım tərəfindən deşilməsi, tüklərinin, (bu tüklər parik-zad deyildi, özününkü idi – bunu Zaur yaxşı bilirdi) uzun saçlarının Alya xanım tərəfindən yolunmasını...

– Çıxıram bir az havaya – dedi Zaur.

Küçəyə düşən kimi avtomatdan Təhminəyə zəng elədi.

– Bəli... bəli, eşidirəm sizi. – Telefondan yumşaq kişi səsi gəldi. – Manaf idi - Təhminənin əri.

Zaur dəstəyi asdı...

Axşam düşmüş, hava qaralmışdı. Zaur şəhəri gəzirdi. İki dəfə də zəng elədi. Manafın səsini eşidib asdı. Əlbəttə, salamlaşa bilərdi, öz adını deyə bilərdi və xahiş edərdi ki, Təhminəni telefona çağırsın: axı hər halda, bir idarədə işləyirdilər, neçə müddətdi tanışdılar. Amma belə etmək istəmirdi: əvvəla, ona görə ki, ümumiyyətlə, Təhminənin əriylə danışmaq heç ürəyindən deyildi. İkincisi, bəlkə Manafın qulağına da bir şey çatıb, həm də *Manafın yanında Təhminə necə ona izahat verəcəkdi* – Spartakla "dostluq" eləyib, ya yox? Bütün bu fikirləri beynində dolaşdıra-dolaşdıra şəhəri gəzirdi və gəzdikcə də elə bil sakitləşirdi. Lap tutalım Dadaş, ya elə Spartak Təhminənin adamı olub? Mənə nə? Nəyimdi mənim Təhminə? Arvadım, qızım, bacım? Tamam özgə bir adamdır. Gözəldir, cazibəlidir, məni də cəlb edir, çəkir. Çox gözəl, mən ki, niyyətimə çatdım, yaxınlığımız oldu onunla... Xoş dəqiqələr, saatlar keçirdik... İndi də, özünün dediyi kimi, ayrılmalıyıq. Çox əcəb... Daha iztirab keçirmək, qısqanmaq niyə?.. Nəyimdir mənim?.. heç nəyim... Onun qeyrətini mənmi çəkməliyəm?.. Həm də bütün bu əlaqələri – əgər doğrudan da olubsa bu əlaqələr – bizim münasibətlərimizdən qabaq olub... Mənə nə? Doğrudur, Təhminənin məhz Spartakla olması fikri Zaurun təpəsindən tüstü çıxarırdı. Kim olur-olsun, Spartak olmasın. Spartakı görməyə gözü yox idi. Hələ uşaq yaşlarından, həyətdə bir yerdə oynadıqları, dalaşdıqları vaxtlardan

Spartakdan zəhləsi gedirdi. Spartak satqın idi, daima onları satırdı, həm də qorxaq idi. Zaur uşaqlıqda o qədər əzişdirmişdi ki, Spartakı. Alya xanım, əlbəttə ki, yalan danışır: Təhminə, dünya gözəli Təhminə Spartak kimi bir dəyyusla "dostluq"mu edə bilər?.. Əlbəttə ki, Spartak Təhminəyə heç yaxın da düşə bilməyib və məhz buna görə də ağzını Allah yoluna qoyub artıq-əskik danışmağa başlayıb. Başqa səviyyədə Dadaş da bu cür davranmırdımı? Təhminə özü Zauru başa salmışdı ki, Dadaş necə edir bunu və nə səbəbdən edir? İndi də Spartak? Yəqin söz düşsəydi, Təhminə Spartak məsələsini də dəqiq-dürüst izah edərdi Zaura. Zaurun da ürəyində heç bir şəkk-şübhə qalmazdı...

Axırıncı dəfə 12-nin yarısında zəng elədi, yenə də Manafın səsini eşidib dəstəyi asdı... Evə dönərkən düşünürdü: doğrudan, qəribədir, bax indicə bu saat Manafın səsini eşitdim. Gecədir. Yəqin Təhminəgilin pəncərələri də qaranlıqlaşıb. Onlar bir yerdədirlər, qaranlıq otaqda, gecəni bir yerdə keçirəcəklər, ər-arvaddırlar. Amma bu fikir Zauru Spartak haqqındakı şübhələri qədər incitmir...

Yağış çisələyirdi, Zaur evlərinə tərəf addımlayarkən birdən ağlına gəldi ki, sabah Təhminənin təzə iş yerinə zəng eləyə bilər. Telefonunu bilmirdi. Dadaşdan öyrənə bilər. Bəlkəm elə indi gecəyarısı Dadaşa zəng vurub öyrənsin? Məzəli bir əhvalat yadına düşdü, bu əhvalatı Təhminə danışmışdı ona: bir gecə Nemət içib dəm olub, gecə saat üçdə zəng eləyib Dadaşdan Təhminənin gözlərinin rəngini soruşub.

– Yox, mən belə etməyəcəyəm, – deyə düşündü Zaur. – Gecə zəng eləməyəcəyəm Dadaşa. Səhər idarədə xəbər alaram.

Sabahısı gün uzun zaman Dadaşa yanaşa bilmədi, otaq adamla dolu idi. Təhminənin yerində təzə bir işçi – qara bir qız oturmuşdu. Zaur Nemətlə bir-iki kəlmə ordan-burdan danışıb çıxdı otaqdan. Fasilə zamanı gələndə gördü ki, Dadaş otaqda təkdir... Dadaş iri şişman portfelini açmışdı, stolunun üstünə qəzet salıb evdən gətirdiyi yeməyini çıxartmışdı. Toyuq yeyirdi, otaq istiydi və Dadaşın sir-sifətindən tər axırdı, tər damcıları toyuğun yağına qarışırdı və bir an Zaurun bu görünüşdən ürəyi qalxdı...

Dadaş Zauru görüb:

– Buyur, buyur, – dedi, – gəl çörək yeyək...

Zaur:

– Nuş olsun, - dedi, kənardakı stolun dalına keçdi. Dadaş başa düşdü ki, Zaurun onunla işi var. Ağzındakı iri tikəni udub:

– Mənə sözün var? – dedi.

– Bəli. Təhminənin təzə işində telefonunu bilmirsiz ki?

Dadaş:

– Bilirəm, dedi və barmaqlarının yağını silmədən əlini pencəyinin içəri cibinə saldı, oradan balaca telefon dəftərçəsini çıxartdı, ovulub didilmiş vərəqləri çevirdi, telefon nömrəsini tapdı və Zaura dedi, Zaur yazmadı. Bu nömrə də, Təhminənin ev nömrəsi kimi yaddaşına həkk olunacaqdı.

Daha Dadaşla bir işi yox idi, öyrənmək istədiyini öyrəndi, həm də şahidsiz-filansız, artıq söz-söhbət nəyə gərək? İndi gedə bilərdi, amma bir az yubandı, nədənsə birdən soruşmağı qərara aldı:

– Bəs, niyə getdi axı burdan Təhminə?

Dadaş ağzındakı loxmanı uzun zaman çeynədi, nəhayət, uddu, bundan sonra da cavab vermədi, hələ bir müddət də tikəsini həzm eləyə-eləyə, udquna-udquna, səssiz-səmirsiz başını buladı. Axır ki:

– Əşi, bu qızın işi uzun həngamədir, – dedi. – Elə ömrü boyu belə olacaq – kəpənək kimi ordan bura, burdan ora uçacaq... – Dadaş kəskin və sərt danışırdı, amma sonra sakitcə əlavə elədi: – Yəqin köhnə məhəbbəti yadına düşüb.

Zaur mat-məəttəl qalıb:

– Nə məhəbbət? – dedi.

Nə bilim, nədir o oğlanın adı, Muxtardır deyəsən. Məhərrəmov Muxtar. Televiziyada rejissordur nədir... Bilmirəm, aralarında nə haqq-hesab var, amma yüz faiz əminəm ki, Təhminəni o dartıb apardı televiziyaya. Diktor eləyəcək onu. Bu qız guya filosofdur, diplomu var, universitet qurtarıb, indi gedib diktor olacaq. Ay-hay... Nə olub deynən, nəyin əskikdi burda?! Maaş kimi maaşın vardı, qonorardanzaddan da yazırdıq hərdən, kefin istəyəndə gəlirdin, kefin istəyəndə gedirdin...

Dadaşın sözlərindən açıq hiss olunurdu ki, Təhminədən yanıqlıdır, möhkəm inciyib onun bu gözlənilməz hərəkətindən. Yəni, doğrudan, görəsən, Dadaş Təhminəni sevirmiş ki, bu etibarsızlıq ona belə ağır təsir eləyib? İndi nə idi onu danışdıran?! – İnciklik, yanıq, qısqanclıq, ya da sadəcə himayədarlıq hissi, – heyifsilənirdi, yanırdı bəlkə Təhminəyə ki, öz qədrini bilmir, həyatda yerini tapa bilmir... Ya da elə bütün bu hisslərin hamısı bir yerdə hakim idi Dadaşa? Yaxşı, bəs bu Məhərrəmov deyilən kimdir belə, bu hardan çıxdı, bu nə yuvanın quşudur görəsən? Köhnə məhəbbət... Bəlkə "köhnə tanışım dəvət eləyirdi məni televiziyaya" deyəndə Təhminə məhz elə o Məhərrəmovu

nəzərdə tuturdu. Köhnə tanış. Elə hara baxsan bunun köhnə tanışlarıdır. Belə də qadın olar, ilahi?

Dadaş yeyib qurtarmışdı, toyuğun sür-sümüyünü yığışdırıb qəzetə bükürdü. Zaur da ayağa durmuşdu ki, otaqdan çıxsın, amma bu vaxt Dadaş qəfilcə dedi:

– Zaur, bala, sənin atavı yaxşı tanıyıram, hörmətim var o kişiyə. Sən də elə mənim oğlum, incimə sözümdən, amma mən sənə məsləhət eləyirəm: Bir əmi kimi. O arvada baş qoşma.

Zaur heç belə söhbət gözləmirdi, bir an özünü itirdi elə bil. "Deməli, belə, – deyə düşündü. – Deməli, bu xəbər hamıya yayılıb. Anası düz deyirmiş, yerin qulağı var. Yaxşı, əgər belədirsə, onda, deməli, Dadaş həmin o Muxtar Məhərrəmovdan söz salanda hər şeyi bilirdi, – bilirdi Zaurla Təhminənin münasibətlərini. Elə çıxır ki, acıqcan deyirmiş bu sözləri Zaura, ondan hayıf çıxmaq üçün, intiqam almaq üçün... Axı bütün bu şayiələr düzdürsə, onda, deməli, Zaur Dadaşın da rəqibidir, məqsədinə nail olmuş rəqibi".

– Yaman afətdir o qız. İnan mənə. Mən hər şeyi başa düşürəm: gözəldir, həddən ziyadə gözəldir, cazibəlidir. Sən də cavan oğlansan... Amma ondan mümkünsə gen gəz. Səni lopp eləyib elə udar ki, heç ruhun da inciməz...

Zaur ifadə tərzinə mümkün qədər çox zəhər qataraq:

– Bəs mən elə bilirdim, siz ona yaxşı münasibət bəsləyirsiz, – dedi.

Bu səfər Dadaş tutuldu, amma dərhal özünü ələ aldı və sakit-sakit sözünə davam elədi:

– Mən, doğrudan da, ona pis münasibət bəsləmirəm. Yazığım gəlir ona. Bir insan kimi yaxşı cəhətləri də var. Amma nə olsun? Özü özünü məhv eləyəcək... Onunçün heç bir qanun-kitab yazılmayıb, – kefi neçə istəyir, elə də yaşayır. Dünya-aləm vecinə deyil... Axı, belə də olmaz... Qayda var, adət var...

"Yaxşı, ay kaftar haramzada, bəs sən, sinli, həm də evli kişi altdan-altdan Təhminəyə maz gedəndə – bu hansı qayda-qanuna, hansı adət-ənənəyə görə idi, hə? Özü də sənin işçin idi, tabeliyində idi", – Zaur belə düşündüsə də dinmədi, maddım-maddım Dadaşın sifətinə baxırdı. Dadaş isə get-gedə daha çox cuşa gələrək danışırdı:

– Onunçün heç bir təfavütü yoxdur, kimiynən dostluq eləsin... Kimdir onun tanış– bilişləri? Baza müdirləri, nə bilim alverçilər, filan... Nə var, nə var, təzə bir parça alacaq, ya şuba, ya nə bilim, üzük-sırğa...

Zaur bu bulanıq söz selinin qarşısında tam bir köməksizlik duyurdu, axı, hissə qapılıb çılğın etirazlardan başqa nəylə-hansı dəqiq fakt-

larla, dəlil-sübutlarla bu axının qarşısında dura bilərdi. Dadaş ancaq gülərdi onun çılğınlığına, "Ürəyi təmiz uşaqsan, onunçün də aldanırsan, onunçün də səni aldadıb barmağına dolaya bilib" – deyərdi, demәsə də düşünərdi. həm də axı Zaur özü əmin deyildi ki, Dadaşın sözləri tək bir quru böhtandır. Təhminənin hər yerdə tanışları vardı, – doğrudan da, beləydi bu – ən müxtəlif adamlar, cürbəcür peşə sahibləri düşməzdi dilindən. Gərək paltarlarını Bakının ən yaxşı dərzisində tikdirəydi, gərək şəkillərini beynəlxalq konkurslarda mükafatlar almış məşhur fotoqraf çəkəydi, bərbəri də gərək şəhərdə birinci bərbər olaydı, diş həkimi də. Nə deyirsən de, belə şeylərin dəlisiydi Təhminə. Belə şeylər, bu cür həyat tərzi isə müəyyən adamlarla, əksər hallarda kişi xeylaqlarıyla əlaqədar idi və belə olan surətdə, bütün bu imtiyazları havayı qazanmırdı ki, Təhminə. Təmənnasız olunmurdu ona bu lütfkarlıq – tapılmayan geyimlər, növbəsiz biletlər, qıt şeylər...

Dünəndən bəri ikinci dəfədir ki, Zaur Təhminə haqqında dəhşətli şeylər eşidirdi və onu ağrıdırdı eşitdikləri. Amma məgər üç ay bundan qabaq – yaxınlıqlarından əvvəl də eşidib qulaqardına vurmurdumu ara-sıra aralığa düşən bu cür söhbətləri?.. Onda niyə bu söhbətlər Zaurun zərrəcə vecinə deyildi? Əksinə, bəlkə bu söhbətlər bir növ Zauru şirnikdirmişdi də. Bəlkə də haradasa, qəlbinin dərinliklərində fikirləşmişdi ki, əgər Təhminə, doğrudan da, belə "yüngülməcazdırsa", ayağı sürüşkəndirsə, mən niyə kənarda qalım? Zaur istədiyinə nail oldu, daha indi ağrımaq, nəyisə ürəyinə salmaq neyçün? Olan olub, keçən keçib... Mənim nə borcuma? Təhminə kimdir ki, mənimçün? Üç ayın xoş xatirələri, vəssalam.

Belə düşünürdüsə də, haradansa xəstə diş kimi hovutqayıb zoqquldayan ağrını da ovuda bilmirdi. Hər halda Dadaşın cavabını verməli idi:

– Mən heç bilməzdim ki, – dedi, – siz Təhminə haqqında belə pis danışarsız.

Dadaş quru bir tərzdə:

– Mən olanı deyirəm, – dedi. – Səni də xəbərdar edirəm. Çünki sən də mənim oğlumsan. Əmin kimi sənin...

Çox gülməli çıxdı: "Mən sənin əminəm, sən mənim oğlum" və Zaur qəhqəhə çəkdi. Əsəbi bir gülüş idi bu, Dadaşın düz gözlərinin içinə baxa-baxa gülürdü. Və gülə-gülə də:

– Nə siz mənim əmimsiniz, – dedi, – nə də mən sizin oğlunuz. Mən uşaq deyiləm... Nə elədiyimi özüm bilərəm...

Düz üzünə dedi bunu Dadaşın və özünün də xoşuna gəldi ki, fikrini necə də açıq, mərd-mərdanə bu burnu ziyilli kişinin üzünə çırpdı.

"Mənimlə ömürlük düşmən olacaq, cəhənnəmə ki, olur-olsun. Əlindən gələni beş qaba çəksin" deyə düşündü və xudahafizləşmədən şəstlə otaqdan çıxdı...

Dördüncü fəsil

Həm vüsali vurur od canıma, həm hicranı
Bir əcəb şəm ilə düşdü səri-karim bu gecə.

Hər bir insan yaşadığı evin içinə nə sayaq alışır, məhrəm olursa, maşın sürən adam da şəhərə, şəhərin küçələrinə, meydanlarına, dalan və döngələrinə, enişinə-yoxuşuna o cür alışır, məhrəm olur. Evlərin sakinləri mənzillərinin hər əyər-əskiyinə bələd olduqları kimi, maşın sürən adam da yolların hamarına, çuxuruna bələd olur. "Dünən burada keçidi bağlamışdılar, bu çəpərin üstündə "sağa burulmaq olmaz" nişanı vurulub, bu yolayrıcında işıqfor pis işləyir, bu döngənin dalında çuxur var" – bütün bu əlamətlər sükan arxasına keçmiş adamçün gündəlik qayğılardır – daman dam, xarab olmuş su kəməri, sınmış pəncərə, cırıldayan döşəmə – ev sahiblərinin gündəlik qayğıları olduğutək. Mənzilinə alışmış adam otağının içində qaranlıqda da yeriyə bildiyi kimi Zaur da şəhərin avtomobil yollarını, küçələri, döngələri gözübağlı da seçə, tapa, burula bilərdi... Əlbəttə, gözübağlı sürmürdü maşını, diqqətlə başqa maşınları, piyadaları, işıqforları, yönəldici milisin hərəkətlərini izləyirdi. Amma şəhəri beş barmağı kimi tanıdığı üçün maşını sürərkən müəyyən istiqamət barəsində düşünmürdü, fikirləri tamam başqa, kənar məsələlərə yayınırdı... İndi isə o yalnız Dadaş haqqında fikirləşirdi – gündüz elədikləri söhbət haqqında...

Dadaşın sifətini gözləri qarşısında dönə-dönə canlandırır, ona getgedə daha artıq nifrət edərək, hey söyürdü kişini: "Adam satan köpokoğlu... Gör bir nə ağızdolusu danışırdı: "onunçün heç təfavütü yoxdur, – alverçilər, baza müdirləri..." Yaxşı, madam ki, heç təfavütü yoxdur, səni niyə mağmın qoyub? Yeddi həndəvərinə buraxmayıb, odur ki, belə salveylənmiş küçük kimi zingildəyirsən də. Ağzıgöyçəklik eləyib, özgənin üstünə min çirkab atırsan!"

Amma ən dəhşətlisi o idi ki Zaur yüz faiz əmin ola bilmirdi: doğrudanmı Dadaşın atdığı çirkab ancaq onun öz uydurmalarıdır, real gerçəklik deyil? O, Təhminə haqqında Dadaşın sözlərindən təcrid oluna-

raq düşünmək istəyirdi və heç bir şey müəyyənləşdirə bilmirdi. Elə bil iki Təhminə vardı – biri Zaurla görüşlərdə mövcud olan Təhminə – Zaur onun hər sözünə inanmağa hazır idi biri də başqa, Zaura yad, Zaurun tanımadığı, amma bir çox adamların fikrində, dilində, təsvirində mövcud olan Təhminə... Hansı Təhminə daha real, daha həqiqi idi? Bəlkə elə ikisi də. Biri əsil Təhminə... biri də onu yamanlayanların, onu istəməyənlərin öz təsəvvürlərində, xəyallarında yaratdıqları, bəzədikləri Təhminə...

Axı onu bəzəyən, onun haqqında olmazın iftiralar uyduranların özləri də Təhminəyə biganə deyildilər – kəsirdilər ondan, ya nifrət edirdilər ona, ya kiməsə qısqanırdılar Təhminəni, ya paxıllıq edirdilər, ya hayıf çıxmaq istəyirdilər. Onun gözəlliyinin tamarzısında olanların çoxusu isə əslində istəyinə çatmayıb, heç olmasa uzun dilləriylə, bayağı söhbətləriylə, müfəssəl təsvirləriylə qurdlarını öldürmək istəyirdilər.

...Və bütün bu şeylər haqqında fikirləşdikcə Təhminəyə zəng eləmək həvəsi get-gedə sönüb gedirdi. Hələ dünən bu zəngin bir mənası vardısa, bu gün, Dadaşla söhbətdən sonra tamam yersiz bir iş olardı. Zəng eləyib nə barədə soruşacaqdı? Spartak barədə, ya o televiziya rejissoru barədə? Yaxud baza müdirləri, alverçilər barədə? Təhminə nə cavab verərdi bütün bu sorğu-suala? "Əgər məni fahişə hesab eləyirsənsə, onda nə təfavütü var sənin üçün, – deyə bilərdi, – yox, əgər hesab eləmirsən, necə ağlıva sığışdıra bilirsən bütün bu şübhələri?" Bəlkə də hər şeyi inkar edəcəkdi, bircə o televiziya rejissorunu boynuna alacaqdı... Ya Spartakı... Nə isə, yenə qarışırdı Zaurun fikirləri. Yox, özünü ələ almalıdır. Bütün bu şeylər haqqında düşünməməlidir. Gözləməlidir, vəssalam. Heç kəsnən Təhminə barəsində söhbət aparmaq lazım deyil. Özünə də zəng eləmək olmaz... Gözləmək lazımdır vəssalam... Gec-tez özü zəng eləyəcək, buna Zaurun şəkk-şübhəsi yox idi. Özü zəng eləsə, özü görüş təyin eləmək istəsə, görüş təyin eləsə, o zaman sözü açmaq olar.

***

...Günlər bir-bir ötürdü. Təhminədən səs-soraq yox idi...

***

Bir axşam Zivər xanım sözarası dedi ki, Zaurun kooperativ mənzili bir-iki aya hazır olmalıdır. Zaur bu eyhamın gizli mənasını başa düşürdü: mənzildən söhbət salanda, anası ardınca evlənmə barəsində

söz açardı... Zaur düşünürdü ki, doğrudan, təəccüb qalası işdir. Axı lap yaxşı bilirdi ki, anası gələcək gəliniylə yola getməyəcək, aralarında dedi-qodu olacaq, sancıb-dalayacaq gəlinini, yox əgər gəlin də dilli-dilavər olsa, söz götürməyəcək, cavabını verəcək, dava-mərəkə ərşə qalxacaq, sözgap düşəcək arahğa və bütün bunlara baxmayaraq, Zivər xanım oğlunu evləndirməyə, qayınana olmağa can atırdı, tələsirdi... Ərşdon-kürşdən, o yandan-bu yandan başlanardı bu söhbət, filankəs oğlunu evləndirdi, peşmankəs qızını ərə verdi, filançün elçi gediblər. Sonra Zivər xanım hərləyib-fırlayıb gətirərdi sözü Zaurun üstünə, başlardı ki, bəs, daha yekə oğlansan, evlənmək vaxtındır, nə çağacan subay gəzib dolanacaqsan, bizim də day o yaşımız deyil, atan iki dəfə infarkt keçirib, mənim özümü bu andıra qalmış astma lap əldən salıb, rəvadırmı ki biz bu dünyadan nisgilli, nakam köçək, oğlumuzun şad gününü görməyək, bircə balamızçün elçi düşməyək, könlü istəyən, gözü tutan bir təmiz qızın "həri"sini almayaq, toyunda sındıra-sındıra oynamayaq, totuq-motuq nəvələrimizi atıb-tutub oynatmayaq və s. qəbildən sözlər, sözlər, sözlər... boş-boş sözlər. Xeyr, bağışlayacaqsan, boş-boş sözlər deyil bunlar... Bizim cavanlığımız çətin keçib, aclığa, kasıbçılığa, ehtiyaca, sıxıntıya dözmüşük, amma bir arzumuz olub, atanın da, mənim də ki, barı balamız xoşbəxt olsun, bu dünyada heç nədən korluq çəkməsin, halal südəmmiş, pak, təmiz bir qıza rast gəlsin, evlənib oğul-uşaq sahibi olsun, biz də qoca yaşımızda baxıb fərəhlənək, ürəyimiz böyüyüb dağa dönsün, o səadət ki, cavanlığımızda bizə nəsib olmadı, oğlumuzun, nəvələrimizin qismətinə düşsün, elə bizim xoşbəxtliyimiz də onların xoşbəxtliyidir də...

Zaur bütün bu bəlağətə səbirlə tab gətirər, bığaltı qımışar, nə "hə", nə "yox" deyərdi, amma bu səfər anasının nitqinə təzə bir cəhət əlavə olundu, uzun-uzadı və mücərrəd arzuları bu səfər konkret bir adla bağlandı. Əvvəl Zaura elə gəldi ki, səhv eşidib.

– Nə? – deyə xəbər aldı, – hansı Firəngiz?

Qonşumuzu deyirəm də, Alyanın qızını...

Bu ad, bu təklif o qədər gözlənilməz idi ki, Zaur hətta özünü itirdi:

– O ki lap uşaqdır.

– Uşaq niyə olur, on doqquz yaşı var. İnstitutda oxuyur. Səndən cəmi-cümlətanı beşcə yaş kiçikdir. Elə-belə də olmalıdır da, ər gərək arvaddan bir az böyük olsun.

Əlbəttə, Zivər xanım özüylə əri arasındakı yaş fərqini nəzərdə tuturdu – səkkiz yaş kiçik idi ərindən.

– Ata-anasının əməlli-başlı könülləri var e... Alya neçə kərəm işarə vurub mənə... Deyir, sən xoşbəxtsən, bir oğlun var, oğlanın işi nədir ki, halva... Odey, mənim də oğlum var, bir qırnıq nigarançılığın çəkmirəm onun. Amma qız ayrı məsələdir. Rastına kim çıxacaq anası ölmüşün, hansı evə, hansı ocağa düşəcək... Mənim qızım, deyir, bir açılmamış qönçədir, tale, deyir, görən kimin bağına salacaq balamı... Adam, deyir o vaxt ürəyin buz kimi eləyir ki, qabaqcadan qızıvı köçürdüyün ailəni tanıyasan. Day mən də lap key Balaxanım deyiləm ki, bilirəm bu sözləri bizimçün deyir... Başa düşürəm bu xalı hara vurur...

– Yaxşı nə qaçhaqaçdır, nə olub belə, qızı qarıyıb evdə qalıb ki? 19 yaşı var da qızın, anası nə belə əl-ayağa düşüb?

– Ay-hay... Mən nə deyirəm, bu nə deyir... Əşi başa düşmürsən nə məsələdir? Nə olsun 19 yaşı var? Bu gün-sabah ərə gedəsidir. Alya xanım da ondan nigarandır ki, kimə gedəcək, hansı evə, hansı ocağa düşəcək. Bir yandan da bizə, bizim ailəyə bələddir, səni tanıyır, gözünün qabağında böyümüsən, hansı ana istəməz ki qızı nəcib yerə düşsün?

– Yaxşı, bəs sənə nə düşüb bu cür canfəşanlıq eləyirsən. Xalqın dərdi-səri sənə qalıb?.. Cavan, göyçək qızdır, vaxtı gələr, gedər ərə də. Sən niyə onun dərdini çəkirsən?

– Mən bəyəm onun dərdini çəkirəm? O qız evdə qalmayacaq, mən səni fikirləşirəm... Belə qızlar çöldə tökülüb qalmayıb ki... Gözəllik deyirsən – gözəllik, ağıl deyirsən – ağıl, yaxşı, hörmətli ailə deyirsən- yaxşı hörmətli ailə, abır-həya, ismət, adamı görəndə pul kimi qızarır, day sənə nə lazımdır?.. Belə qıznan evlənərsən ömrün boyu ürəyivi buz kimi eləyərsən, heç kimin yanında da başın aşağı olmaz... Sən, deyəsən, belə-belə şeyləri hələ əməlli-başlı qanıb eləmirsən?

Qəribədir ki, Zivər xanım Firəngizin bütün məziyyətlərini bir-bir sadaladıqca qeyri-ixtiyari Təhminə gəlib dururdu Zaurun gözləri qarşısında və Zaur bu saatca durub Təhminəyə zəng eləmək, onunla görüşmək istəyini güclə boğurdu.

Zivər:

– Sabah sənin ad gününə gələcəklər, – dedi.

Zaurun fikirləri tamam başqa yerdə olduğu üçün bu xəbərdən diksindi:

– Gələcəklər? Kim gələcək?

– Necə yəni kim? Bəs səhərdən bəri kimdən danışıram... Qonşularımız – Alya, əri... qızlarını da gətirəcəklər.

Zaurun elə bil içində çıraq alışdı: necə olub ki, bunu nəzərə almayıb. Sağ olsun anası, yadına saldı: axı, sabah ad günüdür. Təhminədə də bilir bu günü, dəftərçəsinə da yazıb. Deməli, bax, bu günü gözləyirmiş, ona görə zəng eləmirmiş. Bəhanə lazım imiş ona zəng eləməkçün, yenidən görüşməkçün, bütün əlaqələrini yenidən bərpa eləməkçün... Əlbottə ki, belədir,

İndi Zaur sevinclə düşünürdü bu barədə: çoxdan bəri, ta lap uzaq körpəliyində qalmış uşaqlıq illərindən bəri heç bir zaman ad günü haqqında belə bir intizarla düşünməmişdi. Uşaqlıq illərindən bəri həmişə bu gün – Zaurun ad günü onu darıxdırardı, axı, bu gün onunçün tamamilə yad və yabançı olan qohumlar toplaşar, bayağı söhbətlər edər, duzsuz sağlıqlar deyərdilər, sentyabr ayı olduğu üçün hələ isti olardı. Hamının pal-paltarı islanıb bədəninə yapışardı, otaqlarından tər iyi gələrdi və Zaur səbirsizliklə məclisin qurtarmasını, qonaqların dağılışmasını gözlərdi. İndi isə sabahkı gün haqqında xoş bir intizarla düşünürdü. Ona qiymətli bir hədiyyə bəxş edəcək gün kimi... Gözlənilməz sevinclərlə dolu olan bir gün kimi... Uşaqlıqdakı kimi...

***

Ad günü deyil, ad gününün axşamı zəng elədi... Daha doğrusu, gecəsi. Gecə yarını keçmişdi və təqvimdə, doğrudan da, sentyabrın 23-ü idi – Zaurun ad günü. Zaur yatağına girmişdisə də, hələ yatmamışdı. Evin hər yerində işıq sönməyincə və bütün səslər kəsilməyincə yuxulaya bilmirdi. Atası həmişə erkən yatar, səhər də ertədən durardı. Anası isə Bakının televiziya verilişləri qurtaran kimi gedərdi yatmağa... Bu gecə də atası çoxdan yuxulamışdı, amma anası hələ oyaq idi. Qonşu Sitarəylə birlikdə mətbəxdə əlləşirdi, sabahkı qonaqlığın hazırlığını görürdülər. Mətbəxdən şirni və ədviyyat qoxusu gəlirdi – paxlava, şəkərbura, şəkərçörəyi... Cürbəcür piroqlar, pirojnalar, tortlar hazırlamaq sarıdan Zivər xanımın tayı-bərabəri yox idi. Amma sabahkı gün öz adi məharətini də vurub keçməliydi, – axı, onun məclisinə Alya kimi tələbkar bir hakim qiymət verəcəkdi. Mətbəxdən anasıyla Sitarənin yavaş səsləri gəlirdi, professorun və Zaurun yuxusuna mane olmamaqçün qadınlar xısın-xısın danışırdılar. Zaur onların hər kəlməsini dəqiq eşitməsə də, söhbətlərinin məzmunundan agah idi: qadınlar xəmirin yaxşı qalxmasından, layların nazik yoğrulmasından, qoz-fındığın narın əzilib şəkərlə qarışdırılmasından, paxlavaya vurulacaq ədviyyatın miqdarından danışırdılar. Sabahkı məclisdən, qonaqlardan danışırdılar – kim paxlavanı, şəkərburanı daha çox sevir, kimin hansı tortdan, hansı piroqdan, hansı pirojnadan daha çox xoşu gəlir, hansı ki-

şi dəlisidir şirniyyatın, hansı qadına heç bir şey bəyəndirmək olmur, halbuki keçən səfər öz evlərində aşının qazmağı yanıb kösöy olmuşdu... Olanda olur da, ay Zivər bacı, işdi, düşməknəndi də. Orası da elədir e, ay Sitarə, doğrudan, böyük məclis yola salmaq zor işdir, adamın lap kələyi kəsilir, əldən düşürsən, amma bir yana baxanda bircə balavın məclisində də qoluvu çırmalamayıb zəhmət çəkməsən, bəs nə vaxt çəkəcəksən... Əlbəttə, ay Zivər bacı, maşallah, Allah saxlasın, belə oğul böyütmüsən, indi gərək hər əziyyətinə də dözəsən. Bəs necə, ay Sitarə, onun boyuna qurban olum, qızıldır onun xasiyyəti, ipək kimi yumşaqdır, ürəyi də elə təmizdir, elə təmizdir, sanasan şüşədir, odur ki, xətərəliyəm də, ay Sitarə, bu cür ki təmiz uşaqdır, ürəyi şüşə kimi safdır, hər şeyə, hər sözə, hamıya inanandır, elə qorxuram ki, keçsin bir afətin cənginə, sap kimi dolasın barmağına balamı. Eh, ay Zivər bacı, ağzıvı xeyirliyə aç, dünya bəgəm dərəbəylikdirzaddır, nə danışırsan, Zaur elə aciz-avara deyil, demə, maşallah ağıllı-mərifətli oğlandır, hər şeyin yerin biləndir, ürəyinə-zada salma, sən allah, vaxsey, vaxsey, piroq yandı, başımız söhbətə qarışdı...

...Və bu vaxt telefon zəng çaldı. Zaur yerindən sıçradı, – bu vaxt ancaq ona zəng eləyə bilərdilər: kim ola? Dəstəyi qaldırdı:

– Allo!

Dəstəyə qarmaqarışıq səslər doldu, – açıq havadan zəng olunmuşdu – küçəydimi, meydandımı – müxtəlif hənirtilər gəlirdi, sonra bu hənirtilərin içindən uzaq bir səs duruldu, aydın eşidildi, Zaur dərhal bu səsi tanıdı.

– Mənəm, Zaurik, – dedi Təhminə. – Bağışla ki, belə gec zəng eləyirəm... Danışa bilirsən?

– Əlbəttə.

– Bütün günü sənə zəng eləmək istəyirdim, amma başım elə qarışdı ki, macal tapa bilmədim... – Səs arada kəsilirdi, xətlərin, cihazların xırıltısına qarışıb itirdi, amma Zaur hər halda Təhminənin dediklərini dəqiq qavrayırdı.

– Sənə aeroportdan zəng vururam. Yarım saatdan sonra uçuram.

Zaur susub dinləyirdi, nəinki cavab vermirdi, heç "hə", "yox" da demirdi. Təhminə təəccüblə:

– Eşidirsən məni, Zaur? – deyə xəbər aldı. – Hə, eşidirsən?

– Eşidirəm...

– Səni təbrik eləyirəm... Yadımdadır, axı, – bu gün ad günündür. Sənə hədiyyə də almışam. Sabah sənə çatdıracaqlar, – tələsə-tələsə

danışırdı, elə bil qorxurdu ki, birdən telefon əlaqəsi qırılar və demək istədiyi əsas şeyi deyə bilməz, – balaca bir şeydir hədiyyəm, amma həmişə sənin yanında olacaq ki, məni həmişə yada salasan... Sabah sənə çatdıracaqlar... Mədinə, qonşum gətirəcək... işivə.

Zaur:

– Təşəkkür edirəm, – dedi. – Yaxşı, soruşmaq ayıb olmasın, hara uçursan belə, nə münasibətlə? – Hiss elədi ki, mətbəxdə susdular, yəqin onun danışığına qulaq verirdilər. Təhminə sevinclə:

– Moskvaya, – dedi. – Moskvadan sabah bizim verilişimiz var. Proqramı mən aparacağam. Baxarsan. – Sonra tələsik əlavə etdi. – Yaxşı, Zaurik, hələlik, mənə əl eləyirlər ordan, təyyarəyə minik başlayıb...

Aeroport Zaurun gözləri qarşısında canlandı: gecəyə qərq olmuş uçuş meydanı, rəngbərəng siqnal işıqları, qapısı açıq təyyarə, trap və trapda Təhminənin təzə dostları – televiziya işçiləri, qapının ağzında kiçik, cib fənərini yandırıb biletləri yoxlayan stüardessa. Bir azdan Təhminə də trapla dırmaşacaq, sonra təyyarənin qapıları kip bağlanacaq, propellər hərlənəcək, təyyarə yerlə bir az qaçıb havaya yüksələcək. Bir dəstə televiziya işçiləri deyib-güləcək, zarafatlaşacaq, sabahkı verilişlərindən, ümumi işlərindən danışacaqlar.

...Və Təhminə də onların içində olacaq. O köhnə dostu – televiziya rejissoru, nədir onun adı, Muxtardır, nədir, – o da yəqin oradadır, Moskvaya gedir o da... Bəlkə trapdan əl eləyən, Təhminəni çağıran da elə odur. Ya bəlkə indi lap Təhminənin yanındadır, telefonun böyründə, Təhminənin Zaurla söhbətini dinləyir. Mətbəxdən anasıyla Sitarə Zaurun söhbətini dinləyən kimi...

Təhminənin bu gecə zəngi Zaurun ürəyini müxtəlif qatmaqarışıq hisslərlə doldurmuşdu, – açıq təyyarə meydanının nəfəs genişliyi, təyyarənin qalxacağı göylərin ulduzlu qaranlığı vardı bu telefon zəngində. Təhminənin səsi, nəvazişi, ona – Zaura diqqəti vardı... Amma bir də Zaura yabançı olan özgə sevinci vardı, uzaq səfər fərəhi – başqa həyat, yeni tanışlıqlar, münasibətlər kələfi vardı və bütün bunlar Təhminənin yeni işi, yeni həyatı idi. – Zaurun gözündən iraq, ömründən uzaq olan yad bir dünyadan gəlirdi bu soraqlar...

– Salamat qal, Zaurik, bol-bol səadət arzulayıram sənə...

– Sənə də yaxşı yol, – dedi. Zaur. – Neçə vaxta gedirsən?

– Üç günlüyə, – dedi, sükut çökdü, görünür, bu sükut ərzində götür-qoy edirmiş: desin, deməsin, nəhayət, qərara gəlib yavaş səslə

(doğrudanmı görəsən yanında kimsə vardı, ona görə yavaşdan dedi bunu) – pıçıltıyla əlavə etdi: Sən də uç gəl Moskvaya, Zaurik... Yaxşı, mən qaçdım, hələlik...

Sonra dəstəkdən kəsik-kəsik siqnallar eşidildi. Zaur Təhminənin son təklifi barəsində düşünürdü: doğrudanmı Təhminə bu sözləri dedi – son görüşlərində "daha ayrılmalıyıq" qərarını verəndən sonra, onların idarəsindən, Dadaşın ləng işləyən şöbəsindən çıxıb hay-küylü, əsəbi, daim hərəkətdə və tələsmədə olan televiziya dünyasına düşəndən sonra, təzə dostları-tanışlarıyla bir yerdə Moskvaya uçarkən, məhz ona, Zaura təklif elədi ki, dalınca gəlsin... Yox Zaur yanılmırdı, elə-beləcə demişdi Təhminə:

– Zaurik, uç gəl Moskvaya...

– Kim idi o? – mətboxdən anasının səsi gəldi.

– Heç, – dedi. – Bir tanışım idi.

Beşinci fəsil

Degildim mən sənə mail, sən etdin əqlimi zail.
Mənə tən eyləyən qafil səni görcək utanmazmı?

Zaurun təqribi hesablamalarına görə Bakıda, Azərbaycan Respublikasının başqa şəhər, kənd, şəhər və kəndtipli qəsəbələrində onların yetmiş yeddi nəfər qohumu vardı. Atasının və anasının hesablamaları etibarlı deyildi. Keflərinin kök vaxtlarında bir-birilərinin qohum-əqrəbasını saymağa başlayanda atası ortalığa bir rəqəm çıxarırdı, anası ayrı. Anasının hesablamalarına görə atasının qohumu daha çox idi, atasının hesablamalarına görə əksinə. Anası: "Bibim nəvəsinin ögey əmisi oğlu haradan mənim qohumum oldu ki..." – deyərdi, amma özü Məcidin dayısı qızının baldızı oğlunu ərinə yaxın qohum sayardı. "Hər halda ali məktəbə girəndə sənin yanına gəlmişdi ki, yaxın qohumusan, sən də ona kömək elədin... Doğrudur, işi düzələndən sonra bir də üzünü görmədik, amma hər halda..".

Əslində, ata və ana qohumlarından başqa bir də vardı, Məcid demiş, "sezon qohumları". Məlum deyildi ki, onlar kimin tərəfindən hardan qohum idilər, amma elə ki, imtahan mövsümü başlanırdı, bu haradansa peyda olmuş "sezon qohumları" qapılarını kəsdirirdilər. Nizamidən, Firdovsidən, Sədidən tutarlı misallar gətirib isbat edirdilər ki,

qohum-əqrəba dar gündə gərək olar və əgər Məcid uşağa kömək eləməsə, deməli, böyük şairlərin hikmətli kəlamlarının bir qəpiklik mənası yoxmuş... Adətən bu müdrik beytlər Məcidgilin evlərində yay aylarında, sınaq imtahanları dövründə daha çox səslənirdi, amma başqa mövsümlərdə də cürbəcür qohumların cürbəcür xahişlərindən, təvəqqələrindən asudə deyildi Məcidin başı... Məcid ürəyiyumşaq adam idi, əlindən gələn yaxşılığı qohumlarından da, qohumu olmayan, tanıyıb-tanımadığı adamlardan da əsirgəməzdi və heç bir vaxt da elədikləri yaxşılıqların müqabilində heç bir şey gözləməzdi, heç quru "sağ ol"un da təmənnasında deyildi. Amma hərdən-birdən, görürsən düşürdü belə bir iş ki, yaxşılıq elədiyi adam, dar günündə qolundan tutduğu şəxs məqsədinə çatan kimi birdəfəlik yox olurdu, ilim-ilim itirdi, nə izi, nə tozu qalırdı, belə məqamlarda Məcid də görürsən, hərdən segah üstündə dodaqaltı zümzümə edərdi: "Bağda ərik var idi, salam-məlik var idi, bağdan ərik qurtardı, salam-məlik qurtardı".

Bu, atasının əzbər bildiyi yeganə şeir misralarıydı və yeganə musiqi motivi idi, professor bunu, özfəaliyyət iştirakçıları kimi, özü özüyçün, öz dilxoşluğu üçün oxuyurdu. Amma, hər halda bu müvəqqəti üzə çıxıb birdən-birə də qeyb olan təmannalı qohumlardan savayı əsil yaxın qohumları da vardı və bu qohumlarla daimi sıx əlaqə saxlayırdılar. Belə yaxın qohumlar Zivər xanımın bacıları, xalası və xalası qızlarından ibarət idi və bir də Məcidin, Bakıda yaşayan yeganə yaxın qohumu – məşhur cərrah, professor Bəhram Zeynallı. Şübhəsiz, Bəhram Zeynallının ailəsi – arvadı Rüxsarə xanım, oğlu Rasim də yaxın qohumlardan sayılırdı, amma Bəhramın davada həlak olmuş qardaşının oğlu Qiyasla gediş-gəlişləri yox idi... Məcid bilirdi ki, Qiyas Dilarə adlı bir qızla evlənib, bir oğulları var, amma nə özü, nə də Zivərlə Zaur Qiyasın ailəsiylə heç tanış da deyildilər. Ömürlərində birbirilərinin qapısını açmamışdılar, deyəsən Qiyasın əmisi Bəhramla gediş-gəlişləri vardı, amma Məcidgil Bəhramgildə tez-tez qonaq olsalar da, bir dəfə də onlarda Qiyasgilə rast gəlməmişdilər... Adətən Bəhramgillə, başqa qohumlarla görüşləri də müəyyən hadisədən-hadisəyə, tarixdən-tarixə olardı – ad günlərində, toy-nişanda, ya, Allah eləməsin, hüzr məclislərində... Bu gün – Zaurun ad gününə də beş-altı nəfər qohum gəlmişdi – Zivərin iki bacısı, bir xalası qızı, (o biri xalası qızı gəlməmişdi, xalası xəstəydi, qızı da onun keşiyini çəkirdi), Bəhram Zeynallı arvadı Rüxsarə xanımla, (onlar da oğulları Rasimsiz gəlmişdilər...) Məcidin iş yerindən də iki nəfər gəlmişdi və o

cümlədən atasının kafedrasında assistent olan Şahin. Şahin Zaurla həmyaş idi və onların ailələri üçün əvəzsiz bir adam idi – nə lazım olsaydı yerin dəşiyindən tapardı. – Bax, elə bugünkü məclisçün bütün gərək olan sursatı – sədri düyüsündən, təzə balıqdan, kürüdən tutmuş hər cür xırım-xırdayacan – nə bilim borcomdu, yaşıl noxuddu, mayonezdi-filandı – hamısını Şahin "təşkil eləmişdi"... Qonşularla elə mehribançılıqları yox idi, qonşulardan bircə Murtuzovgil idi qonaqları – Murtuz özü – istefaya çıxmış polkovnik Murtuz Murtuzov bütün orden, medallarını taxmışdı, – arvadı Alya və qızları Firəngiz. "Qızlarını bizimkilərə – qohumlarımıza göstərməyə gətiriblər" – deyə düşünmüşdü Zaur. Amma məsələ ondadır ki, Murtuzovlarla bir yerdə Zaurun tanımadığı başqa bir ər-arvad da gəlmişdi, necə deyərlər, çağırılmamış qonaqlar. Alya xanım izahını eləyirdi, üzrmü istəyirdi, hər halda qeyri-müəyyən bir tonla:

– Tahirəylə Cabbar da gəlib çıxdılar bizə, dartdım onları da gətirdim, – dedi.

Tahirə Alyanın ortancıl bacısı idi. Çünki kiçik bacısı da vardı – Sürəyya, Nemətin arvadı. Nemət tərcüməçi idi. Zaurla bir nəşriyyatda işləyirdi və Zaur onu son dərəcə duzsuz-dadsız bir adam hesab eləyirdi.

Amma Cabbarla Tahirəni Zaur birinci dəfə görürdü.

Tahirə də Zivər xanıma:

– Sən allah, bağışlayın,– dedi. – Alya qır-qıc oldu ki, gərək siz də gedəsiz, heç bilmirdim ki, Zaurun ad günüdür bu gün... hədiyyə bizim boynumuza. – Guya Tahirə üzrxahlıq eləyirdi, amma bu sözləri elə böyük bir təşəxxüslə deyirdi ki, onların mənası tamam başqa cür çıxırdı: yəni sizin minnətiniz olsun ki, biz təşrif gətirib sizə qonaq gəlmişik.

Zivər xanım:

– Eyib deyilmi, nə danışırsız, öz evinizdir, xoş gəlmisiniz, – deyirdi.

Amma Zaur ona da fikir verdi ki, anası da tələffüz elədiyi sözlərə tamam başqa məna verdi. Anası da hiss eləmişdi Tahirənin forsunu, özündən müştəbehliyini və imkan tapan kimi onu yerində otuzdurasıydı...

Zaur bunu da başa düşürdü ki, qonşuların bu nümayəndə heyəti yalnız. Firəngizi göstərməkçün gəlməyib, həm də Zaura baxmağa gəlib. Daha doğrusu, yalnız tək bir Zaura yox, oğlanın ailəsinə, qohum-əqrəbasına, evlərinə-eşiklərinə, dolanacaqlarına və davranışlarına, bir söz, "bizim Firoçkanın" düşə biləcəyi mühitə... Tahirə, görünür, Alyanın yalnız bacısı deyildi, həm də ən yaxın məsləhət-məşvərətçisi idi, odur ki, onun rəyi, fikri, təəssüratı vacib idi... Zaur, içində bütün bu bayağı oyuncaqlara nəinki gülürdü, müəyyən ikrah hissi də duyurdu,

amma bu duyğularını ört-basdır etmək, üzə çıxarmamaq, hamıya xoş sifət göstərmək, mehribanlıq eləmək istəyirdi. Özü də bu halına təəccüb qalmışdı. Adətən bu sayaq münasibətlər, ümumiyyətlə, ad gününün saxta şadyanalığı onu əsəbiləşdirərdi. Zaur bu günün tez qurtarıb getməsini arzulayırdı. Amma bu gün səhərdən bəri bütün içini doldurmuş ilıq, xoş bir duyğu, elə bil onun bütün insanlara münasibətini də mülayimləşdirmişdi: heç kəs onu əsəbiləşdirmirdi...

Dəqiqəbaşı əlini cibinə atır, "Ronson" alışqanını çıxarıb odlayırdı və ona elə gəlirdi ki, onun sevincinə, fərəhinə hamı şərikdir. Bu alışqanı bu gün işə Təhminənin qonşusu Mədinə gətirmişdi. Təhminənin dünən dediyi hədiyyəsiydi bu "Ronson" alışqanı, bir dəstə gül və üstündə təbrik sözləri yazılmış kağız... Zaur elə bil qəribə yuxu içində idi və ona müraciətlə deyilən sözləri də əməlli-başlı eşitmirdi, nəzakətsiz görünməmək üçün arabir "bəli, əlbəttə", yaxud "xeyr" deyirdi, amma özü də bilmirdi ki, "bəli-xeyri" yerində deyir, ya yox. Tahirənin əri Cabbar da nə barədəsə onunla qızğın söhbətə girişmişdi. Zaur da onu dinləməyərək hey başını yelləyir, "bəli, bəli, əlbəttə" deyirdi, amma özü də bilmirdi ki, nəylə razılaşır, nəyi belə qeydsiz-şərtsiz qəbul edir... Arabir diqqətini toplayıb Cabbarın fikrini almaq, nədən danışdığını təyin eləmək istəyirdi. Cabbar yanında oturmuşdu, amma elə bil səsi hardansa, çox uzaqlardan gəlirdi:

– Başa düşürəm, atanızın işlədiyi institutda müdafiə eləmək yaxşı düşməz, söz-söhbət ola bilər. Amma istəsəz, mən danışaram, bizim institutda müdafiə edərsiz.

Zaur: "bəli, bəli, əlbəttə" deyirdi, özü də bilmirdi ki, Cabbar dəqiq surətdə ona nə təklif edir. Cabbarın səsinə başqa səslər – atası Məcidin, anasının, xalalarının, Murtuzun, Alyanın, Bəhram əminin, Tahirənin, Rüxsarə xanımın, Şahinin səsləri də qarışırdı... Bircə Firəngizin səsi gəlmirdi... Firəngizin yanaqları qıpqırmızı alışıb yanırdı. Zaur fikirləşirdi ki, doğrudan da, çox gözəl qızdır Firəngiz və elə bil onun susub dinməməyini qavrayır, sükutunu eşidirdi. Firəngizin sükutu yəqin ki, Zaur haqqında, onunla quracağı gələcək xoşbəxt ailə həyatı haqqında təsəvvürlərlə dolu idi – ola bilməz ki, bütün bu xoyalları Alya xanım yavaş-yavaş, altdan-altdan qızına təlqin eləməsin. Səslər bir-birinə qarışırdı, amma ayrı-ayrı cümlələrə diqqət etsən, kimin nə danışdığını təyin etmək olardı.

Əşi, mənim ştabımda idi, əlaltım idi, şunu götür, şunu qoy, indi bir gör nə ağız bəhəm eləyib, küçədə görəndə adam-zad tanımır. Murtuz deyirdi bunu...

– Keçən il Londondan qayıdanda Varşava qəbul eləmədi, Praqaya uçmalı olduq, mən idim, professor Speranski idi. – Bəhram Zeynallı deyirdi bunu...

– Apardı məni sklada, mama, dedi, seç hansın bəyənirsən, vallah, Rüxsarə xanım, nə gizlədim, gözüm dörd oldu, day könlün nə istəyir – nə rəng, nə fason, nə biçimdə hamısı var. – Alya deyirdi bunu. Həmişəki kimi oğlu Spartakın şücaətindən basıb-kəsirdi. Spartak haçansa onu cürbəcür qıt mallarla ağzınacan dolu olan qeyri-adi anbara aparıbmış, – bu əhvalatı Alya xanım azı bir on dəfə danışıb Zivər xanıma və Zivər xanım da azı bir yeddi dəfə Zaura. Spartak Alya xanımın sevimli mövzusu idi, amma yeganə mövzusu deyildi. Spartak mövzusundan başqa iki daimi mövzusu da var idi – əri Murtuzun xidməti və qızı Firəngizin ismət...

– Lazım gəlsə mən elmi katiblə də danışa bilərəm, mənim xətrimi çox istəyir, təşkil edərik sizi də müdafiəyə buraxarlar. – Bunu Cabbar deyirdi və Zaur da:

– Bəli, bəli, əlbəttə, deyirdi ona.

Zivər xanım mətbəxdən otağa gəldi:

– Ay Zaur, – dedi, – qonaqlarımız darıxmır ki, bəlkə televizoru qurasan...

Zaur televizoru qurdu və bir azdan sonra qonaqların canlı səslərinə televizorun səsi də əlavə olundu. İdman şərhçisi:

– Voleybolçu qızlarımız inadla mübarizə aparıb layiqli qələbə qazandılar, – deyirdi...

Bəhram Zeynallı:

– Praqada da mühazirə oxumalı oldum, – deyirdi.

Murtuz Murtuzov:

– O gün axır yaxaladım küçədə, – deyirdi.

Alya xanım anbardakı dublyonkalardan, Rüxsarə xanım komisyondakı servizdən, Tahirə yayda dincəldikləri kurortdan danışırdı. Cabbar:

– İstəyirsiz, lap rektorun özüylə danışaram, – deyirdi. – Məncə etiraz eləməz...

– Praqadan daha qatarla gələsi oldum. Speranskiylə bir kupeyə düşmüşdük...

– Yapışdım yaxasından, adə, qırışmal, məni tanımırsan sən?

– Day bir şey götürmədim, bax, bu paltarı, Firoçkayçün fransızski sapojki, iki dənə yorğan örtüyü – Firoçkanın cehizliyi, bir də bir-iki

xırda-xuruş. Spartak deyir, mama, dünyanın axırı ha deyil, haçan kefin istəsə yenə gətirərəm səni bura...

– İstəyirəm alım o servizi, bizim bir dostumuz var – Şamxal, müstəntiqdir, onun arvadı Tamaranın ad günüdür, ona hədiyyə aparmaq istəyirəm...

– Mən Krımda da olmuşam, Soçidə də... amma bura başqa aləmdir... Qum mirvari kimi, dəniz tərtəmiz, korpuslar elə rahat, elə səliqəlidir ki...

– Kişi voleybolçular isə bu mövsümdə hələ ki, müvəffəqiyyət qazana bilməyiblər...

– Rektor nə deyəcək ki?.. Bizim institutda, hətta, Tiflisdən, Yerevandan gəlib müdafiə edirlər...

– Buyurun, stolun başına keçin!

– Şahin, zəhmət olmasa, badələri doldur.

– Bəs, Spartak niyə gəlməyib?

– Allah bilir haradadır indi...

– Yaxşı, tamadamız kim olacaq?

– Murtuz Balayeviç, polkovnik Murtuzov...

– Xeyr, heç elə söhbət yoxdur, professor, professor yaxşıdır...

– Hansı professor, professor burda ikidi.

– Zeynallı...

– Zeynallı da ikidir.

– Yox, əlbəttə, professor Bəhram Zeynallı, Məcid day ev yiyəsidir, ev yiyəsindən tamada olmaz ki...

– Çox sağ olun, Zivər bacı, deməli, mən ev yiyəsi deyiləm, mən özgəyəm?

– Yox, ay Bəhram qardaş, siz də ev yiyəsisiniz, əlbəttə, öz evinizdir bura, elə ona görə də xahiş edirik ki, Zaurçikin məclisini siz aparasınız da.

– Yox, Murtuz yaxşıdır, – dedi Bəhram.

– Heç elə söhbət yoxdur, əsil tamada Bəhram müəllimdir, – dedi Murtuz.

– Onda içək Bəhramın sağlığına, – dedi Məcid.

– Yox, madam ki, mənim boynuma qoyduz tamadalığı, sözümə qulaq asın. Zaurun sağlığına içək, – dedi Bəhram.

– Sağ ol, Zaur, – dedi Şahin.

– Sağ ol, bala, – dedi Zivər.

– Sağ ol, – dedi Məcid.

– Sağ olun, Zaur, – dedilər. Rüxsarə xanım, Alya xanım, Tahirə xanım... Firəngiz heç nə demədi...

– Sizin sağlığınıza, Zaur, – dedi Cabbar.

– Dobrıy veçer, doroqie telezriteli, – dedi Təhminə.

Zaur diksinib televizora tərəf çevrildi... Hamı qədəhlərini Zaura tərəf uzatmışdı, hamı qədəhlərini bir-birinə vururdu "sağ olun, sağ olun" deyib içirdi. Zaur isə elə bil bütün məclisi duman içində görürdü və bu dumanın içində bircə sifət durulub aydın seçilirdi – Təhminənin sifəti, bu hay-küydə bircə səs aydın eşidilirdi – Təhminənin səsi:

– Mı naçinaem proqrammu azerbaydcanskoqo televideniya. Mı privczli vam iz naşeqo solneçnoqo Baku...

Zaur artıq sözlərin də fərqinə varmırdı. Təhminənin nə danışdığını da əməlli-başlı qavramırdı, yalnız səsinin ahəngini dinləyir və dodaqlarına qonmuş xəfif təbəssümü görürdü... Təhminə otaqdakıların da diqqətini çəkmişdi:

– Buna baxın, Moskvadan verirlər, bizim Bakı verilişidir.

– Hə qəzetdə yazmışdılar da...

– Bu kimdir, təzə diktordur?

– Hə də, nədi onun adı?

Alya xanım quru bir tərzdə:

Təhminə, dedi, indi də diktor olub...

Murtuz:

– Bu ki, həmin o arvaddır, bizim...

– Hə, hə, – deyə Alya ərinin sözünü kəsdi və Zaur bilirdi ki, kəsməsəydi Murtuz Balayeviç Spartakın adını çəkəcəkdi.

Təhminə danışırdı, gülümsünürdü, milyon-milyon tamaşaçıya gülümsünürdü, tək bircə Zaura gülümsündüyü kimi, plyajda, maşının içində, Murtuzovların bağlarında gülümsündüyü kimi...

Otaqda isə hamı bir ağızdan Təhminənin geyimini, sir-sifətini, durub-oturmasını, bütün həyatını müzakirə edirdi. Kişilər dodaqaltı qımışırdılar, qadınlar paltarına, saçının burumuna ağız büzürdülər, bir-birilərinin qulaqlarına əyilib nə isə pıçıldaşırdılar və yeni məlumat almış hər adam "vay, vay, vay" deyə məzəmmətlə başını bulayırdı... Kimsə dedi ki, Təhminənin əri Manafı tanıyır, əməlli-başlı abırlı adamdır yazıq, indi başına nə kül töksün ki, bütün şəhərdə biabır olub. Kimsə cavab verdi ki, qadam onun ağzına, o da adını kişi qoyub, başına papaq geyir... Kimsə dedi ki, Təhminə elə bəzənib-düzənib, elə bil bayram xonçasıdır... Kimsə dedi ki, bəs görəsən adamı televizorun

milyon adamın qabağına çıxardanda bir maraqlanmırlar tərcümeyi-halıynan, kimdir, nəçidir, nə yuvanın quşudur... Bu vaxt qapılarının zəngi çalındı. Şahin gedib açdı, Spartak içəri girdi, salamsız-kalamsız anasına:

– Qapını bağlayıb getmisiz, mənim açarım səndədir axı, – dedi. Alya xanımın tənbehindən sonra ("Zaurun yaşıdır, niyə təbrik eləmirsən") çevrilib Zaura baxdı, Zaurun əlindəki "Ronson"a xüsusi bir diqqətlə nəzər saldı, mənalı-mənalı gülümsündü və hamının televizora tamaşa elədiyini görüb Spartak da ekrana tərəf çevrildi:

– Oho, – dedi, – əhsən, Taxmuşa...

Sonra Spartak çıxıb getdi. Təhminə də ekranda yerini ifaçılara verdi, mahnılar səsləndi və qonaqlar konserti dinləyə-dinləyə oxuyanlar, çalanlar barədə danışmağa başladılar... Filan xanəndə Parisdən nə gətirib, filan bəstəkar ayda nə qədər qazanır, filan rəqqasənin neçə yaşı olar...

Tahirə deyirdi ki, Emin Sabitoğlunun mahnılarını sevir, Caboş deyirdi ki, Zaur mütləq onların institutunda müdafiə eləməlidir. Murtuz deyirdi ki, bütün bu xanəndələr, oxuyanlar müftəxordurlar, ortada yeyib qıraqda gəzməyi sevirlər, dava vaxtı çoxusu ön cəbhəyə getməkdən canını qurtarırdı, amma ad almaq-filan gələndə özlərini birinci qabağa dürtürdülər... Bəhram deyirdi ki, indiki oxuyanlar dava vaxtı çoxusu heç anadan olmamışdı, olanları da südəmər uşaqlar idi.

Tahirə dedi ki, Polad Bülbüloğlunun mahnılarından da çox xoşu gəlir. Rüxsarə xanım dedi ki, paxlavaya söz ola bilməz, bilmirəm niyə gizlədir Zivər xanım bunun sirrini bizdən. Alya dedi ki, gərək bir xəlvət gəlib göz qoyam, öyrənəm Zivər xanımın sirrini. Zivər xanım da güldü, dedi peşkəşdir sizə bütün reseptlər. Murtuz Balayeviç də dedi ki, hə, nədi bu oxuyan gədə, bir belə saçın uzadıb qız kimi, bu moddu, nədi yəni belə?! Cabbar dedi ki, yüz faiz arxayın olun, mən bu müdafiə məsələsini boynuma götürürəm və Təhminə dedi:

– Naşa peredaça okonçena. Do novıx vstreç. – Bir an duruxdu və əlavə etdi: – Mne xoçetsya pozdravit tex telezriteley, u kotorıx seqodnya den rojdeniya.

Zaur bir an donub qaldı və nədənsə dərhal anasına baxdı. Anası da cəld ona baxdı və Zaur başa düşdü ki, anasıyla Zaurdan başqa bu otaqda heç kəs Təhminənin son cümləsinin fərqinə varmamışdı. Bircə anası bunun kimə aid olduğunu başa düşmüşdü və Zaur bir buna görə anasını bağrına basıb öpmək istəyirdi...

...Üç-dörd qədəh içmişdi Zaur, beyni dumanlanmışdı, ya nəydi, amma birdən ona elə gəldi ki, Təhminəni sevir, heç kəsi heç vaxt sevmədiyi və sevməyəcəyi kimi sevir.

Cabbar:

– Günü sabah elmi katiblə danışaram, – dedi...

***

Bütün gecəni gözünü qırpmadı Zaur. Səhər işə də hamıdan ertə gəldi. Mühasib Səfdər kişi gəlib çıxanacan özünə yer tapa bilmirdi.

– Səfdər dayı, bu gün maaş verəcəksən?

– Bəs necə? Günün ikinci yarısında...

– Bayramlarda növbətçi olmuşam, üç gün otqulum var, götürə bilərəm?

– Gərək direktor müaviniylə danışasan bu barədə.

Direktorun müaviniylə danışdı. Müavin təəccübləndi, amma Zaurun ərizəsinə dərkənar qoydu. Saat ikidə Zaur cədvələ qol çəkib, 52 manat 30 qəpiyini aldı. İndi cibində 95 manatı vardı. Gedib aeroflotun kassasından gündüz reysinə bilet aldı, sonra poçta girib teleqram vurdu: Moskva, Sentralnoe televidenie, Taxmine Aliyevoy. Leçu k tebe v pryamom i perenosnom smısle slova. Zavtra budu v Moskve. Reys 852, seluyu, Zaur".

***

– Mən bilirəm sən niyə Moskvaya gedirsən... Dünən sənə qaş-göz eləyirdi televizordan, elə bilirsən başa düşmədim... Heç hara getməyəcəksən... Yalan deyirsən, heç bir işin-filan, heç bir komandirovkan-zad yoxdur... Guya bilmirəm, zəng eləyib idarədən soruşaram bu saat, görüm, nə təcili işdi belə səni əlimyandıda göndərirlər. Gördün, deməli yalan deyirsənmiş, heç eyib etməz, əlbət indi aton gəlib danışar sənin-lə. Necə, atovu da gözləməyəcəksən? Nə reys, nə bilet, a gədə, bu saat biletivi də götürüb cıraram, nə mənim başımı tovlayırsan a virananın balası, bu saat mən atova zəng eləyim. Necə, onsuz da gedəcəksən, deməli, vecinə deyil, atan da, anan da, deməli, o həyasız köpəkqızı sənincün atondan-anondan əziz olub. Budu bizim haqq-sayımız, bütün əzab-əziyyətlərimizin, çəkdiyimiz zəhmətin əvəzi budu verirsən bizə, deməli, anavın göz yaşı da sənincün bir qoz imiş, gör bir o çərhaya bunun başını neçə fırladıb, sən allah; çərhaya deyil nədir, çərhaya da deyərəm, ləçər də, ondan onqat betərini də, hələ sən məni

yaxşı tanımırsan, götürüb zəng eləyərəm onun o əri qurumsağa. Mənə yazığın gəlmir, barı xəstə atava yazığın gəlsin. Sənin heç insafın-mürüvvətin yox imiş, ə nə təhər adamsanmış sən. Yaxşı get, lütkomun biri lütkom, get görüm hansı pula gedirsən. Elə bilirsən elə əvvəlki kimi atan-anan cibinə xərclik qoyacaq, asta ye boğazında qalar, gedirsən elə get ki, bir də qayıtma, gözüm səni görməsin, naxələf övlad... Gedirsən, ay oğul, ay bala, gözümün işığı, anan ayağının altında ölsün. Necə yəni nigaran olma, axı ana ürəyidir, necə nigaran olmasın, bilmirəm hara gedirsən, kimin yanına, nə olsun ki, üç günə qayıdacaqsan?! Bu üç günə vacibdir o lotubeçənin yanına gedəsən?! Yaxşı, demirəm, demirəm onun haqqında pis söz, amma axı, görürəm axı, başını hərlədib sənin, dünya-aləm gözündə deyil sənin bu saat, mən bu dərdə necə dözüm, ilahi?! Gəlib mənim meyitimi görərsən, heç olmasa bu plaşı at çiyninə, şərfi dola boynuva, soyuqdur indi oralar yəqin?! Aman Allah, bu nə müsibət idi bizim başımıza gətirirsən. Öləydim bu günü görməyəydim, barı bir əlcə teleqram vur görüm necə gedib çatdın? Cadu eləyib sənə, Allaha and olsun cadu eləyib, görüm sənə cadu eləyənin əli-qolu qurusun, dili tutulsun. Görüm onu gözü ağlar qalsın, necə mənim gözüm ağlar qalır balamın dalınca. Dayan görüm, adə, qoy bir su atım barı dalınca... Allah, nə günahımız var ki, sən bizim başımıza belə müsibət açırsan, teleqramı yaddan çıxartma ha...

Altıncı fəsil

Canlar verib sənin kimi cananə yetmişəm
Rəhm eylə kim, yetincə sənə cana yetmişəm.

Naş samolet poşol na snijenie. Proşu vas zasteqnut remni i vozderjatsya ot kureniya.

Leysan yağışdan sonra Moskva səması tərtəmiz və açıq idi. Havada saflıq duyulurdu. Yağış elə bil dərbədər buludları süpürüb, göy üzünü tərtəmiz yuyub silmişdi və ətrafa çökmüş mavilik aerovağzalın şüşə qalereyasını da əhatə eləmişdi: şəffaf qalereyanın içində adamlar görünürdü – qarşılayanlar, yola salanlar; uçub gedənlər, uçub gəlmişlər... Təyyarədən düşüb qalereyanın içiylə gedən sərnişinlər içində Zaur da addımlayırdı və qalereyanın o biri başında, qarşılayanlar içində Təhminə dayanmışdı. Zaur onu lap uzaqdan gördü, əl elədi. Təhminə də Zauru gördü və ona tərəf atılmaq istədi, amma tünd-göy rəngli xidmət paltarı geymiş qız təbəssümlə onu saxladı – qarşılayanların

qalereyaya keçməyə ixtiyarı yox idi... Zaur bunu gördü, qaçdı Təhminəyə sarı, yeddi-səkkiz metrdən sonra Təhminə onun boynuna atıldı:

– Zaurik, – dedi, – nə yaxşı ki, gəldin...

Çox-çox illər sonra, qoca yaşlarında, hərdənbir ömrünün acı və xoş xatirələrini fikrində arıtlayanda, şadlıq və kədər günlərini yada salanda Zaur düşünürdü: əgər həyatı boyu bəxtiyar illəri, ayları, günləri, saatları, dəqiqələri olmuşdusa – xoşbəxt dəqiqələrinin ən xəşbəxti bax bu bir neçə an idi – Domodedova aeroportunun şəffaf qalereyasında – uzaqdan Təhminəni görəndə, ona tərəf qaçanda, Təhminəni qolları arasına alanda və Təhminə deyəndə:

– Zaurik, nə yaxşı ki, gəldin...

***

– Baqaj nədi, dəli olmusan?.. Elə-beləcə gəlmişəm. Gedək. Taksilər harda dayanır?

Təhminə:

– Yox, – dedi, – mən bura tez gəlmişəm, – sənin təyyarəni gözləyən vaxt buradakı meşədə gəzdim. Bilirsən nə gözəl meşədir... Gedək göstərim sənə...

Şosedən çıxıb şam meşəsinə girdilər. Zaur Təhminəni öpmək istədi, amma Təhminə barmağını dodaqlarına qoyub:

– Sss, dayan, bir qulaq as, – dedi...

İnanılası deyildi, amma Zaur həqiqətdə də eşitdi... Adamın ağlına sığışmırdı ki, burada, təyyarə uğultusundan qulaq batan müasir aerovağzalın yaxınlığında, üstündən vıyıltıyla elədən-belə maşınlar keçən şosenin lap böyründə – quşlar cəh-cəh vururdu, elə bil bütün bu hayküyü vecinə almırdılar...

Zaur:

– Lap bülbül kimi cəh-cəh vururlar, – dedi.

– Doğrudan, adam heç inana bilmir, hə? Gül-bülbül, aşiq-məşuqə gülməlidir eləmi?.. Orta əsr qəzəllərindən çıxıb gəliblər elə bil... Amma Zaurik, bu ki, yalan deyil, əzizim, doğrudan da, elə bil bülbül oxuyur. Özü də zalım gör nə baş alıb gedib, gör necə cəh-cəh vurur... Bizimçün oxuyur, e, Zaur, eşidirsən.

Qollarını Zaurun boynuna doladı. – Qulaq as, Zaurik. – Təhminə indi pıçıltıyla danışırdı. – Gərək mən sənə bu sözü deməyəydim. Bilirəm bunu demək düz deyil, gərək deməyəm... amma... sevirəm səni, Zaurik... dəli kimi sevirəm... Sənsiz dura bilmirəm... Səndən başqa heç kəs lazım deyil mənə... bilirəm gərək deməyəydim bütün bunları sə-

nə... – güldü. – İndi quduracaqsan yəqin, dartıb özüvü qoyacaqsan dağ başına... amma neyləyim, demək istəyirdim bunları sənə...

Zaur da pıçıltıyla dedi:

– Təhminə, yəqin, mən də sənə deməməliyəm bu sözləri, amma mən də deyəcəyəm: ölürəm sənincün, Təhminə... Sənsiz bir saat, bir dəqiqə qala bilmirəm... Bax, indi bu saat yıxılıb ölə bilərəm xoşbəxtliyimdən. İstəyirsən çıxım şoseyə, özümü atım maşının altına, bax bu saat, bu dəqiqə...

– Dəli, maşının altına niyə atırsan özünü.

Onlar meşənin içiylə gəzirdilər və Zaur elə hey danışırdı. Təhminəni televizorda görməsindən, öz ad günündən, qonaqlardan, qonşulardan, hətta Firəngizi ona ərə vermək niyyətlərindən... Zaur indi yaşadıqları anların səadətiylə o dərəcədə sərxoş idi ki, bu xəbərin Təhminəni ağrıda biləcəyini heç ağlına da gətirmirdi: içi bəxtiyarlıqla limhəlim elə dolmuşdu ki, bu bəxtiyarlığın bütün ətrafdakılara da sirayət edəcəyinə, onları da xoşbəxtlik dəryasına qərq edəcəyinə şübhəsi yoxdu... Doğrudan da, bu xəbəri eşidəndə ani bir kölgə keçdi Təhminənin sifətindən, amma o dərhal gülümsündü və Zaurun Firəngizlə evlənməsini zarafata saldı.

Təhminə onu öpürdü. Moskvaya gəlmələrindən, verilişdən danışırdı, deyirdi ki, burada yaman bəyəniblər verilişi də, Təhminənin verilişi aparmasını da... Meşədən çıxıb şoseylə addımladılar. Moskvayacan piyada getmək istəyirdilər, – Moskvaya isə yetmiş kilometr qalırdı...

Zaur indi sevdiyinə də əmin idi, sevildiyinə də və sevgi onu elə qüvvətli bir xoşbəxtlik duyğusuna bürümüşdü ki, heç bir şey bu səadəti yaralaya bilməzdi və ona görə də Zaur Spartak söhbətini də elə-belə, sözarası saldı, dedi ki, bu qeybətlər neçə gün məni dəli-divanə eləmişdi... neçə gecə yuxumu qaçırmışdı.

Təhminə:

– Ay səfeh, gör bir kimə qısqanırsan, – dedi. – Adam da hər axmaq sözə, hər iyrənc qeybətə inanar?.. Spartak gicbəsərin biridir... heç ağlıva sığışdıra bilərsən ki, onunla mənim aramda bir şey ola bilər? Yəni heç məni tanımırsan? Ya onu tanımırsan bəlkə? Demişəm sənə ki məsələ necədir. Spartak mənim bir rəfiqəmlə görüşürdü və həmin o rəfiqəmin xahişi ilə bir-iki dəfə zəng eləmişəm Spartakgilə, bu, düzdür! Anası da yəqin sonra bilib ki, zəng eləyən mənəm... Amma mənimlə ömründə iki kəlmə kəsməyib anası, o da ki, qalsın davamız ola... Mən yəni o günə qalmışam ki, onun anasıyla ağız-bağıza verim?.. Əcəb fikirdəsənmiş mənim haqqımda.

Zaur indi, Spartak sarıdan tam bir arxayınçılıq duyarkən Dadaşın dediyi o televiziya rejissoru haqqında da soruşmaq istədi, heç olmasa bilsin görək o da burada Moskvadadırmı. Amma bunun nə mənası vardı, madam ki, Təhminə Zauru bura, yanına çağırmışdı və Zaur gəlmişdi, – onda deməli, həmin o rejisorun Moskvada olub-olmamağının Təhminəyçün heç bir təfavütü yox imiş... Yaxşı, bəs Dadaşın dediyi o baza müdirləri, alverçilər – Təhminənin tanış-bilişləri, o barədə necə, söz salsınmı? Amma Təhminə, sanki Zaurun fikirlərini oxuyubmuş kimi özü danışmağa başladı:

– Zaurik, – dedi, – bunu bil: mənim barəmdə çox şey danışırlar və bundan sonra, məhz bax elə sənə daha çox iftiralar uydurub deyəcəklər... Əgər ürəklərinə damsa ki, biz sənin lə doğrudan-doğruya xoşbəxtik, bunu heç bir vaxt bağışlamayacaqlar bizə... Yüz çirkab tökəcəklər başımdan və çalışacaqlar ki, bunların hamısı sənin qulağına çatsın. Amma mən istəyirəm ki, sən bir neçə şeyi dəqiq biləsən, Zaur. Birincisi odur ki, mələkə-zad deyiləm, bu barədə heç bir illüziyan olmasın. Amma bu da həqitətdir ki, mən hələ heç kəsi səni sevən kimi sevməmişəm və indiyəcən hələ heç kəsə də deməmişəm ki, onu sevirəm... Bax ən böyük, ən əsas həqiqət budur... Zaurik, dünyada bir həqiqət, bircə həqiqət var – qəlbin həqiqəti və səadət, xoşbəxtlik də elə budur, vallah. Bax, bu axşam var dünyada, bu meşə var, quşlar oxuyurdu bu meşədə, sən varsan, mən varam, bir-birimizi sevirik, bir yerdə olanda bəxtiyar oluruq, – budur bax həqiqət və bundan başqa heç bir ayrı həqiqət yoxdur. Sən uçub Moskvaya gəlmisən, orada aerodromun qalereyasında uzaqdan səni görüb bilirsən necə sevindim! Bəs sən?..

– Mən də...

– Görürsən... Bax bu dəqiqələr var e, bu şoseylə Moskvaya gedirik ikimiz – sən və mən, – bəxtiyarlıq budur, Zaurik, həqiqət, ən böyük həqiqət də budur... Ayrı bir həqiqət arama bizim münasibətlərimizdə... Bir yerdə olduğumuz dəqiqələrin xoşbəxtliyi ilə yaşa... Budur əsil həqiqət...

...düz deyirmiş Təhminə...

***

Uzun zaman şoseylə piyada getdilər, sonra yoruldular, avtobusa mindilər, avtobus adamla dolu idi – balıq ovundan qayıdan tilovlu adamlar da çox idi avtobusun içində. Nogin meydanında düşdülər... Moskva çayının sahili ilə addımladılar...

Təhminə:

– Bu da mənim iqamətgahım, – dedi. "Rossiya" otelinin pəncərələrindən axşam işıqları şölələnirdi, çəhrayı pərdələr işıqları öz rənginə boyayırdı...

Frunze sahilinə çatdılar, damında aeroflotun reklamı yanan üçmərtəbəli evin həyətindən keçib Krım körpüsünə çıxdılar...

Onlar heç kəsin tanımadığı böyük və şən şəhərdə azadlıq, asudəlik duyğularında məst kimiydilər, qol-boyun olub halay-valay vura-vura gəzirdilər. Elə bil illərin yükünü də atmışdılar üstlərindən, elə bil on altı-on yeddi, ən çoxu on səkkiz yaşındaydılar, tanımadıqları adamlarla salamlaşırdılar və bu adamlar da təəccüblə onlara cavab verirdi, gül alırdılar və cavan oğlanlarla qızlara bağışlayırdılar, telefon avtomatlara girib Bakı nömrələriylə Moskva abonentlərinə zəng vururdular və Dadaşın nömrəsinə cavab verən boğuq səsli kişidən Dadaşı xəbər alırdılar. Mübahisə edirdilər: eyni telefon nömrələrinin Bakıdakı və Moskvadakı sahiblərinin səsləri oxşayır bir-birinə, ya yox... Oteldəki liftlərin üstündə də mərc çəkirdilər. Hansı tez gələcək. Zaur ikinci, Təhminə üçüncü deyirdi. Üçüncü əvvəl gəldi və Zaur Təhminəyə bir manat uduzdu... Məlumat köşkünün qarşısında növbəyə durdular, növbələri çatanda soruşdular: "Moskvada xoşbəxt adamın ünvanını verə bilərsinizmi", məlumatçı qız mat-mat onlara baxırdı və hər ikisi "Soruşsalar, bizim ünvanımızı verin", – dedilər... Tirə girdilər... Zaur sorrast nişan atıb ətir uddu. Təhminəyə bağışladı. Təhminə dedi ki, mütləq bu ucuz ətiri də bahalı fransız ətirlərinin tərkibinə qatacaq, – onda qoxusunun sirri lap açılmaz olacaq – səadət qatılacaq bu qoxuya – deyirdi... Dondurma satan arvaddan dondurma alarkən ona Mixail Vasilyeviçdən çoxlu salam dedilər... Arvad gözünü döydü, hansı Mixail Vasilyeviç?.. Küçəni düz keçmədilər, milis saxladı onları, üç manat cərimə istədi. Zaur pulu uzadandan sonra milis qəbz verdi... Təəccüblə qəbzi aldılar, serjant Trofimovun imzasından, cərimənin səbəbindən və məbləğindən başqa orada bugünkü tarix də yazılmışdı – 25 sentyabr. Zaur qəbzi cırıb atmaq istəyirdi. Təhminə qoymadı, səliqəylə büküb çantasına atdı...

– Heç bunu cırmaq olar? – dedi. – Bu bizim ən xoşbəxt günümüzün qəbzidir. Serjant Trofimov özü təsdiq edib bu tarixi... Qoy yadigar qalsın... Dünyada yeganə təqsirimizin – Kutuzov prospektini düz keçməməyimizin şəhadəti kimi qalsın.

Zaur:

– Yaxşı, – dedi.

– Gedək mənim nömrəmə...

Sənin nömrənə?

– Hə, mən təkəm nömrədə.

Məni buraxarlar?

– Növbətçiylə danışmışam... Dost olmuşuq onunla, məni görübmüş televizorda...

Elə bil nə isə sancdı Zaurun ürəyində. Təhminənin belə asanlıqla növbətçiylə dil tapıb yad adamı nömrəsinə gətirməsi nə isə pis təsir bağışladı ona. Təhminə elə bil onun ürəyindəkiləri oxuyaraq.

– Amma, sən allah, yenə ilan-qurbağa gəlməsin fikrinə, – dedi: İntəhası mən bu gün gündüz sənin teleqramını göstərdim növbətçiyə, hər şeyi olduğu kimi dedim və arvad məni başa düşdü.

***

– Dayan, elə yox, yavaş, dayan, özüm soyunum... İşığı keçir... Gəl bura... darıxmışam sənincün yaman... Canımsan mənim... Ay Allah, dəli olacağam mən... Zaurik, mənsiz necə dözürdün bu qədər vaxt... əzizim mənim, canım...

Gecənin ən gizlin, ən isti sözlərini deyirdi Təhminə, ən çılpaq sözlərini. Nömrədəki reproduktordan musiqi eşidilirdi. Qadın müğənni həzin və yorğun səslə kədərli bir mahnı oxuyurdu...

Sonra onlar sakit uzanıb siqaret çəkəndə Təhminə dedi:

– Bilirsən bu nə mahnı idi, Zaur?

– Yox.

– Qədim gürcü mahnısı.

Bütün bu gün və bu gecə ərzində ilk dəfə olaraq yavaşdan və qəmli-qəmli əlavə etdi:

Mən olmayanda birdən bu mahnını eşitsən hər şey yadına düşəcək. Moskva, bu gecəmiz...

"Mən olmayanda", – deyə Zaur onu yamsıladı. – Yenə başladın?

– Bilirsən, həyatdır, hər şey ola bilər. Sən başqa qadınlarla da ola bilərsən və lap yəqin olacaqsan da... Amma bu cür olmayacaq Zaur, heç kəslə olmayacaq bir də, mən bilirəm.. Ayrı cür ola bilər, bəlkə bundan da yaxşı, amma bu cür yox... Ola bilməz ki, hər şey bax beləcə təkrar olsun. Domodedovo meşəsindəki quşlar da, o küçədəki cərimə də, bu qədim gürcü mahnısı da... Bu bizimdir, ancaq bizim... Başqa heç kəsin... Onunçün də mən arxayınam...

...düz çıxdı Təhminənin sözləri...

***

Səhər saat 10-da Mayakovski metrosunun yanındakı yeraltı keçiddə Bakı təyyarəsinə bilet aldı... Aşağıda, perronda ayrıldılar. Təhminə telestudiyaya getdi, məşqi vardı...

– Axşam 9-da, Şabolovkada, televiziyanın qabağında gözlə məni, – dedi və uzaqlaşan qatarın pəncərəsindən Zaura əl elədi...

Zaur eskalatorla yuxarı qalxdı. Mayakovski meydanına çıxdı, Qorki küçəsiylə Baş Teleqrafa tərəf addımladı... Dünəndən bəri heç nə yeməmişdi, yatmamışdı, amma nə yorğunluq hiss eləyirdi, nə yuxusuzluq... Qısamüddətli səhər yağışının yuyub islatdığı səkilərlə yeriyir və bir saat, beş saat, səkkiz saat bundan qabaqkı kimi yenə də Təhminənin pıçıltılarını eşidir, sığallarının, əllərinin, saçlarının, dodaqlarının təmasını duyurdu... Moskvanın bütün gözəl qadınları – payız küçəsinin bütün qadınları Təhminəni xatırladırdı Zaura və heç biri ona tay ola bilməzdi... Zaur dünən Təhminəylə keçdiyi yerlərdən indi tək keçmək istəyirdi, amma bu təkliyində tənha deyildi, Təhminə də onunlaydı – sözləri, nəvazişləri, pıçıltıları, ən çılğın məhəbbət anlarında gah yumşaq, gah ehtirasdan boğulmuş kəsik gülüşləri, dodaqlarının istisi, uzun incə barmaqlarının sərinliyi, küçədə, liftin, eskalatorun, ya avtobusun basabasında qeyri-ixtiyari, qəsdənmi, təsadüfənmi Zaurun köksünə qısılması, belinin, dizlərinin toxunuşu yalnız fikrində, xəyalında deyil, bədəninin hər hücrəsində yaşayan, nəbz kimi döyünən xatirələr – Zauru indiyə qədər heç bir vaxt duymadığı, yaşamadığı bir səadət burulğanına qərq edirdi və bu burulğan içindən yenə də Təhminənin sifəti, gülüşü, *danışıqları durulub çıxırdı. Nə qədər söhbətlər etmişdi Təhminə bu gecə.* Elə bil indiyəcən dəniz sahilindəki yay görüşlərində demədiyi, danışmadığı, ürəyində saxladığı bütün sözləri, bütün söhbətləri bu ilıq Moskva gecəsində deyib qurtarmaq istəyirdi... Uşaqlığından danışırdı ən çox. Pirşağıdakı bağlarından, yayın son günlərindən, çimərlikdə düzülmüş əlvan pioner dəstələrindən, bazar günləri həmişə saat ikidə verilən muğamat konsertlərindən – aram melodiya dənizin, qızmar sahilin, odlu qumların üstündən tüstü kimi uçub gedirdi. Uşaqlığından əbədi tərk olunmuş diyar kimi danışırdı, elə bil, didərgin, itkin düşmüşdü bu diyardan... Qızmış qumlar günorta çağı yalın *ayaqlarını yandırardı, axşamlar isə qumlar soyuq və nəm idi.* Gecə qonşularıgildən evlərinə qayıdanda üzüm meyvələrinin arasından hoppanarkən qorxurdu ki, birdə gümüşü ayın ziyasında, boz qumların içində görünməz olmuş ilanı basdalar, ilan qayıdıb çalar onu. Qonşu-

larıgildə aşiq olmuş ilanlar haqqında əfsanələr danışırdılar, and içirdilər ki, ilanın bir qıza bənd olub onu təqib etməsini öz gözlərilə görən olub... Qonşuda onun tay-tuşları balaca uşaqlar çox idi... cürbəcür oyunlar oynardılar, bir-birinə qorxulu əhvalatlar danışardılar, gecəyarısı balaca Təhminə evlərinə qayıdanda bu qorxulu nağılların vahiməsindən xoflanardı, aylı gecədə qarışıq kölgələrdən eymənərdi, əti ürpəşərdi... Eyvanlarına ayaqlarının ucunda qalxardı ki, atasını və nənəsini oyatmasın, ehmallıca miçətkənin altına girərdi, amma yuxulamazdı, iri ulduzlarla bəzənmiş açıq yay səmasına baxar və uzaqdan – neftçilərin istirahət evindən eşidilən musiqi səslərinə qulaq verərdi. Orada rəqs edərdilər. Cürbəcür musiqi havaları çaldırardılar, amma hər gecə ən axırda eyni tanqoyla bitirərdilər bu konserti, həmin tanqo indiyəcən Təhminənin qulaqlarındadır, sözlərini də xatırlayır... Bu tanqoda deyilirdi ki, batan günəş həzin-həzin dənizlə vidalaşır. İndinin özündə də təsadüfən bu tanqonu eşidəndə gözləri dolur, uşaqlığı, bağları, atası yadına düşür. Neftçilərin istirahət evində Təhminədən on-on iki yaş böyük oğlanlar və qızlar rəqs edərdilər, onların aləmi özgə bir aləm idi, musiqi, tanqolar, aylı gecələrdə sahil gəzintiləri, görüşlər və ayrılıqlar, sevgi və şirin ağrılar vardı bu aləmdə. Təhminə sevinirdi ki, bu aləm onunçün hələ irəlidədir...

Anası yadına gəlmirdi, yaş yarımında itirmişdi anasını, onu yalnız köhnə, saralmış fotolarına görə xəyalında canlandırırdı, lap uşaq yaşlarında möcüzəyə inandırmışdı özünü ki, anası ölüb eləməyib, hardasa uzaq bir yerdədir, bir gün gəlib çıxacaq. Təhminəyə iri, yaraşıqlı kukla, çoxlu konfet və – nədənsə bunu həmişə düşünürdü – sarı, güllü iri çətir gətirəcək... Anasını uzun ağappaq paltarda təsəvvür eləyirdi həmişə, özü də həmişə onu lalələrlə dolu olan ucsuz-bucaqsız bir düzənlikdə görürdü. Anasının səsini, danışıq tərzini heç cür xəyalında canlandıra bilmirdi, odur ki, anası haqqında düşünəndə onun səsini tanış qonşu qadınlarından birinin səsi, danışıq tərzi kimi qavrayırdı. İllər keçdikcə yaşı artdıqca Təhminə bu xəyalların puçluğunu başa düşürdü. Nənəsi bir dəfə ona anasının qəbrini də göstərmişdi. Artıq dərk edirdi ki, anası doğrudan-doğruya ölüb və heç zaman gəlməyəcək. Amma buna baxmayaraq, ulduzlu yay gecələrində yenə də anası haqqında düşünürdü, indi daha gələcək zamanda yox, keçmiş zamanda... Anasının bir gün diriləcəyini, qayıdıb gələcəyini fikirləşmirdi, anasının bir vaxt necə, nə sayaq diri olduğunu, yaşadığını təsəvvüründə yaşatmaq istəyirdi... Xəyalında canlandırırdı anasının və atasının cavanlıqlarını –

lap gənc vaxtlarını. O çağı ki, o vaxt heç Təhminə də yer üzündə yox imiş, hələ atasıyla anası təzə-təzə gəzməyə başlayıblarmış. Təhminə gözlərini yuman kimi aylı gecə, dəniz sahilini görürdü və cavan atasıyla cavan anası məhz bu sahildə görüşürdülər, ay da məhz bax elə indiki kimi işıqlandırırdı qumları, suları, uzaqdan da məhz elə bu musiqi – bu kədərli tanqo eşidilirdi və atasıyla anası – ikisi-boş sahildə onlardan başqa heç kəs yox idi – uzaqdan gələn musiqi sədaları altında tanqo rəqsini oynayırdı və ikisi də bilirdi ki, bu son rəqsləridir, indi, bu an – xoşbəxtdirlər, amma bu xoşbəxtlik bitməyə, qurtarmağa, bir daha qayıtmamağa məhkum olmuş bir bəxtiyarlıqdır. Sonra Təhminə dedi ki, lap bu yaxınlarda, bir ay bundan qabaq yenə yuxuda ata-anasını görmüşdü, anası uzun ağ paltarda, atası isə yaxası açıq apaş köynəkdə idi, aylı gecədə, həmin o sahildə rəqs edirdilər. Yuxuda həmin tanqonu da eşidirdim: "Utomlennoe solnse nejno s morem proşalos". "Yuxuda elə ağlayırdım, hıçqırıq boğurdu məni, bütün yastığım göz yaşlarından islanmışdı, – bir an susub, olavə etdi. – Manaf oyatdı məni ki, nə olub sənə belə"...

İlk dəfə Manafın adını çəkdi, amma heç bir şey danışmaq istəmirdi əri haqqında. Qonşusu Mədinə haqqında danışırdı, deyirdi ki, Mədinə əsl dostdur, qadınlar arasında bu cür etibarlı dost tapmaq çətin məsələdir. Mədinə heç bir vaxt məni satmaz, deyirdi, Dadaş haqqında danışırdı, deyirdi ki, Dadaşdan qurbağadan, siçandan çimçişən kimi çimçişir, o idarədə stollarının yaxın olmasına belə güclə tab gətirirdi, çünki belə məsafədə də Dadaşdan həmişə tər iyi gəlirdi, lap ürəyim bulanırdı... Nemətdən danışırdı, deyirdi ki, bir dəfə Nemət gecə saat dörddə mənə zəng eləmişdi, yox, ay axmaq, əlbəttə, eşq elan eləmək üçün yox, kim gecənin bu vaxtı eşq elan eləmək üçün zəng vurar, yox, ürəyinin dərdlərini danışırdı. Nemət, deyirdi ki, həyat onu sıxır, boğur, mən nə bilim nə, insandır da... Spartak? Əşi, nə yapışmısan bu Spartakdan? Axmağın, yelbeyinin biridir Spartak... Amma deyim sənə, o qədər də axmaq deyil ha, hər halda yaxşıca pul qazanmağın fəndin bilir... Bilirsən heç neçə dövlətlidir Spartak? Atasının pulu! Ay-hay, atası pensiyaya dolanan adamdır, atasının o qədər pulu hardandır, əksinə, Spartak dolandırır atasını da, anasına da, elə bacısını da geyindirib-gecindirən Spartakdır, hə, tamam yadımdan çıxmışdı, axı, onun bacısı sənin gələcək adaxlındır, baxtın kəsib, Zaurik, Spartak bacısıyçün bir cehiz verəcək, gəl görəsən, bütün ömrün boyu Spartakın hesabına kefnən yaşaya bilərsən, yaxşı, yaxşı, qaşqabağını sallama, zarafat eləyi-

rəm də, zarafatdan inciməzlər ki, sənə qurban olum. Spartak kimdir? Spartak sənin dırnağına da dəyməz, o niyə səni saxlasın ki... Amma zarafat bir yana qalsın, Spartak pula pul demir... Moskvaya gələndə üçdörd oteldə nömrə saxlayır. Niyə? Nə bilim niyə, harınlıqdan, varlığa nə darlıq. "Rossiya"da da həmişə beşotaqlı lüksdə qalır, bir dəfə bərk pərt idi ki, həmin o beşotaqlı lüksə düşə bilməyib. Çünki o vaxt həmin lüksda arxiyepiskop Makstios qalırmış. Spartak zəncir çeynəyirmiş lap.

– Yaxşı, soruşmaq ayıb olmasın, sən bütün bunları hardan bilirsən?

– Özü danışıb... Rəfiqəmə danışırmış, o da mənə söhbət eləyib... Əlbəttə, Spartak gopçudur, birinin üstünə beşin qoyub danışır, amma hər halda dili varsa, dilçəyi də var... Pul olandan sonra...

– Yaxşı, hardandır axı, bu qədər pulu?

– Demişəm sənə, alverçidir də..

– Bəs qazamata düşməkdən qorxmur?

– Əlbəttə, gec-tez ilişəcək... Amma dindirsən gör sənə nə cavab verir. Onsuz da hamı ölüb gedəcək, deyir. Dünya beş gündür, nə qədər imkan var, kef çəkəcəm, harda qırıldı-qırıldı...

– Görürəm, sən Spartakın həyat fəlsəfəsinə əməlli-başlı bələdsən.

– Zaurik, yəni doğrudan sən belə səfehsən ki, məni Spartak kimi bir əyyaşa qısqana bilərsən?

– İnanmıram ki, fikri pul və qadın olan bu əyyaş sənin kimi gözələ biganə qalsın... Yəni heç sənə girişməyə cəhd eləməyib?

– Necə yəni əlbəttə, eləyib... Lap sino gedirdi mənimçün... Nə vədlər vermirdi, ilahi, şuba, daş-qaş, nə bilim daha nələr... Amma çox tez başa düşdü ki, mən o deyən yuvanın quşu deyiləm, belə-belə şeylərlə mənim başımı tovlamaq olmaz. Onda... ilahi, sən özün saxla. – Təhminə qəhqəhə çəkib güldü – Spartak ayrı üsula əl atdı. Mənə şeir oxumağa başladı... Allahu-əkbər... ha, ha, ha...

– Nə oldu bəs?

– Necə nə oldu? Şeirlərinin təsiri də elə şuba, daş-qaş vədləri kimi... Spartak da, baxma, o qədər də axmaq deyil, başa düşdü ki, bir şey çıxmayacaq, amma onda da... başladı ağzın boş qoyub orda-burda danışmağa, guya ki, mənimlə arasında nə isə var... Bax, sən bayaq danışanda ki, anası belə deyir, mən o saat barmağımı dişlədim, lap yəqin anasının beyninə bu fikri Spartak salıb. Anası axı onun məhəbbət macəralarıyla bərk fəxr eləyir... Elə ki, Manaf Bakıdan bir yerə getdi, Spartak o saat gətirib maşınını bizim evimizin qabağında saxlayır, bəzən gecənin yarısınacan, səhərə qədər maşın orda durur. Özü, Allah bilir, hara gedir, bəlkəm də elə evlərində yıxılıb yatır... Bir anekdot var

e, eşitmisən, hərəmxana haqqında... Hərəmxana sahibi arvadlarının hər birinə deyir ki, o biri arvadımın yanına gedəcəyəm bu gecə, özü də gedib tək yıxılıb yatır.

– Niyə?

– Nə niyə? Hərəmxana sahibi niyə tək yatır?

– Yox, Spartak niyə maşını sizin evin qabağında qoyur?

– Məlumdur niyə... Şəhərdə hamı onu tanıyır axı, maşınını da tanıyırlar. Hamı da bilir ki, o evdə mən yaşayıram və ərim də bu vaxt Bakıda yoxdur... İndi gecə bizim evin qabağında Spartakın maşınını görəndə nə düşünəcəklər... Bir yandan da özünün dili bir belə...

– Yaxşı, sən niyə buna son qoymursan, demirsən ona?

– Nə deyəcəm? Zaurik, neçə dəfə demişəm ki, sənə: mənim barəmdə nə danışırlar qoy danışsınlar, vecimə deyil. Mən elə hesab edirəm ki, insanın öz daxili əxlaqı olmalıdır və əgər bu əxlaq varsa, insan öz daxili əxlaqına sadiqdirsə, bütün zahiri şeylərin heç bir əhəmiyyəti yoxdur – kim nə bilim nə dedi, nə fikirləşdi.

– Yaxşı, bir şeyi başa düşmürəm: bütün bunları bilə-bilə Spartakla haqq-salamı niyə kəsmirsən?

– Nə haqq-salam, əşi? İldə-ayda bir dəfə rast gəlirəm ona... Hərdən görürsən Spartakdan da adama xeyir dəyir, bir şey-zad lazım olanda deyirəm, o saat tapıb gətirir. Bax, məsələn, elə sənin bu "Ronson"unu o tapıb gətirdi mənə.

Zaur ad günündə Spartakın alışqana mənalı-mənalı baxmasını yada saldı, bu baxışın səbəbini ancaq indi başa düşdü və pərtləşdi.

– Əgər mən bilsəydim...

– Yaxşı, yaxşı özündən çıxma. Öz puluma almışam bu hədiyyəni, intəhası tapmağına Spartak tapdı. Pulun almaq istəmirdi, gücnən verdim... Adamın Allahı var: Spartak nə cür həllöyüş olsa da, hər halda xəsis adam deyil.

"Xəsis olmaz da – deyə Zaur fikirləşdi. – Bu qədər müftə qazancın olanda, səxavətli olmağa nə var ki. İllah da gözəl qadının yanında..."

Spartakın əliaçıqlığı, ciblərinin dolu olması, Təhminənin bu barədə ağızdolusu danışması Zauru incidirdi, əlbəttə... Zaur deyəndə ki, Spartak atasının pullarını xərcləyir, Təhminə gülmüşdü də, əksinə, demişdi, bütün ailə Spartakın hesabına dolanır, Spartakın puluna, Spartakın səxavətinə. Bu da dəyirdi Zaura. Təhminə qeyri-ixtiyari onun zəif damarına toxunurdu, axı, Zaur özü, 24 yaşında ali təhsilli gənc olsa da, hələ də atasının hesabına geyinib-gecinirdi, gəzib-dolanırdı. Amma hər halda bütün bunlara baxmayaraq, Təhminə Zauru sə-

virdi... Spartakın var-dövləti, səxavəti, hətta şeir oxuması da Təhminəni cəlb eləməmişdi, bu Moskva gecəsində, hotel nömrəsində Təhminə məhz Zaurun boynunu-boğazını öpüşlərə qərq edir:

– Sevirəm səni... sən hamıdan yaxşısan... mənim canımsan, əzizimsən, – deyirdi...

İndi gündüz Moskva küçələrini dolaşıb bütün gecəki sözləri, xatirələri bir daha yaddaşında oyatdıqca, çək-çevir elədikcə Zaur ancaq və ancaq bəxtiyarlıq hissi keçirirdi, heç bir xalla, heç bir fikirlə ləkələnməmiş tam bir xoşbəxtlik duyğusu. Və bu duyğu o qədər qüvvətli idi ki, *aşıb-daşıb içindən çıxırdı, başqalarına, küçədən keçən yad adamlara* da yoluxurdu. Zaura elə gəlirdi ki, bu hissin gücü qarşısında heç nə dayana bilməz, bu hiss hamını inandırmağa və bütün maneələri dəf etməyə qadirdir. O əmin idi ki, hətta ata-anası belə bu hissin şiddətini bilsələr, heç bir etirazları qalmaz. Məgər öz oğullarının düşmənləri idi ata-anası, məgər arzuları onu xoşbəxt görmək deyildi və əgər belədirsə, Zaur ömründə birinci dəfə olaraq sözün əsil mənasında xoşbəxt ikən nə deyə bilərdilər axı? Bu xoşbəxtlik nəinki ata-anasına, hətta qonşularına, Alya xanımgilə də sirayət etməliydi. Zaur inanırdı ki, Murtuzovlar belə, Firəngizi nə qədər Zaura ərə verməyi arzulasalar da, onun indiki xoşbəxtliyi qarşısında çəkilməliydilər, "qismət bu imiş" deyib Zaurla Təhminəyə uzun birgə ömür arzulamalıydılar. Və bütün başqa tanış-bilişlər də belə... və o cümlədən Təhminənin əri Manaf da belə... "Mənimlə xoşbəxt olmadı, barı Zaurla xoşbəxt olsun" deyə qırağa çəkilməliydi Manaf və ümumiyyətlə, bütün adamlar bu dünyada belə nadir şey olan həqiqi səadəti görüb ona qibtə eləməliydilər. Firəngiz, doğrudan, yaxşı qızdır, fağır.. Evlənmək olardı onunla, ala bilərdim onu, yaxşı ailə qura bilərdik. Amma nə edəsən ki, bu dünyada Təhminə var və Zaurun bəxtinə də məhz belə qəliz və xoşbəxt sevgi düşüb.

Yeddinci fəsil

Yar ilə ağyarı həmdəm görməyə olsaydı səbr
Tərki-qürbət eyləyib əzmi-yar etməzmidim?!

Axşam doqquzda Şabalovkaya gəldi, telestudiyanın qarşısında var-gəl eləməyə başladı. Studiyanın çöl qapılarından içəri elə hey adam girib-çıxırdı. Zaur da bir on beş dəqiqə bayırda gözləyib içəri

girdi. İçəri foyedə də adam çox idi, dəmir məhəccərin yanında milis durmuşdu və foyenin o biri tərəfinə keçənlərin buraxılış vərəqələrini yoxlayırdı. Zaurun, təbii ki, buraxılış vərəqi yox idi, odur ki, foyenin o biri tərəfində qaldı... Foyenin bu tərəfi tüstü içində idi və hətta divardakı lövhədə də göstərilirdi ki, papiros çəkmək yeri məhz elə buradır. Lövhənin altında, döşəmənin üstündə dairəvi sink qutu qoyulmuşdu, belə qutularda lent saxlayırlar, indi isə həmin qutunun yarısı külqabı olmuşdu, papiros, siqaret kötükləri ilə dolu idi. Arabir bu qutunun yanına gəlirdilər, acgözlüklə bir-iki dərin qullab vururdular və siqareti divara basıb (divar kül ləkələrindən qapqara idi) qutuya atırdılar... Qara cemperli qız çiyninə palto ataraq küçəyə çıxdı, kimisə harayladı, geri qayıtdı... Başqa bir eynəkli qız telefonla harasa zəng eləməyə cəhd edirdi. Qara cemperli qız növbətçi milisə yanaşaraq kağız verdi ona: – Vot, pojaluysta, spisok akterov, oni seyças proydut, – dedi.

Sallaq bığlı oğlan foyeyə çıxdı və bayırdan gəlmiş meşin pencəkli, özü kimi sallaq bığlı başqa bir gənci görüb:

– Privet, starina, – dedi, – uqosti siqaretoy. Kakie u tebya?

– Bete. Nu kak tebe?

– Çto?

– Nu, vçera. Fellini.

– Nu, *starik, qrandiozno.* Ya oçumel, *starik, ssena* v *tunele* – eto oboldet mojno.

– Da, konçno, starik... No vse je znaeş, pomoemu, Fellini ot barokko prişel k rokoko...

Nədənsə bu cümlə Zaura xususi ləzzət verdi, pıqqıldayıb gülməkdən özünü güclə saxladı... Eynəkli qız axır ki, niyyətinə çatdı, telefonda istədiyi adamın səsini eşidib:

– İr, eto ya Yulka, – dedi – Bitıy ças torçu zdes ne moqu do tebya dozvonitsya.

Təhminə foyenin o başından gəlirdi, uzun paltar geymişdi, yanında da iki kişi və uzun, sarışın bir qadın vardı.

Zaura tanış gəlirdi bu qadın və az sonra yadına düşdü ki, onu ekrandan tanıyır – Moskva televizorunun diktoru idi. Kişilərdən biri də, görünür, moskvalı idi, o biri isə... Zaur, heç vaxt görməmişdi bu adamı, amma dərhal tanıdı, kim olduğunu təyin elədi. Şübhəsiz, həmin televiziya rejissoru, adı Təhminənin dilindən düşməyən Muxtar Məhərrəmov bu idi. Muxtar çox da yaşlı adam deyildi, amma başı ağarmışdı, *birçəkləri tamam ağ idi, başında da ağ tüklər qaradan çox idi.* Dolu bə-

dəni bir az lırt təsir bağışlayırdı, bu təəssüratı qırış zamş pencəyi, əzik köynəyi və səliqəsiz bağlanmış qalstuku da artırırdı, bu adam, deyəsən, üst-başına heç fikir verən deyildi. Ağıllı və kədərli gözləri vardı. Muxtarın sifəti yorğun idi. Həm də bu yorğunluq bir gərgin günün, bir yuxusuz gecənin əzginliyi deyildi, illərin yorğunluğu idi. Bu yorğunluqda həyatdan bezarlıq da olmasa, hər halda, dünyanın hər üzünə bələdçilikdən doğmuş bir pərişanlıq vardı, bu adam elə bil yaşının illərindən qat-qat artıq yaşamışdı dünyada və hər şeyi də bilirdi insanlar haqqında.

Görünür, Muxtar Məhərrəmov elə sayaq adam idi ki, dünyada heç bir şeylə təəccübləndirmək olmazdı onu. Belə adamlar bədbəxtlikdən heç nəyə ürəkdən sevinə bilmirsə, xoşbəxtlikdən heç nəyə də dərindən kədərlənmirlər... Qəribədir, adamların başları da müxtəlif cür ağarır: bəzilərinin başı ağappaq qar kimi ağarır, bəzilərininki elə bil kif-atır... Muxtarın çallığı kül rəngində idi, amma elə bil yalnız saçları yox, sifəti də kül rəngində idi, alnında və dodaqlarının ətrafında dərin qırışlar, gözlərinin altında qara həlqələr vardı və Muxtar içində boğulmuş adam təsiri bağışlayırdı. Birco dişləri ağappaq idi və Muxtar güləndə nazik qara bığlarının altından ağaran dişləri sifətinə xoş bir ifadə verirdi...

Təhminə Zauru görüb əl elədi, amma gəlmədi ona tərəf, dayanıb dostlarıyla danışırdı... Söhbətləri nə isə uzanırdı, amma Zaur səbirlə gözləyirdi, bilirdi ki, indicə Təhminə onlarla görüşüb ayrılacaq, Zaurun yanına gələcək və onlar yenə də dünənki kimi Moskva küçələrini elədən-belə ölçəcəklər... Yenə də cürbəcür adamlar foyeyə girib-çıxır, vosiqələrini göstərirdilər, yenə də ayrı-ayrı cümlə qırıqları, ayrı-ayrı sözlər dəyirdi Zaurun qulaqlarına: "trakt, monitor, Xutsiev, Xesin, Fellini..."

Nəhayət, Təhminə dostlarıyla vidalaşmağa başladı, əvvəlcə əlini kişiyə uzatdı, kişi Təhminənin əlindən öpdü, sonra qadın diktorla qucaqlaşıb öpüşdülər, sonra isə hər ikisinə bir daha əl eləyib, çıxışa tərəf addımladı. Muxtar da moskvalılarla görüşüb Təhminənin yanınca gəlirdi. Zaur heç bu variantı ağlına gətirməmişdi...

Təhminə:

– Tanış olun, – dedi. – Zaur – Muxtar... Hər ikinizə bir-biriniz haqqında o qədər danışmışam ki, elə tanış kimisiniz.

Muxtar:

– Çox şadam, – dedi və əlini uzatdı.

Zaur da əlini uzadıb nəzakətlə:

– Mən də şadam, – dedi.

Təhminə:

– Gedək, – dedi və onlar küçəyə çıxdıqda hər ikisinin qoluna girdi.

– Yolumuz hayanadır, hara gedirik indi? – Təhminə heç birinə müraciət eləmirdi, amma birinci Muxtar cavab verdi:

– Sənin kefin hara istəsə...

Təhminə:

– Bilirsən nə var, Zaur, – dedi. Zaur öz-özünə qeyd elədi ki, Muxtarın yanında ona "Zaurik" yox, Zaur deyir. – Muxtarın başına gözəl bir fikir gəlib, bizi yeməyə dəvət eləmək istəyir. Məncə dahiyanə fikirdir bu, sən necə bilirsən?

Zaur tutulmuşdu, axı ona elə gəlirdi ki, bu axşam da ikisi olacaqlar, dünənkitək... Amma budur bax bu Muxtardır nədir, hardansa çıxdı ortalığa və Təhminə də indi onun adından dəvət eləyir Zauru şam yeməyinə. Belə görünür ki, Muxtarın hesabına... Özü niyə dinmir bəs?

Muxtar:

– Zaur, – dedi, – əgər, axşam elə vacib işiniz yoxdursa, gedib bir yerdə oturmaq pis olmazdı məncə, hə?

"Gör bir məsələni necə qoyur? Vacib işiniz yoxsa... Burada mənim Təhminədən başqa nə vacib işim ola bilər?.. Yəni məgər bilmir bizim Təhminəylə münasibətlərimizi?.. Təhminə qandırmayıb onu?.." Pis bir fikir gəldi Zaurun başına: "Bəlkə elə mən özüm də Təhminəylə həmin bu Muxtarın əsil münasibətlərindən bixəbərəm... Bu nə söhbətdir belə: "vacib işiniz yoxsa...". Tutalım ki, mənim vacib işim olsaydı, mən Təhminəni bununla qoyub gedəcəydim bəyəm...". Amma qəribədir ki, Zaur Muxtara yox, Təhminəyə əsəbiləşirdi... bu ikibaşlı münasibətlər üçün əsəbiləşirdi... Bir istədi acıqcan desin ki, hə, vacib işim var; amma qorxdu ki, onu saxlayan olmasın, elə Təhminə də o cümlədən, madam ki, vacib işin var, xoş gəldin...

– Yox, bir elə işim yoxdur, – dedi.

Muxtar:

– Lap yaxşı, – dedi. – Onda kino evinə gedək.

Taksi saxladılar – Muxtar qabaqda oturdu, Zaurla Təhminə dalda. Muxtar ünvanı dedi.

Gəlib çatdılar, Muxtar sürücünün haqqın verəndə də Zaur özünü birtəhər hiss elədi, indi burada qabağa düşmək, "yox, mən verərəm" demək gülünc olardı, axı, yeməklərinin daha böyük xərcini Muxtar

çəkəcəkdi. Eyni zamanda Muxtarın hesabına taksiylə gəlmək, yemək də heç açmırdı Zauru: Şam yeməyinin hesabını verməyə isə heç bir imkanı yoxdu, cibində cəmi-cümlətanı onca manat pulu qalmışdı.

Taksidə gələrkən Zaur susmuşdu. Muxtarla Təhminə danışırdılar, verilişləri haqqında, Moskva televiziyasının imkanları haqqında, onları bir neçə müddətdə sıx bağlamış olan ümumi işləri barədə söhbət edirdilər. Burada imkanlar, doğrudan da tamam başqadır. Bakıda iki trakt məşq olanda Allahımıza şükür eləyirik, burada isə rejissor yeddi-səkkiz trakt ala bilir... Aparaturaları da necə kamildir, heç olmasa o sinxron videoyazı aparatının bircəciyi bizim studiyada olaydı. Amma bütün bu söhbətlərin dibində bir qürur hissi də vardı: bunlara baxmayaraq yaxşı bir veriliş hazırlaya, apara bilmişdilər. Hətta, Təhminəyə yarızarafat-yarıciddi burda qalıb işləməyi də təklif eləmişdilər. Muxtarı isə lap çoxdan bura dəvət edirlər. Kino evinin qapısında Muxtar üzvlük biletini göstərdi: – Bunlar da mənim qonaqlarımdır, – dedi və onlar içəri keçdilər. Elə pilləkəndəcə Muxtar hansı tanışlarınasa rast gəldi, mehriban görüşdülər, şirin söhbətə başladılar... Təhminə iri güzgünün qarşısına keçdi, saçlarını düzəldir, dodaqlarını boyayırdı.

Zaur isə neyləyəcəyini bilmirdi, siqaret çəkmək istəyirdi, amma bilmirdi: məhz burda siqaret çəkmək olar, ya yox... Elə bil onu tamam unutmuşdular. Muxtarın təzə-təzə tanışları yanaşırdı ona, Təhminə isə güzgünün qabağında bərk məşğul idi.

Foyedəki adamları Zaur ömründə birinci dəfə görürdü, amma çoxunun sifəti yaman tanış gəlirdi. Ekrandan tanıyırdı onların sifətlərini. Məşhur, adı dillər əzbəri olan aktyorlar deyildi bunlar əlbəttə, amma hər halda çox filmlərdə çəkilmişdilər və odur ki, sifətləri də yaddaşlarda həkk olunmuşdu. Zaur yadına sala bilmirdi ki, bax bu müasir dəblə geyinmiş qadını hansı filmdə görüb, özü də sadə rus kəndlisi geyimində... Bax bu dama-dama pencəkli oğlan isə hansı filmdəsə alman zabitini oynayırdı...

– Nədir, Zaurik, darıxmırsan ki? – Təhminə ona yanaşdı və Zaur yenə də öz-özüyçün qeyd elədi ki, Muxtar olmayanda Təhminə həmişəki kimi "Zaurik" deyir. – Ya kino ulduzlarına tamaşa eləyirsən?

Zaur:

– Bəli, – dedi, – canlı Larionovanı gördüm indicə.

Təhminə də eyni zarafatcıl ədayla:

– Mən də canlı Tixonovu gördüm, – dedi.

– Dostlar, siz allah bağışlayın, – Muxtar onlara tərəf gəldi, amma yenə də hansı tanışınısa gördü, salamlaşdılar, qucaqlaşıb öpüşdülər.

Təhminə:

– Qəribə adamdır, – dedi. – Bax televiziyada da belədir. Hamı tanıyır onu, özü də hamının ürəyi gedir onunçün, görən kimi bağırlarına basıb öpürlər... Niyə belə qaşqabaqlısan, Zaurik?!

Zaur:

– Yox, – dedi, – kefim lap kökdür. – Və birdən-birə lap səfehcəsinə soruşdu: – Məni daha sevmirsən?

Təhminə güldü:

– Dəli, əlbəttə sevirəm... Elə darıxırdım sənինçün bütün günü ki... Bəs, sən neyləmisən bütün günü?

Zaur cavab verməyə macal tapmadı. Muxtar qayıdıb gəldi və Təhminə indi də Muxtara müraciət elədi:

– Muxtar, o yelpicli qadın kimdir?

Muxtar qadının adını dedi.

– Bəs o cavan oğlan, yanındakı, əridir?

– Keçmiş əridir... Bax, onlara kofe gətirən oğlan da indiki əridir... Yaxşı, gedək restorana?

Restoran, demək olar ki, tamamilə boş idi. Böyük salonda cəmi-cümlətanı üç-dörd stolun ətrafında adamlar oturmuşdu. Stolların üstündə kiçik çıraqlar yanırdı. Ayrı işıq yox idi restoranda, odur ki, salon alaqaranlıq idi. Küncdə, pəncərənin yanında oturdular – sağda Təhminə, ortada Zaur, solda Muxtar. Ofisiant məzəli şəkillər çəkilmiş menyünü gətirib qabaqlarına qoydu. Təhminə oxumağa başladı, elə bil yeməklərin adından belə dadlı iy gəlirdi, Zaur hiss elədi ki, möhkəm acıb – axı bütün günü dilinə bir şey vurmamışdı.

Təhminə:

– Heç özüm də bilmirəm nə istəyirəm, – deyə menyünü Muxtara ötürdü, – sən seç...

Muxtar:

– Duru xörək yeyəcəyikmi? – deyə soruşdu.

Təhminə:

– Əlbəttə, yox, – dedi, – axşam– axşam nə duru xörəkbazlıqdır?.. Mən toyuq istəyirəm.

– Tabaka?

– Hə.

– Zaur, bəs siz?

Zaur çiynini çəkdi.

Muxtar:

– Şəxsən mən yaxşı bir tikə ət parçası yeyərdim, – dedi, ofisianta baxdı. – Podjarku u vas takje vkusno qotovyat, kak prejde?

Ofisiant başıyla təsdiq elədi.

– Toqda davayte nam dve podjarki, da, Zaur?

– Aha.

Bir xeyli məzə də sifariş verdi Muxtar.

– Yaxşı, içməyə nə içəcəyik?

Təhminə:

– Nə bilim, siz nə içəcəksiniz ki?

Muxtar koynak sifariş verdi.

Ofisiant hər şeyi yazıb getdi... Sükut çökdü, sonra Muxtar:

– Fikir verdiniz, nə qəmli gözləri var? – dedi. – Ofisiantı deyirəm...

Zaur bu sözlərə təəccüb elədi, çünki o özü Muxtarın gözləri haqqında bayaq bu cür düşünmüşdü.

Muxtar:

– Mən fikir vermişəm ki, ofisiantlardan, xüsusilə də yaşlı ofisiantlardan çoxunun gözləri qəmli olur... Qəmli və ağıllı... Görünür, peşələriylə bağlıdır bu cəhət... Ofisiant da Allah kimi qəmli və müdrik olur. – O gülümsündü.

Təhminə:

– Bəyəm sən Allahı görmüsən? – dedi. – Nə bilirsən ki, Allah müdrik və qəmlidir?.. Yaxşı, tutalım müdrikdir, bununla razılaşmaq olar birtəhər, bəs qəmli niyə olsun ki, Allah?

– Bircə səbəbdən... Elə ofisiantlar da o səbəbdən qəmlidirlər: Allah da, ofisiantlar da insanlara yaxşı bələddirlər, onların bütün zəif, naqis cəhətlərini görürlər, buna görə də qəmlidirlər...

Zaur da bu sayaq, maraqlı bir şey demək istəyirdi. Muxtara etiraz eləmək istəyirdi, həm də elə bir tərzdə eləmək istəyirdi ki, həm ağıllı olsun, həm də məzəli, amma elə bil bütün zehni qıc olub qalmışdı. Heç bir şey düşünməyə, tapıb deməyə iqtidarı yox idi, sanki çuqun ağırlığı çökmüşdü bütün içinə, dili də elə bil zəncirlə kilidlənib hərəkətsiz qalmışdı. Özünü çox naqolay hiss edirdi, qorxurdu ki, birdən kobud bir səhv eləyər, çəngəlləri-bıçaqları qarışıq salar, ya yöndəmsiz davranıb nəyisə salıb sındırar. Salfeti hara qoymağı da bilmirdi, əllərinə də yer tapa bilmirdi elə bil. Ona elə gəlirdi ki, bu narahatlığını Təhminə də, Muxtar da duyurlar, xususilə də Muxtar. Zaur görurdü ki,

Muxtar hərdənbir altdan-altdan ona göz qoyur, hərəkətlərini izləyir və Zaurun bütün varlığını, içini, rentgen cihazındaymış kimi görür. Zauru bu cür gördüyüyçün də ona bir qədər yüngül istehzayla baxır – yaşlı adam uşağa baxan kimi...

Ofisiant məzələri gətirdi, konyakı badələrə süzdü. Muxtar yeməkdən bircə tikə də ağzına götürmomiş konyakı daddı, sağlıqsız-filansız bir qurtum içdi, sonra isə uzun müddət badəni ovucları arasında sürtdü, elə bil isidirdi, sonra yenə də kiçik bir qurtum aldı... Zaur da içmək istəyirdi, amma bilmirdi necə eləsin. Muxtar kimi sağlıqsız-filan, kiçik-kiçik qurtumlarlamı?..

Təhminə:

– Bir az salat ver, mənə, – dedi.

Zaur pis bir hisslə Muxtarın qonaq elədiyi məzələri Təhminənin boşqabına qoyurdu. Sonra badəsini qaldırdı:

– Sənin sağlığına, Təhminə, – dedi.

Təhminə:

– Çox sağ ol, əzizim, – dedi və bir qurtum aldı. Muxtar Təhminəyə baxıb gülümsündü və o da bir qurtum içdi. Sonra:

– Amma öz aramızdır, konyak doğrudan da əla konyakdır ha, – dedi.

Zaur da təsdiq elədi.

Muxtar qəfildən Zaurdan soruşdu:

– Bəs siz nəylə məşğulsuz?

Zaur:

– Geoloqam, – dedi və bir qədər sükutdan sonra əlavə elədi. – Amma nəşriyyatda işləyirəm... Təhminəylə bir yerdə işləyirdik.

– Elədir, hə, Təhminə deyirdi axı... Geoloq... Romantik sənətdir... həmişə, dağda daşda...

Zaur tutuldu – onun söyər yerinə toxunmuşdu Muxtar. Zaur həmişə xəcalət çəkirdi ki, bütün kurslarından bircə o əsil peşəsiylə – geoloq peşəsiylə məşğul olmur, nəşriyyatda geologiyaya aid kitabları redaktə edir. Nəşriyyata anasının təkidiylə işə düzəlmişdi, aspiranturaya daxil olmaq üçün staj lazım idi. Doğrudur, heç aspiranturaya da girmədi, yenə də anasının təkidiylə sərbəst mövzu götürdü, amma hər halda ikinci ildi ki, bu nəşriyyatda ilişib qalmışdı. "Dağlar, meşələr..." Bilmirdi Muxtar qəsdənmi onun yaralı yerinə toxunmuşdu, ya təsadüfən demişdi bu sözləri. Romantik sənət... Təhminə ki, hər halda Zaurun bu zəif damarından agah idi, amma o da Muxtarın sözlərinin fərqinə varmırdı elə bil. Eybi yox, Zaur da borclu qalan deyil.

– Bəs siz nə sənət sahibisiniz? – deyə Muxtara müraciət elədi. Əlbəttə, onun nə sənət sahibi olduğunu çox gözəl bilirdi, necə də bilməyə bilərdi ki, söhbətləri bayaqdan məhz elə Muxtarın işi-peşəsiylə əlaqədar idi.

Muxtar qımışdı və zeytunu ağzına atıb:

– Mən televiziya rejissoruyam, – dedi, – amma mənim də əsil peşəm deyil bu... Təhsilimə görə mən kino rejissoruyam. Vaxtilə Moskvada kino institutunu qurtarmışam. Bu, uzun əhvalatdır...

Muxtar bunu elə tərzdə dedi ki, Zaur düşündü: "Deyəsən, mən də yaralı yerinə toxunmuşam", – məmnun oldu bundan, amma bu səfər Təhminə əlüstü söhbətə qarışdı:

– İnstitutu qurtarandan sonra Muxtarı burada, "Mosfilm"də saxlayırlarmış... Elə nahaq qalmamısan o vaxt... Qalsaydın, indi neçə böyük film çəkmişdin.

Muxtar:

– Ay Təhminə, məgər iş filmin böyüklüyündə, kiçikliyindədir? – dedi. – Hər şey daha qəlizdir həyatda. Həm də daha sadə... Həm daha qəliz, həm daha sadə, – deyə bir daha təkrar elədi. – İnsan ömründə bir sərhəd var, görünməz yaş sərhədi, – əlbəttə, sən də, Zaur da bu sərhəddən hələ çox uzaqsınız, amma mən daha keçmişəm bu sərhədi, odur ki, danışa bilərəm bu barədə... Bu sərhədə çatanacan hər şey qabaqdadır, ümidlərlə, arzularla, xəyallarla yaşayırsan – filan şeyi filan filan eləyəcəyəm, filan iş filan cür olacaq. Elə ki, bu sərhədi keçdin – istəyirsən lap bizim o Şirəli baba kimi yüz əlli il yaşa – hər şey arxada qalmış olacaq, ancaq xatirələr, həyata keçməmiş arzular barəsində, baş tutmamış niyyətlər haqqında xatirələr, vəssalam.

Konyakdan bir qurtum aldı və Zaura baxdı:

– Bilirsiz, Zaur, lent, plyonka – böyük məsələdir. Lent qalır – böyük film olsun, kiçik olsun, fərqi yoxdur – plyonkaya, lentə çəkmisən – kinofilm, ya telefilm – qalacaq. Amma mənim peşəm kədərli peşədir. Televiziya verilişləri, filmləri yox a, verilişləri rejissoru... Verilişi hazırladın, efirə verdin, vəssalam, şüttamam, daha yoxdur o veriliş, heç bu qədər zəhmətin, əzab-əziyyətin elə bil yerli-dibli olmayıb... Başa düşürsüz?

Zaurun yerinə Təhminə cavab verdi:

– Lap mənim kimi. Elan elədim, ekrandan getdim, vəssalam, izimsorağım qalmır.

Muxtar:

– Bəli, – dedi, – doğrudan, kədərli işdir. Nə qədər əmək sərf eləyirsən, gecə-gündüz bilmirsən, ağlında, qəlbində nə varsa hamısını tökürsən ortalığa, əsəblərinin, sağlamlığının hesabına veriliş hazırlayırsan, bəzən həftələrlə, aylarla ancaq bu barədə düşünürsən, bütün istedadını, – yaxşı, deyək ki, istedad böyük sözdür, – qabiliyyətini deyək, bacarığını-təcrübəni deyək – bir söz, varın-yoxun nəyin varsa, qabında, necə deyərlər, nə varsa atırsan ortalığa, veriliş hazırlayırsan, yarım saat, qırx dəqiqə, çoxu bir saat efirdə səslənir, sonra... – siqaretindən bir qullab alıb dodaqlarını araladı, tüstü burula-burula yuxarı qalxdı, – bax bu tüstü kimi uçub gedir hamısı, heç nə qalmır... Yox, doğrudan, çox kədərli peşədir...

– Ofisiantların peşəsi kimi? – deyə Zaur yadına saldı. Təhminə dərhal:

– Tək ofisiantların yox, həm də Allahın, – dedi.

Muxtar gülümsündü:

– Bəli kədərimiz Allahınkı qədərdir, amma müdrikliyimiz yoxdur.

Təhminə:

– Muxtar, gəl bir yerdə bir film eləyək. Sən çək, mən də oynayım. Bilirsən necə oynayaram... Sənin bütün məşhur aktrisalarından yaxşı. Hə, nə olar, gəl bir təşəbbüs eləyək də... Ümumiyyətlə, gəl sənlə birgə bir iş görək də axır ki. – Zaura Təhminənin bu cümləsi bir az ikibaşlı göründü.

– Mən ki sənə çoxdan bunu təklif edirəm. – Muxtar da beləcə ikibaşlı cavab verdi.

Təhminə:

– Ciddi deyirəm, – dedi. – Yəni təkid eləsən, sənə film verməzlər çəkməyə?.. Niyə baş qoşmursan bu işə axı? Heç olmasa mənimçün, mənim xətrimə... Baş rolda çəkərsən məni?..

Muxtar:

– Gecdir daha, – dedi. – Bu yaşda mən həyatımı dəyişməyəcəyəm ki?.. Elə sənin də daha vaxtın keçib.

Təhminə:

...– Utanmazın biri utanmaz, – dedi, – dilin necə gəlir mənə belə söz deməyə. Ölürəm, kinoda çəkilmək istəyirəm. Heç olmasa nə isə qalsın bu dünyada məndən bir gün yıxılıb öləndə. Özü də indi istəyirəm, çünki sonra, sən demiş, doğrudan da, gec olacaq, vaxtı keçəcək. İstəyirəm ki, kino ulduzu olum, şəkillərimi jurnallarda çap eləsinlər. Sevdiyim rəng? Mavi... Bəyəndiyim filmlər – rejissor Muxtar Məhərrəmovun əsərləri... Xobbim? Nədir, doğrudan da mənim xobbim?

Muxtar:

– Bəzənib-düzənmək, – dedi.

Təhminə:

– Əh, siz kişilər heç nə başa düşmürsüz bu dünyada, – dedi – Başa düşmürsüz ki, gözəl qadın da milli dəyərdir, nadir ağaclar kimi, faydalı qazıntılar kimi, tarixi abidələr kimi...

Muxtar:

– Təvazökarlığına söz ola bilməz, – dedi.

Təhminə:

– Nədir, deyəcəksən, gözəl deyiləm? Gözəlliyimi də danacaqsız yoxsa?

Muxtar:

– Yox, danmıram, – dedi. – Amma dəqiqləşdirmək istəyirəm. Sən doğrudan da çox gözəl idin. Təkrar edirəm: idin...

Təhminə:

– Naxal, – dedi və barmağıyla zarafatyana hədələdi Muxtarı, sonra Zaura tərəf döndü. – Zaur, bəs sən nə ağzına su alıb durmusan, necə centlmensən, müdafiə eləsənə məni bu köntöy ədəbsizdən.

Amma Zaur ağzını açmamış Muxtar:

– Sənin cavabını verirdim, – dedi, – Muxtar Məhərrəmovun əsərləri haqqında istehzana görə...

– Ay Muxtar, yəni zarafat-zad başa düşmürsən?

– Bəs sən? Sən zarafat başa düşmürsən? Heç mən sənin gözəlliyin haqda keçmiş zamanda danışa bilərəm?

Zaur hiss eləyirdi ki, Muxtarla Təhminənin arasında gedən bu yarızarafat, yarıciddi atışmanın dalında uzun illərin sıx münasibətləri, tanışlığı, dostluğu durur, – bunlar hamısı bütöv bir aləmdir və Zaur bu aləmdən tamam bixəbərdir...

Ofisiant isti yeməkləri gətirdi, onlar yeməyə başladılar, arabir sağlıqsız-zadsız, qurtum-qurtum konyakdan da içirdilər, içkinin xumarı yavaş-yavaş Zaurun fikirlərini dumanlandırırdı və o sıxılır, özünü son dərəcə naqolay və artıq hiss eləyirdi bu məclisdə. İstər-istəməz özünü Muxtarla müqayisə eləyirdi və Muxtarın hazırcavablığı, ülfətəünsiyyətə yatımlığı, hətta yumşaq kədəri müqabilində Zaur özünü son dərəcə ağır, qılıqsız, hətta, küt və bəsit adam kimi qavrayırdı... Yadına salırdı Təhminənin dünənki sözlərini, gecə nəvazişlərini, düşünürdü ki, bütün bunlar yalan deyilsə, onda Təhminə nəyə görə, axı, nəyə görə, Zauru sevir? Təhminə kimi bir qadın hansı cəhətlərinə, hansı məziyyətlərinə görə Zaur kimi bir adamı sevə bilər axı? Ancaq Zaurun zahiri görünüşünə, boy-buxununa, sir-sifətinə, cavanlığına, gücünə görəmi? Əgər belədirsə, deməli, onları yalnız və yalnız şəhvət bağlayır? Bəs onda Domodedovo meşəsində cəh-cəh vuran quşlar, Moskva küçələrindəki dünənki şıltaqlıqları, əlaqələrindəki bütün poeziya – bunlar necə olsun bəs, bütün bunlar da yalnız şəhvət oyunlarıyçün bir hazırlıq imiş yoxsa?

Muxtar danışır, danışırdı. Zauru fikirlər aləminə, qəm dəryasına qərq eləmiş içki Muxtarı əksinə nəşələndirmişdi, dil-boğaza qoymurdu. İndi o öz peşəsini yamanlamırdı, əksinə tərifləyirdi, deyirdi ki, dünyada heç bir başqa sənətə dəyişməz onu, doğrudan da, deyirdi, məgər möcüzə deyilmi bu? Gecənin tənhalığında tək bir adamın başına gələn fikirlər, sözlər əvvəlcə kağız üzərində maddiləşir, sonra isə səhərisi gün onlarla, yüzlərlə adamın iştirakıyla sifətlərə, rənglərə, səslərə, lövhələrə çevrilir, canlı həyatın bir parçası olur və bütün bu həyatın nəbzi rejissorun ovcunun içindədir. Bu həyat ekran işığıyla minlərə, milyonlara göstərilir, onların yaddaşına, zehninə həkk olunur. Nə olsun ki, ekran sonra solub sönəcək, bütün sözlər, bütün sifətlər əriyib yoxa çıxacaq – bu dünyada daimi nə var ki? Xoş bir yuxudan aldığımız təəssürat kimidir bu – yaddaşımızda, qəlbimizdə qalır. Və xoş bir yuxudan, ya yaxşı bir verilişdən yaddaşımızda qalan iz məgər həyatın başqa maddi ləzzətlərindən daha azmı zövq verir insana? Muxtar niyyətlərindən, həyata keçməmiş arzularından danışırdı – ayrı-ayrı səhnələr, parçalar, obraz – dağıntıları...

– İçərişəhər haqqında film çəkmək istərdim, – deyirdi. – İçərişəhərin evləri yadımızdadır da... Bax, bütün hadisələr bu evlərdə, həyətlərdə, o dar küçələrdə gedərdi, finalda isə – finalını elə aydın görürəm ki, filmin, tez-tez yuxuma girirlər bu kadrlar – finalda İçərişəhər evlərinin damlarını göstərərdim və damlardan birinin üstünə zil qara paltarlı gənc, gözəl bir qız paltar sərərdi... İpin üstündə ağlar, mələfələr, balış üzləri asılıb. Hamısı da ağappaq, meh onları yellədir və qara paltarlı qız da bu ağ parçaların arasında görünüb itir, göy üzü açıqdır, uzaqda da gömgöy dəniz... bu bir növ rəqsdir – ağ parçaların, qara paltarlı qızın, küləyin rəqsi... Amma eyni zamanda kəndirdəki ağlar elə bil yelkəndir və bu evlər də yelkənli qayıqlardır, uzaqdakı mavi dənizin içində üzürlər... Başa düşürsüz, kameranı elə nöqtədə qoyardım ki, evlərin damı gəmi göyərtəsinə oxşardı və ağlar da yelkən kimi dənizin fonunda görünərdi – həm plastik obrazdır bu, həm də rəmzi... Biz

çox vaxt yelkənləri döşəküzünə çeviririk, lakin mən döşəküzülərini yelkənə çevirmək istəyirəm. Amma bu rəmzin başqa mənası da var. Damların üstündə yellənən ağlar həm də təslim bayraqlarıdır... İçəri-şəhərin köhnə evləri müasir buldozerlərə müqavimət göstərə bilmirlər, onlar dağılmağa, sökülməyə məhkumdurlar və təslim bayrağı kimi damların üstündə mələfələri, döşəküzlərini qaldırırlar... Kiminsə şeiri vardı bu məzmunda... "Ağ döşəküzüləri nə görürlər yuxuda? Görürlər ki, uzaq cənub dənizlərində yelkənlərdir...", ya "uzaq cənub dənizlərinə kölgə düşür bu yelkənlərdən..." – xatirimdə deyil.

Təhminə birdən Muxtarın uzun monoloqunu kəsdi:

– Gəl sənin sağlığına içək, Muxtar, – dedi. – Zaura çox danışmışam sənin barəndə. Zaur da mənimçün əziz adamdır.

Zaur: "Zaur da" deyə ürəyində təkrar elədi.

– Odur ki, deyirəm, Zaurik, – "Zaurik"– Muxtarın sağlığına qaldıraq bu qədəhi. Muxtar əsil dostdur, elə dostdur ki, ən çətin dəqiqədə, ən pis vəziyyətində ondan kömək uma bilərsən və o da əlindən gələni əsirgəməz. Heç vaxt da boynuna minnət-zad qoymaz ki, bəs filan-peşməkan... ya görürsən bir təmənnası olsun... bir söz...

– Bir söz, boşla bu söhbətləri, – deyə Muxtar onun sözünü kəsdi. – Lap bal-bəhməz oldu... Nə bilirsən təmənnasızam, ya yox, bəlkə ürəyimdə mənim də təmənnam var. Uzun sözün qısası – gəlin, elə-belə içək, vəssalam, sağ olun.

Təhminə sərxoş inadıyla:

– Yox, – dedi, – mən bir neçə kəlmə də demək istəyirəm, xahiş edirəm sözümü kəsməyəsən... Mən demək istəyirəm ki, dostlar da cürbəcür olur. Elə dostlar var ki, yaxşı günün dostudur, ancaq yaxşı günündə sənin böyründə hərlənir, üç qara qəpikdir qiyməti belə dostun. Elə dost var ki, yaman günün dostudur, bax belə dostu adam gərək çox yüksək qiymətləndirsin. Amma əgər həmin bu yaman günün dostu, ancaq yaman gündə sənin imdadına çatırsa, amma yaxşı günündə səndən gen gəzirsə, bu da məncə birtərəfli dostluqdur e. Adamın ürəyi darıxar bu cür dostluqdan, sən otur gözlə ki, mənim pis günüm haçan gələcək, onda öz dostluğunu sübut elə... Yox, bu da yarımçıq dostluqdur bir növ. Amma bir başqa cür dostluq da var, məncə əsil dostluq da elə budur... Yaman günündə səni tək qoymaz belə dost, amma yaxşı günündə də yaxasın qırağa çəkməz. Sənin dərdivə də şərikdir, sevincinə də sevinir. Sənin sevincin onun sevincidir, onun sevinci sənin sevincindir, dayan görüm, tamam çaşdım,ki... deyəsən, çox içmişəm... Nə isə... sənin sağlığına, Muxtar!

İçdilər, sonra Muxtar durub harasa getdi və Təhminə:

– Bilirsən necə insan adamdır, – dedi. – Sənətkarlığına da söz ola bilməz, – Allah vergisidir də...

Zaur düşündü ki, bu Allah zalım mənə niyə bir şey verməyib görəsən.

– Zaurik, nədirsə, elə bil pərişan dəyirsən bu gün gözümə? Nə olub?

Zaur:

– Qəribədir, – dedi, – mən fikir vermişəm ki, Muxtarın yanında sən mənə "Zaur" deyirsən. Muxtar olmayanda "Zaurik".

Təhminə şaqqanaq çəkdi:

– Ay Allah, əcəb ağılsızsan, – dedi.

– Biz hardan ağıllı olaq? Ağıllı Allahdır, ofisiantlardır, bir də rejissorlar.

– Lap zəhər tuluğusanmış ki sən, Zaur... Nədi, yəni məni qısqanırsan, kimə, Muxtara? Ay-hay! İstəyirsən, lap bax Muxtarın yanında səni qucaqlayıb öpüm, Zaurik, yox, lap elə "Zaurcığaz" deyim sənə, istəyirsən?

Zaur:

– İstəyirəm, – dedi. – Gəl bircə burdan çıxaq gedək.

Muxtar:

– Znakomtes, – dedi, onunla bir kişi və bir qadın da yanaşmışdı stola. Muxtar Zaur və Təhminəni rusca onlara təqdim elədi, sonra dedi ki, gələnlərin adı Saşa və Lenadır. Onu da əlavə elədi ki, əlbəttə, Lenanı və Saşanı təqdim eləməyə ehtiyac yoxdur, onları kim tanımır ki, – bu ər-arvad çox məşhur kino aktyorları idi.

Muxtar Saşayla Lenanı da stollarının başına dəvət elədi.

Ər-arvad ikisi də artıq möhkəm dəm idilər və Saşa otararkən az qaldı stuldan yıxılsın.

– Pardon, – dedi, – oçen rad... Sonra – madam, – deyə Təhminəyə müraciət elədi, – vı ne vozrajayete esli ya syadu ryadom s vami?

Təhminə etiraz eləmədi və Saşa ondan soruşdu ki, siz də aktrisasınızmı? Təhminə dedi ki, xeyr, mən televiziya diktoruyam.

Lena:

– Ax da, ya je videla vas po televizoru, – dedi, – pozavçera eto bılo.

Saşa Təhminədən xəbər aldı ki, bəs nə əcəb siz aktrisa deyilsiz, Təhminə də cavab verdi ki, bu barədə rejissorlardan soruşmaq lazımdır, məsələn, elə Muxtardan.

Muxtar da dedi ki, icazə verin əvvəl mən özüm soruşum ki, nə içəcəksiz. Saşa:

– Da tepcr vse odin xren, – dedi. – Nu davay vodki...

– A vı Lena?

– Mne toje vse ravno, vodka, tak vodka... Sonra Lena Zaurdan soruşdu ki, adı nədir:

– Zaur.

– Zaur! Krasivoe stepnoe imya! A kak zovut menya?

Zaur cavab verdi ki, özünüz daha yaxşı bilərsiz.

– O, ne budte qrubım, çelovek so stepnım imenem, – dedi Lena, vı je doljnı znat toçno: Lena...

Araq gətirdilər, Muxtar qonaqların qədəhlərinə süzdü.

Saşa:

– Vı pyete konyak, a mı vodku, – dedi. – Kakaya-ta anarxiya poluçaetsya u nas za stolom.

Muxtar:

– Net, u nas za stolom ne anarxiya, a monarxiya, – dedi, – poskolko est koroleva. İ daje dve korolevı.

Lena:

– Vot çto ya panimayu – vostoçnaya qalantnost, – dedi.

Saşa dedi ki, gəlin onda içək gözəl şərq qadınlarının sağlığına. İçək onların sağlığına ki, parancanı çıxarıb atıblar və konyak içirlər, sonra Təhminədən soruşdu ki, Təhminə paranca taxıbmı?

Təhminə cavab verdi ki, bizlərdə, ümumiyyətlə, heç vaxt, heç kəs parancanın nə olduğunu bilməyib.

Muxtar dedi ki, bizdə çadra olub, bu isə başqa şeydir.

Lena dedi ki, mən bilirəm, paranca Özbəkistanda olub. Sonra əlavə elədi ki, bildir Daşkənd festivalının iştirakçısıydım. Daşkənddə əntiqə plov bişirirlər.

Zaur dedi ki, bizim plovumuz daha ləzzətlidir. Zaur söhbətə ona görə qarışdı ki, susması diqqəti cəlb eləməsin, amma Saşa dərhal bunu tutdu və bərkdən:

– Bravo, bravo, sfinks zaqovoril, – dedi. – Vı molçali dolqo i zaqadoçno i nakones reşili raskrıt usta, çtobı zaşitit çest nasionalnoy kuxni.

Lena onun sözünü kəsib:

– Nu, xoroşo, – dedi, – ne... – və qəliz bir söyüş əlavə elədi.

Təhminə özünü o yerə qoydu ki, guya eşitmədi. Zaur qıpqırmızı qızardı, Muxtar isə mülayimliklə Lenadan xahiş elədi ki, söyüş söyməsin, bizlərdə adət belədir ki, qadının yanında söyüş söyməzlər.

Saşa dedi ki, onda yaşasın günəşli Azərbaycan respublikası və arvadına müraciətlə əlavə etdi:

– U nix nasçet etoqo znaeş kak stroqo, çut çto, esli çest zadeta, srazu pırnut nojom v serdse ili pulyu v lob.

Sonra Zauru göstərib əlavə elədi ki, görürsənmi, bu xanımın, yəni Təhminənin yanında necə mühafizəçi var.

Muxtar dedi ki, Saşa, məncə, sən Bakıda olmusan və sağ-salamat qayıtmısan ordan, nə bıçaqlayan olub səni, nə gülləylə yaralayan.

Saşa:

– Da, potomu çto ya bıl tam nije travı, tişe vodı, – dedi.

Muxtar:

– Nu, nasçet vodı tı izlişne skromniçaeş, – dedi, – pomoemu tı tam pil vse, çto uqodno, tolko ne vodu.

– Starik, ə deystvitelno probıl tam tri dnya ne prosıxaya, – dedi. Bakıda olmasından danışdı, dedi ki, təyyarədən düşəndə məni sizin kinonun rəhbər işçiləri qarşıladılar, sonra harasa getdik, haradasa görüş idi, nəydi, daha dalısı yadıma gəlmir, bir onu bilirəm ki, üç gündən sonra kimsə gətirib məni basdı Moskva təyyarəsinə... Ayrı heç nə yadına gəlmirdi Saşanın. Qədəhini qaldırıb:

– Nu, xoroşo, vzdroqnuli, – dedi, sonra yenə Təhminəyo baxıb dedi ki, bilmirəm bu Azərbaycan rejissorlarının gözləri hardadır, belə bir dünya gözəlini məgər kinoya çəkməmək olar heç?

Təhminə dedi ki, onlar çəkmir, siz çəkin. Saşa da dedi ki, məmnuniyyətlə və Təhminənin ünvanını, telefonunu istədi. Təhminə ünvanını və telefonunu vermədi, amma dedi ki, istəsəz, məni Muxtarın vasitəsilə tapmaq olar.

Saşa:

– On çto, vaş lyubovnik etot çertov, persyuk? – dedi.

Təhminə quru tərzdə:

– Net, – dedi.

– A kto vaş lyubovnik?

Təhminə:

– A u menya net lyubovnika, – dedi. – U menya est muj.

– A kto vaş muj?

Ani bir tərəddüddən sonra Təhminə Zauru göstərdi...

Sonralar Zaurla Təhminə mübahisə edirdilər: Təhminə belə deyəndə kim daha artıq quruyub qaldı – Zaur özü, ya Muxtar... Sonralar Təhminə Zauru başa salırdı: elə dedim ki, Saşa birdəfəlik əl çəksin məndən.

Doğrudan da, Saşa elə bil ayıldı, dorhal ahəngini dəyişdi. Zaura baxıb dedi ki, ancaq xahiş edirəm mənim qol-qabırğamı sındırmayasız, yüz faiz inanıram ki, bunu əla bacararsız, amma mən, ümumiyyətlə, arvadbaz deyiləm, mən alkoqolikəm, lazım gəlsə, arvadım da bunu təsdiq eləyə bilər.

– A poşel tı... – Lena ərini müəyyən ünvana göndərmək istəyirdi ki, birdən Muxtarın sözləri yadına düşdü, əlləriylə ağzını tutub, üzr istədi.

Saşa Muxtara müraciətlə:

– Starikan, a davnenko mı s toboy ne pili, – dedi, vaxtilə kursunda bir oxuduqları institutun dekanı Pal Palıçı yada saldı, soruşdu ki, Muxtarın yadındadırmı Pal Palıç?

Muxtar cavab verdi ki, əlbəttə, yadındadır. Saşa da dedi, bəs Muxtar bilirmi ki, ölüb yazıq Pal Palıç, Muxtar cavab verdi ki, şübhəsiz bilir və hətta, başsağlığı teleqramı da göndərib.

Saşa dedi ki, mən isə heç teleqram da vura bilmədim. Kannda idim, filmimizin premyerasında, qayıdanda bildim.

Təhminə soruşdu ki, Kann xoşuna gəlibmi Saşanın.

Saşa cavab verdi ki, üçüncü dəfədir Kann festivalında iştirak edir və lap zəhləsini töküb ora – qəbullar, nə bilim, press-konferensiyalar, kokteyllər, amma ağıllı-başlı içmək mümkün deyil... Amma bu səfər bəxti onda gətirdi ki, Fellininin təzə filminə baxdı orda, hələ bizdə yoxdur bu film, Muxtara müraciətlə:

– Nu, starik, – dedi – eto obaldet mojno, skaju tebe.

Zaur qəfilcən:

– A po-moemu, – dedi, – Fellini ot barokko prişol k rokoko...

Zaurun bu bəyanatı o qədər gözlənilməz oldu ki, hamının gözü kəlləsinə çıxdı, hamı bir müddət matdım-matdım bir-birinin sifətinə baxdı, nəhayət, Saşa:

– Nu, tı vıdayeş, starik, – dedi.

Təhminə də qəhqəhə çəkib Zaura "afərin" dedi.

Zaur isə kiçik qədəhini bir qırağa qoyub iri bir fujer götürdü, ləbələb konyak tökdü və göz qırpımında başına çəkdi. İçəndən sonra dedi ki, onun fikrincə dünyada ən yaxşı film "Tarzan"dır.

İstəyirdi ki, onun geriliyinə, primitiv zövqünə gülsünlər; amma əksinə, Lena Zaurun fikrinə qəhmər çıxdı, dedi ki, tamamilə razıdır bu sözlə, Tarzan heç olmasa sağlam kişidir. Sonra əlini Zaurun saçlarına çəkib:

– A vı sami poxoji na Tarzana, – dedi, – takoye je dikoye pervobıtnoye suşestvo s lesnım imenem...

Təhminə:

– So stepnım – qovorili vı, – dedi.

Lena da cavab verdi ki, meşə, düz, dağ – hamısı bir... və dərhal da üzr istədi, daha söyüş söyməyəcəyinə and içdi... Sonra Lena da Bakıya gəlməsindən danışdı, kinostudiyada balaca bir rolda çəkilibmiş, orada maraqlı bir adamla da tanış olub, rejissordur, bəlkə tanıyırsız. Adını xüsusi bir səylə tələffüz elədi: Ağamehdi...

Muxtar dedi ki, tanıyır belə bir adamı.

Lena dedi ki, çox maraqlı məxluqdur. Lenaya nələr vəd eləmirmiş ki, həmişəlik Bakıda qalsın.

Saşa Zaurdan xəbər aldı ki, siz də rejissorsunuz?

Zaur cavab verdi ki, xeyr rejissor deyiləm, tüfeyliyəm, çıxıb ata-anamın boynunda oturmuşam.

Saşa sakit-sakit cavab verdi ki, bu da pis peşə deyil, həm də gör necə gərək məharətin olsun ki, özün də valideynlərinin boynunda oturasan, hələ arvadını da orada əyləşdirəsən.

Təhminə, məzəmmətlə başını buladı, yəni ki, niyə, axı belə, Zaur.

Zaur cavab verdi:

– Ona görə belə deyirəm ki, sizin bütün bu söhbətləriniz lap məni boğaza yığdı daha, – Kann festivalı, Fellini, ağ yelkənlər, nə bilim, daha nə cəfəngiyat. Sonra əlavə elədi: – Ya samıy obıknovennıy, prostoy çelovek...

Lena:

– Nu, eto uje skuçno, – dedi, – kakaya-to demaqoqiya poşla. Davayte luçşe vıpyem.

Saşa:

– İskustvo prinadlejit narodu, – dedi və Zaura müraciət elədi: – A mejdu proçim, predstavitel prostoqo naroda, qde eto vı dostali takie şikarnıe tufli, ya ix daje v Parije ne moq kupit? Posmotri ka, Len...

Hamı Zaurun çəkmələrinə baxdı. Zaur nə isə fikirləşib, dedi ki, satıram, özü də qət təzədir... Saşa soruşdu ki, neçəyə, Zaur dedi ki, qırx manata, özüm almışam. Məlum oldu ki, Saşayla ayaqlarının ölçüləri də eynidir, 42. Zaur gördü Saşanın, deyəsən, doğrudan da meyli var, dedi, amma bircə şərtim var, sövdamız bax indicə, elə buradaca baş tutmalıdır. Mən öz ayaqqabımı sizə satıram, sizin ayaqqabılarınızı özüm geyirəm, üstəlik də mənə qırx manat pul verirsiz... Saşa fikirləşdi və dedi ki, razıyam.

Muxtar da, Təhminə də, hətta Lena da bilmirdilər, onlar zarafat edir, ya ciddi danışırlar, amma Zaurla Saşa artıq çəkmələrini dəyişdüyüş eləmişdilər. Saşa:

– Len, day yemu sorok rubley, – dedi.

– Da ne çudi tı...

– Day qovoryu. Tufli je blesk, eto on po pyanke otdayot, protrezveyet peredumayet.

Lena, doğrudan da, sumkasından qırx manat çıxardıb Zaura verdi və Muxtar dedi ki, onda gəlin içək Saşanın təzə çəkmələrinin şərəfinə... Təhminə dedi ki, həm də Zaurun təzə çəkmələrinin şərəfinə.

Zaur üzr istəyib, stolun arxasından durdu, ehmallıca ofisiantı kənara çağırdı, hesabı bilib pulunu verdi. Sonra qayıdıb öz yerində oturdu.

Saşa dedi ki, yaxşı, vaxtdır, hər şeyi yedilər, içdilər, qurtardılar, əntiqə çəkmə də qazandı aralıqda, indi isə evə getmək lazımdır, işıqları da söndürərlər daha.

Hamı yerindən durdu.

Muxtar:

– Siz gedin, – dedi, – mən gəlib çataram sizə. – Zaur gedə-gedə yavaşca çevrilir, Muxtarın ofisiantı çağırmasına ləzzətlə göz qoyurdu... Küçəyə çıxdılar. Binanın qapısındakı bir neçə maşını sahibləri işə salır, qızdırırdılar. Bir maşından Lenayla Saşanı çağırdılar.

Saşa və Lena Təhminə və Zaurla görüşdülər, dedilər ki, qonşularıdır çağıran. Aeroport metrosuna tərəf gedirlər, onsuz da yolları ayrılır. Muxtara da salam desinlər, heyf ki, sabah Kiyevə getməlidirlər, yoxsa görüşərdilər, bir də Moskvaya gələndə mütləq zəng vursunlar, hökmən görüşmək lazımdır. Keçib maşına mindilər, pəncərədən əl elədilər, maşın yola düşüb uzaqlaşdı... Muxtar elə bu vaxt çıxdı binadan.

– Ayıb deyilmi, Zaur, – dedi. Axı, mən dəvət eləmişdim, siz niyə vermisiz hesabı?

Zaur:

– Təzə çəkmələrimin şirnisini verdim, – dedi.

Təhminə:

– Nə? Deməli sən... – deyə sözə başladı və birdən hər şeyi başa düşdü, – ağılsız...

Sonra sözünü yarımçıq kəsib, Zaurun boynuna atıldı, ayaqlarını da yerdən üzüb havadan sallandı. Zaur da onu bağrına basıb o yan-bu yana hərləyirdi və elə bil hər ikisi Muxtarın burada olduğunu unudaraq uşaq kimi şən gülüşürdü.

Muxtar:

– Metroya getmirsiniz? – dedi. "Siz" – yəni Təhminəylə Zaur.

Zaur:

– Yox – dedi. – Piyada getmək istəyirik.

Muxtar tələsik vidalaşıb getdi. Becid addımlarla metro stansiyasına tərəf gedirdi. Zaur arxadan onun azacıq bükülmüş yorğun kürəyinə baxır və Muxtar haqqında onun özünün tapdığı obrazlarla düşünürdü: qırışıb-əzilmiş yelkən, heç bir zaman daha yelkən ola bilməyəcək ağ parça... qayıqları, uzaq cənub dənizlərini isə ancaq yuxularında görə bilər... Özgə şəhərdə, qərib oteldə, tənha nömrədə yatıb gördüyü yuxularda...

Səkkizinci fəsil

Bu nə sirdir, sirri-eşqin demədən bir kimsəyə,
Şəhrə düşmüş mən səni sevdim deyən avazələr.

Telefonun dəstəyini Təhminə özü götürdü. Zaur:

– Xoş gördük. Xoş gəlmisən, – dedi.

Təhminə:

– Sağ ol, – dedi, səsində nə sevinc vardı, nə intizar. Elə bil Zaurla on dəqiqə bundan qabaq ayrılmışdılar. Halbuki son görüşlərindən bir həftə keçmişdi, bu bir həftə ərzində Zaur Moskvadan uçub Bakıya gəlmişdi, Təhminə üç gün də Moskvada qalmışdı, sonra isə qatarla o da Bakıya yollanmışdı. Dünən gəlib çıxmışdı Bakıya, bu gün isə Zaur ona avtomatdan zəng eləyirdi.

– Bəs dedin gələn kimi zəng vuracam? Dünəndən gəlmisən, zəng eləmirsən.

Təhminə:

– Nə bilim, vallah, – dedi, səsi soyuq idi. Küləkli boz bir payız günü idi, elə bil Təhminənin səsinə də çökmüşdü bu günün soyuqluğu, tutqunluğu.

– Sevirsən məni?

Təhminə:

– Aha, – dedi, amma elə biganəliklə dedi ki, deməsəydi yaxşıydı.

– Haçan görüşək?

Bir az sükutdan sonra Təhminə:

– Mən özüm sənə zəng vuraram, – dedi. – İdarəyə...

– Haçan?

– Bilmirəm baxarıq...

– Bu gün?

– Yox, bu gün yox, sabah, birisi gün də yox... bir neçə gündən sonra...

– Axı niyə axı?.. Nə olub ki, bəlkə bir hadisə baş verib, hə?

– Yox, Zaur heç bir şey olmayıb. Amma işim var, bir məsələni həll eləməliyəm. Səndən də xahiş edirəm, bu günlər zəng vurma mənə. Bir neçə gündən sonra, bir həftədən sonra təxminən, özüm səni taparam, yaxşı?

Zaur həvəssiz:

– Yaxşı, – dedi. – Özün bil...

Zaur birdən-birə yenə də:

– Sevirsən məni? – deyə soruşdu.

Təhminə tələsik:

– Hə, hə, sevirəm, – dedi və Zaura elə gəldi ki, bu sözləri Zauru tez başından eləmək üçün deyir. Bir də təkrar elədi. – Özüm sənə zəng vuraram. Hələlik.

Zaur da:

– Hələlik, – dedi və Təhminə dərhal dəstəyi asdı. Telefondan kəsik siqnallar eşidilməyə başladı, du, du, du...

***

Günlər keçirdi, Zaur evdə də, işdə də, hər telefon zəngindən diksinir, dəstəyə tərəf atılırdı, amma Təhminə zəng vurmurdu ki vurmurdu.

Zaurun əsəbi vəziyyətini anası da duyurdu... və buna ayrı rəng verirdi... Zaurun Moskva səfəriylə bağlı inadını, tərsliyini, höcətliyini görüb, Zivər xanım dərk eləmişdi ki, hərbə-zorbayla oğluna təsir göstərə bilməyəcək, başqa yol seçmək lazımdır – hər şeyi "pişim-pişim"lə həll eləmək gərəkdir. Zivər xanım indi Təhminəni açıq yamanlamırdı, dolayı yollarla söhbət salıb, Zauru ona qarşı doldurmaq istəyirdi. Onu da bilirdi ki, sözü hərləyib-fırlayıb Təhminənin üstünə gətirən kimi Zaur çəmkirib otaqdan çıxacaq, söhbəti uzatmağa qoymayacaq, odur ki, Zivər xanım az sözlə çox şey demək məharətinə yiyələnirdi: oğlu sözünü kəsib otaqdan çıxanacan bir cümləylə, bir məlumatla onun qəlbinə şübhə toxumları səpməyə çalışırdı...

– Eşitmişəm, Moskvada sənin rəqibin də olub ki, – deyirdi. – Nədi o televizor rejissoru, Muxtar Məhərrəmovdu nədi. Bəs davanız düşmədi? Məşədibad demişkən, qızın iki adaxlısı varmış ki...

– Bəsdir, qurtar, – deyə Zaur başını götürüb qaçırdı, amma gələn səfər anası qəsdən televiziya verilişlərindən söz salırdı, guya ki, təsadüfən Muxtarın adın çəkirdi, sonra isə: "sənin rəqibin" – deyə yenə işarə vururdu...

Başqa bir səfər anası:

– Hərənin öz yeri var da, – deyirdi, – ər ad üçün, adı olsun ki, ərdədir, ərli arvaddır. Spartak geyindirib-gecindirmək üçün, Muxtar işdə qabağa çəkmək üçün, sən... sən isə səfehqulu, elə-belə – gün keçirməkçün lazımsan ona. Ən pisi səninkidir, bu gün sənin lə gününü keçirdər, sabah başqasıyla...

Bəzən isə tamam qəribə mülahizələr yürüdürdü: "Bilirəm səndən niyə belə bərk yapışıb, – deyirdi, – elə bilir ki, biz öləcəyik, bütün bu ev-eşik, bu var-dövlət ona qalacaq... Ay hay... asta ye, boğazında qalmasın..."

Bu, lap gülməli fikir idi və Zaur əsəbiləşməkdənsə maraq göstərirdi:

– Başa düşə bilmirəm, sizin ev-eşiyiniz hardan ona düşə bilər axı?

– Bunu başa düşməyə nə var ki?.. Onun fikri budur ki, biz ölək, sənə ərə getsin, bu ev-eşiyə sahib dursun... Asta ye, boğazında qalar...

Zaur bu sayaqlamanı müəyyən bir məntiqə bağlamaq istəyirdi:

– Axı, öz ərinə nə gəlib...

– Külü qoyum elə ərin təpəsinə... Ondan boşanmağa nə var ki, bir stəkan su içmək kimi asan işdir o cür arvadın əlindən.

– Deməli, sənin məntiqindən belə çıxır: Təhminənin indi evi də var, əri də. Ərindən boşanır, evindən əl çəkir ki, allah eləməmiş siz öləndən sonra bizim evə köçsün? Yəni buna səndən başqa bir inanan olar?

Sən elə sal, qoca anavı, atovu lağa qoy... Əlbəttə, Təhminə xanım sənə bundan yaxşı şey öyrətməyəcək ki. Əlbəttə, könlündən keçir də... O qotur evlərini bizim bu cah-calallı mənzilə kim dəyişməz, aralığa salıb ərini də dəyişər, nə çətin imiş onunçün bu... O ev-eşiyi ki, atanla mən iynəylə gör qaza-qaza illərlə düzəltmişik, hazırına-nazir Təhminə xanım gəlib bütün bu var-dövlətə sahib durar. Ölmüşdü deynən Zivər ki, sən onun nəslinin başında turp əkəsən... Vallah öləm məni basdıralar ha, onda da qəbrimin içindən, yerin yeddi qatından durub gəlib, öz əllərimlə boğaram onu.

Anasının fantastik fərziyyələri gülməli gəlirdi Zaura, həm gülməli, həm də ağlamalı, amma bir yandan ona sevinirdi ki, əgər anasının fərziyyələri bu dərəcədə həqiqətdən uzaq, boş-bekara gümanlardısa, onda deməli, verdiyi bütün başqa xəbərlər, topladığı bütün başqa məlumatlar – o xəbərlər, o məlumatlar ki, onları qaşıq-qaşıq zəhər kimi hər gün Zaurun içinə tökürdü – onlar hamısı da mənasız və puç şayiələr imiş... Zivər xanım Moskvada Təhminəylə Muxtarın məhəbbət macəralarından danışırdı və Zaur bilirdi ki, bütün bu söhbətlər boş uydurmalardır, amma sonra fikirləşirdi ki, məgər Təhminənin Moskva səfərinin bütün təfərrüatına, hər saatına, hər gününəmi bələddir? Əlbəttə, yox... – Bakıya qatarla həmin o Muxtarla bir kupedə gəlib ki – deyirdi anası və Zaur bilirdi ki, bu, həqiqətdir, amma əlavə eləyəndə ki, "ikiadamlı kupedə gəliblər", Zaur bunun yalan olduğunu da dəqiq bilirdi. Təhminə, Muxtar və televiziyada işləyən iki qız – dördü bir yerdə – bir kupeyə bilet almışdılar, Zaurun yanında.

Amma bəlkə... Niyə, axı nəyə görə Təhminəylə olanda onun vəfasına, sözlərinin həqiqiliyinə Zaurun şəkk– şübhəsi qalmır, amma elə ki, üç gün-beş gün görüşmədilər – "bütün şəhərin danışdığı" və anasının ona müfəssəl çatdırdığı şayiələr Zaurun içini didib-tökür, beynini gəmirirdi... Domodedovo meşəsində Təhminə: "bax indi, bu saat, bu dəqiqə biz xoşbəxtik və ən böyük həqiqət də budur" – demişdi və

Zaur da o zaman bunu həqiqət kimi qavramışdı, amma "bu saat, bu dəqiqədən" başqa da vaxt axarı vardı axı. Bəs bu vaxtın, Təhminəylə görüşmədiyi anların həqiqəti, Təhminənin onsuz, Zaursuz olduğu və kim bilir, kimlə olduğu dəqiqələrin həqiqəti nədə idi? Bəlkə də bu dəqiqələr kimincünsə başqa birisiyçün ən böyük həqiqət idi, Təhminəylə başqa birisiyçün... Zauru dəhşətə gətirən də elə bu fikir idi...

– Mən ölü, sən diri, – dedi Zivər xanım, – görəcəksiz, ərindən boşanacaq o. Öz planları var onun. Alya da deyir ki, televiziyaya keçib ki, o Muxtarı tovlayıb yoldan çıxartsın, ərə getsin ona... Özü bilər e, öz işidir, kimə gedir getsin, bircə səndən qəmişini çəksin.

Zaur "bəlkə, doğrudan da belədir", – deyə düşünürdü. Bəlkə, Təhminə seçirmiş: "Zaur, ya Muxtar və axırı Muxtarı seçib... Vacib işi də elə budur. Buna görə də "sən mənə zəng vurma, özüm zəng eləyəcəyəm" deyir və zəng eləmir...".

On gün də keçdi və Zaur bu müddət ərzində Təhminəni ancaq bircə dəfə gördü – televiziya ekranında...

***

Təhminə axır ki, qərara gəldi, dəstəyi götürdü və nömrəni yığdı

Qadın səsi gəldi:

– Bəli... – Təhminə susmuşdu, qadın səsi bir də təkrar etdi:

– Eşidirəm...

Təhminə əlini uzatdı ki, dəstəyi assın, amma dayandı, nəfəsini dərdi və bilərək ki, bu sözlərlə hər şey həmişəlik həll olunur, dedi:

– Manafı çağırın...

İndi də xəttin o biri ucunda sükut çökdü və bu zaman Təhminə səhərdən bəri öz-özünə təkrar elədiyi cümləni dedi:

– Madam ki, mən bu nömrəylə zəng eləyirəm, deməli, Manafın sizdə olduğunu bilirəm. Xahiş edirəm onu telefona çağırın.

Görünür, orada uzun zaman məşvərət apardılar, sonra addımlar eşidildi, sonra isə Manafın səsi gəldi. Özünü tamamilə itirmiş, öz adından belə imtina etməyə hazır olan yazıq bir insanın səsi.

Bəli...

– Mənəm, Manaf, Təhminədir, – bir an qorxdu ki, hətta Manafın ürəyi gedə bilər. Amma daha geriyə yol yox idi, – Manaf, indi başa düşdün ki, mənim hər şeydən xəbərim var? Bilirəm ki, Tiflisdə deyilsən, Bakıdasan, harda olduğunu da bilirəm, görürsən zəng elədim. – O, Zoyanın adını, familiyasını, dəqiq ünvanını da demək istədi, amma fikirləşdi ki, bu artıqdır. – Özü də çoxdan bilirəm, – yalnız bir bunu əlavə elədi.

Manaf udqundu...

Təhminə:

– Heç bir vaxt dava-dalaşa çıxmamışıq sənlə, indi də belə fikrim yoxdur. Amma xahiş edirəm ki, yarım saatlığa evə gələsən, vacib bir məsələni həll eləyək. Biz ayrılmalıyıq.

Bir kəlmə də dinib-danışmırdı Manaf və yalnız Təhminə: – Yarım saatlığa gələ bilərsənmi? – deyə təkrarən soruşanda Manaf batmış bir səslə:

– Yaxşı, – dedi.

Təhminənin zənn elədiyi kimi iyirmi dəqiqədən sonra gəldi Manaf, sir-sifəti meyit rəngində...

Əgər Manaf Təhminənin gözlərində bu qədər miskin və iyrənc olmasaydı, hətta, yazığı da gələrdi ona.

– Biz ayrılmalıyıq, Manaf, – dedi, – daha bu cür yaşamaq olmaz... Mənim bir hakim tanışım var, tez ayırarlar bizi, əngəlsiz-filan...

Manaf yenə də susmuşdu, başını almış bu gözlənilməz bəlanın *dəhşəti ona qara bir yuxu kimi gəlirdi. Axı ömrünün dəqiq düşünülmüş* və onun gümanıyla yaxşı ört-basdır edilmiş bütün düzümü, sahmansəliqəsi alt-üst olurdu.

– Sənin Zoyayla, ya başqa qadınlarla əlaqən... mən onların da adını bilirəm, inan buna, bir söz, bütün bu xəyanətlərinin heç bir dəxli yoxdur... Sən çoxdandır, neçə ildir ki, məni aldadırsan, amma görürsən ki, indiyəcən vecimə olmayıb bu. Çünki səni sevmirəm, Manaf. Demirəm ki, haçansa sevmişəm, indi sevmirəm, yox, heç vaxt sevməmişəm... Bilirəm, bəlkə də bunu eşitmək sənincün ağırdır, amma, doğrudan da, belədir. Bizim evlənməyimiz böyük səhv idi. Hər halda mənim həyatımın ən böyük səhvi adi...

Manaf onun dediklərini sanki heç dərk etmirdi, bayaqdan bəri. Təhminənin zəngindən bəri fikirlərində dolaşan sual yalnız bu idi ki, görəsən Təhminə haradan öyrənib hər şeyi, kim deyib ona, necə təyin edə bilib hər şeyi belə dürüst, telefon nömrəsinə qədər, bundan başqa daha nə bilir və ən əsas məsələ – görəsən hələ bir şey eləmək mümkündürmü, ailələrini, nikahlarını saxlamaq mümkündürmü? Bəlkə yalvarıb-yaxarsın, ya əksinə, çığır-bağır salsın, Təhminəni borclu çıxarsın? Yox, bunlardan heç biri bir nəticə görməyəcəksə, onlar hökmən ayrılacaqlarsa, onda Manafın gələcək həyatı necə qurulacaq, elə Zoyanın özüylə ya başqalarıyla necə olacaq münasibətləri? İndi azad və sərbəst olandan sonra daha gizlənməyə bilərmi, ya əksinə, daha artıq gizlənməlidir və asudəlik onun qarşısına yüz cür təzə problem çıxaracaq?..

Mənzil Təhminənin atasından qalmışdı və Təhminənin adına idi, Təhminə:

– Səndən yeganə xahişim budur ki, – dedi, – hələlik bu evi təkotaqlı mənzilə dəyişənə qədər sən Zoyagildə, ya kefin harda istəyir orda qal... Bu xahişimi yerinə yetirərsən?

Və ancaq bu zaman Manaf hər şeyi sonunacan, son nöqtəsinəcən başa düşdü, başa düşdü ki, qətidir ayrılmaqları, heç bir şeylə qarşısıalınmazdır bu iş və birgə ailə həyatıyla bağlı nə vardısa, məsələn, bax elə bu mənzilləri bir də heç vaxt, heç vaxt olmayacaq...

Təhminə tamam yad bir adam olacaq Manafçün, daha bir də heç vaxt, heç vaxt onlar bir divanın üstündə yan-yanaşı oturub televizora baxmayacaqlar, mətbəxdə bir yerdə çay içməyəcəklər, bir-birinə qapı açmayacaqlar və bir-birini telefona çağırmayacaqlar... Ağır, ləng bir qorxu yavaş-yavaş Manafın bütün içini doldurdu: yavaş-yavaş tam bitkinliyi ilə dərk edirdi ki, bir də heç vaxt Təhminəni mavi, tiftikli xalatda hamamdan çıxıb nəm saçlarını darayan görməyəcək.

Dəhşətli bir peşmançılıq hissiylə onu da duyurdu, hər hansı bir vaxt – keçmişdə ya indi – əlaqə saxladığı qadınların hamısından daha artıq, dünyadakı bütün qadınlardan daha artıq Təhminəni xoşlayırdı. Təhminəyə məftun idi və neçə ilin ər-arvadı olsalar da, əslində heç bir gün, heç bir gecə, heç bir saat da Təhminəyə malik olmayıb. Bəlkə elə Təhminənin soyuqluğu, biganəliyiydi Manafı başqa qadınların ağuşuna atan?.. Başqa qadınların nəvazişi onda özünə inam hissi oyadırdı, o hissi ki, Təhminəylə olanda itirirdi, daha doğrusu, heç bir vaxt duya bilmirdi Təhminəylə olanda. İndi, bu an dəli bir ehtiras oyanmışdı Manafda, Təhminəni bağrına basmaq, paltarlarını dartıb cırmaq, çabalayan çılpaq bədənini qolları arasında sıxmaq, öpüşlərə, nəvazişlərə qərq eləmək! Amma onu da bilirdi ki, bu saat yer üzündə bundan mümkünsüz şey yoxdur, dünyada heç bir qadın indi onunçün keçmiş arvadı Təhminə qədər uzaq və əlçatmaz deyil. Bunu dərk edə-edə hər halda yenə də inanmaq istəmirdi – yaxın bir adamın ölümünə inanmamaq istəyi kimi bir şeydi bu istək... İllər boyu birgə yaşadıqları bu otağın ora-burasına göz gəzdirirdi: divarlarda Təhminənin iri fotoşəkilləri, atasından qalma iri divar saatı, əlvan üfürmə şar – Bolqarıstandan gətirmişdi onu Təhminə və balaca, lap balaca əncir ağacı – təbiətin qəribə şıltağı, dağlarda bitmişdi bu mikroağac və onların ümumi dostları – alpinistlər hədiyyə gətirmişdi Manafgilə toylarından bir neçə ay sonra. O vaxtlar, evlənmələrinin ilk illərində, aralarında nə isə ümumi bir şey vardı məsələn, ümumi dostları. Sonralar hərəsi öz

həyatına qapıldı... Təhminənin səbir kasasını dolduran son damla nə olmuşdu görəsən. – Manaf bu barədə düşünür və Təhminənin paltarlarının düymələrini sayırdı, bu düymələr indi onunçün ən açılmaz möhürlər idi...

Divar saatı on bir dəfə vurdu...

***

– Bəs mən nə deyirdim. – Zivər xanımın həyəcandan gözü-başı qaynayırdı – bu dünyada bircə öldüyüm günü bilmirəm mən... Deyirdim sənə ərindən boşanacaq, deyirdim, demirdim hə?

– Kim?

– Kim, kim? Sənin aşnan... Belə de, sənin heç xəbərin də yoxmuş ki... Alya gəlmişdi... Onun da dərdi mənimkindəndir yazığın, deyir bilmirəm haraya müraciət eləyim, SK-ya? "Pravda"ya yazım bəlkə?

– Bir ağıllı-başlı de görüm nə olub axı.

– Nə olacaq, bu həyasızın qızı bütün təmiz ailələri pozacaq vallah... Alya deyir ki, yenə dadanıb zəng eləməyə Spartaka, yazığa aman vermir. Neçə aydır deyir, mağıl qulağımız dinc idi, bilmirəm kimə uymuşdu. Spartakın yaxasından əl çəkmişdi... Alya bunu mənə eşitdirir, e... Sənin fırıldaqlarından xəbərdardır. Moskvaya bir yerdə getməyivizi də bilir. İndi də, deyir, qayıdıb Moskvadan, yapışıb yenə Spartakın boğazından. Nə göz verir, nə işıq... hə, o yandan da deyir, məsələ qaldırıb, ərindən boşanır. Yəqin mənim oğlumun xirtdəyinə keçmək fikrindədir, deyir Alya yazıq... Spartakın pullarına tamah salıb, yaxşı təmiz ailəyə dürtülmək istəyir... Ay onun mürdəşir yusun üzünü, deyir Alya... Amma mən bir yandan sevinirəm ki, vallah, o Spartak – o da o. İtin dişi, donuzun dərisi... təki səndən əl çəksin, amma bir yandan Alya da yazıqdır da... Vallah, ana olmaq da bir bədbəxtçilikmiş bu dünyada.

Zaur daha onu eşitmirdi, telefona yanaşdı, elə evdəncə zəng elədi... Birinci dəfəydi ki, Təhminəyə evlərinin içindən zəng eləyirdi. Telefon cavab vermədi.

Zivər xanım altdan-altdan qımışaraq:

– Hardan cavab verəcək? – dedi. – Səhər gördüm Spartak "Volqa"sını qarajdan çıxarırdı. İndi də onun maşınında gəzir də... Spartakın "Volqa"sını sənin "Moskviç"indən üstün tutur də... – amma birdən Zivər xanım susdu, diqqətlə Zaurun üzünə baxdı və tamamilə başqa, yumşaq həlim bir tərzdə:

– Ay oğul, – dedi, – qanını qaraltma, anan qurban. Sənin tayın deyildi o... Qurban olum, o kimdir ki, sən bir belə ürəyivə salırsan, özüvə

dord eləyirsən bu şeyləri... Çıxart başından, sənə qurban olum... Gəl sənə dolma bişirmişəm, səhərdən acsan, işdən gəlmisən, bir tikə çörək ye, gözlərinin qadasını alım...

Zaur geyinib küçəyə çıxdı ki, anasının səsini eşitməsin. Nə kinayəli, nə mehriban, nə acı, nə şirin sözlərini eşitmək istəyirdi...

Küçəylə gedir və düşünürdü: bu nə təzə söhbətdir belə... Doğrudanmı Təhminə yenə Spartaka zəng eləyib, indi nə işi düşüb görəsən?.. Bəs Zaura niyə zəng eləmir və bu nə boşanmaq məsələsidir belə, bu söhbət hardan çıxıb? Spartakın nə dəxli var buna?.. Bu boşanmanın – əgər doğrudan da boşanırsa – Spartakla nə əlaqəsi ola bilər? Bəs Muxtarla? Muxtar bilirmi bu barədə bir şey?.. Bəs özü hardadır. Təhminə, axşam doqquzdur axı... Yenə zəng elədi. Sonra bir də, bir də... Telefon susmuşdu... Gecə on birin yarısı olmuşdu artıq. Telefon susduqca Zaurun nigarançılığı da artırdı və bilirdi ki, əgər bu axşam Təhminəylə danışıb bütün bu məsələləri aydınlaşdırmasa, rahat ola bilməyəcək. Küçələri gəzə-gəzə gəlib Təhminəgilin evlərinin qabağına çıxdı.

Evlərini də tanıyırdı Təhminəgilin, pəncərələrini də və bu pəncərələr indi işıqlı idi. Pəncərələri işıqlı görən kimi Zaur cəld telefon budkasına girdi – yəqin axır ki, Təhminə gəlib çıxıb evə, amma nömrə yenə də cavab vermədi. Zaur budkadan çıxdı və birdən par-par parıldayan çəhrayı "Volqa"nı – Spartakın "Volqa"sını gördü. Maşın düz Təhminəgilin qapılarının qabağında dayanmışdı, iki təkəri – bir tərəfi səkinin üstündəydi.

Elə bil hər şey birdən-birə Zaurun beynində işıqlandı, "deməli belə" – deyə düşündü. İndi lap qəti əmin idi ki, Spartak Təhminəgildədir, Təhminə də evdədir, hər ikisi o işıqlı pəncərələrin dalında oturub, telefon zənglərinə qəsdən cavab vermirlər və anasının, Alyanın, "bütün şəhərin" danışdığı söhbətlərdə, şübhəsiz, həqiqət var... Ərindən də yəqin ki, boşanır Təhminə, Spartaka da şübhəsiz ki, zəng eləyir. Muxtara da... Birdəfəlik bütün bunlara son qoymaq lazımdır, – deyə düşündü Zaur, özü də məhz indi, bu saat. İndicə qalxacam onların mənzillərinə, qapılarını döyəcəyəm, telefonu götürmədikləri kimi qapını da açmayacaqlar. – Zaur cəm halında düşünürdü evdəkilər haqqında, amma Təhminəylə Manaf kimi yox, Təhminəylə Spartak kimi – qapını açmayacaqlar, eybi yox, təpiklə vurub sındıraram, qoy səsküyə qonşular çıxsın, onsuz da bütün şəhərdə rüsvay olmuşuq, qoy lap biabır olaq, amma həqiqət axır ki, biryolluq üzə çıxsın. Zaur elə bil qızdırma içində sayıqlayırdı öz-özünə; Çöl qapısından, yüyürə-yüyürə üçüncü mərtəbəyə dırmaşdı, zəngi basdı... Qapının dalından səs-səmir

gəlmirdi. Zaur barmağını zəngin üstünə qoydu və çəkmədi – aramsız çalırdı zəngi. Bir azdan qapı ardından tələsik addım səsləri eşidildi və Təhminənin təəccüb dolu səsi eşidildi:

– Kimdir?

– Mənəm, Zaurdur, – dedi.

Qapı açıldı və mat-məəttəl qalmış Təhminə:

– Sənsən? – dedi...

Doqquzuncu fəsil

Vəsl qədrin bilmədim hicran bəlası çəkmədən,
Zülmət hicr etdi çox mübhəm işi rövşən mana.

Zaur boğuq səslə:

– Bəli, mənəm, – dedi. – Gözləmirdin?

Təhminə çiynini çəkdi:

– Gəl içəri də, – dedi.

İçəri keçdilər. Otaqdan yavaş musiqi səsləri, mətbəxdən isə qovrulmuş şabalıd iyi gəlirdi.

– Sən hardan gəlib çıxmısan bura?

– Telefonu niyə götürmürsən?

– Xarabdır da telefonum. Dünəndən işləmir. Yəqin pulun gecikdirmişəm, kəsiblər... Yaxşı, burda niyə dayanmışıq, gəl otağa.

Zaur ömründə birinci dəfə Təhminənin otağına girirdi. Təsəvvüründə çox canlandırmışdı bu otağı.

İndi isə Təhminənin dəfələrlə, bütün təfsilatıyla təsvir elədiyi şeyləri görürdü-standart rumın mebeli, divarlarda Təhminənin iri fotoları, güncdə əlvan üfürmə şar, təbiətin qəribə şiltağı – xırdaca əncir ağacı, ləng kəfkirli iri divar saatı – bütün bunlar vardı otaqda, amma təsvir olunmamış və təsəvvür edilməyəcək, izah olunmayacaq bir hava, nə isə xüsusi bir rövnəq, bir zövq də duyulurdu hər yerdə – Təhminənin zövqü, Təhminənin şəxsiyyəti... Torşerin alaqaranlıq şöləsində, kiçik dəyirmi masanın üstündə iki stəkan çay, konfet, mürəbbə və üç qədəh vardı: qədəhlərdən ikisi boş, üçüncüsü dolu idi.

Təhminə:

– Əyləş, – dedi.

– Qonaqların var?

– Əşi, nə qonaq... Qonşumuzdur – Mədinə...

– Bu konyakı onunla içirsiz?

– Bəli. İndi səni də qonaq edərik, – Təhminə bufeti açıb konyak şüşəsini çıxartdı. Şüşənin yarısı boş idi.

– Yarım şüşə konyakı elə ikiniz vurmusuz? – Zaur sərt və kəskin danışırdı: cinayətkarı ifşa edən müstəntiq ahəngi vardı səsində.

– Zaurik, bir az nəzakətli danış. Sənə konyak verirlər iç, nə borcuna butulkanın yarısını kim boşaldıb.

– Belə de... Çox əcəb... Görürəm, ayrı qonağın da var. Tək bir qonşu Mədinə deyil.

Təhminə təəccüblə:

– Ayrı kimdir? – deyə soruşdu.

Zaur özünü güclə saxlayaraq:

– Bax bu üçüncü qədəhin sahibi... Amma doğru buyurdun, no borcuma kimdir o, odur ki, soruşmuram da.

Təhminə elə bil üçüncü qədəhi yalnız indi gördü, bir müddət maddım-maddım bu qədəhə baxdı, sonra birdən bərkdən güldü.

– Ceyranı lap gözündən vurdun, – dedi. – Doğrudan da bu qədəhin sahibi mənim üçüncü qonağımdır.

Zaur dözmədi:

Soruşmaq ayıb olmasın, bəs o kimdir belə? – deyə xəbər aldı.

– Kimdir? Necə kimdir? Sən.

– Mən? – "nədi yəni Zauru açıq-açığına dolayır?".

– Salaməlcyküm. – Mədinə otağa daxil oldu, əlində iri bir boşqab vardı, boşqabın içində də qovrulmuş şabalıd. Zaur Mədinəylə görüşdü.

Təhminə:

– Doğrudan a, lap yadımdan çıxmışdı, – dedi. – Siz axı tanışsınız. – Zaura "Ronson" alışqanını Mədinə gətirmişdi işə.

Təhminə:

– Görürsən, Mədinə, – dedi. – Bilmirəm Zauru qayınanası çox istəyir, ya kim çox istəyir, amma hər halda lap məqamında gəlib çıxıb. Axı o da qovrulmuş şabalıdın dəlisidir.

Zaur düşündü ki, hər şey, hər şey Təhminənin yadındadır, bir dəfə, hələ əlaqələrinin başlamasından çox qabaq Zaur nəşriyyata qovrulmuş şabalıd alıb gətirmişdi. Təhminəni də qonaq eləmişdi və elə onda demişdi ki, çox xoşlayır qovrulmuş şabalıdı...

– Yaxşı, əyləş görək, Mədinə.

Təhminə iki boş qədəhə konyak süzdü, üçüncü dolu qədəhi isə Zaurun qabağına qoydu.

– Bilirsən nə münasibətlə içirik? – deyə Zaurdan soruşdu.

Zaur:

– Yox, – dedi.

Təhminə:

– Bir iş vardı onu qeyd eləyirik.

Zaur hiss edirdi ki, Təhminə bu axşam nə isə həyəcanlı, bir qədər çılğın və əsəbidir, amma nə idi bunun səbəbi, bilmirdi. – Zaurun qəfilcən gəlməsimi, ya başqa bir hadisəmi? Ya bəlkə bir az artıq içmişdi Təhminə.

Təhminə əsəbi gülüşlə:

– Adətən adamlar xoş hadisələri qeyd edirlər, – dedi,– amma biz Mədinəylə mənim boşanmağımı qeyd edirik.

Mədinə:

– Sən də keçdin bizim dəstəyə, – dedi.

Zaur bilirdi ki, Mədinə neçə il bundan qabaq ərindən ayrılıb, balaca, məzəli bir oğlu da var; Təhminə həmişə bu uşaq haqqında danışardı...

Sükut çökdü... Sonra Təhminə:

Bu gün məhkəmə oldu, Zaur – dedi. – Rəsmən ayrıldıq.

Zaur bilmirdi nə desin: "Niyə? Nə səbəbə?" sualları da, təəssüf, ya təəccüb hissləri izhar etmək də, sevinmək də, kədərlənmək də eyni dərəcədə yersiz idi.

Mədinə bu sıxıntılı vəziyyəti aradan qaldırmaq üçün içi şabalıdlı boşqabı Zaura tərəf uzatdı. Təhminə başını aşağı dikib gözlərini qədəhinə zilləmişdi. İki damla yaş gözlərindən yanaqlarına süzüldü. Zaur ilk dəfə idi ki, onu ağlayan görürdü.

Mədinə:

– Əşi, yaxşı görək, – dedi, ayağa durdu. Təhminənin çiyinlərini qucaqladı. Təhminə bir dəfə, cəmisi bircə dəfə hıçqırdı və dərhal da özünü elə aldı, hıçqırığını boğub, yanaqlarındakı, gözündəki yaşı sildi və gülümsündü:

– Əşi, fikir verməyin, – qədəhini qaldırdı. – Gəlin içək, – dedi, – hamımızın sağlığına.

İçdilər və Zaur xəbər aldı:

– Bəs niyə zəng eləmirdin?

– Nə bilim... elə istəyirdim... bəlkə sabah zəng vuraydım... – yenə elə bil çənəsi oynadı, ağlamsınan kimi oldu, səsi titrədi, amma yenə də dərhal öz zəifliyindən utanırmış kimi gülümsündü. – Əsəblərim lap pozulub, – dedi – Bütün bu günlər elə bil qızdırma içində yaşayırdım... Nə yaxşı ki, sən gəldin, Zaurik.

Mədinə çaydan bir qurtum içib:

– Yaxşı, mən gedim, – dedi. – Gecdir...

Təhminə:

– Hara tələsirsən, əşi? – dedi. – Bu qədər zəhmət çəkib, şabalıd qovurmusan... Əntiqə qovrulubdur, hə, Zaur?

– Aha...

– Heç olmasa özün də bir dadına bax da, Mədinə. Elə bil öz malındır, – sonra Zaura müraciətlə əlavə elədi: – Şabalıdları elə Mədinə alıb gətirib mənimçün. Təsəllidir də hər halda...

Zaur:

– Mən də yaman nigaran qalmışdım, – dedi. – Bu gün eşitdim sənin ayrılmağını... Zəng vururam, telefonun cavab vermir. – Zaur artıq üçüncü qonaq haqqında düşünmürdü, indi mənzildə onlardan başqa heç kəs yox idi, – şkafın içində gizlətməyiblər ki onu. Bəlkə də Zaur gələnəcən çıxıb gedib bu naməlum şəxs.

Təhminə Zaura deyil, Mədinəyə müraciətlə:

– Bilirdim ki, Spartak ağzında söz saxlayan deyil. Daha doğrusu, heç Spartak özü də yox e, anası...

Mədinə başıyla təsdiq elədi.

– Məsələ ondadır ki, – indi Təhminə Zaura müraciət edirdi, – bizim rayonun hakimi Spartakın canbir qəlb dostudur. Spartaka zəng elədim ki, dostuna desin, day çox uzatmasınlar məsələni. Bilirsən də adamın lap ürəyini çəkirlər: "Bəlkə bir də fikirləşəsiz, ailəvizi dağıtmayın, gedin, filan vaxtdan sonra gəlin" və sairə. Görürsən uzandı məsələ neçə ay... Bizimki də belə idi ki, fikirləş, fikirləşmə onsuz da hər şey həll olunmuşdu, daha bunu çək-çevirə salmağın nə mənası var axı... Spartak, Allah ondan razı olsun, doğrudan da, kömək elədi. Amma heç bu sözü ürəyində saxlaya bilərdi Spartak? İndi yəqin aləmə car çəkib.

Val qurtardı. Təhminə durub cihazı keçirdi.

Mədinə:

– Yaxşı, gecdir, daha mən gedim, dedi və bu dəfə Təhminə onu saxlamadı.

Qapıyacan ötürdü Mədinəni, dəhlizdə uzun müddət nə barədəsə pıç-pıç etdilər. Zaur indi nə duyduğunu, nə düşündüyünü özü də dəqiq təyin edə bilməzdi, döyükə-döyükə qalmışdı, – otağın divarlarına baxırdı, oboylar çox zərif idi – mavi fonda ağ narın çiçəklər...

Təhminə qayıtdı:

– Nə belə diqqətlə baxırsan divarlara?

– Qəşəng oboylardır. Çiçəklər çox zərifdir.

Təhminə birdən:

– Zaurik, – dedi, – sən gəlmisən, ona görə də bütün bu çiçəklər açıblar. Birinci dəfədir sən mənim evimə gəlmisən, oboylar da çiçəkləyib, görürsən.

... və Zaur yenə də axıracan anlaya bilmirdi – doğrudanmı Təhminə səmimi deyir bu sözləri, onu sevdiyindən deyir, ya dolayır, ələ salır...

– Nə yaxşı ki, gəldin, Zaurik, Allah yetirdi səni bu axşam. Elə pis idi ürəyim, dünya gözümdə deyildi. Ağlıma gəlirdi ki, bax indi Mədinə çıxıb gedəcək, mən də yəqin öləcəm.

– Bəs niyə axı mənə zəng eləmirdin? Niyə mənim bütün bu əhvalatlardan xəbərim olmasın? İndi nə olsun ki, tanış hakim dostum yoxdur, amma hər halda bəlkə mənim də köməyim dəyərdi sənə.

– Çox sağ ol, Zaurik. Amma dünyada elə işlər var ki, onu gərək adam tək-tənha, təkbaşına həll eləsin. Ayrı heç kəsi qarışdırmasın gərək belə işlərə... Sənə zəng eləmirdim; çünki əlimi-ayağımı bağlamışdı bu boşanma məsələsi, istəyirdim birdəfəlik qurtarsın bütün bu dəhşət... Bilsən bütün bu illər nə qədər əzab, narahatlıq içində yaşamışam, özüm-özümə nifrət edirdim bəzən... Nə qədər yalan, riya olarmış... İlahi, çox şükür ki, qurtardı bütün hər şey, birdəfəlik bitdi. Bilsən neçə azad-asudə hiss eləyirəm özümü. Amma hər halda asan da deyil bu azadlığa birdən-birə alışmaq... Həm də bütün bu günlərin gərginliyi... Səhər durdum, məhkəmədən qabaq, gördüm bütün içim elə bil qırılıb tökülüb. İstədim içəm gedəm məhkəməyə, sonra fikirləşdim, bunu da söz eləyərlər, ya bəhanə edib ayırmazlar bizi, təxirə salarlar iclası. Bir söz, içmədim getdim, ayırdılar bizi, gəldim evə, yıxıldım çarpayının üstünə, düz dörd saat üzüqoylu qaldım beləsinə... Sonra durdum, başladım içməyə, əvvəlcə təkbaşına, sonra Mədinə də işdən gəldi... Mədinə içən deyil, – o mənəm pyanıska... Amma hər halda o da mənimlə qədəh-qədəhə vururdu, necə deyərlər "qaraltı" verirdi mənə. Yarım şüşəni boşaltdıq. Vurduq bədənə, sən demiş...

Zaur öz qədəhini göstərdi:

– Bəs bu qonaq kim idi? Spartak?

– Başına at təpib, Zaur? Spartak ömründə mənim evimin kandarına ayaq basmayıb. Dedim ki, sənə, sənin qədəhindir bu.

– Necə yəni mənim? Axı mən gələndə masanın üstündə idi, həm də dolu idi. Sən hardan bilirdin ki, mən gələcəm?

– Zaurik, axı sən niyə mənə inanmırsan?.. Lap təkbaşına içəndə də mən həmişə bir qədəhi artıq qoyuram, ürəyimdə tuturam ki, bu da Zaurun qədəhidir... Köhnə bir anekdot var e, eşitmisən? Bir pyanıska həmişə iki qədəhdən içirmiş – biri özününkü, biri də guya dostunun-

ku... Arvadı danlayır, başlayır bir qədəhdən içməyə, – mən içkini atdım deyir, dostumdur içən... Mən də bax belə. Axı bir az dəliyəm mən, Zaur, indiyəcən başa düşməmisən hələ? Sənlə ilk dəfə plyaja getdik ha, bax o gündən haçan içməli olsam, bir qədəhi də doldurub deyirəm: bu da Zaurun payı... Mədinə də bilir mənim bu dəliliyimi...

Zaur gülümsündü, nəvazişlə, qayğıyla, həm də bu gün ərzində ilk dəfə olaraq dərin daxili bir arxayınçılıqla gülümsündü. Və bu təbəssüm bir müddət – bəlkə də çox qısa bir müddət – hər ikisinə qayğılarını, nigaranlıqlarını, irili-xırdalı bütün qəm-qüssələrini unutdurdu, ürəklərini səadətlə olmasa da, xoş, ilıq mehribanlıqla, sakitliklə doldurdu.

– Zaurik, axı niyə sən həmişə mənim yalanımı çıxarmağa cəhd edirsən... Guya mən bir cinayətkar-zadam, hansı qəbahətimisə səndən gizlətmək, ört-basdır etmək istəyirəm, sən də min fənd qurub, min sorğu-suala tutub ifşa etmək istəyirsən məni? – Təhminə başını Zaurun sinəsinə qoydu, sonra üzünü Zaurun sifətinə tərəf çevirib əlavə etdi. – Başa düş, Zaur, əzizim, birdəfəlik başa düş axır, sevirəm səni, sevirəm. Yalnız tək bir səni sevirəm... Bilirəm mənim deyilsən. Sənə heç bir hüququm çatmır, sənin cavan həyatını dağıtmağa da heç bir haqqım yoxdur... bilirəm bütün bunları... Amma sənsiz dura da bilmirəm. Bütün bu günlər dəli-divanə idim sənincün. Min dəfə sizin idarənin qabağından keçirdim və özüm özümə deyirdim: salam, Zaurik. Bilmirəm, Zaurik, nə olacaq, necə olacaq, heç bir şey bilmirəm. Nə istəyirəm, onu da bilmirəm. Lap azmışam, Zaurik, özüm öz içimdə azmışam.

Zaur bunu demək istəmirdi, amma qeyri-ixtiyari ağzından çıxdı bu söz:

– Mən elə bildim Spartak sizdədir. Maşını aşağıda dayanıb.

– Maşını aşağıdadır? Görürsən bu fırıldaqçını... Bir yandan mənə, doğrudan, çox köməyi dəydi, amma o biri yandan belə murdar xasiyyətləri var da. Bilir ki, ərimdən ayrılmağım camaata yayılacaq, qəsdən gətirib maşınını evimin altında saxlayır... Dedim axı ona... O səfər telefonla danışanda söz düşdü, dedim Spartak, niyə belə eləyirsən? Deyir, heç dəxli var? Bəlkə sizin evdə mənim başqa tanışlarım da olur. Deyirəm, kimdir axı tanışın? Hər şeyi demədən ki, deyir... Bilirəm axı yalan deyir, gözünün içinəcən, tanışı-zadı yoxdur bu evdə... – Susdu, sonra əlavə elədi, – amma nə deyim, vallah, bəlkə doğrudan da bir dostu-tanışı bu tərəfdə olur, axı o qədər tanışı var ki, bu adamın... Nə belə diqqətlə baxırsan mənə, Zaurik? – Təhminə də gözlərini düz Zaurun gözlərinin içinə zillədi, sonra, – Zaurik, belə baxma, sən allah, dedi, – söndür gözlərini, Zaurik... Bayaq gələndə də gözlərin od tu-

tub yanırdı, dedim, məni də alışdırıb yandırarsan... Söndür gözlərini, Zaurik, – deyə sərxoş inadıyla təkrar elədi.

Zaur Təhminədən aralanıb ayağa durdu, qapıya tərəf addımladı.

Təhminə tələşlə:

– Zaurik, hara belə? – deyə soruşdu.

– Bu saat gəlirəm, – Təhminənin narahatlığını görüb – zəng eləməliyəm, – dedi, – avtomatdan zəng vurub qayıdıram.

Qapıdan çıxdı, pilləkənləri beş-beş atılaraq aşağı düşdü. Spartakın çəhrayı "Volqa"sı əvvəlki yerində idi – bir tərəfi səkidə, o biri tərəfi küçədə, elə bil iki təkəriylə küçəyə yiyəlik iddiasındaydı, iki təkəriylə də səkiyə.

Zaur cib bıçağını çıxartdı və "Volqa"nın dal təkərlərini deşdi, sonra tələsmədən çevrilib pilləkənlərlə yuxarı qalxdı.

Təhminə pəncərənin qabağında dayanmışdı, uğunub gedirdi:

– Gördüm, – dedi, – Zaurik, səndən də işlər çıxır ha.

Zaur:

– Hələ sabah da bir onun dərsini verəm gərək, – dedi.

– Yox, işin olmasın, qurban olum sənə... Sən mənim igid cəngavərimsən... hansı əsrdən gəlmisən, ey mənim igid cəngavərim? Hə, cavab ver?

Zaur:

– On altıncı əsrdən, – dedi.

– Düzdür, elə mən özüm də ya on beşinci əsrdən, ya da on dördüncü əsrdənəm. Amma görürsən iyirminci əsrdə görüşmüşük... Elə bütün işlər bundadır da...

Aşağıdan maşın səsi eşidiləndə gecə yarıdan keçmişdi. Spartak maşını işə saldı, maşın yerindən tərpəndi, amma dərhal da dayandı, qapısı açıldı.

Zaurla Təhminə bərkdən güldülər.

***

Spartakla səhər həyətdə görüşdülər, Zaur öz "Moskviç"inə tərəf gedirdi, meşin pencək və göy idman şalvarı geymiş Spartak isə öz "Volqa"sını yuyurdu. Zaura həmişə elə gəlirdi ki, Spartakın özündən müştəbehliyi "Volqa"sına da sirayət edib. Elə bil maşının da xasiyyəti varmış və məhz bu "Volqa" çox təkəbbürlü xasiyyətliymiş. Bəlkə də bu təəssürat ondan doğurdu ki, Spartak hər yerdə, həmişə "Volqa"sını burnu dik yuxarı saxlayırdı...

Zaur:

– Bura bax, Spartak, – dedi, – dünən axşam necə gəlib çıxdın evinizə?

– Necə bəyəm?
– Təkərin deşilmişdi axı.
Spartak təəccüblə:
Sən hardan bilirsən? – deyə soruşdu.
– Hardan biləcəm, özüm deşmişəm də.
– Sən?
– Bəli, mən.
Spartak səmimi təəccüblə:
– Niyə? – deyə soruşdu.
– Ona görə ki, bir də maşınıvı harda saxlamağın yerini biləsən.
Spartak dərhal hər şeyi başa düşdü və etinasızlıqla:
– Maşın mənimdir, kefim harda istədi, orda da saxlayacam, – dedi.
Zaur sakitcə:
– Özün bilərsən, dedi. – Məndən deməkdir... Hələlik bircə təkərini deşmişəm. Amma gələn səfər yenə bu maşını o yerdə görsəm, dörd təkərinin dördünü də deşəcəm, üstəlik dal şüşəylə qabaq şüşəni də sındıracam. Bilirəm, pulun çoxdur, təmir elətdirərsən, amma sonra sənin sir-sifətivi də elə günə qoyacam ki, day heç kos təmir edə bilməsin.
– Bilirsən nə var, çox qozqurablıq eləmə. Səndən qorxan-zad yoxdur burda. Xox, qorxdum. Səndən qorxan-zad yoxdur burda...

Belə desə də, Zaur gözlərindən gördü ki, bir balaca qorxub Spartak, hələ uşaqlıq oyunlarından Zaurun dəlisov xasiyyətinə, tərs damarına bələd idi axı.

Amma Zaur maşınına minib həyətdən çıxanda birdən başına ayrı bir fikir də gəldi. Düşündü ki, Spartakın ona cavab qaytarmamasının, həsdəməsinin səbəbi yalnız qorxu deyil. Spartak, yəqin ki, ailələrinin planlarından agah idi, ucundan-qulağından eşitmişdi ki, bacısını Zaura vermək istəyirlər. Spartak yəqin güman edirdi, kim bilir, bəlkə də baş tutacaqdı bu sevda. Belə olan surətdə gələcək yeznəylə pərdəni aradan götürməyin nə mənası vardı?

***

Zivər xanım:
– Mən day sənlə danışmayacam, – dedi. – Sənlə qoy dədən özü danışsın. Heç utanıb eləmirsən, ə, heç qızarıb eləmirsən? Bir tikə abır-həya yox imiş sənin sifətində, səhər üzü gəlmisən evə, utanıb yerə girmirsən hеç... Ərindən ona görə boşanıb ki, səni sabahacan yanında saxlasın... Tfu... Eyib eləməz, day atan da hər şeydən agah oldu, sənlə nə tövr rəftar eləməyi özü bilər atan.

Axşam atası çağırdı Zauru otağına. Atası aramla, təmkinlə, yeknəsəq bir tonla danışırdı, həm də çox uzun idi söhbəti və hər ikisi – atası da, Zaur da – bu söhbətdən üzülürdülər. Zaur bir daha yəqin elədi ki, insana ən ağır yaraları məhz ən yaxın adamlar vura bilirlər. Əlbəttə, atasının danışığı anasının haray-qışqırığından çox fərqli idi, sözlər, ifadələr də bambaşqa idi, ton da, amma mənası, məğzi eyni idi. Zaur bir də ona fikir verdi ki, atasının nitqində durğu işarələri yoxdur – nə nöqtə, nə vergül, nə nida – elə-belə, ardı-arası kəsilməyən, fasiləsiz, uzun, yeknəsəq bir monoloq... Nə səsini qaldırırdı, nə həyəcanlanırdı, nə də nəfəsini dərmək üçün dayanırdı – nöqtəsiz, vergülsüz, axırsız bir cümlə – lal axan çayın ağır ləngəri: "Əgər o qadın belə düşünürsə ki, bizim çoxlu var-dövlətimiz, pulumuz var və bütün bunlara da o sahib duracaq, çox yanılır".

Atasının dediklərinin sadə və aydın məğzi bu idi ki, Zaur özü özlüyündə heç nədir, heç kəsi cəlb etməyə qadir deyil və əgər kimsə onu çənginə keçiribsə, burda mütləq başqa bir mətləb var, daha doğrusu, yalnız bircə mətləb-maddi təmənna var, vəssalam. Bu fikri dönə-dönə müxtəlif şəkillərdə təkrar edəndən sonra atası başqa bir mətləbə keçdi:

– Sən yekə kişisən, özün bilərsən həyatını necə qurmağı, istəsən, hətta, ala bilərsən o qadını, çünki mən eşitdim ki, o, ərindən də ayrılıb, amma bu halda sən bizim oğlumuz deyilsən artıq, yeganə balamız olsan da, anan da, mən də belə hesab edərik ki, heç yerli-dibli övladımız olmayıb, yaxud da olub və ölüb. Nə qədər çətin olsa da bu cür düşünmək, hər halda bu namussuzluqdan, biqeyrətlikdən min pay yaxşıdır. Amma bir məsələ də var axı... Tutalım elə sən də vaz keçdin bizdən, yəni biz səni oğulluqdan çıxartdığımız kimi, sən də bizi ata-analıqdan çıxartdın, saymadın bizi, elə hesab elədin ki, atan-anan yoxdur, ölüb. Çox əcəb. Tutalım ki, aldın o qadını – yaxşı bəs necə dolanacaqsınız, harda, nə pulla?.. Həm də axı anan mənə danışıb, o qadın geyinib-gecinməyi də sevir, o şəhəri – bu şəhəri gəzib-dolanmağı da sevir, vərdiş edib bu sayaq həyata, sən hansı qazancınla bu ehtiyaclarını ödəyəcəksən onun? Ödəyə bilməyəcəksən, eləmi, o da vərdiş etdiyi həyat tərzindən əl çəkmək istəməyəcək və onda demoli, atası üzgözünü turşutdu, – bu barədə danışanda belə ürəyim qalxır. Deməli, belə olan surətdə sənin arvadın onun-bunun hesabına geyinib-gecinəcək, dolanacaq, özgə kişilərin – başa düşürsən? Sənin qeyrətin bunu necə qəbul edər və sən adamların gözünün içinə necə baxa bilərsən, – bu Zivər xanımın nitqləri idi, amma indi cümlələr durğu işarələrsiz və kişi səsiylə tələffüz olunurdu. – Sən deyə bilərsən ki, xeyr

mənim heç evlənmək-zad fikrim yoxdur, elə-belə müvəqqəti, keçəri bir əlaqədir bu. Çox əcəb, belə olan surətdə yenə nakişi hərəkətidir sənin hərəkətin. Axı, bəlkə onun da həyatı sənə görə qırılır, dağılır, onu da bir düşünməlisən axı. Əlaqəniz müvəqqətidirsə, hər bir müvəqqəti şey gec-tez qurtarır və bir gün bu əlaqə də qırılanda, onun halı necə olacaq, axı o da insandır, onu da nəzərə al, onu da düşün.

Atasının fikrindəki bu çalar Zaurçün də gözlənilməz idi və indi ona elə gəlirdi ki, atası, hətta, müəyyən bir mülayimliklə, nəvazişlə danışır və hətta, cümlələrinin arasında pauzalar da verir, durğu işarələri də qoyur.

– Sözumə qulaq as, oğul, o qadın haqqında çox söz gəzir, mən bilmirəm hansı düzdür, hansı yalan, mənim işim deyil bu. Amma mən bir şeyi bilirəm, o bizim tayımız deyil. O tamam başqa yuvanın quşudur. Sənin rastına belə qadın çıxmamalıydı... Ananla mən səni belə böyütməmişik... Biz – anan da, mən də – ancaq sənin gələcəyini düşünürük, səni xoşbəxt görmək istəyirik və bundan böyük məqsədimiz də yoxdur həyatda... Xoşbəxt olmağın isə bircə yolu var: insan gərək həyatda qarşısına müəyyən dəqiq məqsədlər qoysun və onlara nail olmağa can atsın... Bu məqsədlər nədir – iş, faydalı əmək, bir də təmiz, möhkəm ailə... Ailə gərək səni işdən, fəaliyyətdən yayındırmasın, əksinə işinin, əməyinin səmərəli olması üçün hər cür şərait yaratsın... Mən başa düşürəm – cavanlıqdı filan, amma məncə, son cavanlığın kefini kifayətcən çəkmisən daha. Mən nə sənin yaşında, nə də bütün ömrüm boyu sən görənləri görməmişəm... Amma hər şeyin vaxtı, məqamı var... Sən indi gərək daha bütün bu keflərlə, əyləncələrlə birdəfəlik vidalaşasan, gələcəyin haqqında ciddi düşünəsən. Birinci növbədə namizədlik dissertasiyası haqqında... İndi bir il, il yarım nədir ki, amma bu gecikmədən başlanır hər şey, namizədliyi gecikdirirsən, doktorluq da filan qədər yubanır, gələcək elmi karyeran da filan qədər geri atılır... Elə ailə də belədir... Hər şey gərək öz vaxtında olsun. Bir aya mənzilin də hazırdır. Ananla mənim arzum budur ki, bu mənzilə sən yeni ailənlə birlikdə köçəsən, təmiz, namuslu, ismətli bir qızla həyat qurasan.

Bəlkə də atasının bütün bu sözlərini bir vaxt unuda bilərdi, xatirələrin acısı da yaddan çıxıb gedərdi, yaraların yeri də yavaş-yavaş qaysaqlanıb sağalardı, amma atası bir cümlə də əlavə etdi və həmin bu cümlə hər şeyi həll elədi – gərək deməyəydi, deməyəydi gərək atası bu cümləni:

– Mənə "Volqa" boyun olublar, – dedi atası, – maşını sənə toy hədiyyəsi kimi alacam. Güman edirəm ki, toyunu da çox gözləməli olmayacayıq.

Gərək deməyəydi, deməyəydi gərək atası bu sözləri. Axı bilirdi ki, Zaur necə də "Volqa" tamarzısıdır, hətta, gecələr Zaurun yuxusuna da girirdi bu maşın. Gərək atası deməyəydi bu cümləni. Təhminədən ol çəkməyin bahasına verilən rüşvəti təklif etməyəydi gərək Zaura.

Zaur:

– Yenə bir sözün var, ata? – dedi.

– Nə sözüm?

– Deyirəm, daha ayrı bir sözün yoxdur ki, mənə.

Məcid şübhəylə:

– Yox, – dedi.

– Çox əcəb. – Atasının sevimli ifadəsini təkrar etdi. – Mən diqqətlə qulaq asdım sən deyənlərə. Mən sizin oğlunuzam və hər ikinizi – anamı da, səni də – çox istəyirəm. Amma nə etməli, görünür, qismət beləymiş. Kim nə deyir desin, mənimçün heç bir dəxli yoxdur. "Volqa" təklif etdiyinçün mənə çox sağ ol. Amma mən sənin "Moskviç"ini də qaytarıram, bu da açarları... Əynimdəki bir bu kostyumdan başqa heç bir şey götürmürəm... Salamat qalın...

Məcidin rəngi ağappaq ağardı, dili-dodağı təpə-təpə:

– Rədd ol, – dedi, – itil gözlərimdən, rədd ol o fahişənin yanına!

Zaur anasıyla görüşmədən qapıdan çıxdı...

Onuncu fəsil

Ey, məh, mənimlə dustlarım düşmən eylədin,
Düşmən həm eyləməz bu işi kim, sən eylədin.

Torpağın altından, yerin dərinliyindən işığa can atan ot kimi, bitki kimi Zaur da yuxunun qaranlıq və qatı zəminindən səhərə doğru boylanırdı...

Tül pərdəli pəncərələrdən çəpəki günəş şüası dolub otağın döşəməsinə düşmüşdü səhər... Mətbəxdən ləzzətli iylər dolub otağa süzülürdü səhər... Haradasa yarıpıçıltılı, gülüşlü, sevincli səslər qatmaqarışığıyla radionun ertə konsertiylə mənzilə dolurdu səhər. Təhminə idi yarıpıçıltıyla danışan, gülən... Qonşu Mədinəydi yarımpıçıltıyla danışan, gülən. Səhər açılmışdı, Təhminə mətbəxdə qayğanaq bişirir, çay dəmləyir, Mədinəylə laqqırtı vururdu və Zaurdan danışırdılar. Səsinin hər xalında sevinc vardı Təhminənin, gülüşünün hər çalarına bəxtiyarlıq hopmuşdu Təhminənin və bütün bu səhər sevincləri Zaurla bağlıydı...

– Tənbəlin böyüyüymüş Zaur, – deyirdi, – heç cür oyanmaq istəmir, – otağa gəldi. – Tənbəl, tənbəl, a tənbəl, yatsan olar iş əngəl, dur Zaurik, gün çıxıbdı günortanın yerinə.

Hələ də gözləri qapalıydı Zaurun, tamam ayılmamışdı, amma yuxulu da deyildi, qəribə bir orta vəziyyətdə idi – məkanı, harda olduğunu, ayın tarixini, öz vəziyyətini dəqiq təyin edə bilməzdi indi, amma eyni zamanda, xoş bir səhər hissi, qayğısız bir erkənlik, təzəlik, saflıq ovqatı duyurdu, bir yüngüllük, işıq vardı içində, elə bil içində xoş bir mahnı oxunurdu. Təhminənin səsi yenə uzaqlaşdı, yenə mətbəxdən gəldi:

– Müsibətlə durur yuxudan, elə birtəhər əl-üzünü yuyub küçəyə cumur ki, işə gecikməsin. Uşaq kimidir lap. Gərək uşaq kimi qaydına qalasan, özbaşına qoysan, səhər heç çay-çörək də yeməz... – səsi yenə yaxınlaşdı və otaqdan gəldi. – Xan həzrətləri buyurub dursunlar, yemək-içmək hazırdır.

Zaur gözlərini açdı, gülümsündü, gərnəşdi.

– Yox, çox pis öyrədiblər, ərköyün böyüdüblər, – yenə də mətbəxdə Zaurdan Mədinəyə şikayət edirdi.

Məhəbbətlərinin ilk çağlarında – adamın bütün içini çapıb-talayan görüşlərin xoş qarətindən sonra Zaurda qəribə bir istək oyanırdı – Təhminədən ayrılandan sonra dostlarıyla, sırf kişi məclisində oturmaq, yeyib-içmək, deyib-gülmək istəyi. Bəzi kişilərin öz eşq macəralarından açıq-saçıq söhbət eləmələrindən zəhləsi gedirdi Zaurun. Heç bir vaxt özü belə söhbətlər eləməzdi, illah da ki, Təhminəyə aid heç bir şeyi heç kəslə bölüşməz, qürrələnməzdi. Amma məhəbbət görüşlərindən sonra sırf kişi məclislərinin asudəliyi Zauru cəlb edirdi, çünki bura – öz zarafatları, ümumi məzəli söhbətləri, müştərək xatirələri olan dostların məclisinə – Zaur içini limhəlim dolduran bir sirlə, sehirlə, heç kəslə bölüşülməyəcək duyğularla gəlirdi. O da söhbətlərdə, mübahisələrdə, zarafatlarda iştirak edirdi, amma fikri-xəyalı buralardan uzaqlarda – Təhminənin yanındaydı və fərəhlə düşünürdü ki, yəqin Təhminə də, harada olursa-olsun, Zauru yada salır, keçmiş görüşlərinin xoş anlarını bir də fikrində canlandırır, yaşadır. İndi Zaur başa düşmüşdü ki, Təhminə də təqribən belə bir hiss keçirirmiş və Zaurla görüşlərindən sonra mütləq Mədinəylə ünsiyyət, təmas ehtiyacı duyurmuş. Aşiq olan insan eqoistləşir, ona elə gəlir ki, keçirdiyi xoşbəxtlik, səadət dəmləri başqalarına da yoluxa bilər. Halbuki başqasının sevinci insanı çox nadir hallarda eyni dərəcədə sevindirə bilər, əksərən, hər bir insan başqasının sevincinə biganə qalır, bəzən hətta, qısqanır, ya həsəd çəkir bu özgə sevincinə. Məhəbbət – iki nəfərin şəxsi işidir, deyirlər ki, üçüncü artıqdır, amma bəzən məhz bu üçüncü gərək olur iki sevişənə – səadətlərinin şahidi kimi. Bu şahid güzgü kimi lazımdır onlara – güzgüyə baxıb öz xoşbəxtliklərini görmək üçün. İndi Zaurla Təhminənin xoşbəxt günlərinin belə bir güzgüsü, belə bir şahidi peyda olmuşdu və adı Mədinə idi... Mədinə gündə neçə dəfə keçirdi Təhminəgilə – lap səhər erkən də, gecənin bir yarısında da. Çox vaxt gözməyə də bir yerdə çıxırdılar – Təhminə, Zaur, Mədinə...

Küçədə təsadüfən rastlarına çıxan bir adam – ümumi xatirələrin qəhrəmanı olurdu: "Yadında, "Azərbaycan" kinosunun yanında o axsaq vəkilə rast gəldik: öz-özüylə danışırdı, yəqin məhkəmədəki nitqini məşq edirdi...". "O qoca arvad yadında, Parapetin yanında itlə gəzməyə çıxmışdı, iti nə yaman özünə oxşayırdı, ay Allah?"

Bir dəfə gecəyarısı kinodan qayıdırdılar. Cavan bir oğlana rast gəldilər, oğlan evlərin tinində elektrik qutularının qapaqlarını açır və işıq reklamlarını keçirirdi. Əmanət kassaları, sığorta, yeni filmlər haqqında iri şəhər reklamlarının hərfləri bir-bir sönürdü. Belə qəribə bir peşə varmış – gecələr şəhərin reklam işıqlarını söndürmək peşəsi... Mötəbər ailə başçısı ailə üzvləri yatandan sonra mənzilin bütün işıqlarını yoxladığı, söndürülməmişini söndürdüyü kimi bu oğlan da şəhərin çıraqlarını keçirirdi. Təhminə, Zaur və Mədinə uzun zaman bu romantik peşədən danışdılar və Təhminə dedi ki, bir başqa romantik peşə sahibini də tanıyır – o da bulvardakı fontanları səhərlər işə salır və gecələr yatırdır. Bir gün xəstələnib işə çıxmasa bulvardakı fontanlar o gün fəvvarə vurmayacaqlar.

– Amma ən maraqlı peşə bilirsiniz hansıdır? – Təhminə əvvəl Zaura, sonra Mədinəyə baxdı. – Hava məlumat idarəsində işləmək. Mən özüm bir vaxt yaman metereoloq olmaq istəyirdim. Təsəvvür edirsiz, yağışdan, küləkdən xəbərdar olacaqsan, buludlar hardan gəlir, qasırğa harada qopacaq, ildırım haçan çaxacaq...

Bəzən bu gəzintilər zamanı tanışlarına rast gəlirdilər və tanışlar hər üçünü – Təhminəni, Zauru, Mədinəni diqqətlə süzürdülər. Və həmin o şəxslər ki, Təhminənin hər hərəkətini Zaurun anasına yetirərdi, indi Zaurla Təhminənin və Mədinənin gecə gəzintiləri haqqında arvada yerli-yataqlı xəbərlər çatdırır, yarasına duz basırdılar. Cin vurardı Zivər xanımın təpəsinə və o telefonu qapıb, Təhminəyə zəng edir, dişinin dibindən çıxanı deyirdi... Zaur bu barədə ancaq üçüncü, ya dördüncü zəngdən sonra bildi...

Bir dəfə gördü ki, Təhminə telefona yanaşdı, dəstəyi qaldırdı: "Bəli, mənəm", – dedi, amma birdən-birə ağappaq ağardı, dili-dodağı əsdi və bir müddət lal-dinməz dəstəyi qulağında saxlayıb asdı.

Zaur:

– Kim idi? – deyə xəbər aldı.

Təhminə:

– Düz düşməyiblər, – dedi. Zaur başa düşdü ki, yalan deyir, amma nə illah elədisə də, Təhminə bir şey demədi. Zaurun heç ağlına da gəlməzdi ki, anasıymış zəng vuran. Onun ağlına tamam başqa şeylər gəlirdi: yenə də qısqanırdı Təhminəni, yenə də elə bilirdi ki, Təhminə ondan nə isə gizlədir. Axı, doğrudan da, Təhminəyə çox tez-tez zəng vururdular, özü də dəstəkdən gələn səslərin çoxu kişi səsi idi... Təhminə telefonla çox mehriban danışırdı, sonra isə mısmırığını sallayan Zaura:

– Sən də qəribə adamsan e, Zaurik, – deyirdi, – dərzimdir də. Demişdim ki sənə, paltomu vermişəm qısaltsın. Axşam primerkaya getməliyəm.

– Nə danışırsan, Zaur, diş həkimidir də, görmürsən dişlərimi müalicə elətdirirəm, zəng eləmişdi ki, bu gün gəlməyim, işi var, gələn həftə gəlim.

Amma ikinci, ya üçüncü dəfə idi iki, bax beləcə telefonu götürür, nə isə eşidib susur və dinməzcə dəstəyi yerinə qoyurdu və bundan sonra da bir müddət halı özündə olmurdu.

– Yenə ayrı yerə düşüblər? – deyə soruşdu Zaur.

Təhminə:

– Hə, – dedi və tələsik vanna otağına keçdi... Zaura elə gəldi ki, oradan hıçqırıq səsləri eşidilir, amma yarım saatdan sonra Təhminə vannadan çıxdı, sifəti tərtəmiz və açıq idi, üzü də qayğısız gülümsünürdü.

Səhərisi gün yenə zəng olundu və Təhminə dəstəyi qaldırıb pərişan bir halda susduqda Zaur bildi ki, zəng vuran həmin adamdır, ehmallıca arxadan Təhminəyə yanaşdı, birdən kəskin hərəkətlə dəstəyi qapıb öz qulağına tutdu. Dəstəkdən hiddətli qadın səsi və elə bil zəhərlə yoğrulmuş bir nəfəs gəlirdi:

– Ay qəhbə, ay üç manatlıq şortu, sən elə bilirsən uşağımızı əlimizdən ala biləcəksən? Ay sənin ölmüşünü görüm, ay mürdəşir yusun sənin o həyasız sifətini! – Zaur dərhal dəstəyi qoydu, bu səsi dünyada *heç bir başqa səslə dəyişik sala bilməzdi – anasının səsiydi bu.*

Təhminə qolu-qanadı sanki qırılıb yanına düşmüş Zaura baxdı, qəmli-qəmli gülümsündü:

– Di sakit oldun? – dedi.

Zaur xəcalətindən nə edəcəyini bilmirdi, bilmirdi nə desin, nə etsin və güc-bəlayla yalnız:

– Dünən də o idi? – deyə soruşdu.

Təhminə ağır-ağır başını yellədi, sonra yavaş səslə əlavə elədi:

– Hər gün zəng eləyir. Sən bura köçəndən bəri hər gün.

Bir ay idi Təhminəgildə yaşadığı. O soyuq noyabr günü atasıyla danışdıqları, *evlərindən çıxıb getdiyi axşam yadında idi.* Atasıyla o ağır söhbətdən sonra, anasıyla görüşmədən qapını çırpıb evlərindən çıxmış, bura gəlmiş və hər şeyi Təhminəyə danışmışdı... Təhminə:

– Zaurik, – dedi, – yəqin ki, mən yaxşı adam, nəcib qadın olsaydım, gərək sənə deyəydim: yox, yox, əzizim, cavan həyatını mənə qurban vermə, qayıt evinizə, ata-ananı bədbəxt eləmə. Amma mən yalan danışmaq istəmirəm. İstəyirəm qalasan mənimlə, hətta, belə ağır şeylərin bahasına olsa da qalasan... Yəqin mən çox pis adamam və çox amansız qadınam... Neyləyəsən?..

***

Yalnız Təhminənin yanında qalandan sonra Zaur uzun gecələrin Təhminəyçün nə qədər əzablı olduğunu başa düşdü. Təhminə yata bilmirdi, yuxusuzluq bəlasına düçar idi və səhəri açmaq onunçün həyatın ən ağır işgəncələrindən idi. Təhminə bu dəhşətli tənhalıq gecələri haqda çox danışırdı Zaura və deyirdi ki, ən dəhşətli tənhalıq – gecə tənhalığıdır və əriylə yaşadığı vaxtlar o bu dəhşətli gecə tənhalığını bəlkə daha da ağır hiss edirdi, "indi isə sən – canlı, isti bir varlıq – buradasan, yanımdasan və mən özümü tənha hiss eləmirəm" – deyirdi...

– Xan, barı bir gözünüzü açın, yeməyinizi yatağa gətiriblər.

Padnosda qayğanaq, kofe və xırda-xırda doğranmış kəllə qənd gətirmişdi... Dünən axşam kəllə qəndləri yox idi. Zaur axşam çay içəndə dedi ki, bu biri qəndi xoşlamır və Təhminə səhər tezdən durub dükana düşmüş, Zaur yuxudan oyanana*can kəllə qənd alıb gətirib, xırda-xırda doğramışdı.* İndi Zaur bütün bunları yadına salıb, sonsuz bir məmnunluqla kəllə qəndi ağzına qoyur, gülümsünürdü. Təhminə onun bu məmnun gülüşünə baxıb qəhqəhə çəkdi:

– Aman Allah, kişilər lap uşaq kimidirlər e... Xırda bir arzunuzu yerinə yetirən kimi ağzınız gedir qulağınızın dibinə. Madam ki, hər *xırda istəyinizə əməl edirik, elə bilirsiz ki, day sizin yolunuzda sino* gedirik. Odur ki, tez tora düşürsüz də.

Zaur qəndi uddu, kofedən bir qurtum aldı, udqundu və:

– Bəs əslində belə deyil, sino getmirsən mənimçün? – dedi.

Təhminə cavab vermədi, dilini göstərdi ona və otaqdan çıxdı.

Zaur addımlarını dinləyirdi Təhminənin. Təhminə mətbəxə gedirdi, otağa qayıdırdı, əynindəki paltar təkin sadə və yüngül bir melodiya

zümzümə edirdi, hardan düşmüşdü bu melodiya dilinə? Bu melodiyada işıqlı bir səhər erkənliyi vardı, divara düşmüş çəpəki günəş şüaları, sabundan üfürülən şarlar vardı, apaydın, apaçıq mavi səmada uçan rəngbərəng çərpələnglər vardı – qayğısız uşaqlığın bütün işığı, buludsuzluğu vardı və ilıq dekabr gününün gözlənilməz bol günəşi pəncərələrdən otağa dolub oboyların çiçəklərini də elə bil doğrudan çırtdatmışdı... *Kofe də isti idi, çörək də isti və təzəydi, qayğanaq da ləzzətliydi,* Təhminə də sadə melodiyanı hey zümzümə edirdi və bütün bunlar elə cavab idi də...

***

Səhərlər Təhminənin səliqəli mətbəxində yemək yeyərkən bəzən öz evlərini yada salardı. Təhminənin mətbəxi həmişə tərtəmiz olardı, döşəməsi qara-yaşıl kvadratla döşənmişdi, masanın üstündə də dördkünc Vyetnam salfetləri düzülmüşdü, elə bil pəncərələrdən düşən işıq da dəqiq kvadratlara bölünmüşdü. Bu mətbəxin səliqə-sahmanı nədənsə Zaurun xəyalında anasının mətbəxini canlandırırdı. Evlərində mətbəx masasının üstü həmişə qalaq-qalaq çirkli qabla dolu olardı və Zaur səhər yeməyini yemək istəyəndə bu çirkli-yağlı boşqabları aralayıb masanın üstündə kiçicik bir yer açardı, çayını-çörəyini orda yerləşdirib, birtəhər yeyərdi. Tələsik yeyərdi, çünki ətrafdakı yağloçalara, illah da hardansa gəlib bu boşqabların arasına düşmüş anasının iri darağına baxanda ödü ağzına gələrdi. Darağın üstündə də həmişə bir çəngə tük olardı...

Mətbəxin, evin, üst-başının təmizliyinə, səliqəsinə Təhminə o qədər vaxt sərf edərdi ki, Zaur, hətta, təəccüblənirdi də. Təhminə: "Bəs necə, – deyərdi, – evdə təmizlik ən vacib şərtdir, adamın kefi-əhvalı da, özünü necə hiss eləməsi də hamısı bundan başlanır. Evin təmizliyini gərək uşaqdan-böyüyə hamı gözləsin. Özü də lap körpəlikdən tərbiyə etmək lazımdır bu hissi".

Uşaqların tərbiyəsi haqqında saatlarla danışa bilərdi... oğlu olsaydı onu necə tərbiyə etməsindən (idmanla məşğul olardı mütləq, ən kiçik yaşından üzmək öyrənərdi), qızı olsa onu necə böyütməsindən (gəlin kimi geyindirib bəzəndirərdim onu, üç yaşından balet məktəbinə verərdim ki, bədəni mütənasib olsun) elə hey söz açardı və deyərdi ki, onun uşaqları *dünyada ən səliqəli və ən gözəl uşaqlar olardı yəqin.*

Amma bəzən tamam başqa şeylər deyirdi... İstərdim ki, deyirdi, çoxlu uşağım olsun, hamısı da səliqəsiz, murdarçı, bütün bu mənzili çirkləndirib batırsınlar və həm də bu uşaqlar Zaurun uşaqları olsun. Hər

ikisi – Zaur da, Təhminə də – bütün günü onların çirklərini, zibillərini təmizləsinlər, his-paslarını yusunlar, dallarıycan zibillərini təmizləsinlər, yorulub əldən düşsünlər, amma bütün bunlara baxmayaraq yenə də bir-birini sevsinlər. Bütün günü uşaqlarla əlləşib axır ki, onları yatırsınlar və onları yatırandan sonra yenə də bir-birlərinə qovuşsunlar – bax əsil məhəbbət bu olardı – məişətin, gündəlik həyatın hər cür xırda-para *qayğılarından, əzab-əziyyətlərindən, çirkindən, hisindən-pasından* keçib, əvvəlki çılğınlıqda qalan məhəbbət doğruçu məhəbbətdir, yoxsa ki, elə-belə "quru-quru qurbanın olumun" nə qiyməti var?

– Sən heç bilirdin, Zaur, demə uşaqlar ana bətnində yuxu görürlərmiş... Bircə biləydim nə görürlər yuxularında, axı hələ dünyadan xəbərsizdirlər, nə xəyalları, nə təsəvvürləri ola bilər ki, onu da görsünlər yuxuda. Amma elmi, tibbi surətdə təsdiq olunub ki, ana bətnində yatıb dururlar, yuxu görürlər, özləri də bilirsən nə cür yuxuya gedirlər – ana ürəyinin döyüntüsü altında... yəqin orada... bu səs təbil səsi kimi gəlir. Belə bir eksperiment eləyiblər: ana ürəyinin döyüntüsünü maqnitofona yazıblar və yenicə dünyaya gəlmiş uşağın qulağının dibində səsləndiriblər, o saat yuxuya gedib uşaq... Eh, Zaurik, heyif ki, mən ana ola bilməyəcəyəm heç vaxt.

– Nə əcəb bəs uşaq götürmürsən? – dedi Zaur. "Götürmürük" yox, məhz "götürmürsən". Bu barədə hər ikisi – Zaur da, Təhminə də eyni anda fikirləşdi...

Təhminə bir qədər susduqdan sonra:

– Bilirsən, – dedi, – mənim də ağlıma gəlib. Amma qərara gəldim ki, heç bir vaxt eləməyim bu işi. Axı, Zaurik, mən dəliyəm, xasiyyətimi bilirsən necədir, üç günə, bir həftəyə, bir aya o uşağa elə bağlanardım ki, doğma balamdan da artıq istərdim. Amma hər an, hər dəqiqə onu da düşünərdim ki, mənimki deyil. Qorxudan ürək-göbəyimi yeyərdim, birdən uşağın əsil ata-anası çıxdı və nə cürsə tanıdılar uşağı – nağıllardakı kimi, məsələn, kürəyindəki bir xala görə. Yaxud lap elə ata-anası olmasın, hər halda kimsə bir mərdimazar bir gün həqiqəti açıb deyəcək uşağa. Tutalım oğlan olsun, bir vaxt evlənəcək, o zaman arvadı mütləq açacaq bu sirri ona – sənin anan doğma deyil ki, deyəcək... Ya arvadı olmasın, başqa adam olsun, nə çoxdur belə "xeyirxahlar", mənim o qədər istəməyənlərim, düşmənlərim var ki, biri elə *tutalım sənin anan – Zaur qızardı, – başqası, məni yandırmaqçün,* məndən intiqam almaqçün mütləq açacaqlar həqiqəti uşağa. Təsəvvür eləyirsən, deməli, mən bütün ömrümü gərək iynə üstündə oturam, hər dəqiqə, hər gün qorxam ki, bu gün, ya sabah uşaq həqiqəti biləcək...

Deməli, o tam mənimki olmayacaq. Mən isə istəyirəm ki, kim isə tam mənasında mənim olsun, ancaq mənim... – Yenə bir müddət susdu, sonra qətiyyətlə əlavə etdi:

– Yox, özgə uşağı elə özgə uşağıdır. Mənimki deyil... Sənin kimi Zaurik... axı sən də mənimki deyilsən... Gec-tez itirəcəm səni... bilirəm axı...

Bu söhbət Zaurun Təhminənin yanına köçdüyü lap ilk günlərdə olmuşdu. Zaurun haradasa ürəyinin lap dərinliklərində gizlətdiyi bir hissin, ürəyinə dammış bir duyğunun Təhminə tərəfindən belə dəqiq ifadə olunması qəribə idi. Mat-məəttəl qalasıydı... Onlar ikilikdə içki içəndə belə Təhminə həmişə stolun üstünə üçüncü bir qədəh də qoyurdu: bu sənin, bu mənim, bu da bizim ayrılığımızın... Görüşlərinin ilk günündən gələcək ayrılıqları da onlarla birgə yaşayırdı, gündən-günə böyüyərək gündən-günə onlara yaxınlaşırdı.

***

Söhbət tamam kənar məsələdən düşmüşdü – həqiqi və yalançı kübarlıqdan. Həqiqi kübarlıq – nə bilim, babanın babasının kim olmasından, əsil-nəcabətdən, qandan-filandan asılı deyil... – deyirdi Təhminə. Həqiqi kübarlıq insanın gözü toxluğunda, özünü tutmasında, daxili ləyaqətindədir. Həqiqətən kübar və ziyalı adamı mən addımlarından tanıya bilərəm, insanın necə yeriməsi onun varlığı, mənliyi, insanlığı haqqında çox şey deyir. Məsələn, götürək Muxtarı.

Muxtar haqqında söhbətlər birgə yaşadıqları günlərdə Zaurun ən çox qanını qaraldan şey idi. Muxtar haqqında söhbətlər, bir də telefon zəngləri. Elə hamıdan çox zəng eləyən də Muxtar idi.

Zaur təəccüblə:

– Bütün günü idarədə bir yerdəsiniz, söhbətinizi eləyib qurtarmırsınız ki, evə gələn kimi yenə bir saat Muxtarla telefonla laqqırtı edirsən?

Təhminə gülə-gülə:

– Zaurik, niyə başa düşmürsən, – deyirdi, – idarədə hamı ancaq işlə məşğuldur, söhbətə, qeybətə macal qalmır. Amma telefonla qeybət qırırıq. Axı Muxtarın da qeybətlə arası kökdür. Nə deyirsən de, öz aramızdır, arvadların adı çıxıb, kişilər qeybəti arvadlardan çox xoşlayırlar. Mənim dostlarımın çoxusu...

Zaur onun sözünü yarımçıq kəsib:

"– Mənim dostlarım, mənim dostlarım", – deyə Təhminənin ağzını əydi, – yaman çoxdur sənin dostların... Yadında saxla, adam istəyəndə ki, dostu çox olsun, axırda bir nəfər də həqiqi dostu qalmır.

Təhminə soyuq bir tərzlə:

– Nədi, yəni özünü nəzərdə tutursan?.. Hədələyirsən məni? Ya xəbərdarlıq edirsən?

Zaur:

– Necə istəyirsən o cürə başa düş, – dedi. İlk dəfə onda toqquşdular.

Təhminə dinmədi. Kirimişcə geyindi, heç nə demədən çıxıb getdi... Zaur onun hara getdiyini bilirdi, axşam verilişi vardı, yarım saatdan sonra Zaur televizoru qurdu və ekranda Təhminəni gördü. O axşam bütün verilişlərə baxdı və verilişlərin arasında elan edən Təhminəni gördü... Axırıncı verilişin qurtarmasına iyirmi dəqiqə qalmış Zaur geyinib küçəyə düşdü, maşın tutdu, televiziyanın qabağına gəldi. Birinci mərtəbədəki mənzillərin pəncərələrindən televiziya ekranının mavi şüası görünür və Təhminənin səsi gəlirdi... Təhminə verilişin qurtardığını elan etdi, hamıya "gecəniz xeyrə qalsın" dedi... Beş-on dəqiqə də keçdi və Zaur Təhminənin tələsik addımlarla trolleybus dayanacağına tərəf qaçdığını gördü. Zaur çağırdı, Təhminə onu gördü, gülümsündü. Onlar qucaqlaşdılar, adamsız gecə avtobusuna mindilər və avtobus onları Təhminənin evinə – onların evinə tərəf apardı...

***

– Sən gərək məni qısqanmayasan, Zaurik, – qaranlıqda onun pıçıltıları sanki sözlərə xüsusi bir siqlət verir, həqiqət aşılayırdı; bu sözlərə inanmamaq olmurdu – qısqanmaq bilirsənmi nə deməkdir, deməli, sən özün öz zəifliyini etiraf edirsən. Amma heç kəsə qısqanmamaq hamıdan güclü olmaq deməkdir. Mən istəyirəm sən güclü olasan, Zaurik, hamıdan güclü... Özünə inanasan... Bir də mənə inanasan, Zaurik... İnan mənə... Mən sənə xəyanət etmərəm... Nə qədər ki, biz bir yerdəyik...

***

Axşamlar tez-tez musiqiyə qulaq asardılar. Təhminənin çoxlu lent yazıları vardı, amma bu yazıların toplanmasında heç bir dəqiq prinsip, ya sistem yox idi. Müxtəlif musiqi parçalarını yazdırmışdı – yalnız özünün sevdiyi musiqiləri. Çox vaxt yalnız klassik musiqini və "Leyli və Məcnun" operasını dinləmək istəyirdi... Hər axşam bir qədər rəqs etmək də xoşlayırdı, ağır ritmli caz musiqisi-blüzləri çaldırırdı və otağın dar sahəsində Zaurla qol-boyun olub, uzun zaman rəqs edirdilər. Gözlərini yumar, uzun saçlarını Zaurun çiynindən onun kürəklərinə sallayar, qollarıyla Zaurun boynunu qucaqlardı.

Çox vaxt xalq mahnıları çaldırardı: xatirəsində hər mahnı nə ilə isə bağlı idi... Musiqiyə xüsusi bir münasibət bəsləyirdi və deyirdi ki, Za-

ur onu atıb gedəndən sonra musiqi sonuncu və yeganə pənahı olacaq. "Onda musiqi qurtaracaq məni, – deyirdi, – yoxsa ölərəm, ya da içkiyə qurşanaram". Saatlarla "Küçələrə su səpmişəm", "Səndən mənə yar olmaz", "Aman ovçu", "Pəncərədən daş gəlir", "Girdim yarın bağçasına", "Papirosum yana-yana", "Qaragilə" mahnılarına, ən çox da "Laçın" mahnısına qulaq asardı... Qəlbinin ən dərin, ən gizli hisslərini, söz tapıb ifadə eləyə bilmədiyi duyğularını elə bil bu mahnıların melodiyalarında, sözlərində tapırdı. Bu sözlər – məhəbbət, ayrılıq, nisgil, ümid haqqında mahnı sözləri – dünya qədər qədim və əbədi sözlər – elə bil Təhminənin ürəyinin, varlığının dibindən, ən dərin, ən gizli guşələrindən qopub gəlirdi.

– Zaurik, gör bir nə qədər sadədir və gözəldir: "Küçələrə su səpmişəm, yar gələndə toz olmasın" gör necə sevərlərmiş bir vaxtlar, Zaurik, indi gör necə sevirlər. Məsələn, sən mən keçən küçələrə heç su səpərsənmi, toz olmasın deyə?

Zaur:

– Bakıda mümkün deyil bu, – deyirdi, – küçənin bir başına su səpənəcən xəzri o biri başını yenə toza qərq eləyəcək.

– Eh, ruhun yoxdur sənin.

Ayrı mahnı səslənirdi və Təhminə də indi başqa sual verirdi: "Qoy məni öldürsünlər bir alagöz qız üstə". – Zaurik, sən heç razı olarsanmı ki, səni bir alagöz qız üstündə öldürsünlər? Öldürmək yox, e, Allah iraq eləsin, öldürmək-zad nədir, amma bax, məsələn, sevdiyin alagöz qızın üstündə razı olarsanmı ki, bir qədər çətinliyə, əzab-əziyyətə dözəsən?

– Məlumun olsun ki, mən çox çətinliklərə, əzab-əziyyətə dözürəm, bir qaragöz qız üstdə...

– Eh, Zaurik, heç nə başa düşmürsən sən. Ürəyin genişliyinə bax e: "Qoy məni öldürsünlər, bir alagöz qız üstə". Bəs bu sözləri bilirsən, qulaq as, fikir ver: "Bir evdə ki, sən tək gözəl olmadı, o ev viran olub, talanmaq gərək". Zaurik, bu sözlər xalqın təfəkküründü yüz dənə qalın elmi kitabdan daha gözəl ifadə edir.

Maqnitofondan mahnı səslənirdi: "Səndən mənə yar olmaz" – və Təhminə Zaurun düz gözlərinin içinə baxa-baxa bu sözləri təkrar edirdi: "Səndən mənə yar olmaz". Zaur, doğrudan da, təəccüblənirdi. Təəccüblənirdi ki, sevdiyi, amma indiyə qədər belə diqqət vermədiyi xalq mahnıları onun və Təhminənin münasibətlərindəki ən dərin, ən mübhəm duyğuları bu qədər səlis və aydın, bu qədər təsirli və yanıqlı, belə sərrast və dəqiq ifadə edə bilirlər. "Pəncərədən daş gəlir, ay bəri bax, bəri bax, xumar gözdən yaş gəlir, ay bəri bax, bəri bax. Səni

mənə versələr, ay bəri bax, bəri bax, Allaha da xoş gələr, ay bəri bax, bəri bax...".

Təhminə bu sözləri də təkrar edir:

– Doğrudan da, Zaurik, səni mənə versəydilər, Allaha da xoş gələrdi, – deyirdi, amma nə olsun ki, verməyəcəklər səni mənə, dünyasında verməzlər, bilirəm axı...

Papirosum yana-yana,
Od düşüb şirin cana.
Vallah, qoyub gedərəm, ay gülüm,
Qalarsan yana-yana...

Bu mahnıdakı hədə zarafatyana bir hədə idi, amma bu zarafatın dibində acı və qaçılmaz bir həqiqət də var idi.

Axı necə olurdu, necə olurdu ki, haçansa, çox-çox qabaqlar yaşamış insanlar, onların – Zaurla Təhminənin bu gün duyduqlarını eynilə onlar duyduqları kimi duymuş, belə gözəl və sadə sözlərlə, yanıqlı və əbədi melodiyalarla ifadə edə bilmişlər?.. Hisslərin yaşı, tarixi yoxdur, insanlar həmişə, hər yerdə eyni cür duyublar, eyni duyğular keçiriblər – məhəbbət, qısqanclıq, ağrı, sevinc, güman, nisgil, ümid, həsrət duyğuları – və eyni cür nəticələrə də gəliblər: ağrıyla-acıyla "səndən mənə yar olmaz" qərarını veriblər və bu qərarın özündə şıltaq bir yalan, tərs bir işvə var, necə yəni səndən mənə yar olmaz, səndən başqa da mənim, ya məndən başqa da sənin yarın ola bilərmi, mümkündürmü bu, əlbəttə, yox, əlbəttə, biz bir-birimiz üçün yaranmışıq, kim bizi ayıra bilər, əlbəttə, əlbəttə, biz bir-birimizinik, əlbəttə "səndən mənə yar olmaz..."

"Laçın" mahnısı səslənəndə isə Təhminə həmişə ağlayırdı, bu mahnı qəlbinin hansısa, Zaura belə məlum olmayan tellərini tərpədirdi, gözləri dolurdu, yaş gilə-gilə yanaqlarına süzülürdü. Niyə, nədən bu sözlər Təhminəyə belə dərin təsir göstərirdi: "Elçiləri qırılmış. Özü elçi düşən yar...".

***

Təhminəgilə köçəndən bəri ilk dəfə maaşını alan kimi Zaur bazara getdi... Maaşının tən yarısını xərclədi – meyvə, qoz-fındıq, kişmiş, qərənfil və hətta, ət aldı. Nə isə indiyəcən yaşamadığı bir hiss – evdarlıq hissi duyurdu və pilləkənləri fərəhlə, sevinclə, tələsə-tələsə

qalxırdı. Təhminə kefinə soğan doğramadı? Iki kilo əti o yan-bu yana çevirdi, üz-gözünü turşudub:

– Adam belə ət alar, – dedi, – başdan-ayağa sür-sümükdür, bir də şəntir. Hardan ağlına gəldi bazarlıq eləmək? Heç olmasa mənə deyəydin, göndərərdim səni Fazilin yanına, mənim tanışımdır, həmişə ətin yaxşı yerindən saxlayır mənimçün... Evdə səni pis öyrədiblər, yəqin ömründə bazarlıq eləməmisən, hə?

Zaur hirslə:

– Bəli, – dedi – bazarda tanış ətçim də yoxdur.

– Elə görünür ki, yoxdur, yoxsa belə uşaq kimi başını aldadıb zirzibili verməzdilər qoltuğuna.

Zaur dinmədi, qaşqabağını salladı və ta axşama kimi Təhminəylə kəlmə kəsmədi.

Axşam televizorla filmə baxırdılar, yenə də dinib-danışmırdılar. Filmdə toy səhnələri vardı... Təhminə birdən gözlənilməz bir tərzdə Zaura müraciət elədi:

– Zaurik, bilirsən necə istərdim ki, mənim də toyum olsun. Özü də lap elə bizim bütün dədə-baba qaydalarıyla: əvvəl elçilər gəlsin, hori alsınlar, sonra nişan, sonra toy... Uzun ağ paltar, çalğıçılar, gəlin havası, güzgü, şamlar...

Düz Zaurun gözlərinin içinə baxıb susdu, yenidən danışmağa başlayanda Zaur mat qaldı ki, Təhminə necə də məharətlə onun ürəyindən keçən ən ani fikirləri, düşüncələri açıq kitab kimi oxuya bilir – elə düşüncələri, elə fikirləri ki, Zaur özü belə onları dəqiq müəyyənləşdirə bilmirdi.

– Zaurik, sənin başına gələcək bütün bunlar, bilirəm. Elçi də göndərəcəksən, nişanın da, toyun da olacaq. Amma, vallah, heç çür sənin Spartakla yeznə-qayın olacağını təsəvvürümə gətirə bilmirəm.

Zaur başını buladı. Təhminə ciddi tərzlə:

– Bilirsən nə var? – dedi. – Başını-zadı yelləmə. Nə olub, deyirlər, doğrudan da, gül kimi qızdır. Minnətin olsun sənin. Umumiyyətlə, başa düşmürəm nə adətdir siz kişilərdə, dartıb özünüzü dağ başına qoyursunuz "evlənəcəm, evlənməyəcəm, bəyənirəm, bəyənmirəm...". Guya ki, evlənməyinizlə qadınları xoşbəxt eləyirsiz.

Zaur siqaret çıxartdı, kibrit çəkdi, kibritin qığılcımından bir qor kənara sıçradı, divarın güncündə dayanmış iri, əlvan hava şarının üstünə düşdü. Təhminə:

– Vay, neylədin, – deyə yerindən sıçradı: şar partlamışdı...

***

Sonralar Zaur heç cür müəyyənləşdirə bilmirdi – haçan, axı haçan başladı bütün bu şeylər. Bəlkə növbəti bir zəngdən sonra – Təhminə tanışlarından kimləsə uzun-uzadı danışırdı. Zaur isə mətbəxdə papiros çəkir, hirsini içində boğur və Təhminənin şən zarafatlar etməsinə, deyib-gülməsinə diqqət edirdi... Ondamı? Ya başqa bir vaxtda – Təhminə özünü pis hiss eləyirdi, xəstələnmişdi, bazara Zaur getməli oldu, hər şeyi alıb gətirəndən sonra isə Təhminə onun bazarlığını lağa qoymağa başladı, "əlindən heç bir iş gəlmir, – dedi: – bu nədi belə alıb gətirmisən, deyirdim sənə axı, Fazilə yanaş, mənim adımdan xahiş elə, ətin yaxşı yerindən versin...".

Zaur ölsəydi də Fazilə yanaşmazdı. Təhminə onu nişan verəndən sonra göz qoymuşdu bu yoğun peysərli, qırmızısifət, qarabığlı ətsatana, az-çox gözəgəlimli qadınlara, qızlara-ət verəndə Fazilin ağzının suyu axırdı...

Bəzən Zaura elə gəlirdi ki, Təhminə qəsdən onun yaralı yerlərini qurdalayır, zəif damarını tutur... Küçədə Zaur hər hansı bir maşına bir az artıq baxdımı, Təhminə dərhal masqaraya başlayırdı. "Hə, nədi, "Moskviç"in yadıva düşüb? Valideynləri dəcəl oğlancığazlarını cəzalandırıblar – oyuncağını əlindən alıblar yazıq uşağın". Bu cümlələrin deyiliş tərzi, "oğlancığaz, uşaq" sözləri Zauru cin atına mindirirdi. Hiss edirdi ki, hiddət onu get-gedə daha artıq boğur, bütün içini çulğalayır və belə dəqiqələrdə o, hətta Təhminəyə nifrət edirdi. Bəlkə də bu hiss başqa bir gün başlamışdı. O gün ki, Təhminə Mədinənin yanında Zaurun anası barədə danışmağa başladı, dedi ki, indi tək evdə yox, idarədə də Təhminəni rahat buraxmır, ora da zəng vurur. Mədinə dedi ki, kaş birçə dəfə Zivər xanım zəng vuranda dəstəyi mən götürəydim, dərsini verərdim onun. Zaur özünü güclə saxladı, hiddət butün içini çulğamışdı, o tək Mədinəyə yox, Təhminəyə də ağzından çıxanı demək istəyirdi, – axı hər halda söhbət anasından gedirdi... Doğrudur, anasının hərəkətləri də nalayiq hərəkət idi, amma hər halda Mədinənin – tamamilə yad adamın borcu deyil onların sırf ailə məsələlərinə qarışsın. Yaxşı. ki, Mədinə artıq-əskik söz demədi və heç bir vaxt bu söhbətə qayıtmadılar, amma o gün Mədinə bircə kəlmə də desəydi anası barədə, – Zaur aləmi dağıdacaqdı.

Bütün bunlardan xırda-xırda müəyyən bir fikir, bir hiss oyanırdı, necə deyərlər, dama-dama göl olurdu və bir gün Zaur nədənsə, yaman darıxdı, qəribsədi anasıyçün, Təhminənin səliqəli, təmiz mətbəxində şam yeyərkən anasının çirkli, səliqəsiz mətbəxi gəldi durdu gözlərinin

qabağında – fikri yayındı, gözləri yol çəkdi. Təhminə də dərhal bunu gördü, amma Zaurun imdadına yetməkdən, təsəlli verib, ovudub, yenidən onu yanına qaytarmaqdansa, əksinə, elə bil tərs damarı tutdu, rişxəndlə istehzaya keçdi:

– Hə, nə olub, uşağın gözləri yenə yol çəkir? – dedi. – Olmaya "Moskviç"i düşüb yadına?

Qəsdən belə deyirdi, qəsdən Zaurun intizarını, ata-ana həsrətini "Moskviç"lə, Zaurun məhrum olduğu məişət rahatlıqlarıyla, bayağı vərdişlərlə bağlamaq istəyirdi.

Zaura elə gəlirdi ki, Təhminə onu yalnız "Moskviç"ə qısqanır. Ona qəribə görünürdü ki, özü Təhminəni belə ağrıyla, əziyyətlə hamıya qısqandığı halda, Təhminə Zauru heç kəsə qısqanmır. Zaur onu da bilirdi ki, Təhminə onun keçmiş məhəbbət əlaqələrindən, hətta, idmançı Tanyadan belə xəbərdardır, amma heç vaxt Zauru nə keçmişdə, nə indi, ya da gələcəkdə mümkün ola biləcək əlaqələrinə görə zərrə qədər qısqanmırdı. Nə idi bunun səbəbi? Bəzən Zaura elə gəlirdi ki, Təhminə əslində onu sevmir, ona görə də biganədir. Bəzənsə düşünürdü ki, yox Təhminənin xasiyyəti belədir, ümumiyyətlə, qısqanmağa qadir deyil.

Bu barədə söhbətləri düşəndə Təhminə zarafata saldı:

– Bilirsən, Zaur, – dedi, – mən o qadınlardanam ki, heç kəsə qısqana bilmərəm, əksinə hamı mənə qısqanmalıdır kimisə... Lap tutalım son başqasıyla oldun, məni unudamı biləcəksən?

Zaur fikirləşirdi ki, yəqin doğrudan da belədir: deyirlər, kişini bir qadının dərdindən yalnız başqa bir qadın qurtara bilər. Təhminənin dərdindən qurtara bilən qadınmı vardı bu dünyada?

Bəzən onların ayrılacaqları barədə Təhminə soyuq və sərt bir dəqiqliklə danışırdı. Bir axşam Təhminənin uzun-uzadı telefon söhbətindən sonra Zaur yenə onu sorğu-suala tutdu: kimnən danışırdın, niyə belə uzun danışırdız, nə barədə belə gülüşürdüz.

Təhminə lap özündən çıxdı:

– Bura bax, Zaur, – dedi, – lap təngə gətirdin məni. Bəsdir də... Canımı boğazıma yığmısan bütün bu şübhələrinlə... Nə istəyirsən məndən, canım? Yaşayırıq səninlə, mənim evimdə qalırsan, həmişə yanındayam, daha nə lazımdır sənə, başa düşmürəm... Bəlkəm məni qıfılla bağlayasan, evdən bayıra buraxmayasan, hə? Telefonu da kəsdirəsən biryolluq? Nə vermisən mənə ala bilmirsən? Ailə qurmusan mənimlə bəlkə, ya uşağım var səndən?! Nə böyük qurbanlar vermisən mənim yolumda ki, bu qədər çox şey tələb edirsən? Evinizdən çıxıb getməyinlə çox qürrələnmə, bilirsən? Böyük fədakarlıqdır – maşınından keçib! Darıxma, qayıdacaqsan evinizə, maşınını da qaytaracaqlar sənə, evləndirəcəklər də səni halal südəmmiş qızla.

Zaur ömründə Təhminəni belə acıqlı, zəhər dilli görməmişdi, elə bil gözü-başı od püskürürdü. Amma birdən-birə susdu, elə bil sakitləşdi, süstləşdi və yorğun bir ədayla, yavaş səslə sözünü tamamladı: – Çıxıb gedəndən sonra nə qalacaq səndən mənə? Gözü Zaurun kibritinin oduyla partlamış, atılıb bir qıraqda qalmış boş şara sataşdı: – bircə bu şar – deyə gülümsündü, – onu da yandırdın...

Zaurun matı-qutu qurumuşdu, nə edəcəyini bilmirdi. Bilmirdi ki, indi, bu saat necə hərəkət etsə daha düzgün olar: durub Təhminəni söysünmü, yaxud ondan üzr istəsinmi, yaxud heç bir söz demədən çıxıb getsinmi bu evdən...

Təhminə siqaret yandırdı, dərin bir qullab vurub tüstünü havaya buraxdı və Zaura tərəf çevrilib:

– Bax bu tüstü kimidir bizim münasibətlərimiz, – dedi, əlini yelləyib tüstünü qovdu, – görürsən, heç bir şey yoxdur...

On birinci fəsil

Könüldə min qəmim vardır ki, pünhan eyləmək olmaz.
Bu həm bir qəm ki, el tənindən əfqan eyləmək olmaz.
Nə müşkül dərd olursa, bulunur aləmdə dərmanı.
Nə müşkül dərd imiş eşqin ki, dərman eyləmək olmaz.

– Neçə yaşındasız?

– Bunun nə dəxli var?

– Dəxli çoxdur. Uşaq deyilsiz, öz hərəkətlərinizə nəzarət eləməlisiniz, cəmiyyət qarşısında məsuliyyət duymalısız.

– Cəmiyyətin bura nə dəxli var axı?

– Necə nə dəxli var? Biz cürbəcür siqnallar alırıq. Gərək bu siqnallardan müəyyən nəticələr çıxaraq. Bizim komsomol təşkilatı, hətta, sizin məsələnizi büroya çıxarmaq istəyirdi... Siz özünüz də deyəsən, axı büronun üzvüsünüz?

– Bəli.

– Görürsünüz. Siz komsomol bürosunun üzvüsüz, özgələrə nümunə olmaq yerinə özünüzü bu cür nalayiq aparırsız. Yalnız komsomolçular deyil, idarəmizin başqa mötəbər işçiləri də sizin hərəkətlərinizdən çox narazıdırlar.

Zaur dərhal "Dadaş" deyə düşündü.

– Yoldaşlar belə hesab edir ki, sizin özünüzü belə aparmağınız kollektivimizin üstünə kölgə salır, gənclərin əxlaq tərbiyəsinə mənfi təsir göstərir, ümumən bizim əxlaq kodeksimizə ziddir.

– Mən ərizə verib çıxa bilərəm işdən.

– Yaxşı– yaxşı, özünüzdən çıxmayın. Mən kollektivin fikrinə biganə qala bilmərəm... Siz də hələ cavansınız. Bütün ömrünüz qabaqdadır, parlaq gələcəyiniz ola bilər, əgər indidən ağlınızı başınıza yığsaz, lazımsız hərəkətlərə yol verməsəz, əgər siz...

Zaur onun sözünü ağzında yarımçıq qoyub otaqdan çıxdı.

***

Zaur qapını öz açarıyla açıb içəri girdi, indicə yazıb verdiyi ərizənin – işdən çıxmaq haqqında ərizənin – hər sözünü bir də beynində götür-qoy edirdi... Yaxşı, bəs hara işə düzələcək? İşə düzəlmək üçün ona kömək edə biləcək tanış-bilişini yadına salmaq istəyirdi... Geoloji ekspedisiyanın birinə qoşulmaq olardı, bu barədə fikirləşən kimi Azər Mərdanovu xatırladı. Universitetdə bir yerdə oxumuşdular, o vaxtdan bəri dost idilər. Azər indi, deyəsən, haradasa Filizçay tərəfdədir. Əgər bu iş düzəlsə, Zaurun taleyi tamam dəyişə bilər və Təhminəylə münasibətlərində də müəyyən bir dəyişiklik əmələ gələr: axır günlər Təhminənin evində – nə deyirsən de – hər halda bir vaxt Manafın mənzili olan evdə – yaşamaq onunçun ağır idi... Manaf, əlbəttə, Zaurun orada yaşamasından xəbərdar idi, amma bir dəfə də olsun Təhminəni evi dəyişmək haqqında qərarı icra etmək üçün tələsdirməmişdi. Təhminə də bunu qiymətləndirirdi və özü tələsirdi, tezliklə mənzilini iki ayrı-ayrı otağa dəyişmək istəyirdi, amma olunan təkliflərdən heç birini bəyənmirdi. Bu məqsədlə də çox zaman uzun-uzadı telefonla danışar, cürbəcür mənzilləri gəzirdi və hətta, hansı mənzilədə – Zaur bunu biləndə lap dəli olmuşdu – Spartakla birlikdə getmişdi. Özü demişdi bu barədə Zaura...

Zəng oldu, Zaur telefonu götürdü:

– Zaur? Salam, Muxtardır.

Zaur:

– Tanıdım, – dedi, – Təhminə evdə yoxdur.

– Haçan gələcək?

– Bilmirəm.

– Bağışlayın.

Zaur divanın üstündə uzanıb papiros çəkirdi, tavana baxırdı. Harda ola bilər Təhminə? Hər halda işdə deyil, yoxsa Muxtar evə zəng eləməzdi.

Bəs hardadır? Bu barədə fikirləşmək mənasızdır. Soruşsan deyəcək ki, dərzidəydim, ya çəkməçidə, ya diş həkiminin yanında, ya rəfiqəmgildə, ya mənzilə baxmağa getmişdim – yüz cür variantı vardı və bu variantların heç birinin düz olub-olmamasını yoxlaya bilməzdi, yoxlamaq istəməzdi Zaur, amma heç birinin yüz faiz doğru olduğuna inana da bilmirdi.

Telefon zəng çaldı. Zaur dəstəyi qaldırdı:

– Bəli:

Dəstəyi dərhal asdılar: du, du, du...

Zaur fikirləşdi ki, yəqin yenə zəng vuracaqlar, hər dəfə divandan qalxıb telefona yanaşmağa ərinirdi, odur ki, dolabçanı divana tərəf çəkdi, indi uzandığı yerdən əlini uzadıb dəstəyi qaldıra bilərdi...

Yarım saat da keçdi və yenə telefon səsləndi. Zaur dəstəyi qaldırdı, elə bildi yenə asacaqlar, amma Muxtarın səsini eşitdi:

– Siz allah bağışlayın, Zaur, Təhminə hələ gəlməyib?

– Yox

– Bəs hardadır görəsən?

– Bilmirəm.

– Xahiş edirəm gələn kimi mənə zəng vursun. Vacib işim var. Özüm də arabir zəng vuracam.

Zaur heç nə demədi...

Balaca əncir ağacına baxırdı. Təhminə hey bu ağacdan danışardı, daha doğrusu, bu ağacı onlara hədiyyə gətirmiş alpinist dostlarının söhbətlərini təkrar edərdi; haradasa Naxçıvanda, dağlarda tapmışdılar bu ağacı, Gəmiqayanın yanında. Gəmiqaya adlı yerdə, rəvayətə görə, Nuhun gəmisi lövbər salıbmış və oralarda alpinistlərin dediklərinə görə qayaların üzərində maraqlı şəkillər var. Qobustan qaya rəsmləri kimi...

Telefon zəng vurdu:

– Bəli.

Yenə asdılar: du, du, du...

Zaur səhərdən dilinə bir şey vurmamışdı, amma yerindən durub mətbəxə keçmək, naharı qızdırmaq istəmirdi. Heç bir şey istəmirdi. Ümumiyyətlə, yalnız bax beləcə uzanmaq, papiros çəkmək və heç bir şey haqqında düşünməmək istəyirdi. Hətta, geoloji ekspedisiya barəsində, Filizçay partiyası, Mərdanov Azər barədə belə düşünmək istəmirdi. Ona elə gəlirdi ki, əslində heç yoxdur da belə geoloji partiya və varsa da, hər halda, Zaurun ora düşməsi qeyri-mümkün bir xülyadır... Ümumiyyətlə, ona elə gəlirdi ki, həyatında heç bir çıxış yolu yoxdur, indiki həyatını dəyişə biləcək və eyni zamanda onu keçmiş həyatına qaytarmayacaq üçüncü bir yol, üçüncü bir variant yoxdur və hər şey

bitib-tükənib onunçün, bütün yollar bağlanıb, bütün qapılar örtülüb, bütün pəncərələr qapanıb...

Yenə də zəng oldu, Zaur gülümsündü ki, bu cavabsız zənglər dəqiq və müəyyən bir ardıcıllıqla səslənir, düz yarım saatdan bir...

– Allo.

Asdılar.

Saat doqquzdan sonra Zaur nigaran olmağa başladı. Axı bilirdi: Təhminə bu gün işləmir və işləməyən günlərdə heç vaxt belə gec gəlmir evə. Bəlkə cədvəli dəyişiblər. Təhminə kimisə əvəz eləyib. Bunu öyrənmək çox asan idi, durub televizoru qura bilərdi, amma ayağa qalxıb otağın o biri küncünə keçməyə, televizoru yandırmağa həvəsi yox idi. Həm də ki, işdə olsaydı, Muxtar onu evdə axtarmazdı... Pəncərədən Mədinəgilə tərəf boylandı, onun da işıqları yanmırdı...

Saat onu keçəndə ciddi nigaran oldu, qorxurdu ki, birdən Təhminənin başında bir qəza olar. Düz saat 11-də bir də zəng elədilər, asdılar. Muxtar daha zəng eləmirdi. Əlbəttə, dəstəyi asan Muxtar deyildisə... Yəqin ki, o deyildi, belə xasiyyətli adam deyildi Muxtar. Əgər o deyildisə, "vacib bir iş üçün" daha zəng vurmurdusa Muxtar, deməli, Təhminəni tapmışdı və Zaur da daha nigaran olmamalıydı. Təhminənin başında qəza-filan yox idi.

On ikinin yarısında gəlib çıxdı Təhminə və dəhlizdə paltosunu çıxaran vaxt yenə telefon səsləndi.

Zaur:

– Telefonu götür, – dedi.

Təhminə:

– Sən götür, – dedi.

– Mən götürəndə asırlar, – dedi.

Təhminə yorğun– yorğun:

– Bilirəm. – dedi. Çox əzgin görünürdü Təhminə.

Telefon isə hey səslənirdi.

Zaur:

– Muxtar zəng eləmişdi, – dedi, – dedi ki, vacib işi var.

Bu sözlərdən sonra Təhminə aramla telefona yanaşdı, dəstəyi qaldırdı, nə isə eşidib dərhal asdı və ağır-ağır kürsüyə çökdü.

Zaur diqqətlə ona baxırdı.

– Hardaydın? – dedi.

Təhminə:

– Canımı götürüb sənin ananın əlindən qaçmışdım, – dedi və birdən hönkürüb ağladı.

Zaur yerindən durdu, Təhminəyə yanaşdı, əllərini onun çiyinlərinə qoydu:

– Nə olub sənə? – dedi.

– Bacarmıram day, Zaur, bacarmıram... Təngə gəlmişəm. Hər gün mənə zəng vurub küçə söyüşləriylə söyür, çirkab qalmayıb başıma tökməsin... Mənim nə günahım var ki, sən işdən çıxmaq barəsində ərizə yazmısan, hə? Mənim heç xəbərim də yox idi bundan. Amma anan məni hədələyirdi ki, məhkəməyə verəcək, milisə xəbər eləyəcək, daha nə bilim nə... Mənim nə təqsirim var, ilahi? Sən allah, sən ölülərinin, dirilərinin canı, qayıt evinizə, Zaur, mənim də canım qurtarsın. Rahat buraxın məni, sən allah, sən də, sənin anan da. Daha səbrim çatmır, çatmır səbrim, vallah...

Qaçıb vannaya girdi...

Zaur divarın oboylarına baxırdı... Həmin oboylara ki, Təhminənin dediyinə görə, Zaur gələn gün çiçək açmışdılar, indi torşerin alaqaranlıq işığında bu oboylar tamam başqa cür görünürdü... Zaur siqaret çəkirdi, cürbəcür fikirlər gəlirdi başına – özü barədə, Təhminə barədə, anası barədə düşünürdü.

Təhminə vannadan çıxdı, əynində mavi xalat vardı və həmişəki kimi hamamdan sonra sifəti sakit, arxayın, tərtəmiz idi; elə bil bütün qayğılarını, dərd-qəmini, əzab-iztirablarını yuyub atmışdı.

Telefon səsləndi, Zaur telefona tərəf atıldı, dəstəyi qaldırdı və indi asılacağını bildiyi üçün tələsik özü:

– Ay ana, axı sən niyə belə edirsən? – deyə bircə cümlə dedi. Xəttin o biri başında susmuşdular, bir müddət bu sükut davam etdi. Zaur yenidən sözə başlamaq istəyirdi ki, qəflətən dəstəkdə bərkdən güldülər kişi səsiylə bərkdən qəhqəhə çəkdilər...

Zaur dəstəyi asdı və Təhminəyə heç nə demədi. Nə mənası vardı bir şey deməyin. "Mən nə bilim kim idi bu, – deyəcəkdi Təhminə, – mən bütün telefon xuliqanlarını tanıyıram bəyəm?"

Bir də ki, son günlərin bütün iynələrindən, tikanlarından, küsüşmə-dalaşmalarından, tənəli sözlərindən, zəhərli atmacalarından, şübhələrindən, əsəbiliyindən sonra ilk dəfə idi ki, Zaur Təhminəni belə sakit, arxayın halda görürdü. Hamamdan sonra həmişəkindən onqat gözəl idi. Şampunla yumuşdu saçlarını, hansı meşə bitkilərininsə, hansı ağac yarpaqlarınınsa ətri vardı bu şampunda və qoxu Təhminənin saçlarına, bütün bədəninə hopmuşdu.

Zaur onu öpüşlərə qərq edirdi, elə bilirdi ki, ilıq bir bahar günü meşədədirlər, ətraf yaşıllığa, sərinliyə, sıx yarpaqlar arasından düşən

günəş şüalarına qərq olub, onlar məhəbbətlərinin uzaq ilk günləri qədər bəxtiyar və hər şeydən asudədirlər... Təhminəni sığallayırdı, oxşayırdı – bu nəvazişlər, tumarlar, öpüşlər qurtarmaq bilmir, uzandıqca-uzanırdı və elə bil hər ikisinin ürəyinə danmışdı ki, bütün bu çılğınlığın axırına az, lap az qalıb...

***

– Səkinə, ərizəni direktora verdin?

– Yox, Dadaş aldı məndən.

– Dadaş? Dadaşın bura nə dəxli var?

– Dedi ki, direktorla özüm danışacam. Bir də xahiş elədi ki, onun yanına gələsən. Dadaşın...

Dadaş:

– Əşi, sən bir toxta görək, – dedi və küncdəki masanın arxasında oturmuş Qurban tərəfə əyri-əyri baxdı. – Ərizən burdadır, budu ey, məndədir.

– Mən axı sizə yazmamışam bu ərizəni.

– Bilirəm, bilirəm, ancaq sənlə bir balaca söhbətim var mənim. – Bir də tərs-tərs Qurban tərəfə baxdı. Qurban başını aşağı salıb, guya ki, öz işiylə məşğul idi, amma qulağı darı dənləyirdi. Dadaş ərizəni Zaura uzatdı. – Ala bax, budur ərizən, haçan istəsən, müdirə apara bilərsən. Amma səndən kiçik bir xahişim var, sənlə balaca bir söhbət edək, sonra haçan istəsən gir direktorun yanına, direktor qaçıb eləmir ki, işin axırınacan burda olacaq – Dadaş birbaşa Qurbana müraciət elədi. – Qurban, – dedi, – bir neçə dəqiqəliyə zəhmət çək çıx otaqdan, mənim Zaurla xudmani söhbətim var.

Qurban qaşqabağıyla yer süpürə-süpürə otaqdan çıxdı, amma çıxmamışdan qabaq bir xeyli masasının siyirtmələriylə əlləşdi – açdı, bağladı, kağızları səliqəyə saldı, götürdü, qoydu, bir söz, xeyli onların, illah da Zaurun əsəbləriylə oynadı. Nəhayət, çıxdı otaqdan, qapını da örtdü arxasınca.

Dadaş:

– Bilirəm, Zaur, – dedi, – mənimlə o qədər də aran yoxdur. Səbəbini də bilirəm. Amma inan ki, mən ancaq sənin yaxşılığını istəyirəm, gec-tez özün də bunu görəcəksən. Mən ərizəvi anavın xahişiylə götürmüşəm. O, təsadüfən haradansa bilib və mənə zəng eləmişdi. Məsələ ondadır ki, atan xəstələnib. – Zaur həyəcanla yerində qurcuxdu.

– Yox, yox nigaran olma, elə ciddi bir şey yoxdur. Bir az təzyiqi qalxıb, amma mən özüm həkimlə danışdım, deyir, qorxulu bir şey de-

yil. Əsəbdəndir, vəssalam, bir-iki gün dincələr, hər şey öz qaydasına düşər. İndi səndən də xahişim budur ki, bir-iki gün səbir eləyəsən, atan eşitməyib bu məsələni, amma eşitsə, bir az da əsəbiləşəcək, indiki vəziyyətində isə, özün başa düşürsən, əsəbiləşmək olmaz ona... Anan da elə bu barədə xahiş eləmişdi məndən. Qoy atan sağalsın, sonra ərizəni apar, çıxırsan işdən çıx, özün bilərsən.

Atam yatır?

– Yox, anan deyirdi ki, evdə gəzir, amma işə çıxmağa həkimlər icazə vermirlər. Sabah gedib dəyəcəm ona... İstəyirsən, qoy bu ərizə də məndə qalsın, heç olmasa bazar ertəsinəcən gözlə. Mən danışdım direktorla, o müavin də bir az zırı adamdır, sənlə kobud danışıb bir az, bilirəm, direktora da çatdırdım bu məsələni, dedim, axı olmaz belə, bu tərzdə danışmaq olmaz belə incə mətləblər barəsində, özü də yeniyetmə gənclə. Axı yaşı-filanı da gərək nəzərə alasan.

Zaur:

Yaşın bura heç dəxli yoxdur, – dedi.

– Yox, dediyim odur ki, özgənin işinə belə kobud şəkildə müdaxilə etmək ədəbsizlikdir, qanacaqsızlıqdır. Bəyəm belə məsələni kobud, qaba inzibatçılıq yoluyla həll etmək olar? Neyləyəsən, belə peziqırıq adamlar da var da...

Köynəyinin tərli, kirli boyunluğu, ora-bura dığırlanan göz bəbəkləri – bu adamın bütün görkəmi Zaurun ürəyini bulandırırdı. Əlləri necə də gödəkdir, barmaqları necə də qısadır, ilahi, elə bil ilk dəfə idi görürdü onun gödək barmaqlarını.

Zaur ayağa qalxdı:

– Yaxşı, – dedi, – bazar ertəsinəcən gözləyərəm.

Dadaş:

– Otur, – dedi, – sənə bir neçə kəlmə sözüm də var. Amma xahiş eləyirəm axıracan dinləyəsən... Dünən Təhminəylə danışmışıq. – Bu cümləni birnəfəsə dedi, elə bil qorxurdu ki, Zaur ağzından vurar, durub çıxıb gedər, söhbətləri yarımçıq qalar. – Dünən bütün axşamı Təhminəylə söhbət eləmişik. Amma ürəyinə ayrı bir şey gəlməsin, ha...

Zaur, nədənsə, ancaq Dadaşın gödək barmaqları haqqında, gödək əlləri haqqında düşünürdü, belə gödək əllərlə Təhminəni necə qucaqlamaq olardı, ilahi?

– Sən bilirsən ki, mənim ona münasibətimi. Nə olursa-olsun, mənim ona müəyyən rəğbətim var və bir çox yaxşı cəhətlər görürəm onda.

"Gödəkdi əlləri də, barmaqları da, yaman gödəkdir". Zaur bir kəlmə dinib danışmırdı.

– Hə, sözüm odur ki, dünən Təhminəyə zəng elədim, görüşdük və hər şey barəsində ətraflı danışdıq... Zaur, inan mənə, sizin aranızda nə olubsa, olub keçib, hər şey bitib, hər şey qurtarıb. Təhminə artıq başa düşüb bunu, sən də bir azdan başa düşəcəksən, amma bir az gec başa düşəcəksən və o vaxta qədər də həm özün əzab çəkəcəksən, həm də başqalarına, o cümlədən atanla anana əziyyət verəcəksən... Xahiş edirəm sözümü kəsmə, axıracan dinlə məni. Mən hər şeyi başa düşürəm, – rast gəlmisiniz bir-birinizə, bəyənmisiz bir-birinizi, bağlanmısız bir-birinizə, məhəbbət deyirsən buna, sevgi deyirsən, nə deyirsən de, sözüm yoxdur. İkiniz də cavansınız, sağlamsınız, gözəl-göyçəksiniz, bir-birinizi cəlb etmisiniz, nə günah var ki, bunda?.. Bilirəm, hamısın bilirəm. Moskvada da olmusuz bir yerdə, indi Bakıda da bir mənzildə yaşayırsınız. Amma oğul, inan mənə, bir gün hər şey sona yetir, ən çılğın ehtiras belə bitib tükənir və əgər kişiylə qadını ehtirasdan başqa heç nə bağlamırsa – yəni ailəylə, uşaqlarla, nikahla bağlı deyillərsə – onda bu cür əlaqə elə bir dəhşətli işgəncəyə çevrilir ki, gəl görəsən.

Zaur Dadaşın nitqindəki hər çaları yaxşıca duyurdu; eşqdən, məhəbbətdən danışanda – rişxəndini, gənclikdən, gözəllikdən danışanda – həsədini, aralarında hər şeyin bitib-tükənməsindən danışanda – duyduğu ləzzəti – hər şeyi, hər şeyi qavrayırdı. Zaur onu da bilirdi ki, bu ağsaqqal təmkini, bu həlim danışıq, bu öyüd-nəsihət – hamısı eyni bir məqsədə yönəlmişdi: Zauru sındırmaq, qırmaq, ram etmək – hədələrlə, təhdidlərlə, inzibati tədbirlərlə nail ola bilmədiklərinə Dadaşın xəbis müdrikliyilə, mötəbər məsləhətləriylə, mülayim rəftarıyla çatmaq istəyirdilər. Ən dəhşətlisi bu da deyildi. Ən dəhşətlisi o idi ki, qəlbinin dərinliklərində Zaur, Dadaşın sözlərindəki həqiqəti duyurdu, bilirdi onun dedikləri düzdür, doğrudur, amansız, çılpaq və yeganə həqiqətdir. Bircə şeyi bilmirdi – bütün bunları, ehtirasın bitib-tükəndiyini, birgə həyatlarının işgəncəyə çevrildiyini Dadaşa Təhminə özümü danışmışdı, yaxud Dadaşın öz gümanları, çin çıxmış fərziyyələri idi? – Hər halda dünən Təhminənin Dadaşla görüşməsinə şəkk-şübhə ola bilməzdi.

– Hər şey sənə belə dəhşətli faciə kimi görünməsin e, – dedi. – Dünyanın axırı bilmə hər şeyi. Sənin ömrünün sonu deyil ki bu, olsa-olsa ancaq bir epizodudur. Həyat bilirsən nə uzundur. Zaur, yalan deyirlər, qısa deyil ömür, biz çox yaşayırıq, lap çox, o qədər, o qədər şey görüb bilirik, o qədər şeydən keçirik ki, həyatımız boyu hər cürə bərkə-boşa düşürük, dünyanı, necə deyərlər, əməlli-başlı dişimizə vururuq. İndi ayrılsanız, ömrünüzün bu günlərini həmişə xoş bir təəssüflə, yüngül bir qüssəylə yad edəcəksiniz, şirin bir yuxu kimi, amma əlaqəniz davam etsə, bu, əməlli-başlı əzab-əziyyətə çevriləcək... Tıx deyincə yeyib toxluq eləməkdənsə, hər şeydən bir balaca doymamağın özgə ləzzəti var, inan mənə. – Bu sözlərdən sonra Dadaş gülümsündü və bu sözlərdən sonra Zaurun gözləri qarşısında haçansa gördüyü bir səhnə canlandı: Dadaş toppuş, gödək barmaqlarıyla soyutma toyuğu paralayır, ağzının içinə basır, hava da istidir, tər və yağ bir-birinə qarışıb axır çənəsindən boğazına, çirkli boyunluğunun ardına, boğazına, döşünə, sinəsinə...

Zaur ayağa durdu, yenə də kəlmə kəsmədən qapıya tərəf addımladı. Dadaş onun arxasınca:

– Bugündə, sabahda bir atana baş çək, – dedi. – O saat bütün azar-bezarı keçib gedəcək...

On ikinci fəsil

Fəthi-meyxanə üçün oxuyalım fatihələr
Ola kim, üzümüzə açıla bir bağlı qapu.

Nəşriyyatdan çıxıb yavaş-yavaş küçələrlə addımlamağa başladı. Evlərinə getmək istəmirdi. Öz-özünə acı-acı güldü: "evimizə..." Məgər onun evi vardı? Onun "evim" dediyi yer – Manafın sabiq mənziliydi.

Çalışdı ki, bu barədə fikirləşməsin. Ayrı şeylər barədə düşünməyə cəhd etdi və birdən duydu ki, yamanca acıb, Təhminənin mətbəxini xatırladı, düşündü ki, evə getsə Təhminə nahar qızdırıb qabağına qoyacaq. Zaur da dinməz-söyləməz yeyəcək, heç birisi bir kəlmə də danışmayacaq, çünki ikisi də biləcək ki, danışacaqları hər bir söhbət gec-tez dava-dalaşla nəticələnəcək və həm də ki, bu dava-dalaş, yəqin ki, axırıncı savaşları olacaq... Yaxud dalaşmasalar, elə-belə danışsalar, bir-birini anlamağa, başa düşməyə çalışsalar, vəziyyətlərini, hallarını, hisslərini, fikirlərini bir-birilərinə sakit və təmkinlə izah etsələr belə, bunun da yeganə nəticəsi ayrılıq olacaq, hər ikisi mütləq bu qərara gələcəkdi – ayrılmalıyıq...

Trolleybusa minmədi, yolunu bulvardan saldı. Bulvar adamsız idi. Havalar pis keçmirdi, ağaclar tamam çılpaq olmasaydı, adama elə gələrdi ki, payız təzəcə girib. Amma payızın son ayı, qışın əvvəli olması yalnız ağacların yalın budaqlarından deyil, həm də havanın çox tez qaralmasından məlum olurdu. Adamlar idarələrindən çıxanda hələ işıq idi, amma evlərinə yollanarkən haradasa – trolleybusun, avtobusun içində – qaranlıq onları haqlayırdı. Bu keçid, xüsusilə metro sərnişin-

ləri üçün kəskin idi. İşıq kəçiddən yerin altına enir, öz dayanacaqlarında yer üzünə qalxanda isə qatı qaranlığa qərq olmuş şəhərə çıxırdılar...

Zaur bulvarla addımlayırdı. Sahil xiyabanına səpələnmiş şüşə kababxanaların, çayxanaların, qutabxanaların mehrəm və mülayim çıraqları ətrafa işıq çiləyirdi. Bu şüşə yeməkxanalarda – akvarium içində yaşayan balıqlar kimi – təkdənbir adamlar oturmuşdu, elə bil işığın, istinin başına yığışmışdılar, yavaş-yavaş söhbət edirdilər. Heç buradan çıxmaqları gəlmirdi. Ocaq başı kimi cəlbedici idi bu məclislər. Bəzən insan yad şəhərin otellərində belə isti nəfəsə, ünsiyyətə, təmasa ehtiyac duyur - həm insanların içindəsən, həm də aralısan onlardan – heç kəsi tanımırsan, səni də heç kəs tanımır, amma hər halda, haradasa lap yaxında həyanların var – başqa insanlar – söhbət etmək, sorğu-suala tutulmaq, cavab vermək məcburiyəti də yoxdur, eyni zamanda ilıq həmrtilori çatır sənə...

Kababxananın borusundan tüstü çıxırdı, ləzzətli iylər gəlirdi, Zaur da yolundan burulub kababxanaya tərəf addımladı.

Adam az idi. Dörd nəfər dəm kişi bir-biriylə qızğın mübahisəyə girişmişdi, bir-birinə isbat eləmək istəyirdilər ki, doğrudur, Əhmədov əclafın biriydi, amma Ağayev ondan da betərdir.

Başqa bir masanın dalında iki nəfər gənc oğlan, küncdəki dördüncü stolun ardında isə cavan oğlanla qız əyləşmişdilər.

Zaur arxası qapıya oturdu. Piştaxtanın arxasındakı bufetçi radiocihazı qurdalayırdı, nəhayət, konsert verən İran stansiyasını tapdı... İki başqa xidmətçi mətbəx qapısının ağzında mırt vururdu. Zaur xeyli oturdu, nəhayət, xidmətçilərdən biri tələsmədən yanaşdı. Zaur kabab və iki yüz qram araq sifariş verdi. Bir azdan sonra xidmətçi göyərti, pendir, bir şüşə "Badamlı", üstünə xaş-xaş səpilmiş çörək və kiçik armudu qrafində araq gətirdi.

Zaur arağı qalın çaxmaq stəkana süzdü, bir qurtuma başına çəkdi... Ac qarnına içdiyi araq dərhal təsirini göstərdi. Zaurun beyni yüngülcə dumanlandı və kiçik kababxananın, gur işıqlı elektrik qızdırıcısıyla yaxşıca isidilmiş bu şüşə otağın məhrəmliyi, şüşələrin arxasındakı gecəyə, qaranlığa qərq olmuş bulvarın, ağır, qatı, zülmət dənizin yaxınlığı – hamısı birlikdə Zaurun ürəyini riqqətə gətirdi: elə bil ki, burda əyləşən adamlar da, xidmətçilər də, kök bufetçi də ona əziz və doğma oldular. Piştaxtanın ardındakı divara zillədi gözlərini – divara "Oqonyok"dan kəsilmiş rəngli reproduksiyalar, Zeynəb Xanlarovanın və Müslüm Maqomayevin portretləri, Stalinin generalissimus formasında, habelə anası və oğluyla birlikdə şəkilləri, "Neftçi" futbolçularının fotoları vurulmuşdu... Bir neçə kinoaktrisanın şəkilləri də vardı divarda, adlarını bilməsə də sifətləri tanış gəlirdi Zaura. Zaur cəhd cləyib onları hansı filmlərdə gördüyünü də yada sala bilərdi. Lenanı, Moskvada kino evində tanış olduğu Lenanı tanıdı, dərhal da Moskva səfərləri yadına düşdü. Muxtarı xatırladı və elə bu vaxt qulağının dibində tanış bir səsdən diksindi:

– Ay sizi xoş görmüşük.

Başını qaldırdı və masasının yanında dayanmış gülümsünən adamı gördü – Muxtar Məhərrəmov idi... Qəribə təsadüf idi. Sanki Muxtar Zaurun fikirlərindən canlanıb çıxmış, hansı cinin əmriyləsə peyda olmuşdu elə bil... Zaur ayağa qalxdı, əl verib görüşdülər.

– Buyurun, əyləşin, – dedi. Muxtar dərhal stul çəkib oturdu.

– Elə indicə sizə zəng vurmaq istəyirdim, – dedi.

– Bizə, yəni Təhminəyə, – deyə dəqiqləşdirdi Zaur.

Muxtar yüngülcə gülümsündü.

– Yox, məhz sizə, – dedi, – Təhminəylə telefonla danışdım, dedi ki, hələ işdən qayıtmamısınız, indilərdə gələrsiniz...

Zaur "Necə də arxayındır Təhminə, – deyə düşündü, – necə də arxayındır ki, mütləq indilərdə gələcəm".

– Siz də demə, burada – kababxanada kefdəsiniz – Muxtar araq qrafininə işarə elədi.

Zaur gülümsündü, araqdan öz stəkanına və ikinci təmiz çaxmaq stəkana Muxtar üçün süzdü.

Muxtar:

– Zəhmət çəkməyin, – dedi. – Mən bu saat deyərəm gətirərlər. Arif! – deyə xidmətçini çağırdı.

Xidmətçi dərhal gəldi. Kök bufetçi də Muxtarın səsini eşidib piştaxtanın arxasından başını yellədi, hal-əhval tutdu.

Arif:

– Muxtar müəllim xoş gəlib, – dedi. – Çoxdandı görünmürsüz?

Muxtar:

– İş çoxdur, – dedi. – Bəs Nadir hanı?

– Nadir indi gələr. Biz burdayıq da, nə qulluğunuz var, buyurun.

– Yaxşı, bir iç-qovurma düzəlt bizimçün, iki şiş də qabırğayla ağ ətdən kabab çək.

– Baş üstə!.. Nə içəcəksiz?

– Yox, verilişim var, içməyəcəyəm mən... Yaxşı, day keçib, iki yüz araq gətir. Zaur müəllimlə birtəhər həzmi-rabedən keçirərik...

Xidmətçi getdi. Muxtar:

– Nadir buranın böyüyüdür, – dedi. – Qoribə oğlandır.

Zaur:

– Məni niyə axtarırdınız ki? – deyə soruşdu.

Muxtar cavab verə bilmədi, Zaurun başının üstündən indicə açılmış qapı tərəfə baxırdı. Sonra ayağa durdu.

– Hə, – dedi, – adını çək, qulağını bur, Nadir müəllim özü də təşrif buyurdu.

Zaur da çevrildi və qapıdakı potaboy, yekəqarın, qırmızıyanaq kişini gördü.

Nadir Muxtarı görüb dişlərini ağardırdı, daha doğrusu, dişlərini ağarda bilməzdi, çünki bütün dişləri qızıldan idi... Tələsik onlara tərəf gəldi.

– Ay Muxtar müəllim xoş gəlib bizim tərəflərə... Çoxdandı görünmürsən, a kişi?

Muxtar:

– Tanış ol, – dedi. – Zaur mənim dostumdur.

Nadir razılıqla başını tərpətdi, Muxtarın dostu olması Zauru onun gözlərində elə bil bir neçə mərtəbə ucaltmışdı.

– Nə var, nə yox, ay Muxtar müəllim?.. Baxırıq, izləyirik işivizi... Həm sevinirik, həm həsəd aparırıq.

Muxtar:

– Nəyə sevinirsən və nəyə həsəd çəkirsən ki? – deyə xəbər aldı.

– Hə, bunları bu saatca bircə-bircə sənə deyəcəyəm. – Nadir yoğun boynunu çevirmədən barmaqlarıyla çiyninin üstündən çırtma çaldı və xidmətçi Arif dərhal onlara yanaşdı. Muxtarın sifariş verdiyi iç-qovurmanı, arağı da gətirmişdi... Nadir gözucu tavaya baxıb Arifdən soruşdu:

– O ətdəndir?

Arif:

– Eyib sözdür ki, Nadir qədəş, – dedi. – Biz bəyəm adamımızı tanımırıq? Muxtar müəllimə hamımızın hörməti var, – Nadirin məmnun-məmnun dodağı qaçdı, amma sonra qrafindəki arağı görüb qaşlarını çatdı.

– Bu nədir bəs? – dedi.

Muxtar üzrxahlıq edirmiş kimi:

– İşim var, Nadir, getməliyəm, – dedi.

Nadir:

– Yox, canımçün, ürəyimə toxunarsan, – dedi və sonra Arifə müraciətlə, – uberite etu menzurku, – deyə əlavə etdi. – O dünənki ekstralardan hələlik bir şüşə gətir, birin də qoy xolodelnikə... Orda xo-

lodelnikdə pivə var e, bilirsən hansından deyirəm də, ondan da hələlik üç-dörd şüşə gətir bura, dalısına baxarıq.

Arif tapşırığı yerinə yetirməyə getdi və Nadir təmkinlə kababxanadakı adamlara göz gəzdirdi.

– Belə-belə işlər, Muxtar müəllim, – dedi.

Arif beş şüşə çex pivəsi gətirəndə Muxtar:

– Bax bu olmadı da, – dedi. – Köhnə dostları yaddan çıxardırsan.

Nadir:

– Canımçün, Nadirin ölmüşünə dünən axşam almışıq on yeşik, elə bu gün sənə zəng vurmaq istəyirdim, özün öz ayağına gəlib çıxdın. Bir qutusunu məxsusi sənünçün ayırmışam, bilirəm axı çex pivəsinin bazısan mənim kimi, istəyirsən bax elə indi götür apar.

Yox, indi işə gedirəm, amma sabah səhər gəlib aparacam.

– Əşi, nə zəhmət çəkirsən, özüm göndərərəm evinə.

Arif qırmızı "Ekstra" etiketli araq şüşəsini açdı, təzə gətirdiyi üç nazik qədəhə süzdü və getdi.

Nadir:

– Hə, Muxtar müəllim, soruşursan ki, niyə sevinirəm, niyə həsəd çəkirəm, hə? – dedi.

Muxtar artıq unutmuşdu bu söhbəti, amma Nadir təmkinlə öz fikrini şərh eləməyə başladı:

– Ona görə sevinirik ki, Muxtar müəllim, siz bizim fəxrimizsiz, başımızın ucalığısınız... Siz – sənət adamları – bizim yolumuzda çalışırsız, bizim zövqümüzə qida verirsiz, odur ki, bizim də borcumuzdur ki, sizə hər cür hörmət eləyək neçin ki, siz bizim fəxrimizsiniz... O ki, qaldı həsəd çəkmək məsələsinə, hə, burda məsələ bir az başqa cürdür. Məsələ ondadır ki, axı biz də baxırıq bu televizora da. Evdə üç dənəsi varımdır mənim – uşaqlarım köpək uşaqları elə ancaq Moskvaya baxmaq istəyirlər, məni bəyənmirlər, rusca, deyirlər səhv danışırsan, papa, elə salıb dolayırlar məni, it uşağı, hə, sözüm onda deyil, bir söz, almışam onlarçün televizor ki, baxın nə qədər kefinizdir Moskvaya: caza-maza qulaq asın, amma mənimki Bakıdır – bizim o komediya artistlərimiz var e, vallah, onları dünyanın heç bir Raykininə-zada dəyişmərəm... Arvad da ki, bədbəxtin qızı bütün günü mətbəxdə əlləşir, odur ki, yazıqdır da, televizorun bir dənəsin də alıb qoymuşam onunçün mətbəxə, qoy soğan soya-soya baxsın özüyçün, kef çəksin, mən ölüm, necə sözdür, hə? Ha, ha, ha! Burda işdə də televizorum var, mətbəxin dalında, orda bir balaca xudmani otağım var, – nədənsə, Muxtara göz vurdu, – ay səni, Muxtar müəllim, yaman arif adamsan,

tükü-tükdən seçirsən, hə televizorun birin də qoymuşam ora, hərdən baxıram özümçün bala-bala... Hə, sözümün canı odur ki, hərdən baxıram televizora, görürəm adə, bu nə işdir belə, elə ki, yazdılar verilişin rejissoru Muxtar Məhərrəmov – mütləq bir təzə mamlımatan canan çıxasıdır ekrana. Deyirəm, dinmə, Muxtar müəllimin təzə şikarıdır bu... indi diktordur, artiskadır, oxuyandır – hər halda həmişə bir təzəsini, svejisini, belə necə deyərlər, tavada təzə qızardılmışın çıxarır Muxtar müəllim... İndi özün de, həsəd çəkməyəsən, neyləyəsən, biz deyir, dəridənqabıqdan çıxırıq ki, bir belə canalan afətlə tanış olaq, amma Muxtar müəllim elə gününü bu cür dilbərlərin içində keçirir. Mən ölüm, necə sözdür? Əşi, vur bura görək, ay Muxtar müəllim, halal xoşun olsun, dünya deyir, beş gündür, bacarana can qurban... vur bura...

Muxtar Nadirin əlinə bir balaca toxundu. Nadir:

– Odur ki, deyirəm, qaldıraq bu badələri sənin sağlığına, Muxtar müəllim. Ömrüvün axırınacan elə-belə kefdə-damaqda yaşayasan. Biz də sənin kölgəndə dolanaq... Amma yoldaşlıqda bu yaxşı şey deyil ha, hərdən-birdən dostlarızun da könlünü şad elə də. Nə olardı o gözəllərdən biriylə bizləri də tanış eləyəydin.

Muxtar zarafatyana bir ərklə, amma eyni zamanda kifayət dərəcədə sərt tərzdə:

– Çiy söz danışırsan, Nadir, – dedi. – Məni görünür kimnənsə dəyişik salmısan.

Nadir dərhal sözün dəyişdi:

– Yaxşı, yaxşı, incimə, zarafatım var səninlə, ərkim çatır, nə olar? Dediyim odur ki, bax mən çex pivəsi alan kimi o saatca səni salıram yada. İndi dünya dağılmaz ki, sən də bir dəfə o iş yoldaşlarını – elə içində o gözəl qızlar qarışıq – götürüb gələsən bu Nadir qərdeşivə qonaq, sənincün bir süfrə açım, bir məclis düzəldim ki, dadı damağınızdan getməsin. Dalıynan sənin nə işin var?.. Yaxşı, yaxşı, day bu barədə bir kəlmə kəsməyəcəyəm, vurduq bunu sənin sağlığına.

İçəndən sonra Nadir fikirləşdi ki, Zaur bu söhbətləri ayrı cür başa düşər, odur ki, izahat verməyə başladı:

– Siz yoqin bilmirsiz, – dedi, – biz Muxtar müəllimlə çoxdanın curuyuq. Sonra ürəyinizə ayrı şey-zad gələr e... Guya ki, mən özümçün canan-zad tapa bilmirəm, kasadlıq çəkirəm bu cəhətdən? Ay-hay, canımçün, bilmirəm arvadların əlindən hara qaçım gizlənim. Qarğaquzğun kimi tökülürlər üstümə hər tərəfdən. – Nadir bu sözləri deyəndə Zaura baxırdı, birdən Allah eləməmiş, bu qaraqabaq oğlan elə düşünər ki, Nadir – hərifdir, qadın tamarzısıdır, kiminsə köməyinə möhtacdır.

Muxtar:

– Nadir, bilirsən nə var, – dedi, – sənlə mənim sinnimiz elədir ki, gərək imkan tapdıqca qadınlardan gen gəzək.

Nadir Muxtarın sözlərini eşitməyibmiş kimi söhbətini davam elədi:

– Bu günlərdə bura iki oğlanla bir qız gəlmişdi. Gördüm ki, bizimkilər deyil, özgə şəhərdəndirlər. Oğlanlar da lap elə maygülüdürlər – biri belə başı daz, eynəkli, o biri də balaca, cürübbəz – üfürsən yıxılar. Amma qız, Allaha and olsun, bir dünya gözəlidir ki, iki göz istəyir tamaşasına. Ucaboy, fiqurası əmiri, üzü ağappaq, elə uzun qıçları vardı, Allaha and olsun elə bil çiynindan başlayır lap. Nə isə, göz qoydum bunlara... Arif bunlara qulluq eləyir, mən də görürəm ki, yox, aşnam, qızın gözləri elə o yan-bu yandadır, belə dağınıqdır gözləri, mən day belə-belə şeylərdə saç ağartmışam axı... Görürəm ki, bu gədələrin heç biri tay deyil ona, yoqin ikisinin də ürəyi gedir bu qız üçün, amma qız bunlara heç məhəl də qoymur. Görürəm, puldan da belə xeyli kasaddılar. Üç pors kabab sifariş veriblər, bircə şüşə də çaxır. Arif apelsin təklif eləyib bunlara, uzun-uzadı haqq-hesab eləyiblər, axırda da deyiblər, yox, lazım deyil. Barmağımı dişlədim, əsil məqamdır, dedim... Noyabr ayıdır, bəli, göndərdim bunların stoluna əntiqə parnik xiyarları, pomidorları, təsəvvür eləyirsən, noyabrın axırında təzə pomidor, xiyar... Yanında da bir şüşə əntiqə konyak... Əvvəl istədim iki şüşə göndərəm ki, gədələr vurub bədənə lap dəm olsunlar, sonra fikirləşdim ki, belə nərmənaziklərçün elə bir şüşə də bəs eləyər xosumvay olmaqçün... Bəli, axırda da iri bir dəstə qırmızı qərənfil göndərdim, dedim de ki, kababxananın böyüyüdür sizi belə qonaq eləyən – bizim elin adətidir bu. Gördüm bəli, gözləri par-par parıldadı üçünün də, əsas da ki, qızın... Birdən ağlıma gəldi ki, köpəyin qızı özü içib dəm olar, əməlli-başlı qanmaz ki, məsələ nə yerdədir. Mənim də xüsusi fransız likörüm var. Muxtar, müəllim, sən ki, bilirsən də nədir o, qadın bir qədəh dilinə vuran kimi özü kişinin üstünə atılır, ha, ha, ha, ay xətakar... Bəli, bu likördən göndərdim, dedim deyin ki, bəs qadın yalnız bu likördən içsin, çünki bu da bizim el adətimizdir... Bəli, Arif gəlir ki, bəs, Nadir qardaş, qız səni görmək istəyir, soruşur ki, hardadır bəs bu səxavətli, gözəl insan. Mənəm ha gözəl! Ay səni, evinəcən... Yox, deyirəm, keçəl suya gedən deyil, hələ tezdir, aşna, mənim sirsifətimi görərsən, yediyin-içdiyin burnundan tökülər, mənim də mayam batar. Hələlik gərək sən bir az da bu likördən içib dəmlənəsən, onda bütün dünya gözündə huri-qılman görünəcək. Köpək oğlunun fransızları bu işlərin allahıdırlar da... Bir söz, oturmuşam bir qıraq-

da kirimişcə, elə göz qoyuram bunlara, gördüm oğlanlar day lap lülüş oldular. Arifə deyirəm, öyrən gör, harda qalırlar, de ki, müdirimiz sizə qonaq gəlmək istəyir, şəhərimizin suvenirlərini gətirmək istəyir... Bəli, Arif öyrənib bilir ki, Pribaltikadan gəliblər, "Bakı" qostinisasında qalırlar. Təbii ki, oğlanlar ayrı nömrədə, qız da başqa qadınla bir nömrədə. Bunu mən hər ehtimala qarşı öyrənmişdim, amma hər şey daha asan başa gəldi... Oğlanlar lülüşqə olub qaldılar. Otuzdurdum onları maşınıma – bilirsən də "Volqa"mı burda, mətbəxin dalında saxlayıram həmişə – gətirdim qostinisaya, qıznan bir yerdə belə ədəblə, nəzakətlə apardım oğlanları nömrələrinə, uzandırdım çarpayılarına. Hamısı da belə kulturnu ha... İndi deyirəm qıza, qız da tamam ayıqdır, amma likördən əməlli-başlı hallanıb, bəli, nəzakətlə, ədəb-ərkanla deyirəm qıza: heyif, deyirəm, sizin oğlanlarınız belə zəif çıxdılar, amma siz maşallah tamam ayıqsınız... İndi axşam şəhərə çıxmağınız yaxşı olmaz. Nömrədə qalıb darıxacaqsınız, bəlkəm mən maşınla gəzdirim sizi, şəhərimizi göstərim. Qız sevincək: çox sağ olun, əlbəttə, çox razı olaram sizdən, deyir. Day burda mənim sir-sifətimin bir əhəmiyyəti yoxdur. Əsas iş ondadır ki, mənim maşınım var, özüm də çox belə nəzakətlə, kulturnu rəftar eləyirəm. Özgə bir arvadla nömrədə qalıb neyləyəcək yazıq, bağrı çatlayar ki. Bəli, hər şey yağ kimi getdi. Əvvəl apardım Kirov parkına, şəhəri seyr elədi, sonra belə ehmallıca maşını şəhərin kənarına sürdüm, arada başını söhbətə qarışdırdım, "bir az o yanda mənim bağımdır, Buzovnada" dedim.

Zaur: "Murtuzovgilinki kimi – deyə düşündü. – Axı onların da bağı Buzovnadadır".

– Bəli, gəldik çıxdıq bağa... Day nə deyim...

Zaur fikir verdi ki, bundan qabaqkı bütün təfsilatları yerli-yataqlı danışan Nadir sonluğu nə isə tələsik tamamladı. Səbəb nə idi? Nadirin utancaqlığı, abır-həyasımı, yaxud başqa bir şey? Bəlkə də bütün bu tədbirlə qurulmuş tələlərə, konyaklara, noyabrda stolun üstünə düzülmüş parnik pomidorlarına, xiyarlarına, qərənfillərə və fransız likörünə baxmayaraq, əhvalat heç də Nadir arzu etdiyi nəticəylə bitməmişdi? Çox güman ki, Nadirin söhbətinin axırının itməsi də elə bu səbəbdən idi.

Nadir qədəhlərə araq süzdü, içdilər, Muxtar saatına baxdı. Nadir isə başqa bir qadına aid yeni bir əhvalat danışmağa başladı. Danışırdı ki, bir qadından yaman kəsirdim, onunla tanış olmaq üçün dəridən-qabıqdan çıxırdım. Nəhayət, ümumi tanışımız tapıldı və ilk tanışlıq xətrinə qadına hədiyyə olaraq kremplin parça göndərmək istədim. Bir dostum

məni sklada aparıb üç cür kremplin göstərdi – boz, yaşıl və göy rəngli... Əvvəl istədim üçünü də alıb göndərim, hansını bəyənsə, seçsin, sonra qorxdum birdən zalımın qızı üçünü də bəyənər, yox, dedim, baha düşər, xarab eləyər səni, əvvəlcədən belə öyrətsəm, sonra necə çıxaram bunun altından? Özüm göy rəngini seçdim, göndərdim, ismarış elətdirdim ki, bəli, axşam ona qonaq gəlmək istəyirəm. Tək yaşayır, "Monolit"dən bir tin yuxarı... Adresini çoxdan bilirdim, axşam bir yaxşı bağlama düzəltdirdim: – dörd-beş sveji tabaka, içkisi-filan yanında, apelsin, bir dəstə gül – hər şey öz qaydasında... Hə, bir də təzə pomidorla xiyar... Özü də noyabr ayı idi...

Zaur diqqət elədi ki, Nadirin bütün məhəbbət sərgüzəştləri noyabr ayında cərəyan edir və ilin bu vaxtlarında ortaya pomidor, xiyar çıxartmasıyla Nadir xüsusi fəxr edir... Kiməsə yamanca oxşayırdı Nadir, amma kimə, Zaur nə qədər etsə də yadına sala bilmirdi.

Nadirin danışdığı bu əhvalat da əvvəlki əhvalat kimi birdən-birə, gözlənilməz-tələsikliklə qurtardı və Nadir artıq təzə bir əhvalata başladı. Xüsusi kayut götürərək bir aşnasıyla gəmidə Krasnovodska getməsindən danışırdı indi də... Həmin bu aşnası üç dəfə eyni bir üzüyü aldırmışdı Nadirə. Bir dəfə bahalı üzüyü Nadirə göstərib, "bu üzüyü gətiriblər mənimçün, bilmirəm götürüm-götürməyim – demişdi. Nadir: "xoşun gəlirsə, əlbəttə, götür" – demişdi, pulunu çıxarıb vermişdi və ilk dəfə ayrıca kayutda Krasnovodska getmişdilər... Yarım ildən sonra (qadın elə bilib ki, Nadirin yadından çıxıb) aşnası ikinci dəfə həmin üzüyü Nadirə göstərib, eyni sözləri təkrar etmişdi: "bilmirəm götürüm-götürməyim". Nadir dəm imiş, ya da doğrudan da unudubmuş, odur ki, bu səfər də fərqinə varmadan "əlbəttə, götür" – deyib, pul çıxarıb verib və onlar ikinci dəfə Krasnovodska gediblər... Ancaq üç ay sonra yenə də Nadirin dəm vaxtında arvad üçüncü dəfə həmin üzüyü göstərib həmin sözləri deyəndə qan vurub Nadirin təpəsinə: "Yaxşı, ay ləçər, – deyib, – istəyirsən sənin on barmağının onuna da bu cür üzük alıb taxım, amma day mənə paçka basmaq niyə?.. Mən bəyəm hərif-zadam sənincün ki, üçüncü dəfədir həmin üzüyü aldırırsan mənə?"

– Əşi, qadınların işi uzundur, – deyə Nadir sözünü yekunlaşdırdı, – danışmaqla qurtarar bəyəm?

Zaur nə qədər cəhd edirdisə də, bu adamın kimə bənzədiyini təyin edə bilmirdi. Danışıq tərziylə bənzəmirdi, amma nəyiləsə, nəyiyləsə kimisə yaman xatırladırdı... Dayan, dayan... Elə bil nə isə Zaurun beynində durulub aydınlaşmağa başladı, amma Nadir dərhal onu fikirlərindən ayırdı. Zaura müraciətlə:

– Gəlin bunu da içək sizin sağlığınıza, – dedi. – Bağışlayın, siz nə sənət sahibisiniz?

Zaur:

– Nəşriyyatda işləyirəm, – dedi.

Nadir:

– Yaşa, – dedi, – nəşriyyat işçiləri bizim hamımızın fəxrimizdir, başımızın ucalığıdır... Siz bizə mənəvi qida verirsiniz, bizim də borcumuzdu ki, sizə nə cür ki, lazımdır, o cürə hörmət göstərək... Nəşriyyatda kitab buraxırsız da, ya bəlkə səhvim var? Ay sağ ol... Kitab biliyin anasıdır. Kitabsız indi bir addım atmaq olmaz... Mənim atam rəhmətlik, – allah ölənlərivizə rəhmət eləsin, – yaman istəyirdi ki, mən də oxuyub alim olum, nə bilim, kitab yazan olum. Elə əmim də məni görən kimi başlayır, danlamağa ki, bircə sənsən bizim ailənin adını batıran. Axı, doğrudan da, bizim nəsildə hamı oxumuşdur, bircə mənəm belə fərsiz çıxan. Neyləyim, vaxtında ağlım olmayıb, oxuyub başımı bir yana çıxarda bilməmişəm, indi də birtəhər çaq-çuruq eləyirəm də. Bütün qohum-əqrəbam hamısı oxumuşdular, amma bilmirəm, nə məsələdir ki, bu oxumuşlar həftə səkkiz mən doqquz gəlirlər yanıma ki, bəs gərək borc verəsən bizə, puldan korluq çəkirik. – Nadir qəhqəhə çəkib güldü. – Ay Muxtar müəllim, zarafatdır da, dilxoşluqdur da, bala-bala edirik özümüzçün. Amma əmim, doğrudan da, böyük adamdır. Kişi əməlli-başlı alimdir e... Hə, yeri gəlmişkən, elə o da nəşriyyatda işləyir, bəlkəm siz tanımamış olmazsız? Dadaş.

Zaur: "Əlbəttə, Dadaş, – deyə düşündü, – nə cür olub ki, indiyə qədər tapa bilməmişəm bu adamın kimə bənzədiyini? Bu gödək əllər, bu toppuş qısa barmaqlar – bunlar ki, Dadaşınkıyla eynidir".

Zaur sual, yox, təsdiqlə:

– Cabbarov Dadaş, – dedi.

– Tanıyırsız?

Zaur:

– Bir yerdə işləyirik, – dedi və düşündü ki, vəssalam, hər şey gəlib nöqtəsində dayandı. Bütün iplər bir-biriylə bağlanıb düyünləndi. İndi Nadir bir neçə əhvalat da danışacaq və məlum olacaq ki, Təhminəylə də yaxından tanışdır.

Nadir:

– Təsadüfə bax e, – dedi. – Yox, bu məsələnin üstündən belə yüngülvarı keçmək olmaz. Bu məsələni gərək biz əməlli-başlı qeyd edək. Adə, Arif! – deyə çağırdı, – o arağı bəri gətir görüm.

Amma Muxtar:

– Yox, yox, – dedi, – mən daha içən deyiləm, getməliyəm. Tələsirəm. Qalsın başqa səfərə. Amma özünüz bilin, bəlkə Zaurla ikiniz içmək istəyirsiniz. Hər halda, mən gedirəm.

Zaur:

– Yox, dedi, – mən də tələsirəm.

Nadir:

– Yox, siz mənim ürəyimi qırırsız, qoy bir boşqabları təzələsin, bir-iki şiş isti kabab gətirsin, bir balaca araq, dünya dağılmaz, iş qaçmır ki... – amma Muxtar onu dinləmədən yavaşca durdu, "bağışlayın, bir dəqiqə" – deyə harasa çıxdı və bir qədərdən sonra qayıtdı.

– Zaur, gedirsiz? – dedi.

Zaur:

– Bəli, gedirəm, – dedi, ayağa durdu. Nadirə müraciətlə: – Neçə verəcəyik? – deyə xəbər aldı.

Muxtar:

– Çatıb, – dedi.

– Necə? – Nadir yerindən sıçradı. – Adə, Arif, adə, qırışmal, utanmırsan Muxtar müəllimdən pul alırsan?

Arif boynunu büküb:

– Neyləyim, ay Nadir qədəş, – dedi. – Muxtar müəllim dedi ki, almasan, bir də bura ayaq basan deyiləm.

Nadir:

– Muxtar müəllim, yaman sataşırsan a, – dedi, – mən sifariş verirəm, xərci sən niyə çəkirsən? Mən sizi qonaq eləmək istəyirdim.

Muxtar:

– Biz xanım deyilik ki, bizi qonaq edəsən, – deyə gülümsündü. Həm də, – Zaura göz vurdu, – mən Zaurun üsuluyla hərəkət elədim. Bir dəfə Moskvada bax bu sayaq o məni qonaq elədi, mən də borclu qalmaq istəmədim. Nadir, sağ ol, deməli, pivəni gözləyirəm.

Nadir:

– Mütləq, – dedi, amma hiss olunurdu ki, möhkəm pərtdir. Axı nə Muxtara, nə də əmisi Dadaşın iş yoldaşı Zaura səxavətini, əliaçıqlığını lazımınca nümayiş etdirə bilməmişdi.

...Zaurla Muxtar bulvarın adamsız xiyabanlarında addımlayırdılar. Sükutu Muxtar pozdu:

– Siz yəqin təəccüblənərsiz... Mənim bu sayaq – Nadiri deyirəm – bu sayaq adamlarla tanışlığıma təəccüblənirsiniz. Məsələ ondadır ki, məni hər cür, hər növ insanlar maraqlandırır – yaxşısı da, pisi də, ax-

mağı da, ağıllısı da, təmizi də, əyyaşı da... Azarımdır cürbəcür adamlarla görüşmək, təmasda olmaq, sözlərini eşitmək, anlamağa çalışmaq onların düşüncə və həyat tərzini.

Zaur:

– Nə üçün axı? – deyə soruşdu.

Muxtar:

– Nə bilim, – dedi və təkrar etdi, – nə bilim... Amma illər keçdikcə mən özümü də, başqalarını da daha pis anlayıram. Heç başa düşə bilmirəm insanları da, özümü də. Bircə onu bilirəm ki, bu dünyada sual çoxdur, cavab az.

Bulvardan çıxdılar...

Muxtar:

– Taksini hardan tapaq indi? – dedi. – Burada bütün taksilər Bayıl tərəfə gedir.

Zaur:

– Yaxşı, axı demədiz, mənə niyə zəng vurmuşduz.

Muxtar:

– Hə, deyirəm axı, nə isə sözüm qaldı sizə... Məsələ ondadır ki... Aaa, taksi! – deyə çağırdı. – Taksi! Saxla görüm!

Maşın düz onların qabağında dayandı.

Muxtar:

– Bağışlayın, sən allah, – dedi və maşına əyləşdi, – yaman tələsirəm, gecikmişəm daha doğrusu, sabah axşam sizə zəng vuraram, danışarıq. Yaxşı?

Maşın hərəkətə gəldi. Zaur hiss edirdi ki, içkinin ağır dumanı beynini get-gedə daha çox bürüyür. Ağır-ağır evə tərəf addımladı. Təhminənin evinə tərəf...

On üçüncü fəsil

Ah idi həmnəfəsim ah ki, ol həm axır,
Çıxdı ikrah qılıb gülbeyi-ehzanımdan.

Heç vaxt bu pilləkənləri belə ağır bir hisslə belə ağır-ağır qalxmamışdı. Qapının ağzında da xeyli yubandı, cibindən çıxardığı açar heç cür yuvasına düşmürdü.

Axır ki, qapını açdı, mənzilə girdi. Təhminə evdəydi. Zaur keçib əllərini yudu, bir xeyli də orda yubandı. Sonra otağa keçib kürsüdə əyləşdi. Təhminə də qarşıdakı kürsüdə oturmuşdu, siqaret çəkirdi.

– Nahar eləmirsən? – deyə soruşdu.

Zaur:

– Yox, yemişəm, – dedi, o da siqaret çıxarıb odladı... Hər ikisi dinib danışmadan siqaret çəkirdi, heç biri söhbəti açmaq istəmirdi və hər ikisi bilirdi ki, gec-tez mütləq söz açılmalıdır.

Nəhayət, Zaur qərara gəldi:

– Dünən Dadaşlaydın? – deyə xəbər aldı.

Təhminə başıyla təsdiq elədi:

– Elçi göndərmişdilər yanıma Dadaşı, – dedi. – Sənin valideynlərin... Sövdalaşmaqçün. Demoli, mən səni onlara qaytarıram, əvəzində onlar məni rahat buraxırlar, daha qulağımı dəng eləmirlər.

Zaur:

– Əcəbdir, – dedi. – Mən demək elə-belə cansız bir əşyayam, dəyişdüyüş edirsiz.

– Bu sənin özündən asılıdır. – Zaura elə gəldi ki, bu sözlərlə Təhminə yenə də onun zəif damarını tutmaq istəyir. Axı çox gözəl bilirdi ki, Zaurun söyər yeri məhz budur – onun müstəqilliyinin, sərbəstliyinin şübhə altına alınması: indi beyni içki dumanı içində olarkən Təhminənin niyyəti ona daha dəqiq və aydın görünürdü.

Təhminə:

– Hər halda, – dedi, – mən səni zorla tutub saxlamaq fikrində deyiləm. Mənim evimə özün öz ayağınla gəlmisən, haçan kefin istəsə, özün öz ayağınla çıxıb getməyə də ixtiyarın var.

– Ehtiras bitib-tükəndi? – Zaur kinayəylə Dadaşın sözlərini təkrar elədi.

Təhminə əsəbi bir tərzdə:

– Ehtirasın bura nə dəxli var? – dedi. Dünya tək bir ehtiras üzərində qurulmayıb ki.

"Dadaşın fikirləridir büsbütün".

– Bircə şey mənə aydın deyil, – dedi Zaur. Niyə sən bizim ikimizə aid olan məsələləri Dadaşla müzakirə eləmolison? Dadaş sənin nəyindir – əmindir, atandır, nəyindir, hə?

Təhminə kədərlə:

– Mənim nə atam var, dedi, – nə də anam. O sənson, maşallah, atan da var, anan da.

Zaur əllərilə saçlarını qarışdırdı, sonra üzünü, gözlərini ovuşdurmağa başladı.

– Axı niyə məhz Dadaşla danışırsan bizim işlərimiz haqqında?

– Dedim də sənə, bu anavın təşəbbüsüdür. Tək Dadaş olsaydı, dərd yarıydı. Haradansa Muxtara da tanış tapıblar. O da dünən axşam bu məsələyçün axtarırmış məni.

Bu xəbər gözlənilməz olmadı Zaurçün. Bayaq Muxtar deyəndə ki, səninlə sözüm var, Zaurun ürəyinə dammışdı. Axı ayrı nə sözü ola bilərdi ki, Muxtarın Zaurla?

– Hətta, Mədinəyə də zəng vurubmuş.

– Mədinəyə?

Təhminə:

– Bəli, – dedi, sonra rişxəndlə əlavə etdi, – amma Mədinəyə zəng cləməyi yaxşı olub. Mədinə onun cavabını yaxşı verib. Büküb abrını ətəyinə... Mədinəni tanımır hələ anan... dilinə bələd deyil, Mədinə doqquz qoyar ona söyüş söyməkdə.

– Mədinənin nə həddi var ki, mənim anama söyüş söysün? – Zaur hiss edirdi ki, bütün əsəbləri gərilib, hirsindən əsirdi və hiss edirdi ki, bu gərginlik Təhminəyə də yoluxur. Ya bəlkə əksinə, Təhminənin hirsi, hiddəti, əsəb gərginliyi Zaura təsir edirdi.

Təhminə:

– Bəs sənin ananın nə həddi var ki, Mədinəni aradüzəldən yengə adlandırır? Həyasızlığa bax sən allah... Nə var, nə var Mədinənin əri yoxdu. Əri yoxdursa, ona ağzından gələni demək olar? Nə olub, Mədinənin nəyi əskikdir ondan, öz əlinin zəhmətiylə dolanır, balasını saxlayır... Heç mən bilmirdim, demə sənin anan da cavanlıqda elə Mədinə kimi makinaçı işləyirmiş, intəhası ananın bəxti gətirdi, mötəbər adama ərə getdi, amma Mədinəninki gətirməyib də.

Sus, kəs səsini, – dedi Zaur, – anam barəsində artıq-əskik danışma, – o az qala qışqırırdı.

– Bəs nə haqla anan Mədinəni təhqir edir, kim verib bu haqqı ona? – Təhminə də qışqırırdı. Əsəbdən əsim-əsim əsirdi... – aradüzəldən yengə.

Zaur:

Düz deyib anam, sənin Mədinən elə aradüzəldən yengədir ki, var.

Heç bir vaxt Təhminəni bu sifətdə görməmişdi; elə bil üzü əyildi Təhminənin.

– Deməli, belə. Aradüzəldən... mən də, deməli, onun kadrıyam da.

– Mən belə söz demədim.

– Nə olsun demədin? Fikrində ki, tutmusan. Həmişə fikrində bunu tutmusan. Əlaqəmizin ilk günündən mənim haqqımda belə düşünmüsən. Fahişə hesab eləmisən məni. Elə ona görə də mənə yaxınlaşmaq fikrinə düşmüsən də. Fikirləşmisən ki, nə var, yüngül, ayağısürüşkənin birisidir də... Sonralar ən xoşbəxt günlərimizdə də bu fikir içini gəmirib, həmişə-həmişə şübhələnmisən məndən. Xəyanət, etibarsızlıq gözləmisən məndən. Ürəyinin dibində məni əxlaqsız qadın hesab eləmisən həmişə. Elə indi də bu fikir səni rahat qoymur. Ona görə ki, sən südəmər uşaqsan, kişi deyilsən hələ.

Zaur içindəki bütün zəhəri dilindən tökərək:

– Əlbəttə, kişi Dadaşdır, Spartakdır, qəssab Fazildir, – dedi, – sənin aləmində...

– Kişi məlakəni fahişə edən deyil, fahişəni məlakə edəndir.

Zaur:

– Düz deyirsən, mən bunu bacarmadım dedi.

Təhminə ağappaq ağardı və:

– Dur, çıx get burdan, – dedi. – Yüyür get anavın yanına, "Moskviç"ivin yanına. Alçaq.

Zaur özü də bilmədi ki, necə oldu, birdən-birə şillə çəkdi Təhminəyə. Təhminə əlləriylə üzünü örtüb yerindən sıçradı, qaçıb otaqdan çıxdı. Zaur da ayağa durdu, dəhlizə çıxdı. Yavaş-yavaş çöl qapısına tərəf addımladı, sonra otağa qayıtdı, cibindən qapının açarını çıxardıb, dolabçanın üstünə qoydu. Yenidən dəhlizə çıxanda qeyri-ixtiyari mətbəxə tərəf baxdı: Təhminə mətbəx masasının arxasında hərəkətsiz oturmuşdu, əlləriylə sifətini örtmüşdü.

Zaur qapını çırpıb çıxdı...

***

Unutmaq olmaz axı, unutmaq olmaz axı, unutmaq olmaz axı ki, bu ancaq oyundur... Yeniyetməlik çağlarında, qadınlar dünyasına qədəm qoyduğu ilk aylardan, illərdən bunu dərk eləmişdi, bilmişdi, öz-özünə tövsiyə vermişdi axı. Ciddi, ya qeyri-ciddi, qısa, ya uzun müddətli, təsadüfi, keçəri, yaxud əsaslı, davamlı əlaqələrinin heç birində Zaur bu dərsi, bu qanunu unutmurdu... bəs necə oldu ki, o, kişi çağında bu vacib həyat təcrübəsini unutdu birdən-birə? Niyə imkan verdi ki, cilovsuz bir duyğu varlığına hakim kəsilsin, iradəsini buxovlasın, ona bu qədər ağrı və acı gətirsin. Unutmamalıydı, bütün bunların yalnız oyun,

əyləncə, ötəri xoş münasibətlər olduğunu unutmamalıydı bir an da. Unutdu və indi budur – cəzasını çəkir... necə oldu ki, bu cür aldandı, necə oldu ki, oyunun qanunlarını pozdu və bu oyunu məhəbbət bildi? Məhəbbət bilən kimi də oyun amansızlaşdı, əyləncə yox, işgəncəyə çevrildi... Elə bilirdin ki, möcüzə baş verib? Sevgi filan... ancaq kitablarda və kinolarda olur bu, ya da həyatda olursa, yalnız 17-18, ən uzağı 19 yaşında, vəssalam. Sən isə 24 yaşında bu cür aldandın... Öz yaşının acı, amma vacib dərslərini necə unutdun ki, belə tələyə düşdün, ay biçarə?

Beynində qaynayıb pırtlaşan fikirlərlə şəhərin küçələrini dolaşa-dolaşa adamsız qaranlıq dalanlara gəlib çıxdı. Burada şəhər evləri qurtarırdı, çöllük başlanırdı...

On dördüncü fəsil

Məhrəm qoyub önərmə sinəmdə qanlı dağı,
Söndürmə öz əlinlə yandırdığın çırağı.

Əvvəl elə bildi ki, öz "Moskviç"ini sürür, sonra birdən başa düşdü ki, yox öz maşını, həm də "Moskviç" deyil bu maşın, çəhrayı "Volqa"dır. "Volqa"nın sükanı arxasında idi Zaur, özü də lüt idi, – bircə mayka vardı əynində, amma maşını geniş və izdihamlı küçəylə sürürdü. Əvvəl ona elə gəldi ki, bu küçə Moskvadakı Leninqrad prospektidir, sonra gördü ki, yox, Bakıdakı Nərimanov prospektiylə sürür... Tindən milislər çıxdılar, işarə elədilər ki, Zaur saxlasın maşını. Zaur saxlamadı, saxlaya da bilməzdi, axı özgənin maşınını qaçırtmışdı – bu bir, maşın sürmək vəsiqəsini götürməmişdi – bu iki, lüt idi, heç trusiki də yox idi əynində, bircə mayka vardı və maykayla birtəhər örtünmək istəyirdi – bu üç, həm də dəm idi, – bu da dörd – kababxanada "Ekstra" arağı və çex pivəsi içmişdi, bütün bunlarla bərabər küçənin tərs istiqamətində sürürdü, bu da beş, bu da altı, yeddi, səkkiz, kimsə elə bil onun başının üstündə sayırdı və Zaur başa düşürdü ki, yuxudadır, amma ona elə gəlirdi ki, bunu başa düşəndən sonra ayılıb yuxudan və yuxuda yox, doğrudan doğruya, real gerçəklikdə maşın sürür, sükan arxasındadır, əynində də tək bircə maykası var və dəhşətlə onu da duyurdu ki, tək deyil, maşının içində kimsə başqa bir nəfər də var – haçan mindirmişdi bu adamı, yadına gəlmir, yox, heç kəsi mindirməmişdi, amma maşının arxa kürsüsündə kimsə vardı və Zaur çevrilib o sərnişinə baxmasa da, onu görməsə də, nəfəsindən kim olduğunu bilirdi – Təhminə oturmuşdu arxada. Milislər iki motosikldə Zaurun maşınını qovurdular, amma dünya dağılsa da Zaur onların təqibindən qaçıb qurtarmalıydı, çünki ələ keçsəydi biabırçılıq olardı, professor oğlu özgənin maşınını qaçırdıb, həm də kimin maşınını – öz qonşusu Spartakın maşınını?.. Özü də təsəvvür edirsiz, şəhərin içində, günün günorta çağı sükan dalında lüt əlcəbala oturub, bu da kifayət deyilmiş, maşınına yad bir arvadı da mindirib, başqa bir kişinin arvadını – axı Təhminə Dadaşın arvadı idi. Bir az qabaq da məhkəmədə keçmiş əri Muxtardan boşanmış, Dadaşa ərə getmişdi, amma Dadaş da ikiləşirdi, kimsə başqa bir adam da vardı, eynilə Dadaşa oxşayan, onun kimi potaboy, yekəqarın, burnu ziyilli və əlləri də eynilə Dadaşın əlləri kimi gödək, barmaqları da beləcə qısa və toppuş; amma bu adam Dadaş deyildi, onun ikiləşmiş surəti idi. Kim idi bu adam, kim idisə noyabrda pomidor və xiyar yeyirdi, indi də həmin adam tüfəngini Zaurun peysərinə tuşlamışdı, gözləyirdi ki, maşın sürətini bir azca yavaşıtsın və o zaman tətiyi çəkəcəkdi bu adam – bu ikinci Dadaş. Zaur bunu duyduğu üçün sürəti daha da artırırdı, nəhayət, qazı axıracan basdı. Ayağı möhkəm metal səddə dirəndi – sonuncu sürətə çatmışdı, bundan tez gedə bilməzdi maşın... və əksinə sürət get-gedə azalmağa başladı və bu zaman arxadan tüfəng atmağa başladılar. Atan milis paltarı geymiş iki Dadaş idi, amma qəribədir, tüfənglərinin patronları qırmayla deyil, toxumla doldurulmuşdu və Təhminə dedi ki, bu gül toxumlarıdır. Bu zaman qarşı tərəfdən də onlara sarı motosikletlər gəlməyə başladı – hamı burdaydı – Spartak da, atası Murtuz da, Mədinə də, Muxtar da...

Birdən Təhminə arxadan Zaurun boynunu qucaqladı, daha doğrusu qollarını uzun şərf kimi Zaurun boğazına doladı, Zauru boğmağa başladı. Zaur xilas olmaq üçün əllərini sükandan ayırdı. Təhminənin qollarını boğazından qoparmağa çalışdı. Təhminə isə həmin andaca sükandan yapışdı və kəskin hərəkətlə sükanı sola burdu, maşın sola döndü və hər ikisi gördülər ki, yolun sol kənarında dibi görünməyən bir uçurum var və maşın da düz bu uçuruma tərəf gedir...

– Nə olub, a kişi, nə qışqırırsan. – Zaur bu səsə və birdən otağı bürümüş işığa ayıldı. Qapıda Azər Mərdanov dayanmışdı. Azərin əynində zolaq-zolaq pijama vardı. Azər təbəssümlə:

– Nə yaman qışqırırsan. Qara basırdı səni? – dedi.

Zaur:

– Qışqırırdım? – deyə xəbər aldı.

– Bilirsən necə? O biri otaqda eşidib durdum.

Zaurun çarpayısının baş tərəfində pəncərə vardı və pəncərəyə damcı-damcı yağış yağırdı...

Zaur:

– Bağışla, səni də yuxudan elədim, – dedi və əlini uzadıb siqaret götürdü.

Azər işığı keçirib öz otağına keçdi. Zaur siqaretini odladı...

Dünən küçələri dolaşa-dolaşa gəlib bura – köhnə universitet yoldaşı Azər Mərdanovun mənzilinə çıxmışdı. Xoş bir təsadüfdən Azər bu axşam ekspedisiyada deyildi, Bakıdaydı. Zaurun macəralarından bixəbər idi Azər, Zaur da heç nə danışmadı ona. Bircə onu dedi ki, müəyyən səbəblərə görə bir neçə gün Azərgildə qalmaq istəyir, əlbəttə, əgər mümkündürsə, Azəri narahat eləməzsə...

Azər:

– Nə narahatçılıq, canım, nə danışırsan, istəyirsən lap bir il qal, – dedi. – Onsuz da üç gündən sonra ekspedisiyaya gedirəm.

Bəlkə də Zaur bura təsadüfən gəlib çıxmamışdı. Azərin subay həyatından da xəbərdar idi, qonaqpərvərliyindən də, amma bəlkə bura gəlməyinin əsas səbəbi Azərin köməyilə ekspedisiyaya düzəlmək arzusuydu. Axşam bu barədə xeyli danışdılar. Azər: "Mən bir İdrislə məsləhətləşərəm, – dedi, – görüm nə deyir. – İdris universitetdə onların müəllimi olmuşdu, tanınmış geoloq idi. Azərin işlədiyi ekspedisiyaya hamilik edirdi. Azər: "Yəqin ki, İdris səni yaddan çıxartmayıb, – dedi, – mənə elə gəlir ki, düzəltmək olar bu işi. Hər halda mən imkan düşən kimi danışaram".

"Sadıllı" çaxırı içir, Azərin bişirdiyi qayğanağı yeyir və dünyada hər şeydən danışırdılar. – Azərin çalışdığı ekspedisiyadan, ümumən geologiyadan, universitet illərindən, köhnə yoldaşlarından, dünya futbol çempionatından, qadınlardan, ailə qurmağın vacibliyindən, oğul-uşaq atası olmağın ləzzətindən, daha nə bilim nədən və Zaur bircə kəlmə də həyatının son aylarındakı hadisələrdən söz açmadı. Guya olmamışdı da heç bütün bu bəlalar...

***

Zaur Dadaşdan ərizəsini götürərək:

Mən sizin xahişinizə əməl elədim, – dedi. – Üç gün keçdi, bu gün bazar ertəsidir, bu gün ərizəmi direktora vermək istəyirəm:

Dadaş:

– Demək, hər halda, çıxmaq istəyirsən burdan? – dedi. Bəs harda işləyəcəyini necə, fikirləşmisən?

– Fikirləşmişəm, narahat olmayın. Geoloji ekspedisiyaya götürürlər məni.

Dadaş uzun zaman dinmədi, zənlə Zaura baxdı:

– Yaxşı, atangilə necə izah eləyim mən bu xəbəri?

Zaur:

– İzah eləmək lazım deyil, – dedi. – Bu axşam özüm atama deyəcəm, hər şeyi özüm deyərəm ona.

***

Hətta futbol oynayan uşaqlar da onu görüb dayandılar və ən balacası oyundan ayrılıb yuxarı, evlərinə qaçdı ki, bu təzə xəbəri çatdırsın... Zaur tamam sakit idi. Həyətlərindən, futbol oynayan uşaqların arasından keçdi, pilləkənlərlə yavaş-yavaş qalxmağa başladı. Artıq xəbər yayılmışdı və qonşular müxtəlif pəncərələrdən oğrun-oğrun baxırdılar. Zaura elə gəldi ki, hətta Murtuzovların pəncərəsində Murtuz Balayeviçin şəxsən öz daz başı da göründü.

Mis lövhə üstündə "Professor M. Zeynallı" yazılmış qapıya yanaşdı. Zəngi basanda tamam sakit idi, amma qapının ardından tələsik addımları – anasının addımlarını eşidəndə öz ürəyinin döyüntülərini də eşitməyə başladı.

Qapı açıldı, anasını gördü, dərhal da başa düşdü ki, bu gəlişi qəfil deyil anası üçün: "Dadaş agah edib" – deyə ağlından keçirdi:

– Xoş gördük, ana! – dedi.

Anası da sakitcə:

– Xoş gördük, – dedi və əlavə etdi, – gəlsənə içəri, – və bircə bu cümlədən məlum oldu ki, didərgin oğul neçə müddətdən sonra doğma ocağının başına qayıdıb. Çünki axı daimi yaşayan adamı içəri xüsusi dəvət eləməyə nə hacət? Dəhlizə girdi. Paltosunu çıxara– çıxara anasının davranışına təəccüblənirdi – nə "ah-of" eləmişdi anası, nə qışqırmış, nə ağlamış, nə onu tənbeh etmiş, nə də bağrına basıb sevinmişdi. Çox adi və sadə görüş idi bu, elə bil heç nə olmamışdı.

Zaur:

– Atam necədir? – dedi. Anası:

– İndi babatdır, – dedi. Sonra əlavə etdi. – Yaman qorxuzmuşdu bizi, təzyiqi qalxmışdı, ürəyi də incidirdi.

Zaur atasının otağına daxil oldu. Məcid stolunun arxasında oturub işləyirdi. Zauru görüb ayağa qalxdı, əl uzatdı.

Sonra hər ikisi oturdu və Zivər xanım getdi çay dəmləməyə.

Sükutu Zaur pozdu:

– Necəsən?

Məcid uzun-uzadı, durğu işarələri işlətmədən, xəstəliyindən, həkimlərin konsiliumundan, təyin etdiyi dərmanlardan danışırdı və hər ikisi başa düşürdü ki, bu müfəssəl söhbətin əsas məqsədi aralarındakı yabançılığı dəf etmək, keçmiş məhrəmliyi yenidən bərpa etmək üçündür – bütün bunlar üçün isə vaxt, müəyyən muddət lazım idi – hər hansı danışıqlarla, kənar, əsil mətləbə dəxli olmayan söhbətlərlə doldurulmalıydı aralarındakı bu vaxt uçurumu, zaman yarğanı.

Zivər xanım otağa qayıtdı, gözləri qıpqırmızı idi, amma üzü gülürdü. Zivər xanımın armudu stəkanlarda gətirdiyi çaydan qurtum-qurtum içir və üçü bir yerdə Məcidin xəstəliyindən danışırdılar. Zivər xanım arabir ötəri replikalarla Zaura ailələrindəki son xəbərlərdən məlumat verirdi, gəlib-gedəndən danışırdı, kim zəng eləyib, kim soruşub, kimdən məktub gəlib, sözarası Zaurun kooperativ mənzilinin hazır olduğunu da eşitdirdi oğluna və dedi ki, bu günlərdə ev təhvil veriləcək. Orderlər hazırdır, bir nəfər öz gözüylə görüb.

Atası görünür yorulmuşdu bu söhbətdən, gərginlikdən və tez-tez masası tərəfə, açıq qalmış kitablara, kağızlara tərəf baxırdı. Zaur ayağa qalxdı, atasıyla görüşmədən o biri otağa keçdi. Zivər xanım onun dalınca gəldi və bu an Zaur anasının gözlərində qorxu, təlaş oxudu. Bu təlaş vəziyyətin qeyri-müəyyənliyiylə, Zaurun gəlişinin aydın olmayan məqsədiylə bağlı idi. Atası da, Zivər xanım da bilmirdi ki, Zaur necə gəlib – birsaatlığa, ikisaatlığa xəstə atasına baş çəkməyə, ya həmişəlik... Təhminəylə biryolluq əlaqəni kəsib evlərinə qayıdıb, ya qısa bir müddətə rüsxət alıb, bədbəxt ata-anasını yoluxmağa gəlib? Və odur ki, Zivər xanım diqqətlə oğlunun hərəkətlərini izləyirdi – hara, hayana gedəcək, çöl qapısına tərəfmi, öz otağına tərəfmi, ya da bəlkə elə bu otaqda oturacaq, yeməyə bir şey istəyəcək... Zaur divarlara göz gəzdirdi, elə bil ilk dəfəydi görürdü bu oboyları.

Sükut üzücü, dözülməz idi. Zivər xanımın hövsələsi çatmadı:

– Yerini dəyişmişəm, – dedi. – Çiməcəksən?

Zaur da yalnız bu suala deyil, verilməmiş, amma nəzərdə tutulmuş başqa suala cavab olaraq:

– Hə, – dedi.

***

Çiləyin isti iynələrindən sonra, dabandaşının təmasından sonra, köpüklü şampunların mülayim tumarlarından sonra tərtəmiz, ağappaq yatağa uzanmaq, tanış otağın doğma divarlarına – hər qarışı, hər çapığı, hər məftili, xətti, ləkəsi tanış olan divarlara baxmaq nə qədər xoş idi. Divarlara haçansa Zaurun özünün çəkdiyi fotoşəkillər vurulmuşdu, çarpayısının yanında, gecə dolabçasının üstünə siqaret qutusu, alışqan, külqabı, yapon tranzistoru və maqnitofon qoyulmuşdu, yerindən durmadan ancaq əlini uzadaraq musiqi dinləyə bilər, siqaret çəkər, fikir-xəyallara dala bilərdi. Cürbəcür cihazların dəlisiydi, səsyazan aparatlarla saatlarla əlləşməyi, fotoqrafiyayla məşğul olmağı sevərdi. Sonra – maşın sürməyə başlayandan sonra – bu həvəsləri kölgədə qaldı, çoxundan vaz keçdi. Əsas marağı, həvəsi maşın motoruyla əlləşmək oldu. Bu həvəsin sayəsində idmanı da unutmuşdu tamam, qantellər, espanderlər otağın bir küncündə atılıb qalmışdı. Amma nahaq yerə – idmanı boşlamaq olmaz – yaşı da elə yaşdır ki, idmanla ardıcıl məşğul olmasa, bir də görürsən, Dadaş kimi göbək bağladı.

Dadaşın adı beyindən keçən kimi, dərhal telefon səsləndi və Zaur diksindi bu zəngdən. Amma o saatca da düşündü ki, daha hər telefon zəngindən diksinməyə, təlaş keçirməyə səbəb yoxdur: nə Təhminəni çağıran kişi səsləri eşidəcəkdi dəstəkdən, nə anasının Təhminəyə aid olan hədələrini, söyüşlərini heç kəs onun "allo"suna cavab olaraq dəstəyi şırpadan asmayacaqdı daha.

Dəstəyi götürdü:

– Bəli.

– Zaur?!

– Bəli. – Mədinənin səsini tanımışdı.

– Danışa bilərsiz, ya bəlkə çıxıb avtomatdan zəng vurasız mənə.

Yox niyə ki, lap rahat danışa bilərəm, buyurun, – soyuq bir nəzakətlə deyirdi bu sözləri.

– Üç gündür sizi axtarıram, tapa bilmirəm, nə işdə, nə evinizdə.

– Nədir ki, nə olub?

– Bilmirəm, Zaur, – o həyəcanlı idi, – bilmirəm telefonla bu barədə danışmaq olarmı. Telefonunuz paralel deyil ki?

– Yox.

– Bilirsiz... Təhminənin halı yaman xarabdır.

– Niyə, nə olub ki?

– Necə nə olub? Tamam halı özündə deyil yazığın... Əlbəttə, bilmir ki, mən sizə zəng vurmuşam, yoxsa qoymazdı, amma siz gedəndən bəri dəli-divanə kimidir. Qorxuram ki, lap özünə bir şey eləyər.

– Siz nə danışırsız? – Zaurun tonunda istehza var idi, halbuki qəsdən deyildi bu istehza, öz-özündən rişxənd, kinayə kimi alındı.

– Dünən gecənin bir aləmində oyandım – bilmərəm üç idi, dörd idi, neçəydi – gördüm işığı yanır. Həm də musiqi eşidilir. Təəccüb qaldım. Durub keçdim yanına, gördüm oturub divanın üstündə, əlləriylə dizlərini qucaqlayıb, musiqiyə qulaq asır və içir... Bir şüşə konyakı təkbaşına içib.

– Daha niyə nigaran qalırsız ki, – dedi Zaur, – bundan da yaxşı kef olar?

Mədinə səbirsizliklə:

– Eh, ay Zaur, – dedi, – Niyə özünüzü bilməməzliyə qoyursuz? Başa düşmürsüz ki, halı çox pisdir Təhminənin, mənə deyirdi ki, özümü öldürmək istəyirəm.

Zaur susmuşdu.

– Niyə başa düşmürsüz axı? Sevir e sizi. Hamıdan çox sizi sevir...

Zaur:

Bəli, "hamıdan çox" – deyə təkrar elədi, – elə iş də bundadı ki, "hamıdan"... "hamıdadır" elə iş...

Mədinə bu sözləri qulaqardına vurdu.

– Bilmirsiz ki, əriylə də sizdən ötrü ayrıldı?

Zaur:

– Əşi, boşlayın görək, – dedi. Təzədən bütün bunlara qayıtmaq istəmirdi, amma tam arxayınlaşmaq üçün Təhminənin başında heç bir fəlakət olmadığını da bilməliydi. Əlbəttə ki, Mədinə hər şeyi şişirdir. Ayrılıqlarının ilk günləri Zaurun da az qala bağrı çatlayacaqdı, amma bax bir neçə gün keçdi, yavaş-yavaş sakitləşib, toxtayıb.

Mədinə:

– Sabah axşam bizə gəlin, – dedi. – Təhminəgilə yox e, bizə, mənim mənzilimə. Bir oturaq, ağıllı-başlı danışaq. Burda nə isə bir anlaşılmazlıq olub, vallah, kimsə girib aranıza... Yaman yazığım gəlir qıza...

Zaur:

– Yaxşı, – dedi. – Gecəniz xeyrə qalsın.

– Gecəniz xeyrə qalsın. Amma məbadə deyəsiz mənim zəng elədiyimi.

Bəli, buyurun görək... Evə qayıtdığı ilk axşam, rahat keçirmək istədiyi ilk axşamı da burnundan tökdülər. Axı qəti söz vermişdi özünə

– bütün olan-keçənləri biryolluq kəsib atsın, yenə təzədənmi başlanmalıdır hər şey? Əlbəttə, sabah Mədinəgilə gedib-eləyən deyil... Zaur siqaret yandırdı, ayrı şeylər barəsində düşünmək istədi, amma nə qədər cəhd etsə də bacarmadı. Təhminə gəlib dururdu gözlərinin qarşısında. Otağı, divanı. Təhminə də əlləriylə dizlərindən tutub oturub divanın üstündə, musiqi dinləyir, konyak içir və xısın-xısın ağlayır. Bəlkə götürüm zəng eləyim ona? Telefon budur bax, əlimin altındadır, dəstəyi götürüb altıca rəqəmi yığmaq, vəssalam. Zəng vurub danışım. Ya heç danışmayım, zəng vurum səsini eşidim, asım. Bəs birdən telefonu cavab vermədi?.. Birdən yoxdur evdə?.. Bu gün bazar ertəsidir, işləmir, evdə olmalıdır. Bəs birdən olmadı evdə?.. Evdə deyilsə, hardadır bu vaxt? Deməli, yenə bu barədə - Təhminənin harada olması barədə düşünəcək, deməli, yenə də biganə deyil buna, yenə də həyəcanlanacaq. Yaxşısı budur heç zəng vurmayım. Sabah zəng vuraram... Doğrudan da sabah zəng vurmaq olar... Elə bil bu fikirdən yüngülləşdi Zaurun ürəyi, ürəyindən asılmış daş qırılıb düşdü sanki. Sabah hökmən zəng vurar – bu fikirdən elə sevindi ki, sanasan itirdiyi, bir də görüşəcəyinə heç bir ümid bəsləmədiyi bir adama təsadüfən yenidən rast gəlib... Sabah zəng eləyər – yarıciddi, yarızarafat üzrxahlıq eləyər – hər halda o şilləni nahaq vurdu – bəli, zarafata salıb üzrxahlıq eləyər, sonra görüşməyi təklif edər. Əgər Təhminə ayrılmaqlarını, doğrudan da, ürəyinə salıbsa, doğrudan da iztirab çəkirsə bu ayrılıqdan, onda mütləq razılaşacaq, görüşəcəklər... Ümumiyyətlə, gələcəkdə də tez-tez görüşə bilərlər – amma indi daha tamam başqa cür – Zaur daha ayıq olar, bir də tələyə düşməz. Yazıq valideynlərini də incitməsin daha gərək... Sinləri də o sinn deyil, səhhətləri də... Zaur bundan sonra gərək tam ayıq başla davransın. Ayrılmağımızı istəmirsən, görüşmək istəyirsən, çox yaxşı, mən də razı, amma daha gərək hər görüşümüz gizli olsun, aləmə car çəkməyək. Həm də hər ikimiz dəqiq bilək ki, bu görüşlərin məhəbbətə-filana dəxli yoxdur, qadınla kişinin, erkəklə dişinin cinsi görüşləridir bu, vəssalam, şüttəmam... Və belə olan surətdə Zaurun nə borcuna Təhminəyə kim zəng vurur, kim vurmur, işdə olmayanda hardadır, harda deyil? Bir sözlə, onların münasibətləri ilk vaxtlarda, ilk görüşlərində necəydisə elə davam eləməlidir – nə məhəbbət gərəkdir Zaura, nə sədaqət. Yalnız elə-belə xoş görüşlər. Təhminə də buna razıdırsa, çox əcəb, görüşərlər, razı deyilsə... Nə deyib razı olmayacaq. Mədinə demirdi ki, ölüb əldən gedir?.. Səhər işdədir,

axşam tərəfi zəng vuraram. Deməli, sabah zəng vuracam... Bu xoş fikirlə Zaur yuxuya getdi.

Səhər ertədən oyandı, əl-üzünü yudu, mətbəxə keçdi. Zivər xanım oğluna çay tökəndə.

– Bilirsən ki, atan sənə hədiyyə alıb? – dedi. – Əhd eləmişdi ki, sən evə qayıdan gün versin, amma deyəsən, utanır. Mənə deyir ki, sən de.

Zivər xanım balaca açarı Zaura uzadaraq:

– Get, bax, – dedi. – Qarajdadır.

Yüyürə-yüyürə qaraja tərəf gedərkən Zaurun ürəyi nanə yarpağı kimi əsirdi, yox, yanılmamışdı, qarajda köhnə "Moskviç"in yerində par-par parıldayan təzə "Volqa" dayanmışdı.

***

Nahar vaxtı atasıyla bir azca çaxır içdilər. Məcid bircə qurtum aldı, sağlıqsız-filansız qədəhini Zaurun qədəhinə toxundurdu və Zaur başa düşdü ki, atası onun evə qayıtmasının şərəfinə qaldırır bu badəni. Sonra atasının tezliklə sağalması şərəfinə içdilər. Zivər xanımın sağlığına içdilər ki, belə dadlı-ləzzətli plov bişirib. Hətta kooperativ mənzilin şərəfinə də badə qaldırdılar.

Sonra atası öz otağına keçdi. Zaur da dedi ki, istəyirəm bir maşını havaya çıxardım.

Anası tələşlə:

– Axı içmisən? – dedi.

– Əh, nə içmişəm ki, iki-üç rumka yüngül çaxır da içməkdir? Tez qayıdacam.

On beşinci fəsil

Qeyr ilə hər dəm nədir seyri-gülüstan etdiyin?
Bəzm urub, xəlvət qılıb, yüz lütfü ehsan etdiyin?
Əhd bünyadin mürüvvətdirmi viran etdiyin,
Hanı, ey zalım, bizimlə əhdü-peyman etdiyin?

Cürümümüz noldu ki, bizdən eylədin bizarlıq?
Biz qəmin çəkdik, sən etdin özgəyə qəmxarlıq.
Sizdə adət bumudur? Böylə olurmu yarlıq?
Hanı, ey zalım, bizimlə əhdü-peyman etdiyin?!

Birdən-birə arıqlamış adam köhnə pencəyinin genliyini duyan təkin Zaur da sürdüyü maşının dəyişmiş ölçülərini hiss edirdi. Qarajdan həmişəki kimi "Moskviç"i deyil, təzə "Volqa"nı çıxararkən, maşının böyürləriylə qarajın qapısı arasındakı məsafəni elə ölçüb-biçməliydi ki, par-par parıldayan maşınını cızmasın. Odur ki, sol tərəfdən – sükan tərəfdən az, o biri tərəfdən isə çox məsafə saxlayırdı. Qarajın qapısı, doğrudan da, "Volqa" üçün bir az darısqal idi, metal çərçivəyə sürtülüb cızıla bilərdi maşın, amma bir yandan baxanda "Volqa" qarajın içinə elə bu qapıdan girmişdi də, özü də cızılıb-eləməmişdi. Görəsən kim salıb onu qaraja? Birdən ağlına gəldi: Spartak. Əlbəttə, Spartak. Axı anası deyirdi ki, Spartak köhnə "Moskviç"i satmağa (təbii ki, öz qiymətinə, mağaza vasitəsilə) kömək eləmişdi atasına. "Volqa"nı da gedib Spartakla birlikdə seçmişdi atası. Maşını həyətlərinə Spartak sürüb gətirmişdi, qaraja salmışdı, nömrə almaqda da fəal iştirak etmişdi.

Zaur şəhər küçələrini bir-bir keçdikcə böyük və güclü maşına getgedə daha çox alışır, hətta, isnişirdi. Doğrudur, hələ tam ram etməmişdi bu maşını, "Moskviç"in vərdişi hələ hakim idi əllərinə, ayaqlarına. "Moskviç"dəki pedallara, sükanlara bənzəyən pedalları, sükanları "Moskviç"ə vərdişli ayaqları, əlləriylə idarə edirdi, amma eyni hərəkətlərdən daha sürətli, daha güclü nəticələr alınırdı. Zaur onu da bilirdi ki, qısa müddətdən sonra bu maşınına da tamamilə məhrəm olacaq, onun hər sirrinə, xususiyyətlərinə, hər cür cəhətinə bələd olacaq və gələcək həyatının ən böyük sevinclərі də məhz bu "Volqa"yla bağlı olacaqdı.

"Moskviç"i sürərkən ona bu qədər tanış görünən küçələr indi elə bil birdən-birə darısqal və qısa olmuşdu və Zaur bilmirdi: bu tinə çəpəki, kəsə yolla burulsa "Volqa"nın quyruğu səkidəki qəzet köşkünə ilişməz ki görəsən? Şəhər küçələrinin, döngələrinin, dalanlarının torundan qurtulmağa can atırmış kimi, bivec piyadaların, xam sürücülərin, qırmızı işıqforların, qadağan işarələrinin hökmündən xilas olmağa çalışaraq maşını şəhər civarına tərəf yönəltdi. Get-gedə maşını daha çox öz iradəsinə tabe etdiyini böyük şövqlə duyur və açıqlığa, gediş-gəliş az olan geniş yollara çıxdıqca sürəti hey artırır, başqa maşınları bir-birinin ardınca ötüb keçirdi. Geniş, rahat aerodrom yoluyla sürdükcə fərəh və asudəlik hissi onu daha artıq çulğalayırdı və özü də hiss etmədən şəhərdən uzaqlaşdıqca uzaqlaşır, Abşeronun şimal sahillərinə tərəf üz tuturdu. Ağlına gəldi ki, çoxdandır – daha doğrusu, yay

aylarında Təhminəylə birgə çimərliklərə getdiyi vaxtdan bəridir – bu yolla getməyib. Son həftə ərzində ilk dəfə idi ki, Təhminə haqqında sakit, həyəcansız, ağrısız düşünürdü. Dünənki müdrik qərarını bir də götür-qoy edir və bir də əmin olurdu ki, doğrudan da, çox ağıllı fikrə gəlib – Təhminəylə əlaqəni, münasibətləri tamam kəsmək lazım deyil, amma məbadə əvvəlki dəli-divanəliyə, məcnunluğa qayıdasan ha. Hər şey əndazəsində, dəqiq ölçülüb-biçilmiş olmalıdır; hərdən-birdən zəng eləyər Təhminəyə, arabir görüşərlər, hər ikisiyçün yaxşı olar belə bir əlaqə. Yəni əslində elə münasibətləri də bu cür başlanmışdı da – hər şey necə də xoş idi, sakit idi, ta o vaxtacan ki, Zaur özü öz axmaqlığı və əbləhliyi ucundan xam xəyallara düşdü, başını cürbəcür səfeh fikirlərlə doldurdu: nə bilim, əsil məhəbbətdir bu, həqiqətən sevirəm. Qısqandı, ağrıdı, başı daşdan-daşa dəydi, hardan axı beyninə batdı ki, səadətə çatıb? Və sonra da qorxmağa, əsməyə başladı ki, birdən bu səadət deyil, aldanmışam, ya aldadılmışam. Axı səadət yalnız tək bir xoş anlar deyil ki... Səadət həm də dəhşətli qorxu anlarıdır – həmin bu səadəti itirmək qorxusundan müc olub qaldığın dəqiqələr...

Bir neçə xoşbəxt dəqiqələrin qorxusunu, nigarançılığını saatlarla, günlərlə, həftələrlə, aylarla çəkməkdənsə tamam səadətsiz-filansız yaşamaq yaxşıdır. Əvvəllər elə-belə görüşəndə və bu görüşlərdən sonra ayrılanda, bir-birilərivçün mövcud olmurdular artıq. Amma sonralar – bütün bu dolaşıq duyğular onun qəlbinə hakim kəsiləndə Təhminəni görmədiyi hər saat, Təhminənin harada olduğunu bilmədiyi hər dəqiqə min bir qara-qura şübhələrlə, bəd-bəd gümanlarla dolu olurdu.

Sahil qəsəbələrinin içiylə sürürdü maşını. Dəvə belinin donqarlığını xatırladan cütbacalı yastı damlar, yel dəyirmanları, kələ-kötür daşlardan hörülmüş hasarlar, tikan kollarından qurulmuş çəpərlər, talvarlara dırmaşdırılmış meynələr, küləyin süpürüb divar dibinə yığdığı qum təpəcikləri – bütün bu qərib, həzin payız mənzərələri keçib getmiş günləri xatırladırdı – onların ilk görüş çağlarını – közərmiş ehtiraslarsız, itkilərsiz, uçqunlarsız xoş günləri...

Uzaqda Murtuzovgilin bağları, evlərinin əyri eyvanı görünürdü. Bir dəfə Təhminəylə bura gəldikləri, içəri girdikləri yadına düşdü, hasarın yanından buruldu və dərhal əyləci basdı: az qala alaqapının ağzında dayanmış başqa bir maşınla – çəhrayı "Volqa"yla toqquşacaqdı. Bir an sonra Zaur dərk elədi ki, Murtuzovgilin qapıları qabağında dayanmış bu çəhrayı "Volqa" Spartakın maşınıdır... Zaur cmallıca öz maşınını dar küçədə Spartakın "Volqa"sının yanından keçirtdi.

Dar dalandan burulub gen yola çıxandan sonra fikirləşdi ki, ilin bu vaxtında Spartakın bağda nə işi var, görəsən. Sonra ağlına gəldi ki, bəlkə Spartak tək gəlməyib bağa, saysız-hesabsız cananlarından biriylə gəlib... Zaur dəniz sahilinə çıxdı... Hava tutqun deyildi, amma dekabr dənizi, adamsız sahil payızın son nəfəsindən, qışın əvvəlindən xəbər verirdi. Haradasa sahilin bir tərəfində balıqçı komaları vardı və Zaur düşündü ki, indi bu komaların içində olmaq ayrı ləzzətdir – sahil soyuq olsa da, komalarda yəqin isti soba qalayıblar, pəncərələrdən baxırlar dənizə... Zaur maşınını sahil boyu sürəndən sonra yenidən şoseyə çıxdı. Qumlu sahilin təhlükəli yumşaqlığından sonra beton avtostradanın möhkəmliyi arxayınlıq hissi aşılayırdı, sürəti artdıqca artırmaq istəyi oyanırdı. Yol, demək olar ki, boş idi, təkdənbir maşınlar keçirdi. Yolun hər iki tərəfində plakatlar, çağırışlar, şəkilli diaqramalar vurulmuşdu. Şəkillərdən birinin üstündə eyni boylu, eyni biçimli, eyni cür ağaclar çəkilmiş, "Qəsəbəmiz nümunəvi olsun" sözləri yazılmışdı... Zaur qarşısında uzanmış geniş yolu seyr edir və get-gedə sürəti artırırdı – uzaqdan ona tərəf gələn maşına diqqət verdi, maşın get-gedə yaxınlaşırdı və bu andan etibarən elə bil hər şey Zaura yuxu kimi, ləng sürətli nümayiş etdirilən film kimi gəldi – elə bil vaxt başqa ölçülərlə, başqa sürətlə axmağa başladı, gerçəklik ayrı cür, ayrı rənglə, ayrı işıqda qavranıldı – qarşıdan gələn maşın Spartakın çəhrayı "Volqa"sı idi. Sükanın arxasında Spartak oturmuşdu, onun yanında qadın oturmuşdu və çəhrayı "Volqa" Zaurun maşınının yanından ötüb keçəndə Zaur bu qadının kim olduğunu da təyin etdi... Zaur bir müddət də getdiyi istiqamətdə getdi, ürəyi çırpınıb yerindən çıxacaqdı elə bil, hələ hər şeyi sanki axıracan dərk eləməmişdi və nə edəcəyini, nə etmək lazım olduğunu da bilmirdi hələ. Yalnız iki yüz-üç yüz metr keçəndən sonra kəskin saxladı maşını, döndərdi və geriyə sürdü – əks istiqamətə.

Çəhrayı "Volqa" xeyli uzaqlaşmışdı, dəmir yol keçidi həndəvərində idi. Zaur başa düşdü ki, Spartak da əlbəttə ki, onu tanıyıb və sürəti artırıb. Hər halda yarım dəqiqə ərzində Zaur onları haqlayardı, amma Spartak dəmir yol keçidini ötən kimi şlaqbaum bağlandı və Zaur uzun çoxvaqonlu qatarın keçib-getməsini gözləməli oldu. Artıq hər şey Zaur üçün aydın idi. Çəhrayı "Volqa"nın nə səbəbdən ilin bu vaxtında bağ qapısında dayanmasının səbəbini də bilirdi. Zauru görən kimi sürəti artırıb ondan qaçmasının səbəbini də bilirdi. Şlaqbaum düşhadüşdə altından keçib uzaqlaşmışdılar, niyyətləri, məqsədləri bir idi – qaçmaq,

vaxtı udmaq, məsafəni udmaq, bir sözlə, hər şeyi udmaq. Həyat adlanan bu oyunda Zauru udmaq, ona qalib gəlmək. Qalib gəlmək və gülmək Zaura – sadəlövh, hər şeyə inanan axmaq Zauru doyunca lağa qoyub gülmək – onun sadədilliyinə gülmək – "ay nə bilim, Zaurik, sən bizə gələn gün oboylar çiçək açdı, ay Zaurik, səni belə sevirəm, sənə sadiqəm, mən nə bilim nə". Hər şey, hər şey, hamısı, bütün sözləri, nəvazişləri, göz yaşları-hamısı yalan imiş, pozğun, əxlaqsız qadının mahir işvələri, fəndləri, tələləri və hiylələriymiş, vəssalam...

"Çərşənbə axşamı məşqdəyəm. Çərşənbə axşamıdır bu gün, bu imiş demə bunun məşqləri – Spartakla bağa getmək. Hər çərşənbə axşamı məşq adıyla bu bağa gəlirmiş yəqin, axmaq Zaur da divanın üstündə uzanıb onu gözləyirmiş, ay-hay... Əcəb olur sənin kimi axmağa. Sən orda divanda uzanıb siqaret çəkirdin, onlar isə burda, bu bağda həmin otaqda -- ikisi... Təhminəylə Spartak... bu fikirlərdən, xəyalında canlanan bu səhnələrdən dəli olurdu Zaur və bu an maşınını qarşısından taqqataraqla ötən qatarın üstünə sürmək, toqquşmaq, əzilmək, parçalanmaq, həlak olmaq istəyirdi, amma eyni zamanda o iki nəfərdən hayıfını çıxmamış bu dünyadan köçmək də istəmirdi heç cür. Qatarın vaqonları qurtarmaq bilmirdi. Zaur bu vaqonlara baxıb, yenə də həmin o bağ otağını, Spartakın qolları arasında çırpınan Təhminəni görürdü və bilmirdi ki, bu qatar haçan keçib qurtaracaq, Zaur haçan bu keçidi adlayacaq, onları haqlayacaq. Hər şeyin, bütün yaralarının, təhqirlərin, ona elədikləri bütün yamanlıqlarının hayfını çıxacaq. Hiddəti, əsasən, Təhminəyə aid idi. Qəribədir ki, Spartak haqqında, hətta kinsiz düşünürdü. Spartak Zaurdan daha dünyagörmüş adam imiş, daha bic, daha fərasətli, daha təcrübəli imiş, vəssalam. Spartak kimisini hər cürə yağlı dillərlə aldatmaq olmaz. Zaur təki axmaq deyil ki, hər sözə inansın, hər saxta mehribançılığı həqiqət bilsin, hər hiyləni doğru saysın. Təhminənin bütün fəndlərinə, pişik tumarlarına, nəvazişli pıçıltılarına Spartak ancaq gülərdi, "mənə yox, mənə gəlmə" deyərdi və əcəb də edərdi, afərin Spartak. Spartak kimi olmaq lazımdır belə Təhminələrlə... İndi Zaur Təhminənin hər bir hərəkətini, hər sözünü, evdə olmadığı hər saatı – yalanla, fırıldaqla, saxtakarlıqla və riyakarlıqla bağlayırdı və yaddaşı qəsdən ona müxtəlif sübutlar, faktlar, xatirələr təqdim edirdi.

Bu lənətə gəlmiş qatar, nəhayət ki, keçib getdi...

Qalın sırıqlı pencək geymiş dolu bədənli qadın yoğun kəndirli çarxı hərləməyə başladı, şlaqbaum yavaş-yavaş qalxdı. Zaur maşını hə-

rəkətə gətirib, qalxmaqda olan şlaqbaumun altından keçdi. Sürət göstərici saatda 130-la 140 kilometr arasında gedib-gəlirdi. Bir azdan çəhrayı "Volqa"nı qabaqda, aeroporta dönən yolun ayrıcında gördü. İndi əmin idi ki, çatacaq onlara, ancaq, görünür, onlar da Zaurun maşınını görmüş və sürətini artırmışdılar, elə bil məsafə azalmırdı iki maşının arasında, elə bil bir ölçüdə donub qalmışdı aralarındakı məsafə... Zaur qazı tam dibinəcən basdı və artıq onların maşınları bir-birinə toxunacaq dərəcədə yaxınlaşmışdı. Zaur düşündü ki, indicə sükanı bir balaca sağa əysə, belə dəhşətli sürətlə çəhrayı "Volqa"ya ilişdirsə maşınını, hər iki maşın kəllə-mayallaq aşacaq və hər üçü lap yəqin həlak olacaq. Bu üçlük də ölüm tragikomediyanın məntiqi sonluğuydu.

...Ancaq baş vermədi bu sonluq... Spartakın əsəbləri tab gətirmədi, sürəti aşağı saldı. Zaur onların maşınını keçdi, təqribən iki yüz metr qabağa çıxıb sürəti kəskin azaltdı, sonra tamam saxladı maşınını və yanböyrü qoyaraq yolu kəsdi.

Spartak da kəskin saxladı və çəhrayı "Volqa" lazlarla sürüşüb Zaurun maşınının lap yanında dayandı.

Zaur maşından çıxıb, onlara tərəf getdi. Spartak da maşından düşdü, amma yerindən tərpənmədi, "Volqa"sının qanadına dirsəklənib dayandı. Paltosuz idi, əynində mixəyi kostyum vardı, köynəyinin yaxası açıq idi. Günün qürub çağında Zaur Spartakın bütün qızıllarını aydın görürdü – qızıl saat, qızıl üzük, boynundan tüklü sinəsinə sallanmış qızıl zəncir... İki qabaq dişi də qızıl idi... Spartakın rəngi qaçmışdısa da, üzündə təbəssüm vardı, cibindən qızıl portsiqar çıxardı, siqaret qoydu damağına, alışqanla yandırdı. Zaur alışqana da fikir verdi; "Ronson" idi – bəlkə bu da Təhminənin hədiyyəsidir. Zaur özü də təəccüblənirdi ki, indi, bu anlarda ən xırda təfərrüat da yayınmırdı diqqətindən... Təhminə tərəfə baxmırdı. Amma gözünün qırağıyla onu görürdü. Təhminə maşının içində hərəkətsiz oturmuşdu, donub qalmışdı sanki.

Spartak siqareti diliylə yuxarı dişlərinin arasında tutmuşdu, ağzı da açıq idi. Bir az tolaşlı, amma həmişəki kimi sitizə təbəssümlə:

– Nə oldu? – dedi. – Sınadın təzə maşınının sürətini? Əntiqə maşındı, doğrudan... Çox mübarək, sağlığına qismət olsun.

Zaur bu sözlərdə murdar bir istehza duydu və yanaşıb Spartakın çənəsinə bir yumruq ilişdirdi: Spartak səndirlədi, amma yıxılmadı, dişləri bir-birinə dəyib siqareti qırdı, siqaretin közərən başı Spartakın köynəyinin açıq yaxalığından sinəsinə düşdü, köz sinəsini, qarnını,

yandırdı. Spartak əlini tələsik yaxasından içəri salıb siqareti axtarmağa başladı: çox məzəli idi onun bu hərəkətləri. Spartakdan odekolon iyi gəlirdi. Nəhayət, siqareti tapdı, çıxartdı ordan, kənara atdı. Daha tobəssümdən əsər-əlamət qalmamışdı sifətində, tez maşının qapısını açdı, əlini paltosunun cibinə saldı. Həmin andaca maşının o biri qapısı açıldı və Təhminə bayıra sıçrayıb, tələsik addımlarla Zaura tərəf qaçdı. Zaur Təhminəyə tərəf baxmırdı, paltosunun cibindən bıçaq çıxarıb gələn Spartaka baxırdı. Bıçaq fin bıçağı idi, tiyəsi uzun və itiydi. Zaur fikirləşirdi ki, Spartak zərbə vurmağa cəhd etməmişdən bir an qabaq təpiklə onun qarnından ilişdirmək lazımdır və elə bu an özüylə Spartakın arasında Təhminənin mavi paltarını gördü. Moskvada Kino evinin restoranında həmin bu paltarda idi və bu paltarı Təhminənin bütün başqa paltarlarından daha çox sevirdi Zaur.

Təhminə Spartakı bərk-bərk qucaqladı, onun bıçaq tutmuş əlindən yapışdı və kəsik-kəsik:

– Qurban olum, Spartak, qurban olum sənə, – deyə-deyə maşının qapısına tərəf itələməyə başladı.

Zaur düşündü ki, əlbəttə, Spartak çox istəsəydi Təhminənin əllərindən qurtula bilərdi, itələyə bilərdi bir qırağa Təhminəni, amma, görünür, özü də buna cəhd eləmirdi: düzdür özünü elə göstərirdi ki, guya Zaurun üstünə cummağa çalışır... Sağ əliylə Spartakın bıçaq tutan əlindən bərk-bərk yapışmışdı Təhminə, sol əliylə isə maşının qapısını açırdı. Qapını açan kimi yenə də sol əliylə Spartakı oxşaya-oxşaya, sığallaya-sığallaya və tələsik-tələsik ona nə isə deyə-deyə maşına dürtmək istəyirdi. Sözləriylə, əlləriylə, Zauru qoruyan tarım bədəninin bütün qüvvətiylə Spartakı birtəhər maşına saldı və dərhal qapını çırpdı. Başını qaldırmadan, bir kəlmə dinib-danışmadan Zaurun qabağından keçdi, sağ qapıdan maşına mindi, oturdu. Maşının içində də nə isə danışırdılar hələ. Zaur isə durduğu yerdəco dayanmışdı, gözləyirdi, onlardan qabaq çıxıb getmək istəmirdi. Nəhayət, Spartak motoru işə saldı, maşını çevirib əks istiqamətdə sürdü – dənizə tərəf, sahilə tərəf – bəlkə də əyri eyvanlı bağ evinə sarı...

***

"Əcəb axmağammış, ilahi, adam da belə axmaq olarmış!". Şəhərə yaxınlaşdıqca fikirlər, sözlər Zaurun beyni içində qaynam-qaynam qaynayırdı. "Belə bir fahişənin üstündə mən iztirab çəkirdim, ürəyimə salırdım hər şeyi... Nəyimə lazım idi mənim o? Hardan beynimə salmışdım ki, bu cür qadını sevmək olar? Bütün o şirin dilləri, o yağlı sözləri, vədləri – hamısı başdan-ayağa fırıldaq imiş... Gör özü də kimnən – Spartakla!!! Aman Allah, Spartakla ha... Gör bir fırıldaqçılığa bax, sən allah, necə də yalanlar tapıb deyirdi e... "maşınını qəsdən mənim evimin qabağında saxlayır... Ay səni... heç eybi yoxdur. Atamın oğlu deyiləm, bu hayfı onda qoysam... Necə eləyəm, onu elə yandıram, elə yandıram ki, cızdağı çıxsın... Spartakı qucaqlamışdı, guya məni onun bıçağından qoruyur, tüpürüm onun özünə də, bıçağına da. Amma ənginə əntiqə qoydum Spartakın, siqareti də qarnına düşdü, ləzzət elədi mənə... O gün elə Təhminəyə də yaxşı çəkmişəmmiş, yerində lap... İtin qızı it... heç eybi yoxdur... İndi mənə gülürlər, yəqin gediblər bağa, mənə gülürlər, daha da cuşa gəlirlər... Kef çəkirlər... Gülün, heç eybi yoxdur, görək axırda kim güləcək... Məni, demək, aldatdınız da öz aləminizdə?.. İndi görək axırda kim-kimi aldadacaq...

Zaur xəyal elədi, uzaq gələcəyi gətirdi fikrinə, bir gün haçansa, çox-çox illər sonra Təhminəyə rast gələcək, Təhminə lap qoca və eybəcər olacaq, amma qəmli-qəmli Zaura baxıb: – Zaurik, son bizim hamımızdan bic çıxdın, – deyəcək – hamımızı aldadıb hamımıza doqquz qoydun, – deyəcək... Zaur da belə yuxarıdan aşağı baxacaq ona, etinasız gülümsünəcək, yəni ki, bəs sən nə bilmişdin Zauru? Amma bu çox-çox illər sonranın işiydi hələ, indi, bax indi neyləsin ki, Təhminəni yandırıb-yaxsın, kabab eləsin, hə?

Şəhərin küçələriylə sürürdü artıq. Şəhərə gecə düşmüşdü.

***

Təəccübdən Zivər xanımın ağzı açıla qalmışdı.

– Ciddi deyirsən?

Zaur:

– Əlbəttə, ciddi deyirəm, – dedi. – Heç bu boyda da zarafat olar? Axır vaxtlar çox fikirləşmişəm bu barədə, çox götür-qoy eləmişəm... Mənzil də hazırdır... Odur ki, başlayın görək fəaliyyətə.

Zivər xanım:

– Çox gözəl, – dedi. – Elə günü sabah elçi göndərərik. Amma sonra fikrini dəyişməzsən ki? – Zivər xanım bir qədər ehtiyat edirdi: axı Zaurun qərarı çox gözlənilməz idi.

Zaur:

– Uşaq-zad deyiləm ki, fikrimi dəyişəm, – dedi. – Belə şeylərnən zarafat eləmək olmaz.

Anası tələsik mətbəxə keçdi, geri qayıtdı... Nə isə axtarırdı, amma heç özü də bilmirdi ki, nə axtarır – sadəcə olaraq karıxmışdı arvad, başını itirmişdi elə bil, nə edəcəyini bilmirdi... Nəhayət, Zaura yanaşdı, diqqətlə, uzun-uzadı oğlunun gözlərinə baxdı və onu öpdü:

– Sən mənim ağıllı balamsan, – dedi. – Mən elə bilirdim ki, Allah insafsızlıq eləməz bizə qarşı, hər şey yaxşılıqla qurtaracaq... Sənin boyuna qurban olum mən... Atan da, bilirsən, necə sevinəcək... Day qızgili demirəm, əməlli-başlı bayram olacaq onlarçün. Alyanın ən böyük arzusuydu da bu.

Zaur televizorun qabağında oyləşdi, xokkey oyununu gözləyirdi... "Amma bunu doğrudan əntiqə fikirləşdim ha, – deyə öz-özünə düşünürdü, – bomba kimi partlayacaq bu xəbər, bəzi-bəzi adamların yandırıb cızdaqların çıxaracaq... Doğrudan da, "ey həyat, sən nə qəribəsən...". Nə gözəlsən, ey həyat, cavan, güclü, sağlam olmaq nə gözəl şeymiş... Həm də sərbəst, azad olmaq, istədiyin kimi hərəkət eləmək, heç kəsdən asılı olmayasan, əksinə, səndən asılı olsunlar. Həm də bütün ömrün irəlidə olsun... Əla..."

Doğrudan da, məgər onun həyatı ola, oladan da əla deyilmi – əntiqə təzə maşını var, əntiqə təzə mənzili olacaq, istədiyi kimi bəzəyəcək bu təzə mənzilini – ekspedisiyalardan qəribə, əcaib daşlar gətirəcək, meşələrdən əcaib budaqlar toplayacaq, maqnitofona quşların, meşənin, çayların, küləyin, dənizin səsini yazacaq, mənzillərini təbiətin gözəl bir guşəsinə çevirəcək. Uzaq ölkələrə səyahətlər edəcək, oradan da maraqlı şeylər gətirəcək – Afrika maskaları, yapon kuklaları, hind taxta fiqurları... Bütün dünyanı, bütün ölkəni gəzəcək, evdə də sağlam, xoşbəxt ailəsi olacaq – gül kimi təmiz arvadı, səliqəli, tərbiyəli, sağlam, xoşbəxt uşaqları, qoy gözü götürməyənlərin gözləri kor olsun; yansınlar, cızdaqları çıxsın paxıllıqdan, həsəddən.

***

Yeddidə yığışmağa başladılar... Məcidin əmisi oğlu professor Bəhram Zeynallı gəldi. Şahin gəldi. Zivər xanımın dayısı gəldi... Dadaşın gəlməsi Zauru təəccübləndirdi, amma Zivər xanım oğlunu mətbəxə dartdı:

– Sən allah, hirslənmə, – dedi. – Dadaşa bilirsənmi niyə görə demişik, çünki onlar tərəfdən Murtuzun bacanağı olacaq – Nemət, o da sizin nəşriyyatda işləyir, özü də Dadaşın əlinin altında: qoy onlar tərəfdən işçi olsun, bizim tərəfdən bu işçinin böyüyü – həm də Dadaş

dilli-dilavərdir, sənin dədən kimi hər sözü kəlbətinlə çıxartmaq lazım deyil ağzından, qoy bir az meydan sulasın, səni tərifləsin orda.

– Məni tərifləmək nəyə gərəkdir axı... Məni tanımırlar bəyəm?

– Tanımağına, əlbəttə, tanıyırlar səni. Amma onlar da tək özləri olmayacaq ha. Onların tərəfindən də yəqin yad adamlar olacaq, gərək onların yanında səni də, elə bütün ailəmizi də bir əməlli-başlı təqdim eləyən olsun da. Odur ki, Dadaşa qaşqabaq eləmə, boyuna anan qurban.

Zaur yorğun tərzdə:

– Qaşqabaq niyə eləyirəm ki?.. Dadaş deyirsiz Dadaş olsun, mənimçün nə təfavütü var.

Səkkizçün elçilər Murtuzovgilə yollandılar. Zaur isə krossvord doldurmağa başladı... Afrikada "K" hərfiylə başlanan on hərfli şəhəri heç cür yadına sala bilmirdi... Elçiliyə, təbii ki, ancaq kişilər getmişdi, qadın qohumlar isə Zivər xanımla mətbəxdə laqqırtı vururdular. Zaur sözləri aydın eşitməsə də qadınların nə barədə, nədən danışdıqlarını çox gözəl təsəvvür edirdi – qadınlar gah bərkdən məmnun-məmnun gülüşür, gah xısın-xısın pıçıldaşırdılar.

***

– Yəni ki, Zauru xüsusi təqdim eləməyə ehtiyac da yoxdur. – Dadaş danışa-danışa çaydan qurtum-qurtum içir, qəndi dişləri arasında xırçıldadırdı – hamımızın gözü qabağında böyüyüb... Ailəsini də, maşallah, yaxşıca tanıyırsız, deyir, qonşu qohumdan yaxın olur adama, amma qonşu həm də qohum ola, görün bu da nə aləmdir də... Ha, ha, ha, zarafat bir yana. Məcid müəllim görkəmli alimlərimizdəndir, gözəl ailə başçısıdır, ailəsi də – demək artıqdır – ən təmiz, ən gözəl, mərifətli, qanacaqlı, sağlam ailələrdəndir. Ot da ki, bilirsiz, öz kökü üstündə bitər. Belə bir ailədə boya-başa çatmış oğul da, necə deyərlər, layiqli cavandı, hansı tərəfdən götürürsüz götürün – savadı, biliyi, tərbiyəsi, böyüknən böyükdür, kiçiknən kiçik. İki ildir bir idarədə çalışırıq – kollektiv arasında da əməlli-başlı nüfuz qazanıb, cavan olmasına baxmayaraq. Xasiyyəti ipək kimidir, ürəyi təmizdir, şəxsən mən bunu nöqsan saymıram, amma hər halda bunu Zaura nöqsan bilən varsa, nə olar, yaşa dolduqca, necə deyərlər, bərkə-boşa düşdükcə, şübhəsiz, təcrübəsi də artacaq. Hər halda böyük gələcəyi var Zaurun. Bilirsiz ki, pis adamçün sizin kimi hörmətli adamların qapısına elçi düşməzdik... Burda görürəm mənim dostum, Nemət müəllim də əyləşib, o da necə deyərlər, qız evinin adamıdır, amma eyni zamanda biz

hamımız iş yoldaşlarıyıq, elə Nemət də Zauru yaxşı tanıyır və mənim sözlərimi təsdiq edə bilər.

Nemət nə isə dodaqaltı mızıldandı, yəqin ki, Dadaşın sözlərinə şərik çıxdığını ifadə etməliydi.

Murtuz pörtmüşdü, fısıltıyla ağır-ağır nəfəs alırdı. Bir az doluxmuşdu elə bil, axı hər halda ilk dəfəydi elçi qəbul edirdi. Amma o biri bacanağı Cabbar özünü çox fəal aparır, Dadaş danışdıqca: "bəli, bəli, qəşəng, qəşəng", – deyə replikalar verirdi. Nəhayət, Dadaş nitqinə balaca bir ara verdi və Cabbar gözlərini Murtuzun üzünə zilladi. Murtuz yüngülcə başını tərpədən kimi Cabbar tələsik üyüdüb tökməyə başladı:

– Bizimçün də böyük şərəfdir ki, sizin kimi mötəbər adamlar elçi gəlibsiz qapımıza. Zauru hamımız tanıyırıq, mərifətli, qanacaqlı cavandır. Siz də, şübhəsiz ki, Murtuzovlar ailəsini yaxşı tanıyırsınız. Yəni Balayeviçi respukablikamızda kim tanımır axı? Görkəmli sərkərdədir, hərbi xadimdir, Firəngiz qızımız gözlərimiz qabağında böyüyüb. Doğrudur, indiyəcən onun səsini eşitməmişik, indiki At Balaxanım qızların tayı deyil, dindirirsən qıpqırmızı qızarır, başıaşağı, utancaq bir baladır, mən deyərdim qönçədir, fidandır, hələ gül kimi açılmayıb... Hamımız belə düşünürük ki, bu gözəl, göyçək-cavanlar xoşbəxt, qəşəng ailə quracaqlar: Allah xeyir versin...

Hamı gülümsündü, "Allah xeyir versin" dedi və bir dəqiqə sonra Alya, Tahirə və Sürəyya armudu stəkanlarda çay gətirirdilər, bu səfər bütün çaylar şirin idi.

Dadaş, başqa elçilər, ev adamları adət üzrə qaşıqları stəkanların içində şaqqıldada-şaqqıldada hərləməyə başladılar, hamı bir-bir Məcidi, Murtuzu, Alyanı təbrik etdi. Dadaşla Nemət isə nəşriyyatın işlərindən söhbətə qurşandılar...

Saat doqquzda, elçilər gülə-gülə, bərkdən danışa-danışa qayıtdılar. Hamıdan qabaq içəri Dadaş girdi, Zauru da hamıdan qabaq o təbrik elədi... Deyəsən, Zauru marçıldadıb öpmək fikri də vardı Dadaşın, amma Zaur birtəhər üzünü kənar elədi və bu an Afrikadakı "K" hərfiylə başlanan şəhər birdən-birə yadına düşdü: Kasablanka. On hərf. Əlbəttə, Kasablanka...

***

Səhəri gün də qadınlar görüşdülər. Zivər xanım Alyagilə getdi və hər şey barədə ətraflı danışdılar. Zaur geoloji ekspedisiyaya düzəlmişdi, bir aydan sonra getməli idi. Məsələni çox da uzatmağın mənası yoxdur. Həm də ki, doğrusu, hər ikisinin – elə Alya xanımın da, Zivər xanımın da ürəkləri bir az səksəkəli idi, iraq-iraq birdən bir şey çıxdı, birdən, nə bilmək olur, Zaurun başına başqa fikir düşdü. Odur ki, on günün içində həm nişan, həm də toy eləmək qərarına gəldilər. Hər iki tərəf tədarükünü çoxdan görmüş, lazım olan hər şeyi çoxdan hazır edib saxlamışdı. Alya lap qızı dünyaya gələn gündən xırda-xırda ona cehiz toplamağa başlamışdı – parçalar, yorğan-döşək, bahalı örtüklər, qabqacaq, duz qabına qədər – hər şey soliqə-sahmanla hazır durub, məqamını gözləyirdi. Doğrudur, bəzi iri şeyləri hələ alasıydılar – soyuducu, mebel, amma Spartak boyun oldu ki, üç günün içində nə lazımdırsa tapar, tapdı da – 12 əşyadan ibarət ərəb mebeli, fin mətbəxi, ZİL soyuducusu – bütün bunların xərcini də Spartak özü çəkdi, Cabbarla Tahirə televizor, Nemətlə Sürəyya büllur çılçıraq aldılar...

Zeynallıgil də qıza və qızın qohumlarına bahalı hədiyyələr alıb hazır qoymuşdular (o cümlədən Spartak üçün kostyumluq parça). Böyük bir restoranda dəm-dəsgahlı toy üçün məbləğ də əmanət kassasında hazır idi, yetmiş adamlıq toy etmək fikrindəydilər. Alya xanım "azından əlli yeri gərək bizim olsun, – demişdi, – o qədər dost-tanış var ki..." Adət üzrə nişanı qız evi, toyu oğlan evi eləməliydi.

Alya xanımla Zivər xanımın diplomatik danışıqları sülh və əmin-amanlıq şəraitində keçdi, söhbətin axırında Alya xanım Zaurgilin ailəsini sabah günortaya nahara dəvət elədi. Ayaq açdıya.

***

Zaur işdən qayıdırdı. Soyuqdu, adamın iliyinəcən işləyən xəzri əsirdi. Yağış da çilələməyə başladı. Zaur maşınını saxlayıb düşdü, şüşə süpürücülərini taxdı və avtobus dayanacağında büzüşüb durmuş Mədinəni gördü.

Zaur:

– Mədinə, – deyə çağırdı. – Gəlin oturun, aparım sizi.

Mədinənin əlində iri və görünür, çox ağır zənbil vardı, işdən sonra adəti üzrə bazara dəymiş, ayın-oyun almışdı, Mədinə tələsik maşına yaxınlaşdı, keçib oturdu və:

– Zaur, – dedi, – sizi Allah yetirdi mənimçün. Əlim-qolum qırılmışdı lap. Avtobus da gəlib çıxmaq bilmir. Bir yandan da bu yağış, külək...

Zaur təbəssümlə:

– Evə? – deyə xəbər aldı.

– Əlbəttə... Day heç ümidim yox idi ki, bu zənbillə gedib evə çıxacağam.

Zaur:

– Necəsiniz? – deyə soruşdu.

– Sağ olun. Pis deyiləm. Uşaq bir az nasaz kimidir.

– Nə olub ki?

– Qripdir də yəqin, həm də öskürür.

– İndi bütün şəhər qripdir.

Mədinə:

– Hə, kimi dindirirsən, xəstədir, – dedi. – Maşınınız təzədir, hə? Çox mübarək, sağlığınıza qismət olsun.

Sağ olun.

Mədinə susdu, tərəddüd keçirirdi; desin, deməsin, nəhayət, Zaura çəpəki baxaraq demək qərarına gəldi:

– Hə, sizi təbrik edirəm, eşitdim evlənirsiz.

Zaur:

– Çox sağ olun, – dedi və siqaret yandırdı.

İndi Zaur da soruşa bilərdi:

– Qonşunuz necədir?

– Təhminə? – Guya Zauru Mədinənin başqa bir qonşusu da maraqlandıra bilərdi. – O da xəstələnib yazıq.

– Nədir ki? O da qrip olub?

– Qara ciyəri xəstədir onun... İndi də xəstəlik şiddətlənib, deyirdim axı bədbəxt qızına – sonə içmək olmaz, qulaq asmır. – Mədinə susdu, sonra əlavə etdi. – Bəs görmürsünüz, day heç televizora da çıxmır ki.

Zaur:

– Mən televizora baxmıram, – dedi.

Mədinə həvəslə:

– Lap yaxşı eləyirsiz, – dedi. – Baxmalı nə var ki. Elə boş şeylər göstərirlər ki...

Mədinə televiziya verilişlərindən danışırdı, onları pisləyirdi, amma Zaur istəyirdi, yaman istəyirdi ki, Təhminə haqqında desin yenə bir şey. Görəsən, Təhminə danışıbmı Mədinəyə o gün, o bağ yolundakı görüşlərini, Spartakın bağlarından qayıdarkən Zaura rast gəlməsini?.. Mədinə indi də dünənki verilişi söyürdü.

– O nə film idi elə?.. Heç həyatda belə şeylər olur bəyəm?

Zaur:

– Təhminə yatır yəni? – deyə soruşdu.

– Yox, bu gün bir az babatdır, bəlkəm hələ işə də çıxdı, – birdən bic-bic gülümsünüb, – istəsəz axşam televizorda görə bilərsiz onu, – deyə əlavə etdi.

Zaur:

– Bəli, bununçün televizora baxmağa dəyər, – dedi.

Mədinə:

– Qara ciyəri xəstədir, o isə hər axşam içir, – deyə təkrar elədi. – İçir, musiqiyə qulaq asır. Gecəyarısı ayılıram, baxıram, görürəm işıq gəlir, özü də musiqi çaldırır.

Zaur gülümsündü. Gəlib Təhminəgilin küçəsinə çıxdılar. Həmin o bağın yanından keçirdilər. O bağın ki, haçansa – yox, Zaur dəqiq tarixi də deyə bilərdi iyunun 5-də, ilk dəfə burada bir saatdan artıq gözləmişdi Təhminəni. Axır ki, Təhminə gəlib çıxmışdı, ağ düyməli qırmızı paltarda idi Təhminə o gün, dəniz sahilinə getmişdilər və münasibətləri də bundan başlamışdı... Zaur çöl qapısının ağzında saxladı maşını. Həmin bu yerdə bir gecə Spartak saxlamışdı maşınını və Zaur da onun təkərini deşmişdi... Mədinə birdən dedi:

– Zaurik, inanın mənə, bircə sizinlə xoşbəxt idi o yazıq, – Zaur bu sözlərə təəccüb qaldı. Sözlərdən daha artıq Mədinənin ona lap Təhminə təkin "Zaurik" deməsinə təəccüb qaldı. Çiyinlərini çəkdi Zaur.

Mədinə maşından çıxaraq:

– Çox sağ olun, – dedi. – Lap qanımın arasına girdiz. Allah sizi xoşbəxt eləsin.

Zaur:

– Dəyməz, canım, nə böyük iş imiş, – dedi və maşını ağır-ağır sürdü.

***

Zivər xanım:

– Sabah işdən bir az tez gəl, – dedi. – Alya xanım qonaq çağırıb bizi.

Zaur başını tərpətdi.

– Bu gün getmişdim Alyagilə. Hər şey barədə danışdıq. Məsələni uzatmağın nə mənası var? Şahin restoranla iyirmisinə danışsın. İyirmisi şənbədir...

Zaur başını tərpətdi...

– Firəngizlə görüşmüsən heç?

Zaur təəccüblə:

– Yox, niyə ki? – dedi.

– Necə niyə? Day sənin adaxlındır da. Bir görüşəydin, kinoya, teatra, konsertə aparaydın bir onu.

Zaur:

– Axı hələ rəsmən nişanlı deyilik, – dedi. – Görən-bilən nə deyər... Yaxşı düşməz...

Anası onun istehzasını ya başa düşmədi, ya da başa düşüb üzə vurmadı.

– Orası elədir, dedi. – Sabah gedərik evlərinə, ayaqaçdı olar, sonra da tez-tez sən onlara gedərsən, o bizə gələr, yəni clə nişana, toya nə qalıb ki, – anasının gözlərində sevinc, fərəh, qürur vardı və Zaurun ona yazığı da gəldi hətta. Zivər xanım özünü saxlaya bilməyib, "Ay Allah, bunun boyuna qurban olum mən, – deyirdi, – pərvərdigara, çox görmə bizə bu xoşbəxtliyi".

Sonra anası:

– Gecən xeyrə qalsın, – deyə yatmağa getdi. Zaur isə televizoru qurdu... Filmin son kadrları bitdi, ekranda Təhminə göründü... Yoldakı o görüşdən sonra Zaur görməmişdi Təhminəni və mat qaldı: solub-soluxmuşdu Təhminə, arıqlamışdı, tamaşaçılara xeyirli gecələr arzulərkən sifəti gülsə də, gözləri qəmlidən qəmli, kədərlidən kədərliydi.

"Gecəniz xeyrə qalsın..." Zaurun yadına düşdü ki, Təhminə həmişə uzanıb-uzanıb qurtarmaq bilməyən gecələrin dəhşətindən danışırdı. "Səhərə necə çıxasan, neccə dözəsən səhərəcən, ilahi", – deyərdi... Füzulinin bir beytini tez-tez təkrar edərdi:

"Ey Füzuli, şam-ğəm əncamına yoxdur ümid.
Bir təsəllidir sənə ol söz ki, derlər var sübh".

Bəlkə bu sözlər də Təhminənin bütün başqa sözləri kimi saxtakarlıq, riya, yalan idi... Kim bilir... Zaur ekranda Təhminənin gözlərinin lap dibinə, dərinliyinə baxmaq istəyirdi, bəlkə həqiqət orada, ən gizli, ən uzaq bir dərinlikdə gizlənib, amma bu dəm yox oldu Təhminə. Ekran boşaldı və Təhminədən yalnız ağ-mavi bir boşluq qaldı, sonra o da qaraldı, tündləşdi, işıldayan bir nöqtəyə çevrildi, sonra o nöqtə də qeyb oldu.

Hardansa Zaurun başına qəribə bir fikir gəldi: durub düşsün, maşınına minsin, getsin telestudiyanın qabağına, qarşılasın Təhminəni. Necə də sevinərdi Təhminə, bəlkə də o yalançı sevinc idi, amma hər halda, yalanmı, doğrumu bu sevinc, bu gözlənilməz, qəfil sevinc Təhminənin bütün varlığını çıraq kimi işıqlandırardı və bu çırağın şöləsində, istisində Zaur özü də qızınardı, yalan da olsa, doğru da – bu işıq, bu isti, bu sevinc... Bax bu saatca maşına minib getmək, telestudiyanın qabağına çatmaq və:

– Xoş gördük, Təhminə – demək.

Bundan asan nə var dünyada? Amma Zaur bilirdi ki, bundan mümkünsüz bir iş də yoxdur dünyada onunçün. Bu asan iş dünyada ən müşkül iş idi. Durub televizoru keçirdi...

On altıncı fəsil

Əgər tutsam qəmim eldən nihan, səbrü-qərarın yox,
Və gər şərhi-qəmi-pünhanım etsəm qəmküsarın yox.
Əsiri-bəndi-zindanəm, əlimdə ixtiyarım yox,
Bu yetməzmi ki, bir dərd artırırsan dərdimə sən həm?

Zivər xanım:

– Gözlərinin qadasını alım Zaur, – dedi. – Olan-olub, keçən-keçib, barış Spartakla... Day qohum olmusuz da – Murtuzovgilin qapılarının ağzına çatmışdılar. Zaurun qucağında iri bir tort vardı! Zivər xanım gecə hazırlamışdı onu. Professorun əlində də iri gül dəstəsi vardı.

Zaur anasına cavab vermədi və Zivər xanım sözünə davam etdi:

– Mənə Alya danışıb, deyir, guya haradasa dalaşmısız Spartakla.

Zaur:

– Niyə dalaşmışıq, – dedi. – Vur-tut bircə dəfə yumruq ilişdirmişəm çənəsindən, vəssalam.

– Yaxşı, indi keçmiş olsun bütün bunlar, gərək...

Qapını açdılar. Alya xanım:

– Xoş gəlmisiz, xoş gəlmisiz, – dedi.

Dəhlizə keçdilər. Zaur tortu asılqanın yanındakı kətilin üstünə qoydu, atasıyla bir yerdə otağa keçdilər. Zivər xanım isə qadınların yanına, mətbəxə keçdi. Otaqda, üstü bəzənmiş masanın yanında, ağ köynək geymiş Murtuz Balayeviç Cabbarla nərd oynayırdı. Stolun başına Murtuzun polkovnik pencəyi asılmışdı, pencəyin yaxası orden-medallarla dolu idi. Nemət nərd oyununu müşahidə edirdi... Hər üçü qonaqları görən kimi qalxdılar, əl verdilər. Murtuz Zaurun kürəyindən vurub:

– Hə, qoçaq, – dedi.

Cabbar:

– Buyurun, əyləşin, professor, – dedi.

Murtuz Cabbara baxıb:

– Bu saat bunun dərsin verim, – dedi. Nemət isə Zaurdan təzə işi barəsində soruşdu.

Masanın üstündə quş südündən başqa hər şey vardı. Lap o kabab-xana müdiri Nadirin sözü olmasın, ilin bu vaxtında təzə xiyar, pomidor. Qədim alman servizlərinin içində növbə növ salatlar vardı, rəngbərəng içkilər zəhmli ağır büllur qrafinlərə süzülmüşdü;

– Buyurun görək. – Alya xanım hamını masanın başına dəvət elədi... Stolun başında Murtuzla Məcid əyləşdilər, onlardan sol əldə Zivər xanım, Cabbar və Nemət... Sağdan Zaur oturdu və onun yanındakı stulu boş saxladılar. Bir azdan Alya Firəngizi otağa gətirdi. Firəngiz qıpqırmızı qızarmışdı və dümağ paltarı yanağının çəhrayı, saçlarının, göz-qaşının zil qara rənglərini daha da parlaq göstərirdi. Saçları yoğun hörüklər şəklində hörülmüşdü. Gözlərini qaldırmadan hamıyla salamlaşdı... Zaur ayağa durdu, Firəngizi yanındakı boş stula otuzdurdu... Sürəyya, Tahirə və Alya stolun aşağı başında əyləşdilər. Onların yanında üç qız, bir nəfər oğlan uşağı da var idi – Sürəyyanın qızları və Tahirənin oğlu. Alyanın, Sürəyyanın və Tahirənin anaları Bikə xala gəldi otağa. Zaurla Firəngizi öpdü, dedi ki, ömründə ən şad günüdür bu gün, sonra üzr istəyib mətbəxə getdi, plovu o bişirirdi.

Murtuz:

– Bəs Spartak hanı? – deyə soruşdu və Alya cavab verdi ki, indi gələr... Zaurla Firəngizin sağlığına, validcynlərin sağlığına, qohumlarının sağlığına içdilər. Zaur Spartakın otağa daxil olduğuna diqqət verdi. Spartakın baxışlarında bir nigarançılıq sezdi... Amma Zaur Spartaka baxıb gülümsündü və Spartakın gözlərindəki nigarançılıq həmişəki sırtıq ifadəylə əvəz olundu, gəlib saymazyana Zaura əl uzatdı, görüşdülər...

Murtuz artıq bir balaca dəm idi, növbəti sağlığı demək üçün ayağa qalxmışdı. Murtuzovlar ailəsinin sağlığına Məcidin qaldırdığı badə istisna olunsa, bütün sağlıqları Murtuz özü deyirdi.

Bu gün, bu gözəl nemətlər düzülmüş stolun başında ən yaxın qohumlarımız yığışıb və çox xoş, gözəl bir münasibətə görə yığışmışıq, – dedi Murtuz Balayeviç. – Adə, Spartak bokalıva içki tök görək. Amma bax, içib kcflənməyəsən ha, sən haramzadanı yaxşı tanıyıram mən. Vurmağa başlayanda açarıvı itirirsən.

Spartak:

– Ay papa, – dedi, bu sözləri özüvə de də.

Hamı gülüşdü və Alya xanım məzəmmətlə Murtuza baxdı:

Düz deyir də, – dedi, – sən də özünü saxla bir balaca, ürəyin yadından çıxıb?

Murtuzun kefi ala buludda idi, odur ki, arvadıyla oğlunun mozommətinə başqa vaxt hirsləndiyi təkin hirslənmədi, heç eyninə də almadı bu sözləri:

– Mənim hər şey yadımdadır, – dedi. Sonra kefli adamın "mənalı" inadıyla bir də təkrar etdi: – hər şey yadımdadır mənim... Qulaq asın, görün nə deyirəm... Bizim cavanların sağlığına içdik, onların gələcək təmiz, gözəl ailələrinin sağlığına içdik. Amma mən demək istəyirəm ki, üzünü Zaura tutdu, – ailə qurana qədər, evlənənə qədər nə olubsa, kişi gərək evinin qapısından eşikdə qoysun hər şeyi. Nə olub, olub, madam ki, evlənmisən, zəhmət çək, day şuluqluq eləmə, ailə gərək möhkəm, sağlam olsun.

Hamı özünü bir qədər naqolay hiss elədi, polkovnikin eyhamları lap düzünəqulu idi, amma bu sözləri təkzib etməklə, ya onlara bir şey əlavə etməklə məsələni daha da ağartmaq olmazdı... Gərgin bir sükut çökdü. Yalnız professor arabir öskürür, boğazını arıtlayırdı.

Bütün bu sözlərə, bütün bu vaqiələrə tam bir biganəlik hissi – bu hiss axır bir neçə gün idi ki, Zaurun bütün varlığına hakim kəsilmiş yeganə duyğu idi – Zauru qoruyurdu. Hər cür mənfi emosiyalardan, hər növ qanqaraltısından mühafizə edirdi. İndi Murtuzun danışdıqlarını da sifətinin ehtiram dolu ifadəsiylə və daxilində səslənən rişxəndli gülüşlərlə qavrayırdı. Murtuzun söhbətləri bu ziyafətin lap əvvəlindən, yox əslində bundan da qabaq, elçilik məsələsi başlayandan bəri polkovnikin fikirlərində dolaşırdı və indi erməni konyakının təsiriylə ürəyinin içindəkilər dilinin ucundan tökülürdü.

İçdikcə Murtuzun fikirləri bu səmtdə daha da müəyyənləşirdi və görünür düyünü indi biryolluq açmaq istəyirdi...

– Cavanlıqda hansımızın başına belə-belə şeylər gəlməyib axı hə? – O, Məcidə göz vurdu, professor lap özünü itirdi, – yox, bir söz demirəm, bu da lazımdır, cavan oğlançün bu vacibdir də, hətta... Necə deyərlər, həyatın gərək hər kef-damağını görəsən, hərif olmayasan, inkişaf üçün də lazımdır bu, lap elə sağlamlıq, səhhət cəhətincə də... Təbabət də təsdiq edir bunu... Amma... burada bir iş var... nə iş? Gərək ailə qarşısında, cəmiyyət qarşısında borcunu da heç vaxt yaddan çıxartmayasan...

Murtuz sözlərinin dalını pıçıltıyla, tək bir Məcidə danışırdı, amma Zaur hər kəlməni bircə-bircə eşidirdi:

– Yadımdadır, mənim bir Zoykam vardı (Alyanın qulaqlarından iraq), arvad deyildi, vallah, od parçasıydı köpəyin qızı... Cavan sütül uşaqdım o vaxt, az qala ilişmişdim, bu Murtuz ölsün. Yamanca tovlamışdı məni, vallah, indi heç özüm də inana bilmirəm ki, necə olmuşdu, almaq istəyirdim hətta onu... Şükür, vaxtında ayıldım... İşdir də, düşəndə düşür... Amma indiki cavanlar, maşallah, bizlərdən çox-çox ayıqdırlar... Kefini-damağını da çəkirlər, amma day bizim kimi tələyə düşsünlər, gözləri tutulsun, xeyr, əstəğfürüllah, hərif-zad deyillər... Bax elə götür bizim bu Spartakı, mənim oğlumdur, amma belə-belə işlərdə səni də, məni də, yüz nəfər yaşlı, təcrübəli kişini də cibinə qoyar. Dünyanın hər üzünə bələddir, arvad məsələsində də tükütükdən seçir zalım oğlu.

Sonra nədənsə Murtuzun fikri Spartakla Zaurun münasibətləri məsələsinə ilişib qaldı, uzun-uzadı sorğu-suala başladı ki, axı nə olub aranızda bir deyin görək.

Spartak da, Zaur da bir ağızdan:

– Əşi, heç nə, heç bir şey olmayıb, – deyirdilər. Murtuz da əl çəkmirdi, axırı:

– Yaxşı, indi ki, deyirsiniz heç bir şey olmayıb, onda durun öpüşün, – dedi.

Zaur başa düşdü ki, bundan da keçməlidir. Keçmişlə birdəfəlik vidalaşdığını, keçmişdə qalanları birdəfəlik ömründən qoparıb atdığını öz-özünə isbat etməkçün bu sınaqdan da keçməlidir. Salfet götürüb plovun yağına batmış dodaqlarını sildi, Spartak da ona baxıb yağlı dodaqlarını sildi, öpüşdülər. O gün yolda olduğu kimi indi də Spartakdan odekolon ətri gəlirdi.

Çay gətirdilər, cürbəcür tortlar, pirojnalar, meyvələr gəldi süfrəyə, Murtuz indi də cəbhə xatirələrini danışırdı və birdən Zaur öz sifətinə zillənmiş zənli, kədərli baxışları duydu. Nemətin baxışları idi bu həsrət dolu baxışlar... Onların gözləri toqquşdu və Zaur bildi ki, bütün burda iştirak edənlərdən yalnız tək bir Nemət hər şeyi və o cümlədən, Zaurun halını həqiqi mənasında, olduğu kimi başa düşür. Hər şeyi, hər şeyi başa düşür. Zaurun halını da, Zaurun qərarını da, bu qərara gəlməyə onu vadar edən səbəbləri də və gələcəkdə onu, Zauru gözləyən nəticələri də.

***

– Sağ olun, sağ olun...

– Sən allah, gəlin də, xüsusi dəvət gözləməyin.

– Uzaqda oluruq da, pilləkənin o biri başında, ha, ha, ha...

– Day demə...

– Bıy, yağış yağır ki...

– Zaur aparar sizi maşınla.

– Spartak da apara bilər.

– Yox, Spartak çox içib.

– Əşi nə içmişəm, boşlayın görək. Bu saat qonaqları Zaurla ikimiz evlərinə aparacayıq. Görək kimin maşını tez gedir.

– Zaur, oğlum sabah bir bizə doy.

– Baş üstə, Alya xanım.

– Professor, nərddə sizə borcum qaldı ha.

– Yaxşı, salamat qalın da, girin içəri, yağışda islanarsız, hələlik. Nə yaman qaranlıqdır, bir kibrit çəksənə.

– Bu saat maşını çıxarım.

Mən də çıxardıram, bircə dəqiqə gözləyin.

– Zaur, tez qayıt ha.

– Spartak, yubanma ha.

***

Diksinib oyandı, tez qol saatına baxdı, düz səhər saat altı idi. Mat qaldı Zaur, bəlkə yuxuda eşidib bu səsi, amma telefon ikinci dəfə zəng çaldı. Əlini uzadıb çarpayısının yanındakı dəstəyi qaldırdı, yuxulu səslə:

– Allo, – dedi.

Telefon susmuşdu. Zaur dəstəyi yerinə qoymaq istəyirdi ki, musiqi səsi eşitdi. Əvvəlcə uzaqdan gəlirdi bu səs, sonra elə bil xəttin o başındakı telefon dəstəyini səsə yaxınlaşdırdılar və Zaur "Küçələrə su səpmişəm" mahnısını eşitdi. Dinlədikcə yavaş-yavaş yuxudan ayılırdı, bu qəribə erkən konsertə təəccüblənirdi. Birdən-birə başa düşdü:

– Alo, kimdir? – dedi, amma mahnı bitdi və dəstəyi asdılar...

Və o zaman Zaur hər şeyi başa düşdü. Bildi ki, kimdir zəng eləyən, bildi ki, səhər saat altıdır, zəng vuran belə ertədən durmayıb, yox, yatmayıb bu gecəni, musiqiylə, konyakla, həsrətlə, onun – Zaurun həsrətiylə dopdolu bu gecəni yatmayıb, gözünü də qırpmayıb.

İndi Zaur özü yığdı nömrəni, gümanın tam doğruluğuna inanmaq üçün. Dəstəyi dərhal qaldırdı, amma susmuşdu Təhminə, Zaur da danışmırdı. Telefonda başqa bir mahnı səslədi: "Ay bəri bax, bəri bax..."

Pəncərədən daş gələr,
Xumar gözdən yaş gələr.
Səni mənə versələr,
Allaha da xoş gələr...

Mahnı qurtardı və dəstəyi asdı Təhminə. Zaur siqaret yandırdı və elə dərin, elə dərin bir həsrət duydu ki, az qala ulayacaqdı. Təhminənin neçə bir gecə keçirdiyini təsəvvür elədi və bu zaman telefon yenə səsləndi. Dəstəyi qaldırdı, mahnıya qulaq asmağa başladı:

Ömrüm boyu daş daşıdım,
Gəmim dolmadı.
Gənc yaşımdan bir qız sevdim,
Mənim olmadı...

"Təhminə, ay Təhminə, axı niyə sən belə etdin?" demək istəyirdi Zaur, amma heç nə demirdi. "Özü də gör bir kimlə, Spartakla!" – demək istəyirdi Zaur, amma heç nə demirdi. "Təhminə, axı mən səni doğrudan da sevirdim və doğrudan da xoşbəxt idim sənlə" – demək istəyirdi Zaur, amma heç nə demirdi. "Hamısı yalan idi yəni? Yəni heç məni sevmirdin, sevirdinsə niyə belə yaraladın?" – demək istəyirdi Zaur, amma heç nə demirdi... "Axı mən bir də heç bir vaxt, heç bir vaxt xoşbəxt olmayacam, bilirsən ki, bunu, axı mən artıq yaşamıram, ölüyəm, canlı meyitəm" – demək istəyirdi Zaur, amma heç nə demirdi. Mahnı qurtardı. Təhminə dəstəyi asdı. Bir neçə dəqiqə keçdi və Zaur elə düşündü ki, hər şey bitib, bu zaman yenə zəng oldu, o, telefonu qaldırdı və mahnını eşitdi:

Qırmızı gül, sarı gül,
Bağçaların varı gül.
Gec açıldın, tez soldun,
Açmayaydın barı gül...

"Laçın" mahnısı idi... Təhminə bu mahnını dinləyəndə həmişə hıçqırıb ağlayırdı... Zaur özü də ağlayırdı indi, lap erkən uşaqlıq çağlarından bəri ilk dəfə idi ağlayırdı, səssiz-səmirsiz ağlayırdı, gözlərindən yanaqlarına süzülən damcıları silmirdi. Ağlayırdı, çünki bilirdi ki, bu son vidalarıdır və yer üzündə yalnız yeganə bir qadın bu cür vidalaşa bilərdi... "Laçın" mahnısının son bəndi səslənirdi, – Zaur bilirdi ki, Təhminənin kassetində bu, son mahnıdır və indi – Zaurla Firəngizin toyları ərəfəsində Təhminə onun həyatından əbədilik çəkilib gedirdi...

Araz üstə, buz üstə,
Kabab yanar göz üstə.
Qoy məni öldürsünlər
Bir alagöz qız üstə...

Mahnı qurtardı. Dəstək asıldı...

On yeddinci fəsil

Vəfa hər kimsədən kim istədim ondan cəfa gördüm.
Kimi kim, bivəfa dünyada gördüm, bivəfa gördüm.
Mənə göstərdi gərdün, tirə bəxtim kövkəbin yüz gəz,
Məni – bədbəxt ona hargah kim, baxdım qara gördüm.

İstanbul duman içində... Yuxu kimi birdən-birə açıldı duman içindən İstanbulun minarələri, qülləli, qübbəli məscidləri... Səhərin bu erkən çağı duman Bosforun üstünü alıb çəhrayı üfüqəcən sərilirdi.

Bu gecəni yatmamışdı Zaur. İndi də gəminin göyərtəsində dayanıb ilk dəfə gördüyü şəhərin səhər oyanışını seyr edirdi. Dəniz elə bil ağır – tunc dalğalarıyla özü öz səthini hamarlayır, ütüləyirdi, şəhər, limandakı gəmilərin siluetləri, binaların konturları görünməz sarıçəhrayı projektorun şüalarıyla işıqlandırılmış dekorları xatırladırdı – projektorun özü – günəş də ağır-ağır üfüq xəttinin dalından yüksəklərə dartılır, dığırlanırdı.

Günəşin şüaları onların gəmilərinin göyərtəsindəki gecə çıraqlarını da işıqlandırırdı və gecənin qaranlığında belə parlaq işıldayan bu çıraqlar, indi gün işığında sanki solub-soluxmuşdular. Gəmiləri yavaş-yavaş İstanbul limanının körpüsünə yan alırdı və biraylıq səyahətlərinin son dayanacağı idi bu şəhər...

***

Gəmidə Firəngizin ürəyi bulandı, qusdu, sonra gecə kayutda – gəmiləri artıq İstanbuldan ayrılıb Odessaya yollanırdı – Firəngiz dedi ki, deyəsən, hamilədir.

Odessaya düşən kimi Zaur təyyarəyə bilet aldı. Murtuzgilə və atasıgilə teleqram vurdu ki, qarşılasınlar. Təyyarə Simferopolda yerə enib qalxdı və Bakıya yollandı.

***

Təyyarədən düşüb qarşılayanlarla görüşən təkin Zaur başa düşdü ki, nə isə bir iş var burda. Amma məsələ nədə idi, bunu başa düşə bilmirdi... Onları qarşılayanlar – Zivər xanım, Firəngizin atası və anası, Spartak, Spartakın bir dostu – Zaur onu üzdən tanısa da adını unutmuşdu – gülümsünə-gülümsünə Zaurgilə əl edirdilər uzaqdan, Zaurla Fira da əl edirdilər, amma Zaur uzaqdan belə gördü ki, anası Murtuzovgildən aralı dayanıb. Murtuzovlarla öpüşüb, görüşüb (onlar daha yaxın dayanmışdılar) anasının yanına gələndə Zaur anasının gözlərində nə isə oxudu – inciklik, narazılıq vardı bu baxışlarda. Zivər xanım Zaurla soyuq görüşdü, gəliniylə ondan da soyuq görüşdü.

– Atan gələ bilmədi, – dedi və əlavə etdi: – Mən sənin maşınınla gəlmişəm, onda da gedəcəm. Özün sür, yaxşı? – Zaur başını tərpətdi. – Baqajı al, gəl maşına.

Zivər xanım keçib Zaurun "Volqa"sında qabaq yerdə əyləşdi.

Zaur bildi ki, onun maşınını bura Spartakın dostu sürüb gətirib və bu da təsadüfi deyil. Zivər xanım Murtuzovların maşınında, Murtuzovlarla bir yerdə gəlmək istəməyib və ümumiyyətlə, bu bir ayda iki ailənin arasında nə isə olub.

Alya xanım Firəngizi səyahətləri haqqında sorğu-suala tutmuşdu. Murtuz ətrafı şəstlə seyr edirdi. Spartakla dostu isə, nə isə, qeyri-adi bir tərzdə gah Zaura, gah Firaya, gah Zivər xanıma baxırdılar.

Alya xanımla Firəngiz qıraға çəkilib pıçıldaşmağa başladılar. Firəngizin pörtməsindən Zaur başa düşdü ki, hamilə olduğunu deyir anasına, Alya xanımın məmnun təbəssümündən bu xəbərin ona nə qədər ləzzət etdiyi də aydın olurdu...

Yüklərini gətirdilər. Spartakla dostu kömək elədilər Zaura, beş iri çemodanı maşınlarda yerbəyer elədilər.

Alya xanım:

– Fira bizim maşında gedər, – dedi və Murtuzovların hamısı Spartakın çəhrayı "Volqa"sına tərəf getdi. Spartakın dostu da onlarla mindi maşına.

Zaur öz maşınının sükanı dalına keçdi. Bir müddət motoru qızdırdı, sonra çəhrayı "Volqa"nın ardınca sürdü... Həmin o yola çıxdılar. Həmin o yola ki, bir neçə ay bundan qabaq bu yolla Zaur çəhrayı "Volqa"nı qovurdu... Amma Zaur həyatın qəribə dolanbacları haqqında düşünməyə macal tapmadı, Zivər xanım açıldı nə açıldı...

Hər şey məhz Zaurun düşündüyü kimiydi, Zivər xanım deyirdi ki, adamları tanımaq olmurmuş, neçə ilin qonşusudurlar, həmişə də Murtuzovları abırlı adam bilib, amma sən demə Alya şeytana papış tikənlərdən imiş. Özü də, əri də özlərindən elə müştəbehdirlər ki, elə bil alçaq dağları bunlar yaradıblar. Qızlarının da tayı-bərabəri yoxmuş onların gözündə, göydən qızıl zənbildə düşübmüş, bilməmişik... Hələ bütün bunlar dərdin yarısıymış, sən bir görəydin ki, o julik Spartakı necə tərifləyib göyün yeddi qatına qaldırır Alya xanım. "Spartak belə, Spartak elə", dilindən düşmür arvadın Spartak. Arvadın həyasızlığına bax ki, düz Zivər xanımın gözünün içinə şappadan deyib ki, sən nahaq Zaurla Spartakı tən tutursan. Spartak hara, Zaur hara. Spartak müstəqil kişidir, bir evin dayağıdır, Zaur isə heç öz ailəsini əməlli-başlı saxlaya bilməz öz başına qalsa... Day mən də bu yerdə partladım, nə partladım. Nə olub, dedim, bəlkəm Zaur qapıya gəlib, səndən kömək-zad istəyib, ölüb-eləyib Zaurun atası-anası ki, sizlərə möhtac olsun... Zaurun, deyirəm, maşallah dalında dağ kimi dədəsi var... İndi gör bu ləçər qızı mənə nə cavab verir, – dədəsi, deyir həmişə olmayacaq ki. – Bəs sənin ərin necə, – dedim, – qurdla qiyamətə qalacaq? Hamımızın axırı bu qara torpaqdadır da, sən nə baxırsan ki, Zaurun atası xəstədir, heç kim bilmir ki, əcəl onu haçan və harda yaxalayacaq, görürsən bığıburma cavan yıxılıb ölür birdən, amma yaşlı, xəstə adam lap qoca yaşına kimi yaşayır. Bir də deyirəm, həkimlər deyib ki, professor yüz yaşı da sapsağlam başa vuracaq. Özüm qəsdən həmişə Alyayla danışanda atana professor deyirəm, qoy o polkovnik ərini çox gözümüzə soxmasın.

Zaur bütün bu ehtiraslara tamam biganəliklə yanaşırdı. Bilirdi ki, bütün ömrü bu dedi-qoduların içində keçəsidir indən belə. Bilirdi, qabaqcadan bilirdi ki, hər şey məhz elə bu cür də olmalıdır, odur ki, indi nə təəccüblənir, nə hirslənirdi. Əlbəttə, doğma şəhərə qayıdışlarının ilk dəqiqələrindən kefinə soğan doğramaq – anasının xasiyyətinə,

təbiətinə uyğun idi. Amma məgər bu qayıdışın, bu dönüşün özü belə sevincli, belə fərəhli idimi Zaurçün?

Maraqlandığı üçün yox, nəzakət naminə soruşdu:

– Axı, bütün bu qalmaqal nədən başlayıb?

– Əşi, heç nə... Evinizin açarını Alyaya vermişdiniz. Nə deyirəm, öz işinizdir, yəqin elə məsləhət bilmisiz – ev sizin, ixtiyar sizin. Mən axmaq da fikir elədim ki, bəlkəm bir kömək lazımdır, yır-yığış eləmək lazımdır evdə, yəqin toz basıb da... Zəng elədim belə kamal-ədəblə dedim ki, Alya xanım, bəlkə onlar gələnə gedək bir evi yığışdıraq, künc-bucağı silək-süpürək, səliqəyə salaq. Yadımdadır axı, elə siz getməmişdən də ev tör-töküntü idi... Di, partlamadı. Alya xanım... Sən demə, şəstinə dəyibmiş xanımın: nə demək istəyirsən, deyir, tör-töküntü niyə olur Firanın evi?.. Nədi, baxmır deyirsən, evə?.. Nədi, deyir, neçə il onu naz-nemət içində böyütmüşük ki, sizin qulluqçunuz olsun? – Zivər xanım Alyanın zəhərli tonunu yamsılamağa çalışır, öz replikalarını isə həlim, yumşaq tonla tələffüz edirdi – yox, bacım, deyirəm, belə sözləri niyə gətirirsən dilinə, qulluqçu, qaravaş-zad nədir, intəhası cavandır da, hər şeyi get-gedə öyrənəcək. Hələlik biz, deyirəm, onlardan böyüyük, təcrübəliyik, gərək qollarından tutaq, kömək eləyək, gedək bir yır-yığış eləyək, nə olacaq xəncərimizin qaşı düşməz ki. Bəlkəm mənim də bir köməyim dəydi. Yox, deyir, heç bir kömək-zad lazım deyil, – mən, deyir, bacılarımla gedib hər şeyi öz qaydasına salaram onlar gələnə... Bacılarını da tanıyırsan da... Biri o atmaralıdır Tahirə, əri yazığı bir qoz qabığına soxub ki, yazıq cınqırını çıxarda bilmir... O biri də Sürəyya – onu da tanıyıram nə yuvanın quşudur. Birinci ərini basdırıb, ili çıxan kimi bu Nemətə calayıb özünü – yanında da iki balası, neçə yaş cavandır özündən əri... Qızlarından da ki, olmaz.

– Yaxşı, ay ana, – deyə Zaur Zivər xanımın sözünü kəsdi, – bütün bu həngamə nədən başlayıb axı?.. Evi yır-yığış eləməkdən?

– İş yır-yığışda deyil e... İntəhası tanıdım bu adamları... Bu üç bacının xasiyyətiymiş bu – ərlərinin başında turp əkmək. Tahirəsi də elədir, Sürəyyası da... Alyanın özü elə deyil? Sən bu Murtuzun qozqurabılığına, bazburutuna-filana baxma, arvadından it kimi qorxur, nə buyursa arvad, ləbbeyk deyir, bəs necə... Səni də eləcə tryapka eləmək istəyirlər ki, onların hər nazıyla oynayasan, ata-anadan keçəsən, naxələf çıxasan, onların istədiyi budur, bə nə?

– Yaxşı, ay ana, boşla görək.

– Düz demişəm?.. Alya qaçırtdı da dilindən. Sən demə, Alya xanım belə hesab eləyir ki, bizim ailəyə böyük minnət qoyub – əziz-xələf qızını sənə verib. Sən guya heç layiq də deyilsənmiş belə dünya gözəlinə ər olmağa.

– İndi nədi, danışmırsız bir-birinizlə?

– Qulaq as... Demək, bir neçə gün keçir, sizdən də bir xəbər yox, yaman nigaranam, Alyaya zəng vururam, görüm bəlkəm onlar teleqramdan-zaddan bir şey alıblar. Zəng eləyirəm, ədəblə belə hal-ohval tuturam. Özün neçəsən, ərin necədir... Di, düşmədi mənim üstümə. Nə yemisən turşulu aş, day dişinin dibindən çıxanı dedi mənə.

– Niyə axı?

– Qulaq as, danışıram da – ...Sitarəni tanıyırsan da, qonşumuzu. Gəlib bir dəfə bizə, deyir, eşitmişəm Zaurun, maşallah, ətiqə evi var, özü də aləm obstavit eləmisiz. Gələndə onlar, deyir, bir məno də papaq elə, mən də gedim baxım... Mənim də ürəyim tomiz, nə bilim ki, camaat qan çıxmayan yerdən qan çıxardır, açarlar, deyirəm, Alyadadır. Ev sahibləri ona, deyirəm, etibar ediblər açarlarını, ona denən, deyirəm, aparsın səni Zaurgilə elə indi, daha gəlməklərin neyləyirsən gözləyib?.. Day bilmirəm mənim sözümü Sitarə nə cürə çevirib deyib Alyaya, od vurub Alyanın təpəsinə. Düşmədi mənim üstümə, nə deyir bütün şəhərə car çəkirsən ki, ay açar belə gəldi, ev elə getdi. Göndərirəm, deyir, Spartaknan o andıra qalmış açarlarını, o eviniz də ki, var, deyir, nə belə mataq şey imiş... Firoçka, deyir, istəsəydi min pay bundan yaxşı evlərə köçə bilərdi. Elçilər, deyir, qapımızın dabanını çıxartmışdılar.

– Hansı elçilər?

– Əşi, yalandır deyir də, gözünün içinəcən... Kim idi ona elçi düşən? Yəni – mən bilmirəm, camaatın gözü kor, qulağı kardır bəyəm?.. Allahına şükür eləsin ki, qızının bəxti belə açılıb... Eybi yox, mən də bir iki kəlmə şirin söz dedim ona. Qiyamətəcən yadından çıxmaz. Məni o deyil, e, özümdən çıxardan, o əri heyvərədir. Guya ki, belə ağır kişidir, ağsaqqaldır öz aləmində, amma arvad işlərinə qarışmaqdan utanıb xəcalət çəkmir. Götürüb telefonu bu da, deməli, mənim üstümə xoruzlanır.

– Mənim atam da ki, Alya xanımın cavabın verib, hə?

– Xeyr, bircə o çatmırdı... Sənin atan əsil kişidir, arvadnan ağız-baağız verən qurumsaqlardan deyil. Amma Murtuzla danışdı, özü də əməlli-başlı danışdı.

– Görürəm burda vaxtınızı şən keçirmisiz.

– Elə bilirsən bu hayıfı qoyacam mən onda? Məni yaxşı tanımırsan. Bircə bax sən sarıdan...

Zaur bu söhbətin gizli mənasını yaxşı başa düşürdü, anasının gözlərindəki nigarançılığın, qorxunun, tolaşın səbəbi də aydın idi ona. Anası ondan arxayın deyildi, qorxurdu ki, birdən Alyayla qızı Zaurun saqqızını oğurlayıb, öz tərəflərina çəkərlər, bu ölüm-dirim mübarizəsində Zaur əks cəbhəni seçmiş olar... Zaur düşünürdü ki, anası gətirdiyi hədiyyələrdən xəbərdar olanda, bilində ki, Zivər xanımla Alya xanıma eyni cür çəkmə, Məcidlə Murtuza eyni cür köynək alıblar, amma üstəlik, Spartaka iki qəşəng qalstuk da gətiriblər və bu qalstukları şəxsən Zaur özü seçib, gör onda nə mərəkə olacaq. "Bizim pulumuza səfərə çıxan öz oğlumuz qudalarımıza da elə bizə gətirdiyindən gətirir, hələ üstəlik Spartakı da yaddan çıxartmır, heç belə müsibət olar?.."

Şəhərin içinə girmişdilər və Zaur gördü ki, çəhrayı "Volqa" sağa buruldu. Deməli, Firəngizin valideynləri öz evlərinin qabağında düşəcəklər. Bəlkə Firəngiz də onlara gedir – ata evinə...

Bəlkə ümumiyyətlə, Alya xanım Firəngizi Zaurdan boşatmaq fikrinə düşüb?.. Çünki yəqin ki, o biri maşında da Alya xanım eyni hadisələri, eyni hiddətlə, amma tamam başqa şərhlə bəyan edir... Bəlkəm o biri maşında söhbət nisbətən sakit gedirdi, axı hər halda, Spartakın dostu da – tamam yad bir adam da var idi orda... Amma ehtiraslar elə qızışmışdı, elə püskürürdülər ki, yəqin orada da doğmaya, yada məhəl qoyan yox idi... Bayaq təyyarədən düşəndə uzaqdan Murtuzovlar hər ikisinə – Zaura da, Firaya da eyni cür gülümsəyirdilər, amma yaxına gələndə məlum oldu ki, bu təbəssümlər yalnız qızlarına aid imiş. Zaurla ağızucu görüşdülər. Deməli, bəlkə, doğrudan da, elə Alyanın niyyəti onların nikahlarını pozmaqdır? "Bəs uşaq necə olacaq görəsən?" – deyə düşündü Zaur və özü də başa düşdü ki, "boş fikirdir", əlbəttə, heç kəs onları boşatmaq istəmir...

Evlərinə çatanda Zaur:

– Yaxşı axır kimdə qaldı açarlar? – deyə soruşdu.

Zivər xanım qürurla:

– Kimdə olacaq, əlbəttə, məndədir, – dedi.

Zaur çemodanları maşından çıxaran müddətdə Spartakın çəhrayı "Volqa"sı da gəlib çatdı və Fira da maşının içindəydi. Zaur, doğrudan, sevindi arvadının gəlməsinə... Spartak Zaura kömək elədi, şeyləri 8-ci mərtəbəyə qaldırdılar. Zivər xanım qapını açdı, dördü də mənzilə girdi... Zivər xanım amiranə bir tərzdə Spartaka göstəriş verdi:

– Çemodanları bax o küncə qoy. – O özünü evin sahibi hiss edirdi, istəyirdi ki, başqaları da bunu dərk etsin birdəfəlik.

Spartak:

– Yaxşı, mən gedim, – dedi. Spartak nə isə tamam başqalaşmışdı elə bil, yavaş danışırdı, həmişəki kimi səs-küylü deyildi və elə bil hətta gözlərinə də kədər çökmüşdü...

Zaur onu qapıyacan ötürdü, liftin düyməsini basdı, lift səkkizinci mərtəbəyə qalxmağa başladı. Spartak ona nə isə demək istəyirdi və Zaur yəqin bilirdi ki, nə demək istəyir, Spartak. Şübhəsiz, iki ailənin bu qarşılıqlı ədavət və nifrət toruna Spartak da düşmüşdü və bəlkə indi özü də istəmədən Zaura Alya xanımın, ya Murtuzun hansısa sözünü, hədəsini, ya təklifini, ya nə bilim, xəbərdarlığını çatdırmalıydı. Məcbur idi buna, ürəyində istəməsə də... istəməməyinə isə, açıq-aşkar görünürdü ki, istəmirdi, yoxsa bu qədər kədərli ifadə çökməzdi sifətinə, yazıq biçarə... Lift axır ki, gəlib çıxdı, qapısı açıldı. Spartak, nəhayət, iradəsini toplayıb boğuq səslə:

– Bilirsən, Zaur... – dedi. – Sənə demək istəyirdim... Təhminə... ölüb...

Liftin içinə girdi və əlavə etdi:

– Serroz... Qara ciyəri... İyirmi günün içində yandı getdi yazıq.

On səkkizinci fəsil

Yandı canım hicr ilə, vəsli-ruxi-yar istərəm,
Dərdimandi-firqətəm, dərmani-didar istərəm.

Heç bir vaxt təsəvvür edə bilməzdi ki, evlər, küçələr adamı bu qədər ağrıda bilər. Evlər, küçələr, maşınlar...

Bağın yanına buruldu, o bağın ki, iyun günü yaşıl "Moskviç"in içində Təhminəni gözləyirdi. Həmin o yerdə həmin rəngli "Moskviç" dayanmışdı – və elə bil parçalandı Zaurun ürəyi və hər şeyi birdən-birə xatırladı Zaur – burada, bax bu yerdə Təhminəni gözləməsini də, səbirsizliklə barmaqlarıyla sükanı döyəclədiyini də, o gün çəkdiyi siqaretin dadını da, hətta Təhminənin səsini də. Ağ düyməli qırmızı paltar geymiş Təhminə qəfilcən onu arxadan səsləmişdi. Əlində də çanta vardı, çantada da "Kamyu" konyakı, Zaurçün xüsusi gətirmişdi bu konyakı... Qapılarının qarşısındakı səki – haçansa Spartakın çəhrayı "Volqa"sı dayanmış səki – "Volqa"nın təkərini deşmişdi o gecə – səki

də eyni cür ağrıtdı Zauru. Telefon budkası da – elə həmin o gecə Təhminəyə bu budkadan zəng vurmuşdu, telefon cavab vermirdi, sonra isə bildi ki, telefon doğrudan da xarab olubmuş, çünki pulunu vaxtında verməyiblərmiş... Bu da trolleybus dayanacağı. Təhminə işə gedəndə həmişə bu dayanacaqda minərdi trolleybusa, Zaur da ötürərdi onu. Təhminə trolleybusun pəncərəsindən əl edərdi Zaura və Zaurun çox xoşladığı bir hərəkətlə saçlarını alnından atardı, gülümsünərdi.

Spartak Təhminənin ölüm xəbərini verəndən sonra bir müddət də liftin içində dayanmışdı, amma daha heç nə deməmişdi. Çünki söz qalmamışdı daha, qurtarmışdı bütün sözləri Spartakın da, Zaurun da. Nəhayət, Spartak liftin düyməsini basmışdı, liftin qapısı bağlanmışdı, lift aşağı enməyə başlamışdı. Zaur isə mənzillərinə qayıtmışdı, dəhlizdəki çemodanları, nədənsə, yataq otağına aparmışdı, yataq otağındakı çemodanları dəhlizə gətirmişdi. Bir neçə dəfə otaqdan otağa keçmişdi, nə isə götürmüş, nə isə qoymuşdu, sonra arvadına və anasına bir kəlmə demədən evlərindən bayıra çıxmışdı, liftlə deyil, pilləkənlə səkkizinci mərtəbədən aşağı düşmüşdü, küçənin tinində siqaret, dükandan kibrit almışdı və piyada Təhminəgilin evlərinə tərəf addımlamışdı... Hələ onda ağrını belə şiddətlə duymurdu, yaranın köynəyi vaxt keçdikcə artırdı və bu küçəyə, bu evə çatanda dözülməz olmuşdu. Zaur bu dözülməzliyin içindən keçib pilləkənlərlə – ona bu qədər tanış olan pilləkənlərlə, axırıncı dəfə əsəbi düşüb getdiyi pilləkənlərlə qalxmağa başladı. Və ancaq bu zaman birdən-birə qəti dərk elədi ki, Təhminə yoxdur və bir də heç vaxt olmayacaq. Bir də heç vaxt görməyəcək Təhminəni... Nədənsə, Spartak da başından çıxmırdı və bu anlar fikirləşirdi ki, bax indicə hansı yollasa bir sirr açılacaq və məlum olacaq ki, Təhminəylə Spartakın arasında heç vaxt heç bir şey olmayıb və Zaurun bütün şübhələri boş və əbəs imiş. Bu həqiqət o qədər aydın təsdiq olunacaq ki, Zaurun ağrısı, peşmançılığı birə-yüz artacaq. Özünü günahkar biləcək, Təhminənin isə heç bir günahı olmadığından Zaurun lap bağrı çatlayacaq, daha artıq iztirab çəkəcək: intihar etmək istəyəcək, hətta günahını yumaq üçün... Hardansa yadına düşdü ki, bir dəfə Təhminə onu Spartakgilin bağına aparmışdı və orada demişdi ki, bura gəlmələrinin bir səbəbi də var, Zaur bu səbəbi ya çox sonralar biləcək ya da heç bir vaxt bilməyəcəkdi. Bəlkə də bu səbəbi bax indicə, bir neçə andan sonra biləcəkdi Zaur və bu səbəb hər şeyi birdən-birə gün işığı kimi işıqlandıracaq, izah edəcəkdi və hər şey aydın olandan sonra Zaurun nəticə verməyən sonrakı peşmançılığı onun bütün həyatının sağalmaz dərdi-yarası olacaqdı...

Pilləkənin ikinci mərtəbəsində adamlar vardı, onlar tövşüyə-tövşüyə taxtaların içinə tablanmış iri şkafı qaldırırdılar, xəz yaxalıqlı qara palto geymiş kişi – yəqin ki, şkafın sahibiydi – hamballara göstəriş verirdi:

– Sola çevirin, bcləsinə keçməyəcək deyirəm sizə, soldan götürün, soldan. – Sonra Zauru gördü və ona müraciət elədi. – Keçmək istəyirsiz? – hamballara: – Yol verin, yoldaş keçsin, – dedi.

Zaur adamların arasından, şkafın yanından keçdi və xəz paltolu adam yenidən göstərişlər verməyə başladı:

– İndi bir az aşağıdan götürün, aha, bu tərəfini qaldır, ay qoçaq!

Zaur üçüncü mərtəbəyə qalxdı. Təhminənin qapıları taybatay açıq idi, qapının üstündə isə yenicə vurulmuş lövhəcik görünürdü: "Əməkdar mühəndis rasionalizator Q.Kərimov.

Qapıda vız başlı, ala-bəzək xalatlı bir qadın dayanmışdı – güman ki, əməkdar rasionalizatorun arvadı idi. Şkafı da görünür, təzə ev sahiblərinin mənzillərinə qaldırırdılar. Xəz yaxalıqlı palto geyinmiş adam yəqin elə mühəndis-rasionalizator Q.Kərimov idi ki, vardı... Zaur qeyri-ixtiyari açıq qapıdan içəri baxdı – və elə bil ürəyi həmin bu qapının arasında qaldı. Təhminənin boşalmış otağında ancaq bir neçə stul və stol vardı, – Təhminənin deyil, Kərimovların stolu, stulları. Nə qədim divar saatı, nə Təhminənin fotoları, nə balaca əncir ağacı – alpinistlərin hədiyyəsi qalmışdı, bircə oboylar həmin oboylar idi... Zaur çevrildi, qarşıdakı qapının ağzında dayandı və zəngi basdı.

Uşaq səsi gəldi qapının ardından, sonra hirsli qadın qışqırığı:

– Əşi, bir dayan görək də kimdi! – Uşağa qışqırırdı Mədinə. Qapı açıldı. Mədinə:

– Zaur, – dedi, çənəsi əsdi. Bir də təkrar elədi – Zaur, – və ağladı...

Zaurun göz yaşı yox idi. Hiss edirdi ki, ağlaya bilmir, amma haradansa, içinin dərinliklərindən boğazına qəhər qalxırdı, boğazında tıxanıb qalırdı.

Qorşokda oturmuş beşyaşlı toppuş uşaq, anasının ağlamasını görüb bir müddət matdım-matdım baxdı, sonra özü də bərkdən bəyirməyə başladı...

Qarşı qapıdakı xalatlı arvad təəccüblə onlara baxdı, sonra içəri keçdi və qapısını da örtdü. Mədinənin otağının yarıaçıq qapısından balaca televizorun ekranı görünürdü və bu da Zaurun yarasına duz basırdı elə bil. Zaur fikirləşdi ki, bir aydan artıq Təhminəgildə qalıb, Mədinəylə qonşuluqda yaşayıb, amma bir dəfə də Mədinənin evində olmayıb.

Mədinə paltarının ətəyiylə gözlərini silərək:

– Gəl içəri, – dedi.

Zaur içəri girdi. Uşaq hələ də ağlayırdı. Mədinə qorşokla birlikdə onu götürüb harasa apardı və sakit elədi. Zaur kiçik və köhnə televizorun sönük ekranına, otağın kasıb avadanlığına baxırdı – hiss olunurdu ki, bu otağın sahibi sıxıntı və ehtiyac içində dolanır... Uşaq, nəhayət, sakitləşdi və Mədinə yaş əllərini silə-silə otağa gəldi. Zaurun qabağında oturdu.

Zaur siqaret yandırdı, Mədinə:

– Haçan gəlmisən? – dedi. Zaura "sən" deyirdi, elə bil dərd onları yaxınlaşdırmış, bir-birinə doğma, məhrəm etmişdi.

Zaur:

– Bu gün, – dedi, – yarım saat bundan qabaq.

Uşaq:

– Mama, bəs biz haçan gedəcəyik? – dedi.

– Gedərik, gedərik, bala, görürsən əmi bizə qonaq gəlib, – sonra Zaura müraciətlə əlavə etdi, – səhərdən day zəhləmi töküb. Yapışıb yaxamdan ki, kinoya gedək... Heç mənim kinoya getməyə həvəsim var?

Uşaq ağlamsınıb:

– Bəs haçan gedəcəyik? – dedi.

– Gedərik, gedərik, get orda topla oyna, mən də gəlirəm indi.

Oğlan könülsüz otaqdan çıxdı və Mədinə:

– Belə işlər, Zaurik, – dedi. – Təhminə getdi əlimizdən... – və yenidən ağladı...

Zaur bilmirdi nə desin, neyləsin, Mədinəni ovutmalıydımı, ya onun özünü ovudan gərəkdir indi?

Nə isə demək xatirinə:

– Mənə Spartak xəbər verdi, – dedi.

Bəlkə, indi Spartakın adını çəkən zaman Mədinə birdən bir sirr açacaq və bu sirri bütün diri qalmış insanlardan yalnız tək bir Mədinə bilir. Və o zaman hər şey aydınlaşacaq, Zaur da belə bir səhv etdiyinə görə minqat artıq peşmançılıq çəkəcəkdi. Amma onu da bilirdi Zaur ki, Mədinə heç bir sirr-filan açmayacaq, çünki heç bir elə sirr-filan bilmir və əslində də, yoxdur yerli-dibli belə bir sirr... heç bir səhv də yoxdur, heç bir şey də yoxdur, hər şey necə vardısa eləcədir, bircə Təhminə yoxdur.

– Serroz, qara ciyərində, iyirmi günün içində tələf olub getdi. – Mədinə eynilə Spartakın sözlərini təkrar etdi. Sonra isə hər şeyi danışdı Zaura, bütün ağır təfərrüatlarıyla, fiziki ağrılar barəsində, şişlər barəsində.

– Heç ölmək istəmirdi yazıq. Xəstəlikdən qabaq tez-tez deyirdi ki, ölmək istəyirəm, sözdü də deyirdi, amma elə ki, doğrudan xəstələndi, ağrılar, əziyyətlər başlandı, xəstəxanaya düşdü və xəstəxanada da bildi ki, doğrudan da ölür, onda qaragün elə yalvarırdı ki, qurtarın məni, ölmək istəmirəm. Amma axıracan kişi qızı kimi mərd-mərdanə apardı özünü...

Uşaq yenidən otağa gəldi:

– Ana, bəs haçan gedəcəyik axı, kinoya?

Bu saat, bu saat, mənim göyçək balam, indicə gedəcəyik... Axır saatına qədər Muxtar gəlirdi yanına... Manaf da gəlirdi, necə yaxşı adam imiş Manaf, Zaur, heç bilməmişik vallah, bütün dəfn xərcini özü çəkdi, üç, yeddi də verdi, bu yaxında qırxıdır, amma day qırxını verə bilməyəcək, dəyişdilər də mənzili... Bir injener köçüb bura arvadıyla, bir çətən də külfəti var.

– Mama, gedək də...

– Bu saat, bu saat oğlum, qoy bir az əmiylə danışım, gedərik.

Zaur qalxdı və indi ayaq üstə danışırdılar.

– Görsən tanımazdın, Zaurik, elə arıqlamışdı ki, yazıq... Ağrılar yaman əziyyət verirdi, amma heç zarafatından da qalmırdı... Nə yaxşı oldu, deyirdi, heç kəs mənim qocalığımı, çirkinliyimi görməyəcək... Bir cavan göyçək oğlan müalicə edirdi onu. Ölümündən bir gün qabaq mənə dedi ki, heyif, belə göyçək oğlan məni ölü görəcək. Zarafat elədi ki, çılpaq görən olub məni, amma ölü görən olmayıb hələ, birinci bu cavan oğlan görəcək.

Zaur siqaretini söndürdü, yenisini yandırdı.

Mədinə:

– Zaur, otursana, – dedi, sonra dəhlizə tərəf boylanıb əlavə etdi, – deyəsən başı qarışdı orda, əl çəkdi bizdən. – Doğrudan da, uşağın daha səsi gəlmirdi.

Dayan, bu saat sənə çay gətirim, – dedi.

– İstəmirəm çay. Yenə danış ondan. – Zaur da Mədinəyə "sən" dedi. Mədinə indi onunçün on doğma, ən yaxın adam idi.

– Eh, ay Zaur nə danışasan... Elə bil heç yox imiş, heç nə də qalmadı bədbəxtdən. Amma bilirsən necə gözəl insan idi... Necə qızıl ki-

mi ürəyi vardı?.. Səni də yaman çox istəyirdi, Zaurik, indi istəməsin... Həqiqətdə istəyirdi... Sən gedəndən sonra bilirsən nələr çəkdi yazıq?

Zaur:

– Bilirəm, – dedi. – Bu barədə danışma.

– Başa düşürəm, sənə də ağırdır, əlbəttə. Amma sən hələ cavansan, bütün ömrün də qabaqdadır. Hər şey unudulub gedəcək ay Zaur, bu etibarsız dünyanın işi belədir.

Zaur:

– Bəli, – dedi, – elədir...

Mədinə fikrə getdi, sonra elə bil öz-özüylə danışırmış kimi:

– Amma yazığı nahaq incidirdilər, – dedi.

– Kim?

Mədinə bir az tutuldu, sonra:

Bilmirəm, – dedi, – yəqin sizinkilərdən idi kimsə. Acığın gəlməsin. Sən arvadınla səfərə gedəndən sonra kimsə ona gündə zəng vurardu. Hə, qarnıboş, deyirdi, nə oldu, hıçqırığın içində qaldı? Kələyin baş tutmadı? Zaurun arvadı hamilədir, uşaqları olacaq.

Mədinə Zaurun sifətinə baxdı, sərmərdi və tələsik:

– Yox, anan deyildi, – dedi. – Ananın səsini tanıyırdı Təhminə, kimsə başqa adam idi.

Zaur: "Alya? – deyə düşündü. – Axı, Alya onda bilmirdi ki, bizim uşağımız olacaq. Bu yalan hardan gəlibmiş ağlına?"

– Doğrudan, yəni bir şey var? – Bu sualı Mədinə artıq sırf qadın marağıyla verirdi.

Zaur qızardı və bir an ona elə gəldi ki, Təhminəymiş onun əsil arvadı, indi Firəngizdən olacaq uşağı Təhminəyə xəyanətdir.

– Xəstəxanada da tez-tez səni yadına salırdı... Lap axır gününəcən...

– Nə deyirdi?

Mədinə gülümsündü:

– Deyirdi ki, Zaur məni satdı onlara.

Kimə onlara?

Mədinə çiynin çəkdi:

– Nə bilim, elə beləcə deyirdi onlara...

Uşaq yenə otağa qayıtdı:

– Mama, haçan gedəcəyik bəs?

– Bu saat, bu saat, mənim göyçək balam.

Dəhlizə çıxdılar.

Mədinə:

– Spartak sağ olsun, – dedi, – o qədər köməyi dəyirdi ki, dərman lazım olurdu yerin dibindən tapırdı, hansı həkim lazım olurdu, öz maşınında gətirib aparırdı.

Zaur:

– Ayın neçəsində keçindi? – deyə soruşdu.

14-də...

"Hansı ölkədəydik bu gün görəsən", – deyə düşündü. Zaur, yadına sala bilmədi.

Qapıda:

– Çox sağ ol, Mədinə, – dedi.

Niyə sağ ol deyirsən axı?

– Mama, yaxşı, daha gedək də, əmi də gedir.

– Bu saat, gedirik, – birdən Mədinənin yadına nə isə düşdü, – tamam yadımdan çıxmışdı, sənə kağız qoyub axı.

– Kağız? – Zaurun ürəyi şiddətlə döyünməyə başladı: bəlkə bu idi sirrin açarı, bu kağız hər şeyi izah edəcək, hər şeyi aydınlaşdıracaqdı bəlkə? Mədinə otağa keçdi və bir azdan iki kiçik kağız parçasıyla qayıtdı. Kağızların biri qəbz idi, Zaur göron kimi xatırladı – Moskvada küçəni səhv keçdikləri üçün serjant Trofimov onları cərimə etmiş, qəbz vermişdi. Mədinə ikinci kağızı uzadaraq:

– Ölümündən iki gün qabaq duxularının sirrini yazıb bura. Xahiş elədi ki, sənə verim: "Qoy Zaurun arvadı bu ətirləri vursun", dedi, "onda Zaur məni xatırlayacaq hər dəfə".

Zaur karandaşla yazılmış kağız parçasını cibinə qoydu. Mədinəylə görüşdü və yavaş-yavaş pilləkənlərlə düşməyə başladı. İndi də pilləkənlərlə üçüncü mərtəbəyə piano qaldırırdılar və əməkdar mühəndis yenə göstərişlər verirdi. "Ehtiyatlı olun, bu pianinodur axı, belə kobud yerə vurmayın da, ehmallıca qoyun. – Zaura baxdı: – Keçmək istəyirsiz? – dedi. – Yol verin, cavan oğlan keçsin..."

Zaur bir də çevrilib Təhminənin qapısına baxdı, qapı yarıaçıq idi. Pilləkənləri düşməyə başladı, bilirdi ki, ömründə bir daha heç vaxt bu pilləkənlərlə qalxmalı olmayacaq.

Amma bilmirdi ki...

EPİLOQ

Öylə sərməstəm ki, idrak etməzəm dünya nədir,
Mən kiməm, saqi olan kimdir, meyü-səhba nədir.
Gərçi canandan dili-şeydam üçün kam istərəm,
Sorsa canan bilməzəm kami-dili şeyda nədir.
Hikməti – dünyəvü mafiha bilən arif deyil,
Arif oldur bilməyə dünyəvü mafiha nədir.

...bilmirdi ki, Təhminəni bir də görəcək ömründə... Bilmirdi ki, bir axşam Təhminənin səsini eşidib diksinəcək, televizorun qabağına qaçacaq və ekranda görəcək Təhminəni – həmin o Moskva verilişinin videoyazısını verirdilər. Həmin o verilişdə Təhminə Zauru ad günü münasibətilə təbrik etmişdi, təbriki kəsmişdilər, amma Təhminənin Zaura həsr etdiyi hərəkəti – əliylə alnından saçlarını atması qalmışdı. O axşam Təhminənin ölüm xəbərini bildiyi günün axşamı – Bakıya gəldikləri ilk axşam Zaur öz-özünə söz vermişdi ki, qızı olsa adını Təhminə qoyacaq. Bilirdi ki, ailədə narazılıq, söz-söhbət olacaq bunun üstündə, vaxt keçdikcə bu niyyətinin çətinliyindən qorxurdu Zaur və bilmirdi ki, doğrudan da, qızı olsa vəziyyətdən necə çıxacaq, özözünə verdiyi sözün üstündən keçmək də istəmirdi bir yandan, artıqoskik söhbətlərdən, qeybətlərdən, dedi-qodulardan da qorxurdu. Xoşbəxtlikdən oğlu oldu və uşaq olmamışdan iki ay qabaq Firəngizin atası Murtuz rəhmətə getdiyi üçün oğlanın adını Murtuz qoydular, Murtuz Balayeviç infarktdan öldü, çünki Spartak tutulandan sonra kişinin lap beli qırılmışdı. Spartak valyuta məsələlərində ilişmişdi, beş il kəsmişdilər Spartaka və məhkəmənin bu qərarından sonra bütün Murtuzovlar ailəsinin, o cümlədən də Alya xanımın tamam tası yatmışdı və Zivər xanım da ürəyində sevinirdi ki, qudasıgilin əməlli-başlı burunları ovulub.

Zaur indi öz valideynləriylə az-az görüşürdü. Murtuzovgilə isə ildə-ayda bir baş çəkirdi, amma Alya uşaq olandan sonra qızı Firəngizə çox kömək elədi. Zaur bir müddət geoloji ekspedisiyada oldu, sonra Bakıya qayıtdı və atasının köməyiylə nazirlikdə işə düzəldi. Zaur artıq dəqiq bilirdi ki, heç bir vaxt dissertasiya-filan yazası deyil, odur ki, nazirin referenti vəzifəsini təklif edəndə ona məmnuniyyətlə razılaşdı. Bu iş Zauru yeni çevrəyə daxil elədi və ona indi qəribə gəlirdi ki, haçansa cavanlıq vaxtlarında bu sayaq vəzifələrə rişxənd edərdi. Ya-

dındadır, haçansa Zaur başqa bir nazirin köməkçisi vəzifəsində işləyən bir dostunu lağa qoyardı. Dostu deyəndə ki, "sabah kişiylə Moskvaya uçuruq", Zaur həmişə elə təsəvvür edirdi ki, dostu Moskvaya nazirin çemodanını daşımağa gedir. Ona elə gəlirdi ki, dostu nəinki nazirin çemodanını, hətta, nazir arvadının hamam boğçasını da daşıyır. Niyə belə düşünürdü – məlum deyil, axı, təbii ki, nazirin arvadının heç bir hamam boğçası-filan yox idi, çünki hamama getmirdi, özlərinin vannaları vardı, ona nə gəlmişdi ki, hamama getsin? Həm də boğçayla?.. Bəlkə bu təəssürat ondan doğmuşdu ki, Zaur bir dəfə həmin dostunu bazarda görmüşdü – nazirgilə bazarlıq edirdi. Zaur özü də təbii ki, heç bir çemodan-zad daşımırdı, bazarlıq-filan etmirdi, amma hərdən o da görürsən öz naziriylə Moskvaya gedirdi. Nazir sinli kişi idi, hərdən görürsən çox nəzakətli bir tərzdə Zaurdan xahiş edirdi ki, mehmanxanada onun yanında qalsın, lazım olanda növbətçidən çay dəmlədib gətirsin və bəzən nazir Qosplanda mühüm iclasa başı qarışanda Zaurdan onu da rica edirdi: madam boşsan, bir mağazaları gəz. Arvadının və qızının verdiyi siyahıya əsasən xırım-xırda şeylər almaq tapşırırdı. Təbii ki, pulunu da verirdi.

Nazirin arvadı da çox mədəni və nəzakətli xanım idi. Zaurla hörmətlə danışırdı həmişə, çalışırdı ki, heç bir tövrlə onun izzət-nəfsinə toxunmasın, amma əlacsız qalanda bir-iki dəfə Zaurdan xahiş eləmişdi, usta tapıb gətirsin, vannalarının xarab olmuş kolonkasını düzəltdirsin, çünki ərinin başı elə qarışıqdır ki, ev işlərinin qeydinə qalmağa heç cür macal tapa bilmir. Zaur başa düşürdü hər şeyi, amma əslində elə onun özünün də işi başından aşırdı, nazir üçün müxtəlif kağız-kuğuzlar, sənədlər, vəsiqələr düzəldirdi, qəbula yazılmışları yola verirdi, nazirə gələn məktubları seçib sahmana salırdı, nazirin imzasıyla cavablar hazırlayırdı. Tez-tez nazirlə rayonlara gedirdilər, gündüz işlərini qurtarandan sonra axşam tərəfi qonaq evində rayon rəhbərlərinin iştirakıyla keçirdikləri xudmani məclislərdə nazir azacıq içməli də olurdu və balaca dəmlənəndə Zaura "sən" deməyə başlayırdı. Həmişə rəsmi danışan bu sərt və quru kişinin elə bil çiçəyi çırtlayırdı, südü daşırdı. Zaura: "sənin işindən razıyam, – deyirdi, – bir neçə il də işlə, sonra səni pərvazlandırıb uçurdacam", – deyirdi və əlavə edirdi ki, "sənin haqqında lazımi yerlərə də məlumat vermişəm, vaxt gələr, yaxşı müstəqil işə keçərsən..."

Amma bədbəxtlikdən günlərin bir günü hörmət və ehtiramla pensiyaya göndərdilər naziri. Yeni nazir nisbətən cavan idi, iş başına ke-

çəndən bir müddət sonra yavaş-yavaş əvvəlki nazirin adamlarını təmizləməyə başladı və Zaura da qandırdı ki, onun yerinə başqa namizədi var. Zaur ərizəsini verdi və bu vaxta atası Məcid də artıq dünyadan köçdüyü səbəbdən yaxşı bir iş tapa bilmədi özünə. Ancaq Dadaşın mərhəməti sayəsində yenidən həmin o nəşriyyata – köhnə yerinə qayıtdı... Zaurun bir uşağı da oldu – bu da oğlan idi, iki ildən sonra üçüncü oğlu da oldu və üç ildən sonra axır ki, qızı gəldi dünyaya. Zivər xanım bu qız nəvəsini görə bilmədi, uşağın dünyaya gəlməsindən on gün qabaq rəhmətə getdi və qızın adını Zivər qoydular... Üç ildən sonra Alya xanım da öldü, otuz ildən sonra onların çevrəsindəki adamlardan Dadaş, Səfdər dayı, Tahirə, Cabbar artıq yox idilər dünyada. Muxtar da yox idi. Təhminə ölən il onun idarədə nə isə davası olmuşdu, köçüb bir müddət Moskvada yaşadı, orada işi pis gətirmirdi, sonra nədənsə yenidən Bakıya qayıtdı və avtomobil qəzasına düşüb həlak oldu... XX əsrin axırına onların çevrəsindəki adamlardan Nemət, Sürəyya, Zaur və Firəngiz sağ idi. Spartak da beş ilini çəkib çoxdan çıxmışdı azadlığa və türmədən çıxandan sonra tamam başqa adam olmuşdu, dəyişmişdi. Bəli, bizə tanış olan bu adamlardan sağ qalanları – Nemət, Sürəyya, Zaur, Firəngiz, Spartak bir gün yığışmışdı hamısı bir yerə nəyisə qeyd eləməyə, deyəsən, Murtuzun – Zaurun oğlu Murtuzun ad günüydü. Bəlkə də yox, heç ad günü deyildi, bəlkə də o vaxt, yəni XX əsrin axırlarında ad günlərini qeyd etmək heç dəb olmayacaq, kim bilir? Hər halda müəllif ki, bunu dəqiq bilmir və müəllif onu da bilmir ki, o vaxt kitab oxuyacaqlarmı, sevəcəklərmi, öləcəklərmi, yaxud bir üsul tapıb ölümdən yaxalarını qurtaracaqlarmı insanlar? Ölümsüzlük qazanacaq və bu ölümsüzlüyün öhdəsindən nə sayaq qurtarmağın fikrini çəkəcəklər? Nə isə əlqərəz, bir gün yığışmışdılar bütün bizim diri qalmış qəhrəmanlarımız, yaxşıca nahar edib nərd atırdılar (dadlı naharlar və nərd, şübhəsiz, o vaxt da olacaq) və söhbət arası kimsə birdən Təhminəni yada saldı. Nemət idi, deyəsən Təhminəni yada salan, dedi ki, bu gecə qəribə yuxu görmüşdüm, heç ağlıvıza gəlməz kim gəlib girmişdi yuxuma – Təhminə. Bəli, Təhminə, özü də o vaxtkı yaşında, cavan, hamımızın yadında necə qalıbsa, bax o sayaq – gözəl, yaraşıqlı, cazibədar... Bu sözün üstündən Spartak dedi ki, qəribədir, bu günlərdə küçədə bir qadına rast gəlib, elə bil Təhminəylə iki almadır tən bölünüb. Əgər Spartak qəti bilməsəydi ki, Təhminənin uşağı-zadı yoxdur, and-aman eləyərdi ki, yəqin qızıdır, adam da adama bu qədər bənzəyərmiş. Ən qəribəsi də odur ki, həmin o qadın bu-

günkü çağın dəbiylə deyil, Təhminənin cavanlıq illərindəki dəblə geyinib-gecinmişdi, yalançılar sözü, lap elə bil Təhminənin ovaxtkı paltarlarından birini keçirmişdi oyninə... Nemət dedi ki, yəqin insanlar ölərkən birdəfəlik ölmürlər, tamam yox olmurlar, nə qədər ki, onları xatırlayan, onların səslərini, sifətlərini yaddaşında saxlayan adamlar durur, bu ölənlər də hələ yaşayırlar – fikirlərdə, xəyallarda, təsəvvürlərdə yaşayırlar. Biz də yəqin Təhminəni xatırlayan axırıncı adamlarıq, sonuncu nəsilik.

Bu sözlər yaman beyninə batdı Zaurun, amma döymədə Spartaka iki tas uduzub unutdu bu fikri... Zaur bilmirdi...

***

Xəyalilə təsəllidir, könül meyli vüsal etməz
Könüldən dişrə bir yar olduğun aşiq xəyal etməz.

...bilmirdi ki, bir qədər də keçəcək və bir axşam, yağışlı bir axşam, yağışlı payız axşamlarının birində, qüssəli, yağışlı payız axşamlarının birində beli bükülmüş, sinli bir kişi avtobusdan düşəcək. Qoltuğunun altında nimdaş portfeli olacaq bu kişinin – portfelin içində kağızlar, çörək, kolbasa, pendir, bir də gündəlik qayğıları olacaq. Bəlkə kişi tindəki köşkün qabağında ayaq saxlayacaq, qəzet alacaq... Bəlkə yadına düşəcək ki, siqareti, kibriti qurtarıb, satıcıya pul verəcək (əlbəttə, əgər o vaxtlar pul hələ işlənəcəksə), siqaret alacaq, pulun qalığını hesablamadan cibinə atacaq. Sonra yavaş-yavaş evinə tərəf addımlayacaq... Televizorun (ya o zaman televizorlar olmayacaq, qoloqraflar olacaq, kim bilir) axşam proqramı haqqında, sabahkı işləri haqqında düşünəcək. Düşünəcək ki, oğluna çəkmə almalıdır, qızına palto, arvadına plaş və öz plaşını da təmizlənməyə verməlidir... Düşünəcək ki, qaz plitəsini təmir etdirmək və dama qır saldırmaq lazımdır, yayda kurorta getmək üçün pul yığmaq lazımdır (əgər o vaxtlar pul işlənəcəksə hələ). Düşünəcək ki, təzə müdirlə heç dil tapa bilmir, düşünəcək ki, hava yaman pisdir və düşünəcək ki, çox mənasız bir ömür sürüb bu dünyada.

Birdən diksinəcək: ona elə gələcək ki, küçənin o tərəfindən gənc bir qadın buruldu tini və dərhal da qeyb oldu... və bu qadının uzaq kölgəsi qəfil külək kimi onun ürəyinin içində əsəcək, unudulmuş bir qoxunu gətirəcək onun xəyalına... və qocanın qəlbində – dünyada ən basılmaz qüvvə olan bir hiss – ümid oyanacaq. Ümid bir anlığa çoxdan ötüb keçmiş gəncliyinin bütün şirin-acılarını qaytaracaq ona və sevdiyi

butün qadınlar okeanda itmiş uzaq adalar kimi gəlib keçəcək gözlərinin önündən. Keçib gedən kölgəni haqlamaq, tutub saxlamaq istəyəcək, amma dərhal da bu fikri başından qovacaq və aramla yoluna davam edəcəkdir. Tinə çatanda dayanacaq ki, nəfəsini dərsin, çünki bu yoxuş lap adamın kələyini kəsir. Öz-özünə kənar şeylər haqqında düşünməyi qadağan edəcək, ancaq axşamkı televerilişlər (yaxud qoloverilişlər) haqqında, hava haqqında və belindəki yel xəstəliyi haqqında fikirləşməyə icazə verəcək... Lap onun böyründən vıyıltıyla keçən motosiklet yağış gölməçəsini onun üstünə çıldırladacaqdır. Motosikletdə isə cavan oğlanla cavan qız oturacaqlar, qız oğlanın boynunu bərk-bərk qucaqlayacaqdır və qoca kişiyçün həmişəlik qırmızı görünən işıqfor cavan motosikletçilər üçün yaşıl çırağını yandıracaqdır... Nə biləydi qoca.

***

Həq bilir, yar deyil, canü-dilimdən qaib
Nola gər qaib isə dideyi-giryanımdan.

...Nə bileydi Zaur ki, bir neçə gün də keçəcək, bəlkə də bir neçə ay keçəcək, il keçəcək və Zaur yenə də günlərin bir günündə – daha buna heç şəkk-şübhə ola bilməz – yenə də günlərin bir günündə Təhminəni görəcək... Onlar az qala sifət-sifətə toqquşacaqlar – Zaur və Təhminə... Təhminə Zauru görüb gülümsünəcək – həmin o ağ düyməli qırmızı paltarında olacaq Təhminə, həmin o otuz il bundan qabaqkı paltarında və belə məlum olacaq ki, vaxtın Təhminəyə heç bir dəxli yoxdur – heç dəyişməyib Təhminənin nə sifəti, nə bədəni, nə yaşı... Otuz il əvvəlki təkin gülümsünəcək Zaura və Zaur da dili-dodağı titrəyə-titrəyə Təhminənin adını çəkəcək, amma adını çəkən kimi Təhminə çevriləcək, küçədəki adamlara qarışıb itəcəkdir. Bir az sonra Zaur onu metronun qabağında görəcək, dalıyca qaçacaqdır və yenidən görəcəkdir Təhminənin qırmızı paltarını metro vaqonunun içində... Qapıları bağlanmış, hərəkətə gəlmiş qatarın pəncərəsindən Təhminə ona əl eləyəçək, gülümsünəçək və Zaur o biri qatara minib dalınca gedəcəkdi. Daha Təhminəyə çatacağına ümidi olmayacaq, amma gələn dayanacaqlarda metrodan düşəcək. Bütün perronu ələk-vələk edəcək, eskalatorla yer üzünə çıxacaq, küçədə ora-bura döyükəcək və nəhayət, bir daha görəcəkdi onu – yeni mehmanxanaya girən vaxt görəcək... Dalıyca ora qaçacaq və görəcək ki, elə bu dəm Təhminə liftin içinə girdi. Zaur liftin qapısına tərəf atılacaq, amma qapılar bu vaxt bağlanacaq, Zaur divardakı işıq tablosuna baxacaq – tabloda liftin hərəkəti görünəcək – mərtəbələrin rəqəmləri bir-birini təqib edəcək – 2, 3, 4, 5, 6. Lift altıncı mərtəbəyə çatıb dayanacaqdır. Zaur düyməni basacaq və lift yenidən birinci mərtəbəyə qayıdacaq, tabut kimi ağır və əzəmətlə gələcək Zaurun qabağına; qapılar açılacaq, Zaur liftin içinə girəcək, altıncı mərtəbənin düyməsini basmaq istəyəcək və bu zaman məlum olacaq ki, altıncı mərtəbənin düyməsi yoxdur, çünki heç altıncı mərtəbənin özü də yoxdur, ev beşmərtəbəlidir. Çöldəki işıq tablosunda da yox imiş altıncı mərtəbə, Zaurun gözünə görünübmüş bu rəqəm. Zaur and içə bilərdi ki, lift məhz altıncı mərtəbəyə qalxmışdı. Hər halda beşinci mərtəbəyə qalxacaqdı Zaur, növbətçini sorğu-suala tutacaqdı, növbətçi də deyəcəkdi ki, heç bir qırmızı paltarlı qadın görüb eləməyib. Zaur bütün mərtəbəni gəzəcək, axtaracaq, sonra isə yanğın nərdivanıyla dama qalxacaqdı. Damda isə gözəl may gecəsindən, ulduzla dolu səmadan, eşqbazlıq edən pişiklərdən başqa heç nə və heç kim yox idi; təzəcə basılmış qırın iyi gəlirdi, vəssalam...

Bu qəribə və izahsız vaqiədən başqa Zaurun həyatında ömrü boyu heç bir əcaib, qəribə, anlaşılmaz hadisə olmamış və olmayacaqdı: işi, ailəsi, uşaqları, dostları, tanış və qeyri-tanış adamlar vardı Zaurun həyatında, onlar doğulurdu, ölürdü və bir də qəbiristanlıq vardı, bu qəbiristanlıqda qərib bir məzar vardı və məzarın üstündə Təhminənin adı, famili və 1941-1965 rəqəmləri yazılmışdı. Mədinənin, Manafın və Muxtarın ölümündən sonra daha bu qəbrin üstünə heç kos gəlmirdi...

***

Tutuşdu qəm oduna şad gördüyün könlüm,
Müqəyyəd oldu ol azad gördüyün könlüm.
Nə gördü badədə bilməm kim oldu badəpərəst.
Müridi-məşrəbü zöhhad gördüyün könlüm.
Füzuli eylədi ahəngi – eyşxaneyi Rum.
Əsiri-möhnəti-Bağdad gördüyün könlüm.

Səhər saat yeddidə dəmiryol vağzalının bufetində oturmuşdular, şirin çaxır içirdilər, boyat çörəklə, qupquru qurumuş holland pendiriylə yavanlıq edirdilər. Məmməd Nəsir Zaurun söhbətinə diqqətlə qulaq asıb soruşdu:

– Neçənci mərtəbəyə qalxdı?

Zaur:

– Altıncıya, – dedi – başımı verərəm ki, səhv etmirəm, öz gözlərimlə görmüşdüm 6 rəqəmini... Amma bina da beşmərtəbəlidir axı...

Məmməd Nəsirin yaşı həştadı çoxdan keçmişdi, amma hələ də gümrah idi və allahın var günü səhər tezdən bir-iki stəkan "Ağdam" portveyni vurardı bədənə. Doğrudur, indi əvvəlkindən çox-çox az içərdi, amma ovvəlki təkin mütəmadiyən hər gün içərdi... Axır vaxtlar tez-tez Zaurla içərdilər – illər keçdikcə onların yaş fərqləri itib getmişdi və indi kənardan baxan elə güman edərdi ki, iki qoca şorab içə-içə ötən günləri, keçmiş xatirələri yada salır, nəşriyyatda birgə keçmiş uzun ömürlərindən söhbət edirlər...

Zaur bir də təkrar etdi:

– Bina axı beşmərtəbəli idi...

Məmməd Nəsir uzun müddət harasa baxdı, gözləri yol çəkdi, elə bil baxışlarıyla divarı deşib harasa çox-çox uzaqlara baxırdı, sonra qəfildən belə bir kəlam bəyan etdi:

– Əgər adamlar başa düşsəydilər ki, beşmərtəbəli binanın altıncı mərtəbəsi də ola bilər, onda nə vardı ki...

1974-1978
Bakı-Moskva-Göyçay

